7




# İLAHİ PEYĞƏMBƏRLƏRİN TARİXİ (II)

*Din təlimləri silsiləsindən*

*BİSMİLLAHİR-RƏHMANİR- RƏHİM*

# İLAHİ
# PEYĞƏMBƏRLƏRİN
# HƏYATI

İman mədəni-maarif müəssisəsi

XIV FƏSİL

# Əyyub(ə)

Qur‘anın surələrinin dördündə həzrət Əyyubun(ə) adı zikr olmuşdur. O pərvərdigarın səbr və dözümlülükdə nümunəvi olan böyük peyğəmbərlərindəndir. Onun adı vəhy olmuş peyğəmbər sırasında qeyd olmuşdur. Allah taala buyrur: -”İbrahim, İsmail, Yəqub, Əsbat, İsa, Əyyub, Yunus, Harun və Suleymana vəhy etdik.” (“Nisa” surəsi, 163-№Ї ayə).

Allah taala Qur‘ani Kərimdə dünyadakılara üstünlük verdiyi adamların arasında Həzrət Əyyubun adını çəkərək belə buyurur: -”Onun (İbrahimin) nəslindəndir. Davud, Süleyman, Əyyub, Yusif, Musa və Harun. Və biz yaxşı əməl sahiblərinə belə mükafatlandırıq. Zəkəriyya, Yəhya, İlyas və hamısı layiqlilərdəndir. İsmail, Yəsə, Yunus və Lut hamısını dünyadakılardan üstün etdik. (“Ən‘am” surəsi, 85-№i ayə).

Eləcədə Qur‘ani Kərim bir neçə peyğəmbərin qısa olsa da dastanına işarə etmiş, o cümlədən Musa, Harun, İbrahim, İshaq, Yəqub, Davud və Süleyman peyğəmbərin adını çəkmək olar. Əyyubun haqqında isə buyurur: -”Əyyub bir vaxt Rəbbinə yalvarıb dua edərək belə demişdi: -”Mənə bəla üz verdi (Sənə pənah gətirdim). Sən rəhmlilərin ən rəhmlisisən! Biz (Əyyubun) duasını qəbul buyurduq, onu düçar olduğu bəladan (xəstəlikdən və ailəsinə üz vermiş müsibətdən) qurtardıq. Dərgahımızdan (Əyyuba) bir rəhmət və (Allaha) ibadət edənlərə ibrət dərsi (öyüd-nəsihət) olsun deyə, (həlak olmuş) övladlarını qaytarıb ona verdik, üstəlik bir o qədər də əlavə etdik”.

“Sad” surəsində 42-ci ayədən sonra o həzrətin dastanını daha artıq şərh edib buyurur: Bizim bəndəmiz Əyyubu xatırla o zaman pərvərdigarını səsləyib Şeytan məni çətinlik və əzaba salmışdır (dedi). Bu ayənin ardınca pərvərdigar onun duasının qəbul olması, salamatlığını qaytarması, xəstəliyinin yox olmasını belə nəql edib buyurur ki, biz ona dedik: Ayağını yerə vur ki, bu (bulaq) sərin yuyunma və içməlidir. Daha sonra “Ənbiya” surəsində o həzrətin ailəsini ona qaytarmasını olduğu kimi bəyan edir. Bu zaman həyat yoldaşı haqqında içdiyi andını xatırlayıb (inşallah sonradan şərh olunacaq) qısa şəkildə nəql etmişdir. 45-ci ayənin sonunda buyurulur: -”Biz onu səbir edən tapdıq; nə gözəl bəndə idi! O, tövbə edən (bizim tərəfimizə qayıdan) idi.”

## Rəvayət və tarix nəzərindən

Rəvayət və tarixə gəldikdə isə bir qədər ixtilaf gözə çarpır. O cümlədən:

1) Onun nəsəbi haqqındadır. O, ya İbrahimin nəslindən olub, Eysin övladlarındandır, ya da İbrahim və Yəqubla müasir olmuşdur. Bu iki fikir barəsində ixtilaf vardır. Bəziləri də onu İbrahimin zəmanəsindən qabaq olmasını, hətta yüz il ondan qabaq yaşamasını demişlər. Əbdül Vəhhab Nəccar “Qisəsul-Ənbiya”da bu fikrə üstünlük vermişdir. Amma tarixçilərin bir çoxu o cümlədən Məsudi və başqaları onu İbrahimin nəslindən, Eysin övladlarından olmasını demiş, o həzrətin nəsəbini belə qeyd etmişlər: Əyyub ibn Movs ibn Rəzzah ibn Rəvail ibn İshaq ibn İbrahim(ə)-dır.

2) İkinci ixtilaf o həzrətin vətəni barəsindədir. Bəziləri onun vətəninin Yəməndəki “Ovs”da olduğunu qeyd etmişlər. Yaqut Həməvi “bəsnə” kəlməsinin açıqlanmasında deyir: -”Bəsnə -Dəməşqə aid olan ərazilərdəndir”. Bəzisinin dediyinə görə isə Dəməşq və Əzrüat arasında yerləşən bir kəndin adıdır. Həzrət Əyyub da həmin kənddəndir. Təbəri yazır: Bəsnə və Şam ərazisinin hamısı Əyyubun olmuş, bu barədə heç kəs onunla şərik olmamışdır.

3) O həzrətin həyat yoldaşı (Qur‘anda onun haqqında qısa şəkildə danışılmış, rəvayətlərdə isə geniş bəhs etmişlər) bəzilərinin nəzərinə görə Yəqubun qızı –Liya, yaxud İlya olmuşdur. Başqaları onu Mişa ibn Yusifin qızı Maxir, bəziləri isə Əfraim ibn Yusifin qızı Rəhimə olmasını qeyd etmişlər. Əbdül Vəhhab Nəccar birinci nəzəri rədd edərək deyir: -”Yəqubun Liya adında qızı olmamışdır”.

həzrətin cürbəcür bəlalara düçar olması

Qur‘an və rəvayətlərdən qəti şəkildə söyləyə biləcəyimiz odur ki, həzrət Əyyub böyük ilahi peyğəmbərlərdən biri olmuşdur. Allah taala ona çoxlu mal və qüdrətli övladlar vermiş, daha sonra onu sınaqdan çıxarmaq, dözümünü yoxlamaq üçün onların hamısını onun əlindən almış, özünü isə ağır xəstəliyə düçar etmişdi. İmtahan və bəla dövrü bitdikdən sonra Əyyubun göstərdiyi heyrətamiz

səbrə görə Allah taala bütün mal-dövlət və övladlarını, hətta ondan da artığını ona qaytardı. Bundan əlavə onun dözüm və səbrini başqalarına nümunə olaraq nəql etdi.

Şeyx Koleyninin İmam Sadiqdən(ə) nəql etdiyi rəvayətdə həzrət buyurur: -"Qiyamət günündə günaha aludə olmuş gözəl bir qadını hesab üçün gətirərlər. O qadın Allahın dərgahına belə ərz edər: -"Pərvərdigara, Sən məni gözəl yaratdın mən də günaha düşdüm!"

Bu vaxt Məryəmi(ə.s) gətirib deyərlər: -"Sən gözəl idin, yoxsa o? Biz onu gözəl yaratdıq (amma o, qeyri-adi gözəlliklə) günaha düşmədi. Həmçinin gözəlliyinə görə günaha düşmüş bir kişini gətirərlər, (o da günaha düşməsinə səbəb olaraq gözəlliyini bəhanə gətirib) deyir: -"Pərvərdigara, məni gözəl yaratdığın üçün qadınlarla günaha düşdüm (onun bəhanəsini kəsmək üçün) Yusifi gətirib ona deyərlər: -"Sən gözəl idin, yoxsa o? Biz onu (bu qədər) gözəl yaratdıq, (bununla belə) günaha aludə olmadı." Daha sonra cürbəcür bəlalara düçar olub günaha düşmüş bir nəfəri gətirərlər. O da (günahına belə bəhanə gətirərək) deyər: -"Pərvərdigara, mənim bəla və giriftarçılığımı çətin etdiyin üçün (günaha) mübtəla oldum." Bu vaxt həzrət Əyyubu gətirib deyərlər: -"Sənin bəla və giriftarçılığın çətin idi, ya onun? O da (ağır) bəlalara düçar oldu, amma sapmadı (bəndəlik yolundan çıxmadı)."

Əyyubun bəlalara düçar olması barəsində rəvayətlərdə qeyd olunan bəzi məqamlar şəriət, əql və məzhəb əsilləri ilə də əsla uyğun gəlmir. Ehtimal üzrə onların əsası ya bu günü Tövratdan götürülmüş, ya da təqiyyə üzündən sünnülərin nəzəri ilə müvafiq deyilmişdir. Elə buna görə də şiənin əziz imamları(ə) bəzi başqa rəvayətlərdə onları rədd etmişlər. Biz o həzrətin həyatını qeyd edərkən əvvəlcə sünnülərdən olan bəzi təfsirçilərin, o cümlədən, Vəhb ibn Münəbbin, Tövratın Əyyuba aid olan hissəsində olan söhbətləri açıqlayacaq, onların sözünə müvafiq olan bəzi rəvayətləri xülasə şəkildə nəql edəcək və daha sonra haqq məzhəbinin təhqiq olunmuş nəzəriyyəsini sizə çatdıracağıq. Onlar deyirlər: -"Əyyub rumlu bir kişi idi. Onun nəsəbi: Əyyub ibn Əmvəs ibn Razix ibn Rum ibn Eys ibn İshaq ibn İbrahim. Anası isə Lutun qızı idi. Mütəal Allah ona cürbəcür nemətlər vermişdi. Heç kəsin onun qədər dəvəsi, inəyi, atı, qoyunu, ulağı və başqa mal-dövləti yox idi. Təkcə əkin sahələrini şumlamaq üçün beş yüz cüt öküzü vardı. Hər cütün də ayrıca baxanı vardı. Bu baxanların hamısı da nökər idi ki, hər biri külfət sahibi idi. Bəziləri onun yük daşıyan dəvələrinin sayını üç min, qoyun sürülərinin isə yeddi min olduğunu qeyd etmişdir.

Nəql olunduğuna görə, Əyyubun bəlalara mütbəla olmasının səbəbini əmr be mərum və nəhy əz münkəri tərk etməsi olmuşdur.

İbn Əsir "Kamilut-təvarix"də hadisəni belə nəql edir: O həzrətin bəlaya düşməsinin səbəbi, belə olmuşdur: Şamda quraqlıq baş verdiyi vaxt dövrün Fir`onu (Misirin hakimi) Əyyubu çağırtdırıb dedi: -"Bizim yanımıza gəl, burada hər şey yaxşıdır." Bu dəvətdən sonra Əyyub ailəsini və bütün var-dövlətini götürərək Fir`onun yanına getdi. Fir`on da öz növbəsində ona çoxlu torpaqlar verdi. Bir gün Şə`ya peyğəmbər Fir`onun yanına gəldi. Bu zaman Əyyub da orada idi. Şə`ya peyğəmbər üzünü Fir`ona tutub dedi: -"Ey Fir`on! Qorxmursan ki, Allah qəzəb edə və onun qəzəbindən asiman, yer, dəniz və dağlar və s. qəzəblənələr!?". Şə`yanın danışdığı müddətdə Əyyub susur, heç nə demirdi. Sonra hər ikisi Fir`onun yanından çıxdılar. Allah taala Əyyuba vəhy edib buyurdu: -"Ey Əyyub, Fir`onun yanına gedib susduğun (ona xəbərdarlıq etmədiyin) üçün bəla ilə qarşılaşmağa hazır ol!".

Başqaları isə belə yazmışlar: Allah taala Əyyuba çoxlu nemətlər əta etdi. Həzrət daima Allaha şükür edirdi. Buna görə də göydə olan mələklər həmişə Əyyubun adını çəkir həmişə onu xatırlayırdılar.

O zaman asimanlara getməsi qadağan olan şeytan mələklərin danışığını və onların Əyyuba barəsində salam vermələrini eşitdi. Onun nemətlər qarşısındakı etdiyi şükürlərini eşidib ona paxıllıq etdiyindən Allaha dedi: -"Pərvərdigara! Əyyubun bu qədər təşəkkür və şükürləri ona çoxlu nemət verdiyinə görədir. Əgər nemətləri ondan alsan, Sənə şükür etməyəcəkdir. İndi məni onun var-dövlətinə hakim et, onda görərsən ki, neməti olmasa sənə şükür etməyəcəkdir.

Allah taala onu Əyyubun malına hakim etdi. Şeytan yerə gələrək Əyyubun bütün mal-dövlət və övladlarını məhv etdi. Amma Əyyubun şükrü daha da artdı. Şeytan yenidən Allaha dedi: -"Məni onun əkin sahələrinə hakim et." Allah taala da Əyyubun əkin sahələrinin ixtiyarını ona verdi. Şeytan ixtiyarında olan köməkçiləri ilə gəlib onun əkin sahələrini yandırdılar. Amma yenə də Əyyubun şükrü artdı. Şeytan dedi: -"Pərvərdigara, məni Əyyubun qoyunlarına hakim et." Allah şeytannın bu istəyini də qəbul etdi. Şeytan onun bütün qoyunlarını həlak etdi. Amma yenə də Əyyubun şükr etməsi azalmadı. Şeytan bu dəfə ərz edib dedi: -"Məni onun bədəninə hakim et." Allah taala buyurdu: -"Dil, ağıl və gözlərindən savayı səni onun bütün bədəninə hakim etdim".

Şeytan zəhərli nəfəsini onun bədəninə üfürdü, bədəni başdan ayağa yara oldu. Uzun müddət belə vəziyyətdə Allaha dua və şükür etdi. Elə ki, bədənində qurdlar əmələ gəlib üfunətə çevrildi, camaat onu kənddən çıxarıb kənarda olan bir xarabalıqda yerləşdirdilər. Həyat yoldaşından savayı heç kəs onun yanına gedib-gəlmirdi.

O qadın da Əyyuba yemək hazırlamaq üçün camaatın arasına gedir çətinliklə ona yemək tapıb gətirirdi. Şeytan onun səbir və dözümünə mat-məətəl qalmışdı. Şeytan Əyyubun ardıcıllarından olub dağlara çəkilən və rahibliklə məşğul olan bir neçə nəfərin yanına gəlib dedi: -"Gəlin bu giriftar olmuş bəndənin yanına gedib bəlalarından soruşaq?" Rahiblər dəvələrinə minib yola düşdülər. Onlar çox zəhmətlə Əyyubun yanına gələrək əyləşib dedilər: -"Ey Əyyub, yaxşı olardı ki, bu bəlalara düşməyinə səbəb olan günahını bizə açıb deyəydin. Biz özümüz Allahdan soruşmağa qorxuruq ki, bizi həlak edər".

Əyyub onların cavabında buyurdu: -"And olsun Allahın izzətinə! Mən yetim və zəif adamla birlikdə olmadan çörək yeməmişəm. Hər zaman Allaha itaət sayılan iki iş qarşıma çıxıbsa, onların ən çətinini seçmişəm". Bu zaman onlarla olan cavan dedi: -"Siz necə də pis iş gördünüz?! Allah peyğəmbərlərindən olan bir peyğəmbərin yanına gəlib onu danladınız! O da məcbur olub Allaha etdiyi gizlin ibadətləri aşkar etdi.

Nəql edirlər ki, bunun ardınca Əyyub Allaha şikayət etdi. Allah taala onun cavabında buyurdu: -"Mənə ibadət etmək qüdrətini kim sənə vermişdir ki, təsbih və həmd edəsən? Boynunda minnəti olan bir şeyə görə Mənim boynumamı minnət qoyursan?!" Həmçinin, bundan əlavə ona verdiyi nemətləri bir daha xatırlatdı.

Bu zaman Əyyub bir ovuc torpaq götürüb ağzına doldurub, sonra dedi: -"Pərvərdigara, haqq səninlədir bu neməti sən mənə vermisən. Beləliklə etdiyi şikayətə görə Allah dərgahından üzr istədi. Bundan sonra Allah taala bir mələk göndərib ona əmr etdi ki, ayağını yerə vur. Bu zaman yerdən bulaq qaynamağa başladı. Əyyub o suda yuyundu. Beləliklə bütün yaraları və xəstəlikləri sağaldı. İtirdiyi başqa nemətləri də Allah taala bir-bir ona qaytardı.

Amma Əyyubun and içib yüz şallaq vuracağını əhd etdiyi həyat yoldaşının əməlinə gəldikdə isə, bu barədə müxtəlif rəvayətlər nəql olunmuşdur. Bəzi rəvayətlərə görə Əyyubun həyat yoldaşı ona yemək almaq üçün camaatın yanına gedib onlardan bir şey istədi. Bu zaman onun gözəl saçlarını görüb dedilər: -"Əgər saçlarından bir az kəsib bizə versən, sənə yemək verərik." Qadın Əyyuba olan məhəbbətinə görə bu işə razı oldu. Əyyub onu saçları kəsilmiş gördükdə belə and içdi.

Digər bir rəvayətdə deyilir ki, görə Şeytan Əyyubun bu qədər bəlalar qarşısında səbrini, Allah qarşısında təzim və şükrünü, gecə-gündüz həmd etməsini gördükdə çox narahat oldu, qışqıraraq bütün köməkçilərini bir yerdə yığdı. Köməkçiləri onun qışqırmasının səbəbini soruşdular. O, cavablarında dedi: -"Bu kişi məni təngə gətirib! Allahdan onun malına, övladına hakim olmağı istədim, Allah da mənə izn verdi. Onun üçün nə mal, nə də övlad qoymadım. Amma bununla belə, onun Allaha etdiyi dua və şükür daha da artdı. Yenidən Allahdan onun bədəninə hakim etməsini istədim və bunu da aldım. Onu elə bir günə saldım ki, bütün bədəni yara saldı. İş o yerə çatdı ki, onu gətirib xarabalığa atdılar. Əyalından savayı heç kəs ona yaxın gəlmədi. Bununla yanaşı, yenə də dua və şükürdən əl çəkmədi, bu bəlalara səbir etdi. Beləliklə mən Allahın qarşısında rüsvay oldum. İndi sizi çağırıb sizdən yardım istəyirəm". Şeytanın köməkçiləri dedi: -"Bəs sənin məkr və hiylən necə oldu?! Keçmişdəkiləri aldatdığın elm və tədbirin hara getdi?!" Şeytan dedi:

-"Onların hamısı bu kişi haqqında təsirsizdir. Artıq mənim əlimdən heç nə gəlmir. İndi deyin görüm mən nə edim?!" Dostları dedi:

-"Adəmi behiştdən necə çaxardın?!" Şeytan dedi:

-" Əyalının yolu ilə". Onlar dedilər:

-"Əyyubu da həmin yolla yoldan çıxart". Ondan savayı heç kəs Əyyubun yanına gedib-gəlmir, o da təkcə arvadının sözünü qəbul edir.

Şeytan bu fikri bəyəndi. Kişi cildində Əyyubun əyalının yanına gədib və ona dedi: -"Ey qadın, ərin hardadır?" Cavab verdi: -"Onun bədəni hal-hazırda cürbəcür yaralarla doludur, bədənində qurdlar gəzir".

Şeytan bu sözü eşitdikdə sanki narahat olmuş kimi onu vəsvəsə etməyə başladı, qabaqlar malik olduqları nemətləri, xoşbəxtlikləri bir-bir sadalayıb Əyyubun cavanlıq və gözəlliyindən söz açdı. Daha sonra düçar olduğu əzabları xatırlayıb dedi: -"Bu əzab və xəstəliyin sonu yoxdur, həmişəlikdir!".

Bu zaman Əyyubun yoldaşı fəryad edib haldan getdi. Şeytan tədbiri baş tutmasını görüb bir keçi gətirərək dedi: -"Əgər Əyyub bu keçini Allahın adını çəkmədən öz əli ilə kəsərsə, bütün xəstəliklərdən nicat tapacaqdır. Bu sözü eşidən arvad keçini Əyyubun yanına gətirib əhvalatı ona danışdı. Əyyub bu sözü deyənin şeytan olduğunu bilib xanımına dedi: -"Allahın düşməni (şeytan) sənin yanına gələrək bu sözlərlə vəsvəsə etmiş, sən də ona qulaq asmısan. İndi de görüm, əlimizdə olan malı, övladı, sağlamlığı, firavanlığı kim bizə vermişdi? Qadın dedi:

-"Allah!" Əyyub dedi:

-" Biz onlardan neçə il bəhrələndik?" Qadın dedi:

-"Səksən il". Əyyub dedi:

-"İndi neçə ildir ki, Allah bizi bu bəla və imtahana çəkmişdir?" Qadın dedi:

-"Yeddi il neçə ya". Əyyub buyurdu:

-"Ey qadın! Allahla barəsində insaf və ədalətlə rəftar etməmisən. Gərək nemət və firavanlıqda olduğun qədər də bəlaya dözəsən. (Yəni səksən il rahat və firavan yaşadığın kimi, səksən ildə çətinliyə dözməlisən). Beləliklə ədalət və insafa riayət etmiş olarsan.

Həzrət Əyyub bu sözün ardınca and içib dedi: -"Mənim Allahdan başqasının adına heyvan kəsməyimi istədiyin üçün, şəfa taparamsa, sənə yüz şallaq vuracağam. Bundan sonra sənin gətirdiyin yemək və içmək mənə haramdır. İndisə buradan get, səni görmək istəmirəm!"

Əyalı gedəndən sonra Əyyub özünü tək və kimsəsiz gördü. Bu zaman üzünü torpağa qoyub səcdə halında Allaha ərz etdi: "Zdm qUqdm ZbÜS" bu dua da bəlaların çəkilməsinə səbəb oldu. Ona belə vəhy gəldi: -"Başını qaldır. Duan müstəcab oldu. İndi ayağını yerə vur" Beləliklə əhvalatı sonuna qədər deyildiyi kimi hər şey yenidən ona qayıtdı, viranə yaşıllığa çevrildi.

Digər bir tərəfdən, Əyyubun əyalı özü özünə fikirləşib dedi: İndi ki, o məni öz yanından qovmuşdur, tək qalmışdır və daha ona baxanı yoxdur. Əgər mən də onun yanına getməsəm acından öləcək və vəhşi heyvanlar onu parçalayacaqdır. Bu fikrin ardınca geri qayıtdı. Amma oradakı olan xarabalıqdan heç bir əsər-əlamət yox idi. Həmin yerdə yam-yaşıl bir bağ var idi və gözəl bir cavan əyləşmişdi.

Qadın ağlamağa başladı. Qorxudan o kişinin yanına gedib bir söz soruşmadı. Cavan irəli gəlib onun ağlamasının səbəbini soruşdu. Qadın dedi: -"Burada bir xarabalıq vardı və xəstə bir kişi də orada yaşayırdı. İndi onun başına nə gəldiyini bilmirəm". Cavan dedi:

-"O kişinin səninlə nə qohumluğu vardı?" Qadın dedi:

-"O mənim ərim idi, sən onu görməmisən?" Cavan dedi:

-"Onu görsən tanıyarsan?" Qadın dedi:

-"Bəli". Cavanın üzünə diqqətlə baxdıqda dedi: -"Cavanlıqda hamıdan çox sənə bənzəyirdi". Əyyub buyurdu:

-"Mən həmin Əyyubam ki, keçini şeytanın adına kəsməyimi mənə təklif etdim. Amma mən Allahıma itaət edib şeytana qulaq asmadım. Allahın dərgahına dua etdim və o da bizim ne'mətlərimizi gördüyün kimi,qaytardı.2

Başqa bir rəvayətə görə şeytan Əyyubun əyalının yanına gəlib dedi:

-"Məni tanıyırsan?" O dedi:

-"Yox". Şeytan dedi:

-"Mən yerin Allahıyam. Ərinin düçar olduğu bəlaları mən ona vermişəm. Asimanın Allahına ibadət etdiyinə görə onu bu günə salmışam. Əgər mənə səcdə etsə, bütün bəlaları ondan dəf edib əlindən çıxan nemətləri yenidən ona qaytararam".

Bəzilərinin dediyinə görə şeytan ona dedi: -"Əgər sən mənə səcdə etsən, nemətlərinizi sizə qaytarar, ərinə də şəfa verərəm." İbn Abbasdan nəql olmuşdur ki, şeytan həkim cildinə girib Əyyubun əyalının yanına gəldi. Qadın ondan Əyyubu sağaltmasını istədi. Şeytan dedi: -"Mən onu bu şərtlə sağaldaram ki, sağaldıqda belə desin: -"Sən mənə şəfa verdin!" Bundan başqa heç bir diləyim yoxdur." Qadın bu sözdən sonra Əyyubun yanına gəldi. Ondan həkimin şərtiylə razılaşmasını istədi. Əyyub qadının bu sözünü eşitdikdə ona yüz çubuq vuracağına dair and içdi.

Mərhum Təbərsinin "Məcməul-bəyan"da nəql etdiyi sonuncu nəzəriyyəyə görə Əyyubun and içməsinə səbəb bunların heç biri olmamışdır. Əsas səbəb bu idi ki, Əyyubun əyalı bir iş dalınca gedib gec qayıtdı və bu da xəstə olan Əyyubun hövsələsini qaçırtdı və and içdi ki, ona yüz şallaq vuracaq.

Əyyub şəfa tapdıqdan, Allah taala səhhətini və keçmiş nemətləri ona qaytardıqdan sonra andına əməl etmək istədi. Bu imanlı və vəfalı qadına necə yüz şallaq vuracağı haqda fikirləşirdi, Allah taala

(Sad surəsində bəyan edildiyi kimi) ona əmr etdi ki, nazik çubuqlar götürərək (rəvayət və təfsirlərə görə yüz ədəd idi) yavaşcadan bir dəfə onu vursun. Beləliklə andına əməl etdi.

Bütün qeyd olunan bu rəvayətlər sünni alimlərinin, o cümlədən Vəhb ibn Münəbbih və sairlərinin Əyyubun bəlaları və başqa mövzular haqqında dedikləri idi. Bugünkü Tövratda da Əyyuba aid olan bəhsdə bu məzmuna yaxın sözlər qeyd olmuşdur. Həmçinin bəzi şiə rəvayətlərində də buna oxşar mətləblər zikr olunmuşdur.

Amma böyük təhqiqatçı alimlər qeyd olunan əhvalatın bəzi hissələrini saxta və qondarma hesab etmiş, təfsirçilərin özlərindən çıxardığını qeyd etmiş, onun İlahi peyğəmbərə nisbət verilməsini düzgün saymamışlar. Biz daha artıq şərhdən ötrü Şiənin böyük alimi mərhum Seyyid Mürtəzanın sözlərini və həmçinin müasir Misir alimlərindən birinin dediklərini nəzərinizə çatdırıb bu hadisənin ardınca lazım olan başqa mövzuları da açıqlayacağıq.

Seyyid Mürtəza "Tənzihul-ənbiya" kitabında ilahi peyğəmbərlərin və din rəhbərlərinin günah və nifrət yaradan xəstəliklərdən (bərəs, cüzam kimi) uzaq olmasını isbat etdikdən sonra Əyyubun əhvalatı haqqında deyir: -"Bu barədə bəzi təfsirçilərin nəql etdikləri sözlər qəbul olunası deyildir. Çünki onlar daima mütəal Allaha və onun rəsullarına pis işləri nisbət verir, onlara ağır töhmətlər vururlar. Bu barədə nəql olunan rəvayətlərdə bir az düşünülsə, hər kəs onların saxta olmasını başa düşər. Çünki bunlar deyirlər: -"Allah taala şeytanı Əyyubun malına və qoyunlarına sahib etdi." Şeytan onları məhv etdikdə Əyyubun səbrini müşahidə edib Allahdan istədi ki, onu Əyyubun bədəninə də malik etsin. Allah taala buyurdu: -"Mən səni onun qəlbindən başqa bütün bədəninə müsəllət etdim." Şeytan gəlib onun bədəninə üfürdü. Nəticədə Əyyubun bütün bədəni yara içində oldu. Bəni-İsrail onu yeddi ildən çox zibilliyə atdılar. Bu müddət ərzində onun bədənində qurdlar gəzirdi. Başqa sözlər də deyilmişdir ki, biz onların hamısını açıqlamırıq.

Sonra əlavə edir: "Ağlı belə cəhalət və küfrü qəbul edən bir kəsin etdiyi rəvayəti qəbul etmək olarmı?! Bir kəs Allahın şeytanı öz bəndələrinə hakim etmədiyini və onda bədənləri yaralayıb xəstəlik salmaq qüdrətinin olmamasını bilmirsə, onun hədisinə arxalanmaq olarmı?!" "Əyyubun bəlaları onun cəzası idi ki, bu dünyada çəkirdi" -deyənlərin cavabında buyurur: -"Amma Əyyuba gələn o çətin və böyük bəlalara gəldikdə isə bunlar imtahandan savayı bir şey deyildi. Allah taala Əyyubun səbri qarşısında ona çoxlu xeyirlər vermək istəyirdi. Bu, Allahın öz dərgahında seçilmişləri və böyükləri üçün müqəddər olunmuş ilahi bir qanundur. Peyğəmbər əkrəmdən rəvayət olunmuşdur ki, o həzrətdən sual olub insanlar içərisində kimlər daha çox bəlaya giriftar olur?" -deyə soruşulduqda Həzrət buyurmuşdu: -"Peyğəmbərlər, onlardan sonra saleh insanlar, həmçinin peyğəmbərlərə daha oxşayan çətinliklərə yaxın olan insanlardır."

Əyyub da o bəlaların qarşısında elə səbr edib dözdü ki, bu gündə dillər əzbəri olmuşdur. O bütün bəlalarda şükür edir, səbir və şükür etməli əksinə heç bir söz demirdi. Ağzından şikayət, və giley-güzarlı bir söz çıxmırdı. Allah taala da bu bəlaların əvəzində (Qur'anda buyurulduğu kimi) axirətdə ona əta ediləcək böyük və əbədi nemətlərdən əlavə, dünyada da bütün mal-dövlət və ailəsini artıqlaması ilə ona qaytardı, xəstəliklərinə şəfa verib bəlalardan nicat verdi.

Müasir sünnü alimlərindən və "Qisəsül-ənbiya" kitabının müəllifi Əbül-vəhhab Nəccar həmin mətləbləri öz kitabında qeyd edib deyir: -"Əyyubun bəlaları haqqında deyilən bəzi sözlərdən belə çıxır ki, o həzrətin düçar olduğu xəstəliklər camaatın nifrətinə səbəb olmuşdu, camaat ona yaxın düşməkdən çəkinirdilər. Bu rəvayət peyğəmbərlik vəzifəsi ilə zidiyyətlidir. Çünki kəlam alimləri isbat etmişlər ki, peyğəmbərlər camaatın onlardan uzaqlaşmasının və iyrənib nifrət etməsinə səbəb ola biləcək xəstəliklərdən uzaq olmalıdır. Beləliklə bu kimi rəvayətlə nübüvvət vəzifəsi ilə necə uyğunlaşdırmaq olar?.

Əbdül-vəhhab Nəccar bu sözləri qeyd etdikdən sonra onlara iki cavab vermişdir:

1) Qeyd olunan bəlalar (deyilən bütün xüsusiyyətləri ilə) peyğəmbərlik vəzifəsinə yetişməmişdən qabaq olmuşdur. O da bütün bəlaların qarşısında səbir edib Allah dərgahına əsla şikayət etməmiş və Allah taala da ona peyğəmbərlik əta etmişdir.

2) Əyyubun bəlalarını nəql etdikdə ifrata yol verənlər "əhli kitab"ın sözlərinə etimad etmiş və belə güman etmişlər ki, "Əyyub kitabları"nda yazılanların hamısı həqiqətə uyğundur. Amma əgər yaxşı düşünsəydilər görərdilər ki, onların etibar etdikləri "Əyyub kitabları" daha çox şairlərin şerlərində yazdıqları fikirlərə bənzəyir. İnkar olunası deyildir ki, şer hansı dildə olmasına baxmayaraq, ifrat və boş sözlər meydanıdır (və çoxlarının həqiqəti yoxdur). Daha sonra öz sözlərini doğrultmaq üçün Əmr ibn Fariz və Mütənəbbinin şerlərini nümunə götürmüşdür.

Beləliklə, təfsirçilərin sözlərinin hamısının düz olmaması məlum olur. Əgər bu barədə müəyyən rəvayətlər varsa da, ya təqiyyə üzündən olmuşdur, ya da ümumiyyətlə etimad olunası deyildir.

## İmam Baqirdən (ə) maraqlı bir hədis

Mərhum Səduqun "Xisal" kitabında İmam Baqir(ə)-dan bir nəql etdiyi hədisə əsasən həqiqət aşkar olur, qeyd olunan iradlardan isə heç bir xəbər yoxdur. Bundan əlavə, başqa hədis və rəvayətləri də açıqlayır. Hədisin tərcüməsi belədir: Əyyub, heç bir günahı olmadan yeddi il bəlaya düçar oldu. Çünki Allah peyğəmbərləri hər bir günah qarşısında məsumdur, kəbirə və səğirə günahlara düşmürlər. Əyyub bütün bəlalara düşməsinə baxmayaraq, heç vaxt bədəni iylənməmiş, siması iyrənc olmamış, bədənindən qan və çirk axmamış, camaat ondan iyrənməmiş və bədəninə də qurd düşməmişdir. Allah taala bütün peyğəmbər və övliyalarını bəla və giriftarlığa edərkən belə rəftar etmişdir. Camaatın ondan uzaqlaşmasının səbəbi isə onun zahirdə fəqir və zəifliyi görə olmuşdur. Çünki camaat onun Allah yanında olan məqamından və bunların ardınca ona yetişəcək rahatlıqdan xəbərsiz idi.

Peyğəmbəri Əkrəm (s) buyurmuşdur: -"Peyğəmbərlər insanlar içində hamıdan çox bəla çəkənlərdir. Onlardan sonra, insanların içində onlara daha çox oxşayanlar (yəni Allah dərgahına daha yaxın olanlar) hamıdan çox bəlaya düçar olanlardır."

Allah taalanın Əyyubu böyük bəlalara düçar etməsi -o bəlalar ki, onların səbəbinə camaat arasında xar oldu- ona veriləcək nemətlərə görə idi ki, onu ilahiləşdirməsinlər. Bu yolla bilməliydilər ki, Allahın yaxşı savab və hədiyyəsi iki növdür. Biri haqq və muzd, digəri isə xüsusi lütf və mərhəmət olaraq verilir. Həm də biri ibrət dərsi idi ki, heç kəsi kasıb və zəif olduğuna görə xar etməsinlər, hər xəstəyə xəstəliyinə görə həqarətlə baxmasınlar.

Habelə, bilməlidirlər ki, Allah hər kəsi istəsə, xəstələndirər və hər kəsə istəsə, şəfa verər. Hər yerdə, hər cür, hər səbəbi hər kəs üçün nəsihət və ibrət dərsi etmək istəsə, Allah taalanın etdiyi hər bir şeydə adil, işlərində də həkimdir. Bəndələrinin məsləhəti olmayan işi görmür. Bəndələrin bütün qüdrət və bacarığı Ondandır.

**Digər bir suala cavab**

İzah edilməsi lazım olan daha bir məsələ şərif ayə barəsindədir. Allah taala Əyyubun dilindən buyurur: -"Pərvərdigara! Şeytan məni əzaba düçar etmişdir." ("Sad", surəsi, 41-№i ayə).

Bəziləri bu ayəni şeytanın Əyyubun mal-dövlət, can və övladına hakim olmasını deyənlərin sözünə şahid gətirmişlər. Digər tərəfdən, "əzab cəzaya laiq olduğuna görə verilir" sözünə əsasən bu ayəni başqalarının sözünə dəlil gətirib deyirlər: -"Əyyubun düçar olduğu bəla risalətini təbliğ işində xətaya yol verdiyinə görədir.

Birinci iradın cavabında demək olar ki, bəla və giriftarlığın şeytana nisbət verilməsi, təbii səbəblərə nisbət verilməsiylə əsla zidd deyildir. Çünki bu vasitələr bir-birindən ayrıca deyil, bir-birinin tamamlayıcısı kimidir. Yəni insana yetişən yaxşılıq və pislik bir neçə -bir, beş, on və ya daha çox vasitəylə ola bilər və bu vasitələrin hər biri yaxşılıq və pisliyi insana çadırmaqda rol oynaya bilər. Əlbəttə, bunların hamısından üstün olanı Allah taalanın iradə və istəyidir. Bir vasitəni (hər hansı bir işdə) qeyd etmək, heç də digər vasitələri inkar etmək mə'nasına deyildir.

Bundan əlavə, Əyyubun sözünün heç bir yerindən "Şeytan mənim mal, can və övladıma hakim olmaqla məni bu günə salmışdır" -mə`nası düşünülür. O həzrət mal və övladlarının məhv olmasını və öz xəstəliyini heç də şeytana nisbət vermir. Onun sözündə: -"Pərvərdigara, şeytan məni xəstələndirmiş…,malımı dağıtmış" kimi cümlələrə rast gəlmirik. Əksinə, o belə deyir: -"Şeytan məni əzab-əziyyətə düçar etmişdir". Bunu deməyinin də səbəbi şeytanın camaata vəsvəsə edərək onun yanına getməkdən saxlaması ola bilər. Sanki şeytan onlara deyirdi: -"Əgər o, peyğəmbər olsaydı, Allah onu bu qədər bəlaya düçar etməzdi...." Yaxud da irəlidə şərh etdiyimiz kimi, Əyyubun həyat yoldaşının ona olan əlaqə, vəfa və sədaqətindən istifadə edərək ona vəsvəsə edir və o qadın Əyyubun yanına gedərək şikayətlənirdi. Ya da "Əyyub yolxucu xəstəliyə düçar olub, heç vaxt sağalmayacaq" kimi şayiə yayır, xalqı onu şəhər və evindən qovmağa təhrik edərək ondan uzaqlaşdırırdı. Bunlar şeytan tərəfindən Əyyuba yetişən həmin zərər və əziyyətlərdir. Onun Allah dərgahına dediyi sözün mə`nası da elə bu ola bilərdi: -"Pərvərdigara, şeytan (etdiyi vəsvəsələrlə) məni əzaba düçar etmişdir."

İkinci irada gəldikdə isə cavabı tamamilə aydındır. Belə ki, "əzab" kəlməsi ərəb lüğətində "əziyyət və narahatlıq" mə`nasındadır. İstər günah üzündən əmələ gəlsin, istərsə də qabaqca heç bir günah baş vermədən olsun, hər iki mə`nada işlənir. Amma "cəza" mə`nasına gəldikdə isə o "iqab" sözündən

alınan mə`nadır. Beləliklə irad edən şəxs bu iki mə`nanı bir-birilə qarışdırmışdır. Əyyubun heç bir günahı olmadan bəlaya düçar olmasına gəldikdə isə şərhi aşağıda qeyd olunur.

## Bir neçə mətləbə işarə

Həzrət Əyyub barədə olan bəhsin sonunda qeyd olunan rəvayətlər və tarixlər haqqında bir neçə mətləbə işarə etmək yerinə düşərdi.

1) Diqqət olunması zəruri olan ilk nöqtə budur ki, bəzi sünnü alimlərinin sözünün əksinə olaraq, Əyyubun düçar olduğu bəlalar heç də vəzifəsini yerinə yetirərkən səhlənkarlıq və ya -Allaha pənah- günah etməsi üzündən olmamışdır. Əksinə, bu bəlalar Əyyubun məqamının ucalması və imtahan üçün olmuşdur. Allah taala bu çətin imtahanlarla onu dünya və axirətdə ona nəsib olacaq nemətlərə layiq etmək istəmişdir. Onun əhvalatını sair insanlara ibrət qərar vermiş, digərlərinə hüccət etmişdir. İmam Məhəmməd Baqir(ə)-dan nəql olunan hədisdən bu mətləb çox yaxşı aydın olur. İmam(ə) buyurur: -"Əyyub heç bir günah etmədiyi halda yeddi il bəlaya düçar oldu..." Başqa yerdə buyurur: -"İnsanların içində hamıdan artıq bəlaya düşənlər peyğəmbərlər, daha sonra onlara oxşayanlar (yaxınlar)dır." Başqa bir rəvayətdə də buna işarə olunmuşdur. Mərhum Şeyx Səduq "İləluş-şəraye" kitabında İmam Sadiq(ə)-dan bir-birinə oxşayan iki hədis nəql etmişdir. Hədislərin hər ikisində İmam (ə) Əyyubun heç bir günah etmədən bəlaya düşməsini bildirir. O iki hədisin birinin ravisinin adı Dürüst ibn Əbi Mənsurdur. Onun rəvayət etdiyi hədisin mətni belədir: Həzrət(ə) buyurdu: -"İnnə Əyyubə min ğəyri zənb." Yəni, Əyyub heç bir günahı olmadan bəlaya düçar oldu.

Əbi Bəsirin o həzrətdən rəvayət etdiyi ikinci hədisdə buyurur: -"Zİbtəla Əyyubə səb'ə sininə bila zənbin." Yəni, Əyyub yeddi il heç bir günahı olmadan bəlaya düçar oldu.

Bu rəvayətdə qeyd olunan aydınlıqlar bəzi sünnü alimlərinin "Əyyubun əmr be mə`rufu tərk etdiyinə görə bəlaya düçar olmuşdur" deməsinə, həmçinin insana yetişən hər bəlanın onun törətdiyi əmələ görə cəzalandırılmasını bilən bəzi dar düşüncəli insanlara cavabdır. Belə yanlış düşüncələr sair sadəlövh insanların da səhvə düşməsinə səbəb olur.

Mümkündür, şiənin böyük imamları bu həqiqəti açıqlamaq istəmişlər ki, baş verən heç bir günah cəzasız qalmır, insan nə əkirsə, onu da biçir. Bu mətləbə başqa bir nəzərlə baxdıqda "İnsana yetişən hər bir bəla, hər hansı bir günaha görədir" sözü düz deyildir.

Əgər bu mətləbi əlavə olaraq açıqlayıb "ilahi insanlar, heç bir günah və təqsiri olmadan bəlaya düşür, imanı çox olduqca Allah dərgahına daha yaxın olduqda onlara daha artıq çətinlik üz gətirir, bəla və çətinliklərin onların mənəvi kamalında təsir qoyur və s. Bu mövzuya aid olan başqa mətləblərə diqqət yetirsək bu kitabın möhtəvasından uzaqlaşmış olarıq. Bu barədə artıq məlumat almaq istəyənlər həmin mövzularda yazılmış başqa kitablara müraciət edə bilərlər. Xüsusilə, "İləluş-şəraye" kitabının üçüncü fəsli daha məqsədə uyğundur.

2) İkinci məsələ Əyyubun əzaba nəqədər mütbəla olması ilə əlaqədardır. Bəziləri bu müddəti on səkkiz, bəzisi on üç, bəzisi isə yeddi il yeddi ay yeddi saat qeyd etmişdir. Vəhb ibn Münəbbihdən nəql olmuşdur ki, Əyyubun mübtəla olması nə az nə çox -düz üç il olmuşdur. Amma şiə rəvayətlərində o müddət yeddi il qeyd olunur. O cümlədən qeyd etdiyimiz "Xisal" və "İləluş-şəraye" kitablarında olan hədislər.

3) Üçüncü məsələ Əyyubun ömrü və harada dəfn olması barədədir. Bəziləri o həzrətin 93, bəziləri isə 200 il ömür sürdüyünü demişlər. İmadzadənin tarixində o həzrətin ömrü 226 il qeyd olunmuşdur. Bu müddətin 73 ili mübtəla olmamışdan qabağa, yeddi il yeddi ay yeddi günü mübtəla olduğu vaxt, 146 ili isə mübtəla olub qutardıqdan sonraya düşür. Mən bu nəzərlər haqqında mötəbər sənəd tapa bilməmişəm. Ravəndi "Qisəsul-ənbiya"da sənədi Vəhb ibn Münəbbihə çatan hədisdə deyir: -"Əyyub Yəqubun zamanəsində yaşamış, onun İlya adlı qızı ilə evlənmişdir. O həzrətin atası İbrahimə iman gətirənlərdən, anası isə Lutun qızı olmuşdur. Lut Əyyubun ana babasıdır... Əyyub bəlaya düçar olmazdan qabaq 73 yaşında olarkən Allah taala onun ömrünə daha 73 il artırdı.

Onun dəfn olduğu yer haqqında da ixtilaf vardır. Bəlağinin "Qisəse-Qur`an" lüğətinə görə o həzrət Ovs məntəqəsində yaşamış və Yəməndəki Cəhaf dağının qülləsində dəfn olunmuşdur. Xəzailinin "Əlamul-Qur`an"ında qeyd olunmuşdur ki, avamlar onun Beyzai-Farsdakı Xürrəmabad adlanan kiçik bir kənddə dəfn olunduğunu deyir və bayram günlərində oraya ziyarətə gedirlər. Bu yerdə tikanlı otlar vardır ki, qoyunlar orada otlayırlar. Yerli əhalinin inamına görə, o otlar qoyunların piy xəstəliyini sağaldır. Bu kəndin bəzi bulaqlarını da "Əyyub bulağı" adlandırırlar.

İndi də Məsudinin “Murucuz-zəhəb”dəki sözlərinin xülasəsini nəql edərək bu fəsli tamamlayırıq.

O deyir: -”Əyyub peyğəmbər həzrət Yusiflə eyni zamanda yaşamışdır. O Əyyub ibn Movs ibn Rəzzah ibn Rəvail ibn Eys ibn İshaq ibn İbrahimdir ki, Dəməşqin ətrafında yaşamış, çoxlu mal-dövlət və övlad sahibi olmuşdur. Allah taala onu özü, malı və övladıyla imtahan etmiş, o, bu imtahandan səbir və dözümlə çıxdığı zaman Allah da onları yenidən ona qaytarmışdır.” Daha sonra deyir: -”O həzrətin məscidi və qüsul etdiyi bulaq indi (332-ci ildə) Nəva və Covlanda qalmaqdadır. Bu yer Dəməşqlə İordaniyanın Təbəriyyə şəhərinin arasında yerləşir. Giriftarlıq və çətinlik zamanı ona arxa olan əyalı Rəhimənin kənarında əyləşdiyi daş da hal-hazırda həmin məsciddədir.

Nəva və Covlan iki dağ kəndidir. Bu yer Dəməşqin Hövran məntəqəsində yerləşir. Hal-hazırda Covlan dağlarında ən müasir silahlardan istifadə etməklə Suriya müsəlmanları və qəsbkar yəhudilər arasında qanlı müharibələr gedir. Allah taaladan istəyirik ki, bütün müsəlmanları dünyanın hansı yerində olmalarına baxmayaraq düşmənlərinə qalib etsin. Amin!

XV FƏSİL

# Şüeyb (ə)

## Şüeybin adı və əsil-nəsəbi

Adı və nəsəbi barədə tarixyazarlar arasında ixtilaf olan peyğəmbərlərdən biri də həzrət Şüeybdir. İbni Əsir "Kamilut-tarix" kitabında nəql edir ki, bəziləri onun adını Yəsrun qeyd ediblər, bəziləri isə elə Şüeybin olduğunu yazıblar. "Dehxoda" ensklopediyasında onun adı Yəsrin, farscası Büveyb, bəziləri Yəsrun, bəziləri isə Yəsrub olduğunu qeyd ediblər. Bir başqaları isə Yəsrub ibni Büveyb olduğunu yazırlar. Məlumdur ki, qeyd olunanlarda düzəliş və dəyişiklər aparılmışdır. Həqiqi adı bunlardan biri olmuşdur. Tövratda da onun adı Yəsrun gəlmişdir. Tarixçilərin böyük bir qrupu isə Allahın Qur`ani-Kərimdə gətirdiyi adı –Şüeybi (siryani dilində isə Yəsrun deyilir) yazmışlar.

Şüeybin əsl-nəsəbinin İbrahim peyğəmbərə yetişməsi ixtilaflıdır. Bəziləri onu İbrahim peyğəmbərin övladlarına aid olan fəsildə gəldiyi kimi, Mədyən ibni İbrahimin övladlarından olduğunu bilmişlər.

Yəqubi onun ata-babalarını belə yazır: Şüeyb –Büveyb -Əya -Mədyən –İbrahim.

Təbəri isə belə yazır: Şüeyb –Səbfun İnqad –Sabit –Mədyən –İbrahim .

Məs'udi də "Mürucuz-zəhəb"də belə qeyd edir: Şüeyb –Nüveyt –Rə'vil –Mərbən –Ənqa –Mədyən –İbrahim. "İsbatul-vəsiyyə"də isə belə yazır: Şüeyb –Nabit ibni İbrahimin övladlarından olmuşdur və İsmayılın, ya da İshaqın nəslindən deyil.

Bu qrupun əksinə olaraq bəziləri onu İbrahimin nəslindən bilmirlər. Bəlkədə onun əsli İbrahim peyğəmbərə iman gətirib və onunla Şama mühacirət edənlərə yetişir. Amma ana tərəfindən nəsli Lut peyğəmbərə yetişir. Bu nəzəri İbni Əsir "Kamilut-təvarix"də bəzilərindən nəql etmişdir. Ravəndinin "Qisəsul-ənbiya" kitabında da Vəhbdən mötəbər sənədli rəvayətdə belə deyilir: Şüeybin, Əyyubun və Bəl`əm Bauranın nəsli İbrahim peyğəmbər Nəmrudun tonqalından xilas olan günü ona iman gətirib və onunla Şama mühacirət edənlərə yetişir. İbrahim özü Lutun qızlarını onlarla evləndirdi və İbrahim peyğəmbərdən sonra Bəni-İsrailə qədər gələn peyğəmbərlərin hamı onların nəsillərindəndirlər.

## Şüeybin qövmü və Mədyən şəhəri

Bu barədə olan bütün ayələrdən, tarix və təfsir alimlərinin yazdıqlarında belə məlum olur ki, "mədyən" sözü həm Şüeybin şəhərinə və həm də qövmünə deyilmişdir. Qur`ani-Kərimin yeddi surəsində "mədyən" adı gəlmişdir: "Ə`raf" surəsi (85-ci ayə), "Tövbə" surəsi (70-ci ayə), "Hud" surəsi (84 və 95-ci ayələr), "Həcc" surəsi (44-cü ayə), "Qisəs" surəsi (22, 32 və 45-ci ayələr) və "Ənkəbut" surəsi (36-cı ayə).

"Ə`raf", "Ənkəbut" və "Hud" surələrində "mədyən" sözü Şüeybin qövmünə, başqa surələrdə isə onun yaşadığı qəsəbə və kəndə deyilmişdir. Şüeybin əhvalatına aid olan ayələr bu cümlə ilə başlayır: "Və ila Mədyənə əxahum Şüeyba" ("Ə`raf" surəsi, ayə 85). (Mədyən qövmünə də qardaşları Şüeybi (peyğəmbər) göndərdik).

Yaqut Həməvi belə deyir: -"Qeyd olunan şəhər və onun camaatı Mədyən ibni İbrahimin adı ilə adlandırılmışdır və Mədyən tayfası da onun övladlarındandır. Bəziləri isə Mədyən camaatını ərəblərdən və İsmail peyğəmbərin övladlarından bilirlər. Amma birinci nəzər daha düzgün nəzərə çarpır.

Bəzi tarixçilər tam əminliklə demişlər ki, Mədyən şəhəri elə indi İordaniyadan Məkkəyə gedən hacıların yolunun üstündə yerləşən Muğan şəhəridir. "Mö`cəmul-buldan" Əbu Zeyddən nəql edir ki, Mədyən şəhəri Qulzum dənizinin (indiki Qırmızı dəniz) sahilində və Təbuk şəhərinin qarşısında yerləşir. Davam edərək deyir: -"Əbu Zeyd demişdir ki, Musanın Şüeybin qızları üçün su çəkdiyi quyu hələ də o şəhərdə qalmaqdadır və onun üstündə balaca bir otaq tikiblər, mən özüm oranı görmüşəm". Bəzi tarixçilər isə Sina adası ilə Furat çayı arasında olan məsafənin Mədyən və orada Əqəbə körfəzi ilə Furat çayının arasında yaşayan əhalini isə Mədyən qövmü adlandırıldığını deyiblər.

## Əshabi-Əykə kimlərdir?

Diqqət yetiriləsi və Qur‘ani-Kərimin “Hicr”, “Şüəra”, “Sad” və “Qaf” surələrində adı çəkilmiş “Əshabi-Əykə”dir. Allah taala Şüeyb peyğəmbəri onlara göndərdi və bununla onlara öyüd-nəsihət verib gələcək ilahi əzabdan qorxutmaq istədi, amma bütün peyğəmbərlər kimi onu yalançı adlandırdılar. İndi görək Əshabi-Əykə elə həmən Mədyən camaatıdır, yoxsa ayrıca bir tayfadır və onlar da Mədyən camaatı tək onu təkzib etdilər.

Lüğət alimləri “Əykə” sözünün mə`nasında belə deyiblər: -”Əykə -meşə, sıx v bir-birinə sarılmış ağaclar. Bir çox tarix və təfsir alimləri deyirlər ki, Əshabi-Əykə həmən Mədyən camaatıdır. O şəhərin kənarında bir meşə var idi və camaat oradan bəhrələnirdilər. Beyzavinin dediyinə əsasən isə elə o camaat orada da məskunlaşmışdılar. Bəziləri yazırlar ki, Şüeyb iki dəfə peyğəmbərliyə seçilib, bir dəfə Mədyən camaatına, ikinci dəfə isə Əshabi-Əykəyə, bununla da onları ayrı-ayrı tayfa bilirlər. “Əl-mizan” təfsirində deyilir ki, “Əykə” Mədyən şəhərinin yaxınlığındakı meşənin adı olub və orada bir tayfa yaşayırdı və Şüeybin tayfası deyildi. Bu səbəbdən də Allah taala “Şüəra”surəsində belə buyurur: -”Əshabi-Əykə (Allah tərəfindən) göndərilənlərin hamını yalançı adlandırdılar.” Bu zaman Şüeyb onlara dedi: -”Qorxmursunuz!?” (“ŞÏəra”surəsi, ayə 177-178)Əgər qohumluğu olsaydı başqa yerdə olduğu kimi, əhvalatı belə başlayardı: -”Qardaşları Şüeyb...”

Həzrət Şüeybə, Mədyən camaatına və Əshabi-Əykəyə aid olan ayələrdə diqqət ediləsi məsələlərdən biri də budur ki, (birinci nəzəriyyəyə və “Əl-mizan”ın sözünə təsdiq olaraq) hər iki tayfanı camaatın alış-verişində onları aldatmamağa və çəkini düz verməyə dəvət etmişdir. Məsələn, “Hud” surəsində Şüeybin Mədyən camaatı ilə mübahisəsində Allah taala belə buyurur: -”Qardaşları Şüeybi Mədyənə tərəf yolladıq. O, onlara belə dedi: -”Ey camaat, yeganə Allaha ibadət edin, Ondan başqa mə`bud yoxdur. Peymanəni və tərəzidə çəkini az verməyin, mən sizin vəziyyətinizi yaxşı görürürəm (sizin camaatı aldatmağa ehtiyacınız yoxdur) və sizin üçün gələcək əzab günündən (ki, bütün kafirləri bürüyəcək) qorxuram. Ey camaat, tərəzini ədalətlə çəkib camaata verin, onların malını (alış-verişdə) azaltmayın və yer üzündə fəsad törətməyə sə`y göstərməyin!” (“Hud” surəsi, ayə 83-84)

“Ə`raf” və “Ənkəbut” surələrində də bunlara oxşar ayələr Mədyən camaatının barəsində gəlmişdir. “Şüəra” surəsində Əshabi-Əykə barəsində belə buyurur: -”Əshabi-Əykə göndərilənləri yalançı sandı. Şüeyb onlara belə dedi: -”Niyə qorxmursunuz! Mən Allahın əmin elçisiyəm, Allahdan qorxun və Ona itaət edin! Mən bunların əvəzində sizdən heç bir muzd istəmirəm, mənim muzdum yalnız aləmlərin Rəbbinin öhdəsinədir.” (“ŞÏəra”surəsi, ayə 176-181) Bu ayələrin davamında “Hud” surəsində olan ayələrə oxşar ayələrdə camaatı çəkini düzgün verməyə dəvət edir. Ayələr belədir: -”Çəkini düzgün verin və (alış-verişdə) camaatı aldadanlardan olmayın. Tərəzini düz çəkin, camaatın malını azaltmayın və yer üzündə fəsad törətməyə sə`y göstərməyin!” (“ŞÏəra”surəsi, ayə 182-184)

Mümkündür belə oxşarlıqdan və Şüeybin öyüd-nəsihətindən onların bir olması başa düşülsün, amma onların ayrı-ayrı tayfa olması, bir-birlərini qonşuluğunda məskunlaşması və Mədyən camaatının pis xüsusiyyətlərinin onlara keçməsi heç də uzaq deyildir. Şüeyb necə ki, Mədyən camaatını hidayət etmək üçün əmr olunmuşdu, eləcə də Əshabi-Əykəni hidayət etməyə əmr olundu.

## Şüeybin (ə) dəlil-sübut gətirməsi

Şüeyb (ə) özünün şirin, dolğun və eyni halda möhkəm məntiqi ilə xalqa nəsihət etməyə başladı. Lakin buna baxmayaraq, onlar əks mövqe tutdular, nemətlər qarşısında şükr etmək əvəzinə Şüeybin dəvətini qəbul etməyib onu “yalançı” adlandırdılar, onu şəhərdən qovmaqla daş-qalaq etməklə hədələdilər. Bəziləri başqa İlahi peyğəmbərlərin öz ümmətləri tərəfindən məntiqsiz dəlillərlə cadugərlikdə töhmətləndirildikləri kimi, Şüeybə töhmət vurub onu ələ saldılar.

Mübarək Ə‘raf surəsində Şüeybin (ə) dəlil-sübut gətirməsi

“Ə`raf” surəsində belə nəql olunur: “Biz qardaşları Şüeybi (ə) Mədyən xalqına tərəf göndərdik.” O, onlara dedi: -”Tək və şəriksiz olan Allaha ondan başqa məbud yoxdur- ibadət edin. Pərvərdigarımızdan sizə aşkar dəlil gəlmişdir. Peymanəni və tərəzilərinizi düz edin. Xalqın aldıqlarını azaltmayın. Bu yer (ölkə) islah olunduqdan sonra oranı fəsada çəkməyin. Əgər sizin imanınız olsa, bu sizin üçün daha yaxşıdır. Allaha iman gətirənləri yolundan saxlamaq və onları azdırmaq üçün yolları kəsib xalqı qorxutmayın. Çox az olduğunuz zamanı yadınıza salın ki, Allah sizin sayınızı necə

artırdı. Fəsad edənlərin axır-aqibətininə baxın-görün ki, necə oldu... Bəzi təfsirçilər bu ayələrdən istifadə edərək Şüeybin (ə) qövmünün tərəzidə az verməsindən (əksik satmasından) əlavə başqa böyük bir günah etmələrini də qeyd etmişlər. Onlar yollarda pusqu quraraq yol kəsirdilər. Əlbəttə qeyd etmək lazımdır ki, onların yol kəsmələri, dininin qarşısında maneəçilik törətmələri.

1. Qiymətli gövhər olan imanın qabağını alması uzaq ehtimal deyildir. Elə buna görə də sözünün davamında buyurulur: -"Allaha iman gətirəni yolundan saxlayır və azdırırsınız...." Bəzi təfsirçilərin qeyd etdiyi kimi onlar Şüeybə(ə) iman gətirənlərin yolu üstündə durur, onları hədələyərək bu işdən əl çəkmələrini tələb edirdilər. Hər halda, yuxarıda qeyd olunan ayələrin ardınca mütəal Allah Şüeybin (ə) qövmünün o həzrətə verdikləri cavabı belə xatırladır: -"Onun qövmünün başçıları və inadkarlar təkəbbürlük edərək dedilər: -"Ey Şüeyb(ə)! Biz ya səni və sənə iman gətirənləri öz kəndimizdən qovacağıq, ya da bizim dinimizə qayıdacaqsınız".

Şüeybə (ə) iman gətirənlər o nadan camaatın qarşısında dedilər: -"Allah bizi sizin dininizdən azad edəndən sonra yenidən ona qayıdaraq Allaha iftira bağlayaq. Biz ona qayıtmayacağ. Məgər ki, Allah istəyə. Bizim pərvərdigarımızın elmi hər bir şeyi əhatə edibdir. Biz Allaha təvəkkül edirik. Pərvərdigara bizimlə qovmumuzun arasında hakimlik et. Sən ən yaxşı hakimsən". (" Əraf" surəsi, 86-90-№ı ayələr).

Ancaq Şüeybin (ə) cahil və məğrur qövmü özlərinin yanlış fikirlərinə israr edərək dedilər: -"Əgər Şüeybə (ə) itaət etsəniz ziyana uğrayacaqsınız". Pərvərdigar bu təkəbbürlüyün nəticəsini belə buyurur: -"Onlara zəlzələ gəldi və evlərində cansız oldular. Şüeybi (ə) yalançı adlandıranlar sanki heç vaxt o evlərdə olmamışdılar. Şüeybi yalançı adlandıranlar özləri ziyankar oldular". (" Əraf" surəsi, 90-№ı ayə).

Hud surəsində belə qeyd olunmuşdur

(Onların) qardaşları Şüeybi (ə) Mədyənə göndərdik. O, onlara dedi: -"Ey camaat, tək olan (şəriksiz) Allaha ibadət edin ki, Ondan başqa məbudunuz yoxdur. Peymanə və çəkini azaltmayın. Mən sizin işinizin yaxşı olmasını görürəm. (Tərəzidə aldatmağa ehtiyacınız yoxdur). Mən sizin üçün bütün (kafirləri) əhatə edəcək günün əzabından qorxuram. Ey camaat, ədalətlə rəftar edərək peymanə və çəkini düz edin. (Alverdə) xalqın alacağını az etməyin. Yer üzündə fəsad etməyə çalışmayın. (Düzgün alverdə) Allahın sizə verdiyi (nemətlər) sizin üçün daha yaxşıdır. Əgər imanınız varsa..."

Xoşbəxtlikdən uzaq olan o xalq onun caabında dedilər: -"Sənin namaz və dinin əmr edirmi ki, biz ata-babalarımızın ibadət etdiklərindən əl çəkək və öz mal-dövlətlətimizdə istədiyimiz kimi istifadə etməyək, doğrudan da sən səbirli və başa düşənsən..." Şüeyb onlara buyurdu: -"Ey camaat! Sizin fikrinizcə əgər mənim pərvərdigarımdan dəlilim olsa və mənə ruzi əta etmiş olsa (Onun itaətindən necə çıxa bilərəm)?!. Mən istəmirəm ki, sizə qadağan etdiyim şeydə (əməl etməklə) sizinlə müxalifətçilik edəm. Mənim hədəfim bacardığım qədər islah etməkdir. (Mənim öz dəvətimdə) Tovfiq təkcə Allahın iradəsi ilədir. Yalnız Ona təvəkkül edir və yalnız onun dərgahına üz tuturam. Ey camaat! Mənimlə müxalifət və düşmənçilik etmək Nuhun, Hudun, Salehin və Lutun qövmünə gələn bəlanın sizə gəlməsinə səbəb olmasın! Öz Pərvərdigarınızdan bağışlanmaq istəyib onun dərgahına üz tutun və tövbə edin! Həqiqətdə mənim Pərvərdigarım rəhimli və mehribandır. "("Hud" surəsi, 89-96 ayələr).

Amma onlar bu böyük Peybəmbərin cavabında boş sözlərindən əl çəkməyərək, dedilər:

-"Ey Şüeyb! Biz sənin dediklərinin çoxunu başa düşmür və səni öz aramızda gücsüz görürük. Əgər qohumların və tayfan olmasaydı, səni daşqalaq edərdik. Özünə gəldikdə isə sən bizim üçün əziz (və hörmətə layiq) deyilsən.

Şüeyb (ə) güclü məntiqlə və möhkəm dəlillə onlara cavab verərək buyurdu: -"Ey camaat! Mənim tayfam sizin üçün Allahdan əzizdirmi və onu yaddan çıxarmısınız? Mənim Allahım sizin dediklərinizə agah və əhatəlidir. Ey camaat! (İndi ki, belədir), hər nə bacarırsınızsa onu da edin. Mən də öz vəzifəmə əməl edəcəyəm. Tezliklə xaredici əzabın kimə yetişəcəyini görəcək və kimin yalançı olduğunu biləcəksiniz: -Siz gözləyin mən də sizinlə gözləyirəm.(2) Yəni siz Allahın vədə verdiyi əzabı gözləyin, mən də o əzabın sizə gələcəyini gözləyirəm.

İbn Abbas demişdir: -"Yəni, siz əzabı gözləyin, mən də haqqın rəhmət və köməyini gözləyirəm. Hər halda, Allahın göndərdiyi peyğəmbər yalançı adlandırmağın nəticəsi Pərvərdigarın buyurduğudur: -"Bizim əmrimiz gəldiyi zaman Şüeyb və ona iman gətirənlərə öz rəhmətimizlə nicat verdik. Zülm edənləri isə asimani bəla əhatə etdi. Onlar öz evlərində cansız olaraq qaldılar. Sanki heç zaman orada olmamışlar. Hudun qövmü məhv olduğu kimi, Mədyən camaatı da tələf oldular". ("Hud" surəsi, 89-96 ayələr). Bunun ardınca əksər peyğəmbərlərin öz ümmətlərinə dedikləri sözü qövmünə xatırladaraq buyurdu: -"Mən öz peyğəmbərliyimə görə sizdən heç bir muzd istəmirəm. Mənim mudzüm

təkcə aləmlərin Pərvərdigarının öhdəsinədir". Daha sonra öz vəzifəsini onlara agah edib buyurdu: -"Ey camaat! Çəkidə düz verin və azaltmayın. Tərəzidə düz çəkin. Xalqın aldığını azaltmayın. Yer üzündə fəsad törətməyə çalışmayın. Sizi və sizdən qabaqkı insanları yaradan Allahdan qorxun!". ("ŞΪəra" surəsi, 177- 187)

O, camaat həyasızcasına Şüeybə belə cavab verdilər: -"Doğrudan da sənə cadu ediblər, sən də bizim kimi (adi) bir insansan, biz sənin yalançı olmağını düşünürük."

Sonra öz həyasızlıqlarında daha da ifrata varıb dedilər: -"Əgər düz deyirsənsə, asimanın bir hissəsini bizim üstümüzə at!"

Şüeyb (ə) onların cavabında buyurdu: -"Mənim Pərvərdigarım sizin etdiklərinizə daha alimdir". Allah taala onların sonunu belə nəql edir: -"Onlar Şüeybi təkzib edib yalançı adlandırdılar və günün əzabına (atəş saçan kölgə əzabına) düçar oldular. Həqiqətən də (bu gün) böyük əzab günü idi. Bu hadisədə ibrət vardır. Onların çoxusu mömin deyildilər." ("ŞΪəra" surəsi, 187- 191)

## Şüeybin kor olması

Bəzi təfsirçilər "Hüd" surəsinin 92-ci ayəsinin -"Biz səni öz aramızda zəif görürük" təfsirində belə deyirlər: -"Onların bu sözünün səbəbi Şüeybin kor olması idi. Onların "zəif və gücsüzdür" -dedikdə məqsədləri onun görmə qabiliyyətini əldən verməsi idi. Təbəri bu sözü öz kitabında Səid ibn Cübeyr və başqalarından nəql etmişdir.

"Kamülut-təvarix"in müəllifi də bu sözü qeyd etmişdir.

Lakin bunların qarşısında başqa təfsirçilər Şüeybin (ə) kor olmasını inkar etmiş, peyğəmbərlərinin xalq arasında nifrət yaradan xəstəliklərdən uzaq olmalarını sübut gətirmişlər. Onlar kor olmağı xalq arasında nifrət yaradan xəstəliklərdən sayaraq, o həzrətin kor olmasını inkar etmişlər.

Bu kimi təfsirçilərin qarşısında başqa bir qrup da birinci dəstənin tərəfdarlığına qalxmış, korluğun xalq arasında nifrət yaradan xəstəliklərdən olmamasını deyərək, bütün peyğəmbərlərin (ə) ona düçar ola bilməsi ehtimalını irəli sürmüşlər və demişlər ki, bu xəstəlik onların ilahi vəzifələrini yerinə yetirməsinə mane olmamışdır.

Şeyx Səduq "İləluş-şəraye" kitabında Rəsuli Əkrəmdən (ə) bir hədis nəql etmişdir ki, onun düz olduğu təqdirdə hər iki dəstənin nəzəriyyəsini düzgün hesab edə bilərik, beləliklə də qarşıya çıxan müşkül bir qədər həll olmuş olar. O, öz sənədi ilə Ənəsdən, o da Allahın Rəsulundan (s) belə rəvayət edir: -"Şüeyb Allaha olan eşqinə görə o qədər ağladı ki, axırda gözləri tutuldu. Allah onun görmə qabiliyyətini yenidən ona qaytardı. Ancaq Şüeyb yeidən o qədər ağladı ki, gözləri (ikinci dəfə) kor oldu. Allah təzədən körmə qabiliyyətini ona qaytardı. Şüeyb yenə də ağlayaraq kor oldu. Üçüncü dəfə də pərvərdigar onun gözlərini ona qaytardı. Bu iş dördüncü dəfə təkrar olunduqda Allah ona belə vəhy etdi: -"Ey Şüeyb! Həmişə belə ağlamaq istəyirsən?! Əgər sənin qorxun cəhənnəm odundadırsa Mən sənə pənah verərəm, yox əgər behişt eşqindəndirsə onu sənin üçün mübah edirəm!"

Şüeyb cavabında dedi: -"Ey mənim məbudum! Ey mənim ağam! Sən Özün bilirsən ki, mən cəhənnəm qorxusu və behişt arzusundan ağlamıram! Mən Sənin aşiqin olmuşam, özümü saxlaya bilmirəm. Fəqət Sənə çatmaq istəyirəm!" Pərvərdigar da ona belə vəhy etdi: -"Əgər belədirsə Mən öz kəlimim Musanı sənə xidmətçi göndərirəm.

Mərhum Məclisi bu hədisin şərhində deyir: -"Kamil mərifət istəyi, istedad bacarıq və bütün qüvvə ilə olmuşdur. Yəni, daim Sənin eşqindən ağlayır, bu yolla mərifət və yəqinin yüksək həddinə çatmaq istəyirəm. Yəqinə çatmaq- haqqı görmək kimi ifadə olunur.

## Şüeybin qovmuna əzabın nazil olma səbəbi

Rəvəndi (r.ə) imam Səcaddan (ə) nəql edir ki, o Həzrət belə buyurmuşdur: -"İlk dəfə tərəzi və peymanəni öz qövmü üçün düzəldən həzrət Şüeyb (ə) olmuşdur ki, bundan sonra onlar peymanə və tərəzi ilə işləməyə başladılar. Bir müddət keçdikdən sonra (tərəzidə) az verməyə başladılar. Bu da ilahi əzaba səbəb oldu."

Rəvəndinin Vəhb ibn Münəbbih və başqalarından nəql etdiyi rəvayətdə qeyd edilir ki, Şüeyb, Əyyub və Bəl'əm ibn Baura ki, İbrahimin Nəmrudun odundan nicat tapdığı gün ona iman gətirən və onunla birlikdə Şama hicrət edənlərin övladı idilər.

İbrahim Lutun qızlarını onlara zövcə qərar vermişdi. Onun dediyinə görə İbrahimdən sonra və bəni İsraildən qabaq məbus olmuş peyğəmbərlərin hamısı onların nəslindən olmuşdur. Mütaal Allah

Şüeybi Mədyənə göndərdi. Mədyən əhalisi onun qohum və qəbiləsindən deyildilər. Bu zaman onlara zəmanəsində bir kəsin qarşılaşa bilməyəcəyi zalım bir padşah hökumət edirdi.

Yuxarıda adı çəkilən camaat çəkidə az verir, xalqın aldıqlarını azaldırdılar, bunlardan əlavə dünyanı yaradan Allaha kafir olur və İlahi Peyğəmbərləri yalançı adlandırır, haqq qarşısında təkəbbürlük edirdilər. Özləri üçün çəkdikləri zaman peymanə və tərəzini düzəldirdilər.

Onlar adi həyat sürürdülər. Padşahları onlara yemək məhsullarını yığıb saxlamaqla və az çəkməyi tapşırdı. Şüeyb onlara öyüd-nəsihət etməyə başladı. (Az verməkdən çəkindirdi). Padşah Şüeybi çağırıb dedi: -"Mənim əmrimi qarşısında nə fikirdəsən? Ondan razısan, ya yox? Şüeyb dedi: -"Mütaal Allah mənə vəhy etmişdir ki, hər zaman bir padşah sənin kimi rəftar etsə, onu "facir padşah" çağırırlar." Padşah onu yalançı adlandırıb qohum-əqrəbası və tayfası ilə birlikdə şəhərdən çıxartdırdı. Məhz bu zaman ilahi əzab nazil oldu.

## Şüeybin qovmunun cəzası

Qur'ani-Kərimin ayələrin də deyildiyi kimi (mübarək Əraf surəsində) Şüeybin qovmunun əzabı "Rəcfə" -yəni zəlzələ olmuşdur. "Hud" surəsində buyurur: -"Onları Seyhə (asimani əzab) tutdu." Şüəra surəsində əzab "Yəvmuz-zullə" adlandırılmışdır. Yəni yandırıcı kölgə.

Əvvəldə qeyd etdiyimiz kimi, bəzi təfsir və tarix alimləri demişlər: -"Şüeyb iki dəfə xalqa yol göstərib təbliğ etməyə məmur olmuşdu. Birinci dəfə Mədyən camaatı, digəri isə Əshabi Əykə üçün." Bunlar deyirlər: -"Mədyən camaatı "Rəcfə" və zəlzələyə, Əshabi Əykə isə "Yəvmuz zullə" əzabına duçar olmuşdular. Lakin başqaları belə deyirlər ki, Mədyən və Əshabi Əykə camaatı eyni bir xalq idilər. "Zəlzələ" və "Yamuzzullə" əzablarının hər ikisi də həmin xalqa nazil olmuşdur. Belə ki, əvvəldə zəlzələ baş vermiş,onun ardınca isə yandırıcı bulud onlara kölgə salaraq hamısını həlak etmişdi.

İbn Abbas və başqaları deyirlər: -"Şüeybin qovmu şiddətli və yandırıcı istiyə düçar olmuşlar. Evlərinin daşları və sular da onları o əzabdan xilas edə bilmədi. Onlar da qızışmışdı. Bu vaxt Allah sərin külək əsdirən bir bulud göndərdi. Camaat o buludun altına yığılıb xilas olmaq istədilər. Başqalarını da öz yanlarına çağırdılar. Hamısı bir yerə yığıldıqdan sonra buluddan atəş yağmağa başladı, torpaq ayaqlarının altında lərzəyə gəldi. Başlarına göydən atəş yağmağa, ayaqlarının altından isə torpaq titrəməyə başladı, hamısı yanıb külə çevrildi. Beləliklə dünya həyatları sona çatdı.

Vəhb deyir: -"Mütəal Allah onlara yandırıcı isti göndərdi. Doqquz gün şiddətli istinin əzabına mübtəla oldular. Suları içilməsi mümkün olmayan isti həmimə dönmüşdü. Bu zaman Allah onlar üçün bir bulud göndərdi. Hamısı onun altına toplaşdılar. Allah təala o buluddan onların başına atəş yağdırdı. Bir nəfər belə ondan canını qurtara bilmədi.

Beləliklə, deyə bilərik ki, zəlzələ və yandırıcı buludun əzabına düçar olanlar Mədyən ya Əshabi Əykə olmuş, hər iki əzab onlara göndərilmişdir. "Hud" surəsində olan "Seyhə"dən məqsədin də göyün guruldaması, yaxud Cəbrayılın (ə) seyhəsi çəkməsi mümkündür. Bu Seyhə, əzab onlara nazil olmamışdan, yaxud məhv olmamışdan qabaq onlara yetişmişdi. Bəzi təfsirçilərin dediyi kimi "Seyhə"dən məqsəd onların həlak və məhv olmasıdır. Belə ki, ərəblər məhv olmuş qövmün haqqında "Sahəz zəmanu bihim", yəni "O qövüm məhv oldu"- :deyirlər.

Həzrət Şüeybin (ə) Mədyən camaatı üçün göndərdiyi elçinin əhvalatı

Ravəndinin "Qisəsül-Ənbiya" və başqa kitablarda müəyyən qədər ixtilaflı olaraq belə gəlmişdir: -"Hişam ibn Əbdül-Məlikin vaxtında Fələstin torpaqlarında kanal çəkmək üçün bir yeri qazdılar, bir kəllə sümük tapıb onun ətrafını qazdılar. Bu zaman ağ paltara bürünərək daşın üstündə oturmuş bir kişini müşahidə etdilər. Başında yara vardı, sağ əlini onun üstünə qoymuşdu. Yeri qazanlar onun əlini yaranın üstündən götürdülər. Bu vaxt yaradan qan axmağa başladı. Əlini boşladıqları zaman yenidən yaranın üstünə qalxdı və qan kəsildi. Paltarına diqqət yetirdikdə üstündə belə yazını gördülər: -"Mən Şüeybin öz qövmü üçün göndərdiyi elçiyəm. Onlar məni döyüb əzab-əziyyət verdikdən sonra bu quyuya ataraq üstümə torpaq tökdülər."

Bu əhvalatı Hişama xəbər verdilər. O, cavab yazaraq onun üstünə yenidən torpaq tökmələrini və kəhriz üçün başqa yeri qazmalarını tapşırdı.

## Həzrət Şüeybin ömrü

Bəzi rəvayətlərdə deyilir ki, qövmü nabud olduqdan sonra Şüeyb (ə) ona iman gətirənlərlə birlikdə Məkkəyə gələrək ömürlərinin axırına qədər orada qaldılar.

Başqa bir rəvayətdə isə belə deyir: -“Şüeyb camaat məhv olduqdan sonra Mədyənə gəldi. Mədyəndə olduğu zaman Musa o şəhərə gələrək onunla görüşdü və qızları ilə evlənmək məsələsi qarşıya gəldi.”

Musanın Mədyənə gəldiyi zaman görüşdüyü və qızı ilə evlənmə barəsində müzakirə etdiyi adamın Şüeyb (ə), yaxud başqa bir adamın olması barədə ixtilaf vardır. (O başqa adam həzrətin qohumlarından, yaxud ona iman gətirənlərdən idi). İnşaallah, bu barədə daha ətraflı bəhs edəcəyik.

Şüeybin ömrü haqqında da ixtilaf vardır. İbn Abbasdan nəql olunur ki, Şüeyb 242 il ömür sürmüşdür. Bəzi rəvayətlərdə o həzrətin daha çox ömür sürdüyü deyilmişdir.

## Şüeybin (ə) dəfn olunduğu yer

Tarix və rəvayətlərdə Şüeybin (ə) dəfn olunduğu yer barsində bir şey qeyd olunmamışdır. Bircə bunu qeyd etmək olar ki, Əbdul Vəhhab Nəccar özünün “Qisəsül-Ənbiya” kitabında yazır: -“Həzrəmutda bir qəbir vardır ki, oranın əhalisi o qəbrin Şüeybin (ə) olmasına inanırlar. Bu qəbir Şəbamın şimalında yerləşir və oradan Şəbama qədər iki saatlıq yol vardır . O qəbri ziyarət etmək üçün “İbn Əli” vadisindən keçmək lazımdır. O qəbrin ətrafında heç bir abadlıq yoxdur. Heç kəs o qəbrin ziyarətiən getmir. Axırda əlavə edib deyir: -“Mən bu qəbrin Şüeybin (ə) olması barədə şübhə edirəm.

XVI FƏSİL

# Musa(ə)

Musanın (ə) əhvalatına başlamazdan əvvəl Bəni-İsrailin Misir dövlətindəki vəziyyətinə nəzər salmaq lazımdır. Bu araşdırmada onların qibtilər və zəmanələrinin Fir'onu tərəfindən mə'ruz qaldıqları işgəncələrdən xəbərdar olacaq, daha sonra Musa (ə) və Harun (ə) şərhi-halını bəyan edəcəyik. Əvvəlki bəhslərdə qeyd etdiymiz kimi qardaşları Yusifi (ə) tanıdıqdan sonra onlara Kən'ana qayıtma əmrini verdi və onlardan öz ailələrini onun yanına gətirmələrini istədi. Bu əmrdən sonra Yəqub (ə) öz ailəsi ilə Misirə gəldi. Yusif (ə) o zamanın Misir padşahından- Fir'ondan Casan torpaqlarının onlara verilməsini istədi. Casan qoyun və dəvələr üçün otlaq yeri idi. Onlar həmin ərazilərdə məskunlaşdılar. Bəziləri demişlər ki, Yusifin bu istəyinin səbəbi Yəqub (ə) övladlarını mümkün qədər bütpərəst dinində olan Misir əhalisindən uzaq etmək olmuşdur. O hər yolla çalışırdı ki, təkallahlıq əqidəsi onlarda qalsın. Yəqub (ə) öz övladları ilə o məntəqəyə gedərək Misir dövlətində yeni həyata başladılar. İsrail xanədanının sayı (Tövratda deyildiyinə görə) yetmiş nəfər idi. Onların sayı get-gedə artır, yeni evladlar dünyaya gəlirdi. Belə vəziyyət (orada qalmaları) on yeddi il davam etdi. Nəhayət, Yəqub (ə) dünyadan getdi. Vəsiyyətənə görə onun cənazəsini Fələstinə aparıb orada dəfn etdilər. Yəqub (ə) dünyadan getdikdən sonra İsrail övladları Yusifin (ə) başçılığı altında öz şad və xürrəm həyatlarına davam etdilər. Yusif (ə) o zaman Misir xalqının nəzərində ən sevimli şəxs idi. Övladlarının sayının artması nəticəsində böyük bir tayfaya çevrilərək ətrafdakı torpaqların çox hissəsini ələ keçirdilər. Bu əzəmət və rahatlıq çox çəkmədi. Yəqubun (ə) vəfatından (müxtəlif rəvayətlər görə iyirmi, yaxud otuz ildən) sonra Yusif (ə) dünyadan getdi. Tədrici olaraq Fir'onlar tərəfindən zillət və əzaba düşməyə başladılar İsrail övladlarının çoxalmaları. Yusifdən (ə) sonra iş başına gəlmiş Misir padşahını vəhşətə saldı. Tövratda deyildiyi kimi, onların Misirin düşmənləri ilə birləşərək qiyam etmələrindən qorxuya düşdülər. Elə bu səbəbdən də onlara əzab-əziyyət verir, öldürməyə və pərakəndə salmağa başladılar. Onlara hər cür təhqir və əzabı rəva gördülər. Xüsusilə də Musanın zamanında dünyaya gəlmiş Fir'on hamıdan artıq onlara zülm edirdi: övladlarını qətlə yetirir, onların nəslini yer üzündən kəsmək istəyirdi. Fir'on bütün çətin işləri o cümlədən hamballıq, bənnalıq, süpürgəçilik və s. kimi işləri onlara verilməsini, tapşırmışdı. Onların üstündə mə'mur qoymuşdu ki, bir an belə işsiz dayanmamalarını və istirahət etməsinlər. Dükan-bazara lazım olanları, xidmətçiləri İsrail övladlarından seçirdilər. Torpaqları əkinə hazırlamaq üçün onların kişi və qadınlarından istifadə edirdilər. Şah saraylarının və əhalinin evlərinin qorunması və təhlükəsizliyi onların öhdəsində idi. Bütün təmizlik işləri onların vəzifəsinə çevrilmişdi. Bir sözlə, bütün çətin və alçaldıcı işlər onlara həvalə edilmişdi.

Qur'ani-Kərim "Bəqərə", "Əraf", "İbrahim" kimi surələrdə Bəni-İsrailə verilən nemətləri sadalayarkən onların acınacaqlı vəziyyətinə də işarə etmişdir. "Bəqərə" surəsində onlara əta edilən ikinci neməti acınacaqlı vəziyyətdən nicat tapmalarını açıqlayıb buyurur: ("Bəqərə" surəsi, 49-№u ayə).

"Yadınıza salın o zamanı ki, biz sizi Fir`onlardan nicat verdik ki, sizi ağır işgəncəyə düçar etmişdilər. Oğlanlarınızı öldürür, qadın və qızlarınızı diri saxlayırdılar. Bu işdə pərvərdigarınızdan böyük imtahan vardı."

"Qisəs" surəsində Fir`onun Bəni-İsrailə verdiyi işgəncə və rəva gördüyü ehtiramsızlıqlara işarə edib buyurur: ("Qisəs" surəsi, 3-№Ї ayə).

"Həqiqtən Fir`on o yerlərdə ağalıq edir və xalqı firqələrə çevirmişdi. Bir dəstəsini xar edir və oğlanlarını öldürür, qadın və qızlarını diri saxlayırdı. Həqiqətdə o, fəsad edənlərdən idi."

Fir'onun bu tələbkarlıqlardan məqsədi nə idi ?

Fir'onun Bəni İsrailə bu qədər zülm etməsinin səbəbi barəsində ixtilaf vardır. Təkcə bunu tam əminliklə qeyd etmək olar ki, bunun səbəbi onların çoxalması nəticəsində Fir'onun devrilməsi qorxusu idi. Fir'on onların çoxalaraq Misir dövlətini onun əlindən alacaqlarından qorxurdu. Bu mətləbi Qur'ani-Kərimin "Qisəs" surəsindən başa düşmək olar. Orada yuxarıda qeyd olunan ayənin ardınca buyurur: -" Biz iradə etdik ki, onları, zəif olduqları yerdə minnət qoyaraq rəhbər qərar verək, onları (Fir'on torpaqlarının və mallarının) varisi edək, o torpaqlarda qüdrəti onlara verək və qorxduqları şeyləri Fir'on, Haman və onların qoşunlarına göstərək. (Yəni Fir'on və onun ardıcıllarına, işlərin onların əlində olmayacağını göstərək.) Əgər Biz istəsək bütün çətinlik, işgəncə, əzab-əziyyət, qətl, diri-diri torpağa

basdırılma və s. baxmayaraq onları nəhayətdə qorxduqları şeyə düçar edərik. Hökumət və qüdrətlərini Yəqubun (ə) övladları olan Bəni-İsrailin əli ilə dağıdacağıq. Baxmayaraq ki, bundan qabaq onları olmazın əzabları ilə xar edirdilər.

Bəzi təfsir və tarix alimlərinin dediyinə görə, Bəni-İsrail körpələrinin qətlə yetirilməsinin səbəbi onun gördüyü yuxu idi. Onlar deyirlər: -"Fir`on bir gecə yuxuda gördü ki, Beytül-Müqəddəs tərəfdən bir atəş gələrək misirlilərin və qibtilərin evini yandırdı. Atəş hər yeri yandırıb viran etdi, amma Bəni-İsrailə heç nə olmadı. Səhər ayıldıqda yuxusunu münəccimlərə, cadugərlərə və tə`birçilərə danışdı və onlardan yuxusunu açıqlamalarını istədi. Onlar dedilər: -"İsrail övladlarından bir uşaq dünyaya gələcəkdir ki, sənin səltənətin onun əli ilə viran olacaqdır. O, səni və sənin ardıcıllarını bu torpaqdan qovacaqdır. Artıq onun dünyaya gəlişi yaxındır.

Fir'on bu sözü eşitdikdə Misir ölkəsini uşaq götürənlərini bir yerə yığıb onlara hökm verdi ki, Bəni-İsraildən doğulan hər bir oğlan uşağının öldürsünlər. Bu işi görmək üçün xüsusi məmurlar da tə'yin etdi".

Bəziləri deyir ki, Fir'on belə bir yuxu görməmişdi. Amma Həzrət Musanın (ə) doğum zamanı çatdıqda münəccimlər Fir'ona xəbər verib dedilər: -"Biz öz elmimizlə bu nəticəyə çatmışıq ki, Bəni-İsraildən bir uşaq doğulacaq və sənə qalib gələcək, sənin səltənətini viran edəcəkdir. İndi onun doğum vaxtı yaxınlaşmışdır. Bu sözü eşidən Fir'on bəni İsraildən doğulan bütün oğlan uşaqlarının başının kəsilməsinə əmr verdi.

İbn Abbasdan nəql olunan rəvayətə görə Bəni-İsrail tayfası Misirdə çoxaldığı zaman tüğyan edib günah işlər görməyə başladılar. Onların yaxşıları da pislərə qoşuldu, əmr be məruf və nəhy əz münkər tərk olundu. Allah-taala qibtiləri onlara müsəllət edərək, onlara ağır əzab verdi.

İş nə ilə nəticələndi?

Bəni-İsrail övladlarının başının kəsilməsi ağlagəlməz bir həddə çatdı. Bu zaman Misir başçıları və Fir'onun yaxın adamları onun yanına gəlib dedilər: -"İş belə davam etsə Bəni-İsrail övladlarının başının kəsilməsi və qocalarının ölməsi ilə onların kişiləri tamamilə məhv olacaq və nəsilləri kəsiləcəkdir, nəticədə onların gördükləri işlər bizim öhdəmizə düşəcəkdir. Yaxşı olar ki, bu barədə başqa fikir edəsən. Fir'on vəziyyəti belə gördükdə uşaqların bir il öldürülüb növbəti ildə diri saxlanılması hökmünü verdi. Harun uşaqların öldürülmədiyi ildə, Musa isə oğlan uşaqlarının başının kəsildiyi ildə anadan oldu.

Səduqun İmam Sadiq (ə)-dan nəql etdiyi rəvayətdə o Həzrət buyurur: -"Fir`on öz səltənətinin Musanın əli ilə viran olacağı xəbərini eşitdikdə, kahin və münəccimləri çağırtdırıb Musanın nəsəbini onlardan soruşdu və onun Bəni-İsraildən olacağını bildi. Əmr etdi ki, Bəni-İsrailin hamilə qadınlarının qarınlarını yırtaraq körpələrini qətlə yetirsinlər. Bu yolla iyirmi mindən artıq körpəni həlak etdilər. Amma Allahın istəyi Musanı qorumaq olduğu üçün, onu öldürə bilmədi.

Vəhb ibn Münnəbinin dediyinə görə, Musanı ələ keçirmək üçün yetmiş min uşağın başını kəsdilər.

## Allahın istəyi

Amma Allahın iradə və istəyi Musanın dünyaya gəlib boya-başa çatması, kamala yetişməsi idi. Məhz onun əli ilə zülm görmüş həmin xalqı Fir'ona qalib etmək istəyirdi. Onların törətdiyi cinayətlərə və icad etdikləri çətinliklərə baxmayaraq, Allah o həzrətin nütfəsini atası İmrandan anasının rəhiminə köçürdü, hamiləlik dövrü sona çatdıqdan sonra onu dünyaya gətirdi. Allahın təqdiri ilə, o həzrət elə Fir'onun qucağında böyüdü.

Əbdül-Vəhhab Nəccar özünün "Qisəsül-Ənbiya" kitabında yazır: -"İmran (Musanın atası) Lavinin qızı Yukabidlə ailə qurdu. Allah bu evlənmədən Harun və Musanı ona verdi. Amma bəziləri bu mətləbi inkar edib deyirlər: -"Bibi ilə evlənmə bütün millətlərdə haram olmuşdur və Yukabid Lavinin nəvələrindəndir."

Hər halda bəzi tarixçilər Musanın nütfəsinin bağlanmasını belə yazmışlar: -"Münəccimlər Fir`ona xəbər verib dedilər: -"Sənin həlakətin, Bəni-İsraildən olan bir kəsin əli ilə olacaq ki, onun nütfəsi filan gecə bağlanacaqdır. Fir`onun əmri ilə həmin gecə Bəni-İsrail kişilərini arvadlarından ayırdılar.

Musanın atası İmran Bəni-İsraildən olmasına baxmayaraq, Fir'on hökumətində işləyirdi, onun yaxın adamlarından idi. O gecə Fir'onun sarayından gözətçilik etmə əmrini aldı. Gecə yarısı İmran arvadının onun yanına gəlməsini gördü. Hər ikisində əlaqədə olma istəyi yarandı və ilahi istək öz işini gördü. Musanın nütfəsi elə Fir'onun sarayının yanındaca bağlandı.

İmran Fir'onun qorxduğu işin elə onun vasitəsilə baş verdiyini hiss etdikdə, bu gecənin əhvalatını gizlətməyi öz arvadına tapşırdı və hadisənin sonrasını Allahın öhdəsinə qoydu.

Sabahı gün münəccimlər Fir'ona bütün ciddi nəzarətlərə baxmayaraq, həmin nütfənin Bəni-İsraildə bağlandığını bildirib dedilər: -"Çox çəkməyəcək ki, həmin uşaq dünyaya gələcəkdir."

Fir'on işi belə gördükdə Bəni-İsraildən dünyaya gələcək hər bir oğlan uşğınının qətlə yetirilməsini əmr etdi. Bu işə xüsusi adamlar təyin etdi. Uşaq götürənlərə də bu işi onlara xəbər verməsini tapşırdı.

Mərhum Səduq İmam Baqirdən (ə) rəvayət edir: -"Fir`on Bəni-İsrail övladlarının ölüm hökmünü verdikdən sonra onların kişiləri bir-birinə dedilər: -"Oğlan uşaqlarını öldürüb qızları diri saxlayacaqlarsa, onda biz də qadınlarımızdan çəkinib onlara yaxın düşməyəcəyik. Amma Musanın atası İmran dedi: -"Bu işi görməyin! Qadınlarınızla yaxınlıq edin. Çünki Allahın işi həyata keçəcəkdir. Müşriklər bunu istəməsələr də". Bu vaxt üzünü Allahın dərgahına tutub dedi: -"Pərvərdigara, başqaları qadını ilə yaxınlıq etməyi özünə haram etsə də, mən özümə haram etməyəcəm. Başqaları onu tərk etsə də, mən tərk etməyəcəyəm." Bunun ardınca Musanın anası ilə yaxınlıq etdi və o qadın Musaya hamilə oldu".

## Musanın (ə) viladəti

Bəli, Molla Cələləddinin sözü ilə desək Fir'on və onun ardıcıllarının acığına İmranın arvadı hamilə oldu.

Günlər keçir Bəni-İsraili Fir'onun zülmündən xilas edəcək şəxsin- Musanın viladəti yaxınlaşırdı. Həzrət Məhdi (ə.c) rəvayətlərinə müvafiq olaraq Yukabidin hamiləlik dövründə də onun hamilə olması zahirdə bilinmədi. Musanın (ə) dünyaya gəldiyi günə qədər bir kəs o qadının hamilə olmasını bilmədi.

Vəhb ibn Münəbbihdən nəql olunmuşdur ki, Musanın (ə) doğum ili çatdıqda Fir'on uşaq götürənlərə tapşırdı ki, bütün qadınları yoxlasınlar ki, onlardan hansının hamilə olmasını öyrənsinlər. Amma Allahın istəyi ilə Musanın anasında heç bir hamiləlik əsər-əlaməti zahir olmadı. Nə qarnı qabağa çıxdı, nə də rəngi dəyişdi, döşlərinə də süd gəlmədi. Elə buna görə də uşaq götürənlər ona heç bir söz demədilər. Musa (ə) dünyaya gəldiyi gecə bacısı Məryəmdən başqa heç kəs bunu bilmədi.

Səduqun nəql etdiyi rəvayətdə belə deyilir: -"Fir`on Musanın anası üçün xüsusi uşaq götürən nəzarətçi təyin etdi. O, hamilə olduqdan sonra rənginin gün-gündən saralmasının və arıqlamasının gördükdə, uşaq götürən ona dedi: -"Qızım, nəyə görə gündən-günə rəngin saralır, ətin əriyib gedir?

Musanın anası cavabında dedi: -"Axı mən uşaq dünyaya gətirsəm onu öldürəcəklər!"

Onun bətnində olan körpənin məhəbbəti qabilənin (uşaq götürənin) qəlbinə düşmüşdü, bu səbəbdən dedi: -"Qəm yemə, mən onun viladətini gizli saxlayacağam!"

Bəzi tarixçilər Əbdül-Vəhhab Nəccarın "Qisəsül-Ənbiya"da dediyi kimi, demişlər: -"Musa (ə) üç ay anasının yanında qaldı. Bu vaxt anası sirrin açılmasından qorxaraq Allah taalanın əmri ilə onu sandığa qoyub dəryaya atdı.

Mübarək "Taha" surəsində Mütəal Allah Musaya əta etdiyi nemətlərə işarə etdikdə buyurur: -"Sənə digər bir dəfə minnət qoyduq. Anana vəhy edərək "onu tabuta (sandıqçaya) qoyub dəryaya at" (dedik), dərya onu sahilə çıxarsın. Mənim və onun düşməni (onu) götürsün... ("Taha" surəsi, ayə 34-41)

Musanın anası Allahın əmrinə əsasən, sandıq hazırlamağa başladı. Bəzi rəvayətlərə əsasən, sandığın necə düzəldilməsini də Allah ona vəhy etmişdi. Bəzi tarixçilərin qeydinə görə bu işdə əslən "qibti" olan "Həzqil", ya "Həzbil"dən adlı dülgər kömək aldı. O, "qibti" olmasına baxmayaraq, tək olan Allaha inanırdı. Sandıq hazır olduqdan sonra Musanı pambıq və parçaya büküb sandığa qoydu, sandığın kənarlarını qırladı. Daha sonra bəzilərinin dediyinə görə, gecə ikən Nil çayının kənarına gəlib onu suya atdı.

Küləyin əsməsi nəticəsində yaranan ləpələr sandığı öz qoynuna aldı. Musanın anası ağlar halda bu mənzərəyə tamaşa edirdi. Rəvayətdə gəldiyi kimi, haldan gedib çığırmaq istədikdə, Allah, onun qəlbinə aramlıq əta etdi və o, özünü saxladı.

## Musa (ə) Fir‘onun evində

Nilin coşğun dalğaları sandığı özü ilə apardı. Musanın anası Allahın ona vəhy edib övladını ona qaytaracağına arxalanaraq qəlbi aram halda evə qayıtdı. İbn Əsir “Kamil”də deyir: -“Üç gün keçmədi ki, övladını görməklə ananın gözləri işıqlandı.”

Qur‘ani-Kərim “Qisəs” surəsində qısa şəkildə buyurur: -“Fir‘onun ailəsi onu (sudan) götürdü ki, onların düşməni və qəm-qüssələrinin səbəbi oldu. Həqiqətən Fir‘on, Haman və onların qoşunları xətakarlar idilər.” (“Qisəs” surəsi, ayə 7)

Səduqun İmam Baqirdən (ə) nəql etdiyi rəvayətdə belə buyurur: -“Fir`onun arvadı Bəni-İsrail qəbiləsindən olan saleh bir qadın idi. O günlər bahar fəslinə təsadüf etdiyi üçün o Fir`ondan Nilin kənarında onun üçün çadır qurmasını istədi. Fir`on əmr verərək həm özü və həm də onun üçün Nilin kənarında çadır qurulmasını tapşırdı. Nilə tamaşa etdiyi zaman gözü dalğaların üstündə gedən sandığa düşdü. Fir`onun arvadı kənizlərinə və yaxınlarına dedi: -“Mənim suyun üzərində gördüyümü siz də görmürsüzmü? Dedilər: -“Ey möhtərəm xanım, biz də suyun üzündə bir şey görürük”. Sonra qabağa gəlib sandığı tutdular. Sandığı açanda gözəl üzlü bir körpə gördülər. Elə ilk baxışdan o uşağın məhəbbəti Fir`onun xanımının qəlbinə düşdü. Onu qucağına alaraq dedi: -“Bu mənim oğlumdur.”

Təbəri və ibn Əsirin dediyinə görə, Nil çayı sandığı Fir‘onun evlərinə qədər gətirərək oradakı ağacların arasına saldı. Fir‘onun arvadı -Asiyanın kənizləri çimmək (üzmək) üçün ora getmişdilər. Bu zaman sandığı görüb Asiyanın yanına gətirdilər. Onlar güman edirdilər ki, onun içində var-dövlət vardır. Sandığı açdıqları zaman Asiyanı gözü uşağa sataşdı, onun məhəbbəti qəlbinə düşdü. Uşağı Fir‘onun yanına gətirib xahiş etdi ki, onu öldürməyib övladlığa götürsün. Bu iki tarixçi əhvalatın davamında deyirlər: -“Uşağın Musa adlandırılmasının səbəbi budur ki, “mu” ibri dilində “su” “sa” isə ağac mə‘nasındadır. O, su və ağac arasından götürüldüyünə görə Musa adlandırmışlar. Bu mə‘nanı mərhum şeyx Səduq “İləluş-şəraye” kitabında Müqatil İbn Suleymandan rəvayət etmişdir.

“İsbatul-vəsiyyə”də deyilir: -“Musanın anası uşağa dayəlik etmək üçün Fir`onun sarayına gəldi. Uşağı qucağına götürdüyü zaman ixtiyarsız olaraq dedi: -“Anan sənə qurban, ey Musa!” Bu sözü eşidən Fir`on bərk qəzəbləndi, o qadının uşağın anası olduğunu başa düşdü. Amma Allah bu sözlərlə onu dilə gətirdi. O, dedi: -“Onun sudan tutulmasını eşitdiyim üçün bu adla adlandırdım.” Bu sözü eşidən Fir`onun qəzəbi soyudu və dedi: -“Bəli, biz də onu Musa adlandıracağıq.” Bu rəvayətdən aydın olur ki, onun adı qabaqcadan qoyulubmuş. Bu söz daha düzgün və həqiqətə yaxındır (Ən yaxşısını Allah Özü bilir).

Bəli, Allahın təqdiri Musanı, onun ən böyük düşməni, minlərlə məsum uşağın qatili və minlərlə hamilə qadının qarnını yırtan adamın evinə daxil etdi. Allahın Asiyənin qəlbinə saldığı məhəbbətə görə, o uşağın tərbiyəsinə başladı. Qur‘ani-Kərim çox incə və gözəl bəyanla buyurur: -“Fir‘onun xanədanı onu (sudan) götürdülər ki, düşmənləri və qəm-qüssələrinin səbəbi olsun...” (“Qisəs” surəsi, ayə7- 8)

Yəni onlar bundan qafil idilər ki, sudan tutduqları o uşaq onların ən böyük düşməni zülm saraylarını dağıdan və Bəni-İsrailə onların zülmündən nicat verəcək adam olacaqdır.

Qur‘ani-Kərim Fir‘onun arvadı Asiyənin dilindən nəql edərək buyurur: -“Musanı Fir‘onun yanına gətirdiyi zaman dedi: -“Bu uşaq həm mənim və həm də sənin gözümüzün nurudur. Onu öldürməyin. Ola bilsin bizə xeyri dəyə, yaxud onu övladlığa götürək. Və onların xəbəri yox idi...” Yəni bu uşağın axtardıqları həmin şəxs olmasını bilmirdilər. Başqa bir hədisdə belə deyilir: -“Asiyə Fir‘ona : “Mənim və sənin gözümüzün nurudur” -dediyi zaman Fir‘on ona belə cavab vermişdi: -“Bu sənin gözünün nurudur, mənimsə ona heç bir ehtiyacım yoxdur.” Peyğəmbəri Əkrəm (s) buyurur: -“And olsun Allaha, əgər Fir‘on da Asiyə kimi bu cümləyə etiraf edib onu öz gözünün nuru saysaydı, Mütəal Allah onu da Musanın əli ilə -Asiyəni hidayət etdiyi kimi- hidayət edərdi...

Ayədən mə‘lum olan başqa bir mətləb Fir‘on və Asiyənin sonsuz olması məsələsidir. Tarixçilər və təfsirçilər də bu mətləbə təkid edirlər. Fir‘on və Asiyə Musanı görən kimi mehrini ona salıb övladlığa götürdülər. Amma Tövratda Fir‘onun bir qızı olması və Musanın sudan götürməsinə işarə olunmuşdur. Bəziləri ehtimal vermişlər ki, o Musanın zəmanəsində yaşayan Fir‘onun arvadı Yusifin zəmanəsində olan Fir‘onla qohum imiş.

İbn Abbasdan belə nəql olmuşdur: -“Fir`onun çox sevdiyi yeganə bir qızı var idi. O ağır “bərəs” xəstəliyinə tutulmuşdu. Həkimlər və sehrkalar müalicə yolunu təkcə dəryaya düşmüş uşağın ağız suyunu şəfa demişdilər. Onun ağız suyunu bu qızın bədəninə sürtməklə xəstəliyi sağalacaqdır.”

Bunun ardınca Fir‘onun qızının Nilin sahilinə gəlməsi və Musanı sudan götürməsini qeyd edərək deyir: -“Fir‘onun qızı o uşağın ağız suyunu bədəninə sürtüb sağaldı, bu da onun uşağa mehr-məhəbbət göstərməsinə səbəb oldu. Bunu görən Asiyə vasitəçilik edərək Fir‘onu onu öldürmək fikrindən daşındırdı. (Allah daha yaxşı bilir)...”

## Allah Musanı anasına qaytarır

Anası Musanı dəryaya atdıqdan sonra evə qayıtdı. Amma bir an belə öz əziz balasını yaddan çıxarda bilmirdi. Zehninə cürbəcür fikirlər gəlirdi. Sanki hər an: “uşağımın başına nə gəldi”- deyib fikirləşirdi. Görəsən indi balam haradadır? Nəhəng balıqlara yem olmuyub ki?! Yoxsa hələ də dalğaların qoynunda üzür?! Qayalara dəyib dağılmamışdır ki? Amma Allahın ruhoxşayan və`dəsi yadına düşəndə ürəyində arxayınlıq hiss edirdi. Beləliklə, təkcə oğlu ilə görüşəcək vaxtı düşünürdü. Bu müddətdə gördüyü yeganə iş qızı Məryəmə dediyi: -“Qardaşını axtar gör, başına nə gəlmişdir!” - sözü idi.

Məryəm axtarış apardıqda onun Fir‘onun ailəsi tərəfindən sudan çıxarılmasını öyrəndi və bildi ki, uşaq hal-hazırda Fir‘onun evindədir. Bir az da soraqlaşdıqdan sonra Allah onun məhəbbətini Fir‘onun zövcəsinin qəlbinə salmasını bildi. Və bunu da öyrəndi ki indi uşağa sud vermək üçün dayə bir axtarırlar, gətirilən qadınların heç birinin döşünü qəbul etməmişdi. Fir‘onun arvadı durmadan ona süd verə biləcək qadını axtarırdı.

Mütəal Allah bu mövzunu Musaya mərhəmət etdiyi nemətlər sırasında xatırlayıb buyurur: -“Süd verən qadınları qabaqcadan ona haram etdik.” (“Qisəs” surəsi, ayə 11.)Bacısı dedi: -”İstəyirsinizsə, ona baxmaq üçün bir ailəni sizə göstərim.

Bəli, Asiyə dərin məhəbbət bəslədiyi bu uşaq üçün dayə axtarmağa başladı. Amma Musa nədənsə gətirilən heç bir dayənin döşünü almadı. Bunu görən Asiyə çox narahat olub qəm-qüssəyə daldı. Arvadının qəm-qüssədən əzab çəkən Fir‘on dayə axtarmaq üçün hərtərəfə adam saldı. Uşaqları öldürülmüş südlü qadının çoxluğuna baxmayaraq (onların uşaqları Fir‘onun əmri ilə öldürülmüşdü) uşaq heç birinin döşünü almadı.

Səduqun İmam Baqirdən (ə) nəql etdiyi rəvayətə əsasən Musanın bacısı Fir‘onun evinə gəlib dedi: -“Eşitmişəm, uşağınızın tərbiyəsi üçün dayə axtarırsınız. Mən pak bir qadın tanıyıram ki, sizin uşağınızı layiqincə tərbiyə edə bilər! Məmurlar Fir‘onun arvadının xəbərdar etdilər. O, qızı saraya gətirməyi əmr etdi. Qız saraya daxil olduqda ondan soruşdu: -“Ay qız, hansı ailədənsən?” Cavab verib dedi: -“Bəni-İsraildən”.

Fir‘onun arvadı dedi: -“Ay qız, çıx get bizim sənə ehtiyacımız yoxdur!”

Oradakı qadınlar ona dedilər: -“İcazə ver, o qadını gətirsinlər, görək uşaq onun döşlərini qəbul edəcək ya yox?”

Fir‘onun arvadı dedi: -“Siz elə bilirsiniz ki, uşaq onun döşlərini qəbul etdikdə, Fir‘on Bəni-İsraildən olan bir uşağı elə həmin tayfadan olan bir qadına tapşırıb onu öz evinə apararaq onu böyütməsinə icazə verəcək? Yox, Fir‘on heç vaxt belə bir işə razı olmaz”.

Qadınlar təkid etdikdə Fir‘onun arvadı qıza dedi: -“Get o qadını gətir”.

Qız anasının yanına gəlib onu Fir‘onun sarayına apardı. Musanı ona verdikdə döşünü onun ağzına yaxınlaşdırdı. Uşaq həvəslə süd əmməyə başladı. Bu hadisəni müşahidə edən dedi: -”Uşağın üçün dayə tapmışam ki, döşlərini ağzına alıb süd əmir!”

Fir‘on dedi: -”Bu uşaq hansı ailədəndir?”

Dedi: -”Bəni İsraildən”

Fir‘on dedi: -”Həm uşağın, həm də dayənin Bəni-İsraildən olması mümkün deyildir!

Arvadı çox israrla xahiş edərək axırda onu razı sala bildi. O cümlədən, dedi: -”Bu uşağın sənin üçün heç bir qorxusu yoxdur. Digər tərəfdən də o sənin uşağındır. Sənin tərbiyən və əmrin altında böyüyəcəkdir.”

Fir‘on qəbul etdi. Beləliklə, mehriban Allah uşağı öz anasına qaytardı. Ana tam rahatlıqla uşağını böyüdüb tərbiyə etməyə başladı.

Allah təala Musanın uşaqlıq dövründə baş verən əhvalatların axırında buyurur: -”Biz onu anasına qaytardıq ki, gözləri şad olub qəm yeməsin. Bilsin ki, Allahın vədəsi haqdır, amma camaatın çoxu (bu həqiqəti) bilmirlər.”

Musanın anası uşağını evinə aparır...

Tarixçilər deyirlər: -"Fir`onun arvadı uşağın (həqiqi anasından) süd əmməsini gördükdə, Fir`ondan o qadının dayə olmasına razılıq alıb onun üçün aylıq maaş təyin etdirdi. Qadına dedi ki, sarayda qalsın. Amma Musanın anası uşağı qucağına alıb Allahın vədəsinə arxayın olduğu üçün sarayda qalmaqdan boyun qaçıraraq dedi: -"Mənim ailəm və uşağım vardır. Bircə bu uşağın tərbiyəsinə görə mən onları ata bilmərəm. Əgər istəsəniz mən bu uşağı evimə aparıb, orada ona süd verər və tərbiyəsi ilə məşğul olaram".

Fir'onun arvadı razı oldu. Beləliklə, Musanın anası əziz balasını evinə apararaq arxayınlıqla onun tərbiyəsi ilə məşğul oldu. Yuxarıda qeyd etdiyimiz kimi, uşağı sandığa qoyub Nilə atdığı vaxtdan Fir'onun evində qucağına alana qədər cəmi üç gün çəkmişdi.

Günlər, aylar ötdükcə Musa (ə) anasının nəvazişləri altında böyüyür, öz ailəsini sevincə qərq edirdi. Südəmərlik dövrü bitdikdən sonra onu Fir'onun evinə qaytardılar. Sözsüz bu müddət ərzində (tarixdə bu müddətin nə qədər olması dəqiq qeyd olunmayıb) Fir'onun arvadının istəyi ilə uşağı vaxtaşırı Fir'onun evinə aparır və onlar uşağı görürdülər.

## Fir'onun evinə qayıtma

Musa yenidən Fir'onun sarayına qədəm qoydu, uşaqlıq dövranını özünün ən böyük düşməninin himayəsi altında və ən gözəl ne'mətlərlə keçirməyə başladı. Fir'onun evində baş verən ən böyük hadisələrdən biri (bütün tarixçilərin və o cümlədən mötəbər olmayan rəvayətlərin qeyd etdiyi kimi) odur ki, bir gün Musa Fir'onun qucağında (və ya da qarşısında) oynayırdı. Birdən əlini atıb Fir'onun qalın saqqalını yoldu. Bəzilərinin dediyinə görə, əlinə ağac götürüb oynadığı zaman qəfildən onu yuxarı qaldırdı və Fir'onun başına vurdu. Fir'on acıqlanaraq dedi: -"Bu uşaq mənim düşmənimdir və məni öldürmək istəyir!" Bunu deyib uşaqların başını kəsən qatilin dalınca adam göndərib uşağı ona vermək istədi. Bu vaxt Fir'onun arvadı irəli gəlib dedi: -"O uşaqdır, başa düşmür. Mənim sözümün düzlüyünü bilmək istəyirsənsə onun qarşısına bir qab xurma (bəzilərinin də dediyinə görə yaqut) bir qabda qızardılmış od qoyaq. Əgər xurmanı götürsə deməli başa düşür. Bu halda onu öldürərsən. Yox, əgər isti odu götürsə, onda uşaqdır və heç nə başa düşmür".

Fir'on qəbul edərək bir qab xurma, bir qab da od gətirməyi əmr etdi. Xurma və odu onun qabağına qoydular. Musa xurmanı (ya yaqutu) götürmək istədikdə Cəbrayıl (ə) özünü yetirərək onun əlini oda tərəf apardı. Musa od parçasını əlinə götürüb ağzına qoydu. Dili yandığından tez onu yerə atdı. Bunu görən Fir'on onu öldürmək fikrindən daşındı. Bu tarixçilərinf dediyinə görə bu iş Musanın dilində pəltəklik yaranmasına səbəb oldu. Elə buna görə də Allah tərəfindən Fir'onu hidayət etməyə məmur olduğu zaman Allaha ərz edib dedi: -"Vəzlul uqdətən min lisani!" Yəni Pərvərdigara, dilimin düyününü aç! ("Taha" surəsi, ayə 27).

Amma bu əhvalat daha çox əfsanəyə oxşayır, onu təsdiqləyəcək mötəbər bir rəvayət də yoxdur. Bəziləri onu yəhudilər tərəfindən düzəldilməsini demişlər. Bu şərif ayənin də yuxarıda qeyd olunan mə'nanı ifadələməsi məlum deyildir. Çünki onun təfsiri sonrakı ayədə Musanın dili ilə deyilir: -"Yəfqəhu qəvli" Yəni dilimi aç ki, sözümü yaxşı başa düşsünlər. (Həqiqəti təkcə Allah bilir).

Hər halda, Musa uşaqlıq dövrünü Fir'onun evində başa vurdu, cavanlıq həddinə çatıb kamala yetişdi. Allah taala ona elm və hikmət öyrətdi. Yaxşılığının əvəzini Allahdan belə aldı. Bu lütfü "Qisəs" surəsində belə buyurur: -"Və (Musa) qüvvətə (və rüşdə) yetişib kamil olduqda ona hikmət və elm verdik. Yalnız (yaxşı) əməl sahiblərini belə mükafatlandırırıq." ("Qisəs" surəsi, ayə 13).

## Bəni-İsrailin gözü bir xilaskarın yoluna dikilmişdi

Keçən bəhslərdə qeyd etdiyimiz kimi, Fir'on və qibtilər Bəni-İsrailin yaşayışını çətinliyə salaraq onlara olmazın əzabları verir, oğlanlarını öldürüb qızlarını diri saxlayır, ən çətin və şəxsiyyəti sındıran işləri onlara tapşırırdılar. Onlara nəzarət etmək üçün ən kobud və sərt əxlaqlı məmurlar seçmişdilər. Kiçik bir səhlənkarlıq gördükdə güclü zərbələri ilə onları tənbih edirdilər. İsrail övladlarının onların yanında heç bir dəyər və hörməti yox idi, heç bir hüquqa da malik deyildilər.

Bəni-İsrail bütün bu çətinliklərə dözürdülər, ən çətin hallarda sapınacaqları bir kəs yox idi. Ümidləri təkcə əvvəlki peyğəmbərin vədə verdiyi xilaskara dikilmişdi. Peyğəmbərlər onlara vədə verib demişdilər: -"İşləriniz çətinliyə düşəndə və fir'onların zülmünə mə'ruz qaldığınız zaman Allah sizə Lavinin övladlarından olan Musa ibn İmranın əli ilə nicat verəcədir".

Mərhum Səduq İmam Sadiqdən (ə) belə rəvayət edir: -“Yusifin ölümü yaxınlaşdıqda Yəqubun övladlarını bir yerə yığıb (onlar səksən kişidən ibarət idilər) dedi: -“Tezliklə qibtilər qalib gələrək sizə hökumət edəcək, sizi işgəncə və əzaba salacaqlar. O zaman Allah Lavi ibni Yəqubun övladlarından olan Musa ibni İmranın əli ilə sizə nicat verəcəkdir. O uca boylu, enli kürək və buruq saçdır. Elə buna görə də israilli kişi oğlunun adını İmran, o, da öz oğlunu Musa adlandırdı.

Beşinci imam buyurur: -“Musa dünyaya gələnə qədər əlli nəfər yalandan özlərini vədəsi verilmiş Musa ibn İmran adlandırdılar.”

Başqa bir hədisdə dördüncü imam Rəsuli Əkrəmdən (s) rəvayət edir ki, Yusifin ölümü çatdığı vaxt öz ardıcılları və ailəsini bir yerə yığıb, Allaha həmd və səna etdikdən sonra onları qarşıda gözləyən əzabdan agah etdi və dedi: -“Sizin üçün çox böyük bir çətinlik yaranacaq: kişilərinizi öldürüb, hamilə qadınlarınızın qarnını yırtacaq və uşaqlarınızın başını kəsəcəklər, nəhayət Allah haqqı Lavi ibni Yəqubun övladlarından olan naibin vasitəsi ilə zahir edəcəkdir. O, enli kürək və uca boyludur. Onun xüsusiyyətlərini yaxşı yadda saxlamamalarını tövsiyə etdi.

Qaib olma dövrü və Bəni-İsrailin çətin günləri başladı. Dörd yüz il Musanın gəlişini gözlədir. Nəhayət onun viladət müjdəsi və zühurunun əlamətləri görsəndi.

İmam Baqir (ə) bir hədisdə buyurur: -“Bəni-İsrail aylı bir gecədə evdən çıxaraq keçmiş elmlərdən xəbərdar olan bir kişinin yanına gəlib dedilər: -”Biz gələcək barədə olan xəbərləri eşidib rahatlıq tapırıq. Biz bundan sonra nə qədər intizar çəkib yol gözləməliyik? Nə qədər bəlalar içində yaşamalıyıq?” Qoca dedi: -”Allaha and olsun! Allah təala Lavi ibni Yəqubun övladlarından olan Musa ibn İmranı göndərənə qədər siz bu çətinliklərdən əzab çəkəcəksiniz. O, uca boylu və buruqsaç bir oğlandır”.

Elə bu söhbət əsnasında Musa dəvəyə minmiş halda gəldi. Kişi başını qaldırdı. Musanın barəsində eşitdiyi nişanələrdən onu tanıyıb dedi: -“Adın nədir?” Dedi: -”Musa” Qoca kişi soruşdu: -“Kimin oğlusan?”

Musa dedi: -”İmranın oğluyam”

Kişi tez yerindən qalxıb onun əlini öpdü. Bəni-İsrail də onun ayaqlarını öpərək onu tanıdılar və Musanın ardıcıllarına çevrildilər.

Bu hadisədən bir müddət keçdi. Musa hələ də məxfi həyatına davam edirdi. Amma Bəni-İsraildən olan bir kişi ilə qibti bir kişinin dalaşması onun üzə çıxmasına səbəb oldu.

Allah bunun əhvalatını “Qisəs” surəsində bəyan etmişdir.

Musanın Misirdən çıxmasına bais olan hadisə

Qur‘ani-Kərim Musanın hicrət səbəbini israilli kişi ilə Qibtinin əhvalatını xülasə olaraq belə bəyan edir: “Musa heç kimin xəbəri olmadan şəhərə gəldi. Bu zaman iki kişinin dava etdiyini müşahidə etdi. Onlardan biri Musanın ardıcıllarından, digəri isə düşmənlərindən idi. Onun ardıcıllarından olan kişi Musanı köməyə çağırdı. Musa gəlib ona (düşməninə) bir yumruq vurmaqla onu öldürdü. Musa dedi: -”Bu Şeytanın işidir. Həqiqətən də o yoldan çıxaran, aşkar düşməndir.” Sonra əlavə edərək dedi: -”Pərvərdigara, özümə zülm etdim, məni bağışla!” Allah onu bağışladı. (Çünki) o, bağışlayan və rəhimlidir. Musa dedi: -“Pərvərdigara, mənə əta etdiyin ne‘mətin qarşısında zalimlərə arxa olmayacağıq. Həmin gecəni qorxu ilə sübhə çıxdı. Qəflətən dünən ondan kömək istəmiş kişi yenə də onu köməyə çağırdı. Musa ona dedi: -”Həqiqətən də, sən aşkar haqdan çıxmısan.” Hər ikisinə (bu kişiyə və düşməni olana) əl qaldırmaq istədikdə o kişi dedi: -“Məni öldürmək istəyirsən? Dünən də birini öldürmüsən! Sən deyəsən burada zülm edib zalım olmaq istəyirsən. Heç kəsi islah etmək istəmirsən.” (“Qisəs” surəsi, ayə 14-19)

Bu Qur‘ani-Kərimin xülasə nəql etdiyi hadisədir. Bunun bəzi yerlərinin peyğəmbərə məxsus olan “ismət və məsumluqla” düz gəlmədiyi üçün tənqidçilərin etirazına səbəb olmuşdur. Təfsirçilər bu barədə şərhlər vermiş, rəvayətlərdə isə onun üçün müxtəlif mə‘nalar qeyd olunmuşdur. Biz də öz növbəmizdə bu hadisəni rəvayət və tarix əsasında, olunan iradlara cavab verərək nəql edirik. Lazım olduqda, bəzi izahları da qeyd edəcəyik.

Tarixçilərin dediyindən məlum olduğu kimi, Bəni-İsrail onlara qabaqcadan verilmiş müjdələrə əsasən, Musadakı əlamətləri gördükdə başa düşdülər ki, artıq bədbəxtçiliklərinin sonu çatmışdır, Allah təala Fir‘onun evində böyümüş həmin qüdrətli cavanın əli ilə, onlara qibtilərin və Fir‘onların zülmündən nicat verəcəkdir. Elə buna görə də hər zaman onu görsəydilər hörmət edir, öz bədbəxtçiliklərindən ona şikayət edirdilər. O həzrət də fürsət yaranan kimi, onlarla görüşür, gələcəyə ümidlə baxmağı tövsiyə edirdi. Bəzən də imkan daxilində onların xeyrinə bə‘zi işlər də görür, bacardığı qədər zülmü onlardan uzaqlaşdırırdı.

Bir gün heç kimin xəbəri olmadan, Fir'onun məmurlarından gizlin şəkildə Misir, ya bəzilərinin dediyinə görə, Fir'onun dövlətinin mərkəzi olan "Mənəf" şəhərinə ("Qisəs" surəsi 14-19-cu ayələr) daxil oldu. Şəhərdə gəzərək zillət çəkmiş Bəni-İsrailin və öz ardıcıllarının vəziyyəti ilə tanış olmaq istədi. Bu zaman Bəni-İsraildən olan bir kişinin bir qibti ilə dalaşdığını gördü. Qibti Bəni-İsraildən olan kişiyə zorla bir iş gördürmək istəyir, o da öz növbəsində bu işdən imtina edirdi. Beləliklə, işləri dava-dalaşa çəkmişdi. Bəli-İsraildən olan kişinin gözü Musaya sataşdıqda ondan kömək istədi. Musa münasib vaxtda Fir'onun əleyhinə qiyam edəcəyi üçün bu münaqişəyə başlanmağı məsləhət görmürdü. O, heç bir xeyri olmayan bu davadan narahat olub dedi: -"Haza min əməliş şeytan, innəhu əduvvun muzillun mubin" Yəni, sizin bu əməliniz şeytan işidir. O, aşkar (dünyada haqq dinin irəliləməsi üçün) gümrah edicidir. Ya da onun məqsədi bu idi ki, qibtinin onu zorla işə məcbur edərək zülm etməsi, şeytanın işi idi. Bu sözün ardınca israilli kişinin köməyinə gedib qitbiyə bir yumruq vurdu.

Zərbədən qibtinin öldüyünü gördükdə üzünü Allahın dərgahına tutub dedi: - "Pərvərdigara, mən özümə zülm etdim. Sən məni bağışla." Allah da onu bağışladı. Özünə zülm etmək dedikdə məqsədi bu idi ki, Mən Bəni-İsrailin zülmə mə`ruz qalanlarından müdafiə edib haqqı aşkar etməkdə tələsdim. Qibtilərin əlində tez bir zamanda giriftar olmağıma şərait yaratdı. Beləliklə öz məqsədimi həyata keçirməkdə özüm üçün çətinliklər yaratdım. İndi Sən, mənə kömək et, bu əhvalatı Fir`on və qibtilərdən gizli saxla.

Ya da imam Rzadan (ə) nəql olunan rəvayətə görə məqsədi bu idi: -"Pərvərdigara! Bu şəhərə gəlməyimlə və bu hadisənin baş verməsilə özümü qibtilər tərəfindən təhlükəyə salmış və özümə zülm etmişəm. İndi Sən məni öz düşmənlərindən gizlət. Onlar məni tapa bilməyib, qibtini öldürdüyümə görə məndən qisas almasınlar. Sözün qısası, o həzrətin hədəfi Allahdan kömək istəmək idi. Onun məqsədi, "Pərvərdigara, mən günah etmişəm və məni bağışla!" demək deyildi. Bu sözün şahidi Allah təalanın buyurduğu bir cümlədir ki, onun ardınca deyir: ("Qisəs" surəsi, ayə 15-17)

Musa dedi:

-"Pərvərdigara, mənə verdiyin nemətlərə görə mən zalimləri müdafiə etməyəcəyəm".

Əgər Musanın (ə) işi günah olsaydı bu sözü deməzdi. Hər halda Musa (ə) o gecəni qorxu içində və nigarançılıqla keçirdi.Çünki o kişinin qətl xəbəri hər yerə yayılmışdı. Bəzilərinin dediyinə görə, o, Fir'onun xüsusi çörək bişirəni idi. Camaat onun Bəni-İsraildən bir nəfərin əli ilə öldürüldüyünü bilirdi. Qatilin Musa olmasını təkcə, İsraildən olan daha edən kişi bilirdi. Qibtinin ölüm xəbəri Fir'onun qulağına çatdıqda, qatili tapmaq üçün xüsusi adamlar təyin etdi. Bu işə görə xüsusi casuslar seçib şəhərin hər yerinə göndərdi.

Musa dünən baş vermiş hadisələrdən və vəziyyətdən nigaran idi. Tanınıb tutulacağından qorxurdu. Şəhərdə dolandığı zaman israilli kişini gördü. O, bu dəfə də başqa bir qibti ilə tutaqlaşmışdı. Gözü Musaya düşdüyü zaman yenə də kömək istədi. Dünənki hadisədən nigaran olan Musa üzünü o kişiyə tutub dedi: -"Həqiqətən də sən aşkar zəlalətdəsən". Bu sözdən onun hədəfi "sən hər gün öhdəsindən gələ bilməyəcəyin işdən tutub biriylə dalaşırsan. Beləliklə, onun məqsədi həqiqətən də aşkar haqdan uzaq olansan" demək idi.

Bu sözü deyib ona kömək etmək üçün qabağa gəldi. Qibti kişiyə hücum etmək istədi. Bu zaman israilli kişi Musanın onu vuracağını güman edib qışqırdı: -"Dünən o kişini öldürdüyün kimi, indi də məni öldürmək istəyirsən?!"

Bu sözü eşidən qibti kişi dünənki şəxsin qatilinin Musa olduğunu bildi və başa düşdü ki, məmur və casusların axtardığı adam məhz odur. Özünü məmurlara çatdırıb əhvalatı onlara danışdı. Musanın tutmaq üçün hamı bir yerə yığılıb onu axtarmağa başladılar. Bu zaman Həzbil (yaxud Həzqil) özünü Musaya çatdırdı. 10 O, "Fir`on ailəsinin möminі" adı ilə məşhur idi. Şəhərdən çıxmağı ona məsləhət gördü. Allah təala "Qisəs" surəsində onun Musanın yanına gəlib nəsihət etməsini belə bəyan edir: -"Bir kişi şəhərin axırından tez özünü yetirdi və dedi ki, ey Musa qövmün başçıları sənin haqqında (səni öldürmək üçün) tədbir tökürlər. Şəhərdən çıx, çünki, mən sənin xeyrini istəyirəm. ("Qisəs" surəsi, ayə 20) O həmin kəsdir ki, işə və sünnülər Rəsuli-Əkrəmdən (s) belə rəvayət etmişlər: -"Bütün ümmətlər arasında təkcə üç nəfər Allaha imam gətirməkdə hamıdan qabağa düşmüşlər:

1. Ali-Fir'onun mömini Həzbil. 2. Yasinin sahibi Həbib Nəccar, 3. Əli ibni Əbi Talib. O, bunların hamısından üstündür.

Musanın Misirdən çıxması

Belə bir hala düşən Musa qorxu və nigarançılıqla Misirdən çıxdı. Allahdan onu, zalım camaatın şərrindən saxlamasını istədi. O, vaxta qədər heç bir yerə səfər etməyən Musa kimi bir şəxsə bu

səfərin nə qədər ağır olması məlumdur. Nə yeməyə bir şeyi, nə də minməyə bir heyvanı var idi. Haraya, hansı tərəfə gedəcəyini də bilmirdi. Elə buna görə də bəzi tarixlərdə qeyd olunur ki, o, şəhərdən çıxdığı vaxt hara gedəcəyini bilməyib mat-məəttəl qaldığı zaman bir mələk gəlib onu Mədyənə tərəf hidayət etdi. Digər tarixçilərin dediyinə görə isə elə hara gedəcəyini bilməyə-bilməyə, mat-məəttəl halda hərəkət edib Mədyənə çatdı. Hər halda, çöllər və səhralarda sərgərdan qalmaması üçün Allahdan kömək istəmiş, Allah da onu Mədyənə tərəf istiqamətləndirmişdi.

Ümum tarixçilərin dediyinə görə o Həzrətin Misirdən Mədyənə gedərkən səkkiz gün yolda olmuşdur. Başqa bir hədisdə onun üç gün yolda olması qeyd olunmuşdur. Bu müddətdə o həzrət səhranın göy otları və ağaclarının yarpaqlarından qidalanırdı.

O qədər ot və yarpaq yemişdi ki, arıq qarnının dərisindən göylük hiss olurdu. Piyada yol getdiyindən ayaqları yaralanmış, qanamışdı. Bununla belə, hər an Allahı xatırlayır, Ondan kömək diləyir, müşküllərinin həll olunmasını Ondan istəyirdi.

Bir neçə günlük çətinlikləri arxada qoyaraq nəhayət, Mədyənin darvazasına yetişdi. Yorğunluğunu almaq üçün bir ağacın altında oturdu. Ağacın altında bir quyu vardı. Musa şəhərin əhalisinin qoyunlarını suvarmaq üçün oraya yığılmalarını gördü. Bu zaman gözü iki qadına sataşdı. Onlar da özləri ilə qoyunları gətirməsinə baxmayaraq, suvarmaq üçün yaxın gəlmir, başqa qoyunlara qarışmasınlar deyə onların qarşılarını almışdılar.

İnsansevərlik və qeyrət hissi onu kənardan durub baxmağa qoymadı. Yorğunluğuna baxmayaraq, irəli gəlib onlara dedi:

-"Nə işiniz var? Nə üçün durmusuz?". Bu suallarla onların vəziyyətini bilmək istəyirdi. Onlar Musanın cavabında dedilər:

-"Bizim atamız qoca bir kişidir. Qoyunları suvarmaq üçün quyunun kənarına gələ bilmir. Biz də qoyunları suvarmaq üçün kişilərin arasına girə bilmərik, onlara qarışmaqdan çəkinirik. İndi onların heyvanlarını suvarıb qurtarmasını gözləyirik. Sonra qalan su ilə heyvanlarımızı suvaracağıq."

Bunları eşidən Musanın qəlbi o qızlara yandı, irəli keçib su dolçasını dolduraraq onların heyvanlarına su verdi. Sonra öz yerinə qayıdıb əyləşdi. Onlar da qoyunlarını sürüb evlərinə apardılar.

Bəzilərinin dediyinə görə, Musanın su çəkdiyi quyu bütün çobanların su çəkdiyi quyudan ayrı idi. Musa vəziyyəti belə gördükdə, ağzında iri bir daş olan başqa quyunun yanına gəldi, onun ağzına qoyulan və on nəfərin gücü çatmayan daşı tək başına kənara atdı. Daha sonra o iki qadının heyvanlarını suvardı.

Digər bir rəvayətə görə, çobanların yanına gəlib dedi: -"İcazə verin, mən bir qab su sizin üçün çəkim, birini də özüm üçün." Onlar on nəfərin vasitəsi ilə çəkdikləri su qabını Musaya verib kənara çəkildilər. O həzrət də bir qab onlar üçün, birini də qızlar üçün su çəkdi.

Hər halda, qızları çox tez bir zamanda evlərinə yola saldı. Yerinə qayıdıb aclığından və öz halından Allaha şikayət etdi: -"Pərvərdigara! Mənim üçün göndərəcəyinə möhtacam!"

Əmirəl-möminin Əli (ə)-dan nəql olunan rəvayətdə həzrət buyurur: -"Musa o anda Allahdan aclığını aradan qaldıra biləcək çörəkdən savayı heç nə istəmədi. Başqa bir hədisdə imam Baqir (ə) buyurur: -"Musa o zamanda bir tikə xurmaya möhtac idi (və bununla aclığının qarşısını almaq istəyirdi)."

Bəli, o iki qız həmişəkindən tez evə qayıtdılar. Ataları tez gəlmələrindən təəccüblənib soruşdu: -"Nə olmuşdur ki, bu gün tez qayıtmısınız?" Qızlar dedilər: -"Quyunun kənarında əməlisaleh bir kişi vardı. Bizim vəziyyətimizi gördükdə bizə yazığı gəldi və qoyunlarımıza su verdi. Biz də (gördüyün kimi) tez qayıtdıq". Qəlbi nurani olan bu kişi qızlardan birinə dedi: -"Get, o kişini mənim yanıma gətir, gördüyü işin əvəzini (muzdunu) ona verim". Qızlardan biri həya və iffətlə onun yanına gəlib dedi: -"Atam səni çağırır. Qoyunları suvardığına görə sənə hədiyyə vermək istəyir".("Qisəs" surəsi, ayə 25)

Özünü qərib yerdə, tək və kimsəsiz, məskəni olmayan və bir tikə çörəyə möhtac görən Musa çarəsiz qalıb bu təklifi qəbul etdi. Ardınca düşüb qoca kişinin evinə çatdı.

Mədyən şəhərinin ahıl qocası həmin Şüeyb idimi?

İndiyə kimi Mədyən şəhərinin qocasının adını çəkməmişik. Səbəbi də tarixçilərin və təfsir alimlərinin onun adı haqqında etdikləri ixtilafdır. Çoxlarının fikrinə görə, o elə Şüeyb peyğəmbər olmuşdur ki, qabaqda onun haqqında danışıldı. Amma bəzilərinin fikrincə, o cümlədən Səid ibn Cübeyrdən nəql olunduğuna görə, onun adı Yəsrun, yaxud Yətrun, yaxud da Yəsri və Şüeybin qardaşı olmuşdur. Şüeyb ondan qabaq dünyadan getmiş Zəmzəmlə Məqamın arasında (Kəbə evinin kənarında) dəfn olunmuşdu.

İbn Abbasın nəql etdiyi rəvayətə görə, o, Şüeybin qardaşı Yəsrundur. Bunlardan başqa, bəzilərinin fikrincə, Şüeyb neçə illər, ya əsrlər Musadan sonra yaşamış və onunla eyni zamanda olmamışdır.

Məsum imamlardan (ə) nəql edilən rəvayətlər əsasına nəzərə çarpan daha düzgün sözü bundan sonra qeyd edəcəyik.

Təbərsi və başqaları Sələmət ibn Dinardan nəql etmişlər ki, Musa (ə) Şüeybin (ə) qızının ardınca yola düşdüyü zaman, qızın hansı yol və küçə ilə getdiyinə diqqət edib ardınca gedirdi. Bu zaman külək əsir və qızın bədəninin forması görsənirdi. Bu mənzərəni görmək ilahi peyğəmbərə çox ağır gəldi və məcbur olub başını aşağı salaraq yoluna davam etdi. Sonra bununla da kifayətlənməyib qıza dedi: -"Mən qabaqda gedirəm, sən də mənim ardımca gəl. Hər yerdə yolu səhv getdiyimi görsən, arxadan səslənib mənə de. Yaxud (bəzilərini dediyinə görə) hər yerdə mənim səhv etməyimi görsən, xırda bir daş ataraq yolu mənə göstər. Çünki biz Yəqub övladları qadınların arxasına baxmırıq.

Şüeybin evinə çatdıqda onun üçün yemək gətirməyi tapşırıb buyurdu:

-"Otur ye." Musa dedi:

-"Allaha pənah aparıram!" Şüeyb soruşdu:

-"Niyə? Məgər ac deyilsən?" Musa dedi: -"Əlbəttə ki, acam. Amma qorxuram ki, mənə verdiyim bu yemək gördüyüm işə görə olmuş ola. Biz Allah üçün gördüyümüz axirət işlərini heç nəyə satmarıq, hətta torpağı qızıl ilə doldursalar (və onun əvəzini versələr) belə.

Şüeyb dedi:

-"Yox, and olsun Allaha, bu yemək sənin işinin əvəzi deyildir. Əksinə, mənim və ata-babalarımın adəti qonağa layiqincə xidmət edib, xalqa təam verməkdir." Bu zaman Musa süfrə başında əyləşib yeməkdən yeməyə başladı.

Əbdül-Vəhhab Nəccar "Qisəsül-ənbiya"da bu əhvalatı Sələmət ibn Dinardan rəvayət etdikdən sonra deyir: -"Yaxşı əhvalatdır. Amma bir az diqqət yetirmək lazımdır. Musa, Şüeyb onu çağırtdırdığı zaman bilirdi ki, Şüeyb onun qoyunları suvarmasına görə mükafatlandırmaq istəyir. Elə buna görə də demək olmaz ki, Şüeybin yanına çatdıqda özünü bilməməzliyə vurub bu sözü dedi. Deməli, əhvalatın son hissəsinin düz olması məlum deyildir.

Hər halda, bir neçə saatdan sonra Musanın duası qəbul olundu. Təfsirçilərin qeyd etdiyi kimi, onun yeməyə olan ehtiyacı aradan qalxdı. Yeməkdən sonra Şüeyb onun halını soruşdu. Musa başına gələn əhvalatı onun üçün danışdı. Şüeyb onun könlünü alıb buyurdu: -"İndi heç nədən qorxma, zalımlardan nicat tapmısan." ("Qisas" surəsi, ayə 26).

## Musanın Şüeybin qızıyla evlənməsi

Şüeyb Musanın başına gələn əhvalatı eşidib gözəl əxlaqını gördükdə, mümkün olan yollarla onu öz yanında saxlamaq istədi. Qoyunlarını otarıb onlara baxmaqdan ötrü bir neçə il yoldan istifadə etmək fikrinə düşdü. Bu fikri hansı yolla ona çatdırmaq barədə fikirləşdiyi vaxt qızlarından biri (çoxlarının dediyinə görə böyük qızı) dilə gəlib dedi: -"Ata can, onu (işlərə baxmağa) əcir et. Ən yaxşı əcir o şəxsdir ki, güclü və əmanətdar olsun." ("Qisas" surəsi, ayə 26). Şüeyb üzünü qızına tutub buyurdu: -"Güclü olmasını suyu çəkib heyvanları suvarmasından bildin, amma de görüm, əmanətdar olmasını nədən başa düşdün?

Qız atasının cavabında onu evə gətirərkən baş vermiş əhvalatı danışdı. Qızın bu sözü Şüeybin irəli sürəcəyi təklifi üçün hər tərəfli təsirli oldu, öz təklifini belə başladı: -"Mən iki qızımdan birini sənə ərə vermək istəyirəm. Bu şərtlə ki, səkkiz il mənim üçün işləyəsən. Əgər on il işləmək istəsən (daha iki il artırmaq istəsən), öz ixtiyarınla bunu etmiş olarsan, (bu sənin mənim barəmdə etdiyin fəzilət olar. Amma mən on il işləməyə məcbur etmirəm). Sənim üçün çətinlik yaratmaq istəmirəm. İnşallah, mənim əməlisaleh insanlardan olduğumu, məni öz əhdimə vəfadar olacağımı görəcəksən. Həm də görəcəksən ki, mən xalqla tələbkarlıqla rəftar etmirəm.

Musa Şüeybin təklifini qəbul edib, cavabında dedi: -"Bu, bizim aramızdakı razılıq olsun. İki vaxtdan hər birini (səkkiz il, on il) başa vursam, mənə zülm olunmasın. Allah mənim dediyimə şahiddir.

Beləliklə, Musa Şüeybin kürəkəni oldu. Onun qızı (çoxsunun dediyinə görə, onun adı Safura idi) ilə evlənib Şüeybin yanında yeni həyata başladı, bütün vəfa və sədaqətlə ona xidmət etdi.

Musanın əsası

Deyilənlərə görə, Musa Şüeybin qoyunlarını otarmağa aparan zaman ondan əsa istədi. O əsa ili vəhşi heyvanları qovmaq, qoyunları sürmək istəyirdi. Şüeyb məşhur və möcüzəli əsanı ona verdi.

Musa o əsanı həmişə özüylə gəzdirirdi. Misirə gəldiyi zaman da həmin o əsanı Fir'onun qarşısında yerə atmış və əjdahaya çevrilmişdi.

Başqa bir rəvayətə görə əsanı Şüeybə bir mələk vermişdi. Musa (ə) ondan əsa istədiyi zaman Şüeyb qızına dedi ki, evə gedib əsanı gətirsin. Şüeybin qızı da evə gedib həmin əsanı gətirdi. Şüeybin gözü əsaya sataşdıqda, ona dedi: -"Bu əsanı qaytar, yerinə başqa əsanı gətir. Qız geri qayıdıb başqa əsa gətirmək istədikdə yenidən həmin əsa əlinə gəldi. Bu iş bir neçə dəfə təkrar olunduqda Şüeyb həmin əsanı Musaya verdi.

Təbərsi Abdullah ibni Sənandan nəql etdiyi rəvayətdə deyir: -"İmam Sadiqdən (ə) eşitdim ki, buyururdu: -"Musanın əsası behiştdəki "As" çubuğundan idi. Cəbrayıl onu Musa üçün gətirmişdi."

Kuleyni "Kafi" kitabında İmam Baqirdən (ə) rəvayət edir ki, o həzrət buyurdu: -"Musanın əsası Adəm (ə) Əbul-bəşərdən Şüeybə, Şüeybdən də Musa ibni İmrana çatdı. Həmin əsa indi bizdədir və bizim Qaimimizə (ə.c) çatacaqdır."

Seyyid ibni Tavusun o həzrətdən nəql etdiyi rəvayətdə deyilir: -"Həzrət Adəm o əsanı özü ilə behiştdən gətirmişdi."

Sə'ləbi "Əraisül-fünun" kitabında o əsa barəsində təəccüblü əhvalatlar rəvayət etmişdir. Məsələn: Musanın çöldə ondan çıraq kimi istifadə etməsi, su lazım olduğu zaman onu quyuya sallayıb onunla su çəkməsi, ac olduğu zaman onu yerə vurması və yerdən istədiyi hər bir şeyin çıxması və yeməsi və s. Başqa şeylər də vardır ki, əfsanəyə çox oxşayır... Həqiqəti təkcə Allah bilir.

## Vətənə qayıdış

Musa (ə) söz verdiyi kimi, Şüeybin yanında on il qaldı, öz vəzifəsini layiqincə yerinə yetirdi. Qərara alınan müddət tamam olduqdan sonra Şüeybin yanına gəlib dedi: -"Mən gərək vətənimə qayıdıb, ata-ana, bacı və qardaşlarımı görüm. Şüeyb onun vətənə qayıtması ilə razılaşdı. Musaya bir neçə qoyun da hədiyyə verdi. Musa hamiləliyin son günlərində olan zövcəsi ilə yola çıxdı. Şüeybin ona bağışladığı qoyunlarla Misirə tərəf hərəkət etdi.

Musa Şam hakimlərinin əlinə düşməmək üçün mümkün qədər yollardan uzaq hərəkət edir və çalışırdı ki, yollarla kəndlərə rast gəlməsin. Elə buna görə də soyuq bir gecədə yolu azdı. Güclü yağış nəticəsində qoyunlar ətrafa səpələndi. Musa özünü itirmişdi. Bu vaxt başqa böyük bir çətinlik onun qarşısına çıxdı: arvadının doğum sancıları tutmuşdu.

## Tur səhrasında

Musanın çətinliyə düşdüyü yer Beytül-Müqəddəsin cənubunda yerləşən Tur vadisi idi. Musa o yana-bu yana baxır, nə edəcəyini bilmirdi. Bu zaman Tur tərəfdən od gördü. Üzünü ailəsilə və yoldaşlarına tutub dedi: -"İndi sizə oradan bir xəbər, ya da bir parça od gətirərəm. Onun istisiylə qızışıb yolu taparıq." ("Taha surəsi" ayə 9-10)

Musanın ailəsi dayandı. O, isə oda tərəf yola düşdü. Yaxınlaşdığı zaman şölələnib yanan bir yaşıl ağac gördü. Yaxınlaşıb od götürmək istədikdə, od ona hücum etdi. Başqalarının dediyinə görə, od geri çəkildi. Bu iş Musanın qorxmasına səbəb oldu. Qayıtmaq istədi, amma yadına düşdü ki, oda ehtiyacı vardır. Çarəsiz qalıb ikinci dəfə oda tərəf getdikdə ağacın sağ tərəfindən ruhoxşayan bir səs qulağına gəldi: -"Mən tək olan Allah, aləmlərin pərvərdigarıyam. Ey Musa, Mən sənin Allahınam başmaqlarını çıxart çünki sən müqəddəs Tur vadisindəsən. Bil ki, Mən səni peyğəmbərliyə seçmişəm. Beləliklə, sən yetişən vəhyə qulaq as: Mən tək olan Allaham ki, Məndən savayı heç bir məbud yoxdur. Mənə ibadət et, Mənim adımla namaz qıl. Qiyamət gələcəkdir. Onu gizli saxlamaq istəyirəm. Hər bir kəs (önündə) gördüyü işə görə cavab verəcəkdir. Qiyamətə inanmayıb öz nəfsinə itaət edən səni yolundan saxlamasın ki, (əks halda) həlak olarsan!... ("Taha" surəsi ayə 12-18)

Bu nida Musanı fikrə daldırdı. Amma Allahın mərhəmət və lütfü onu əhatə etdi. Ötkəm qədəmlərlə səsə tərəf getdi. Yuxarıda qeyd olunan sözlərin ardınca bu səsi eşitdi: -"(Ona xitabən deyilirdi) Bu sağ əlində olan nədir?" ("Taha" surəsi, ayə 19).

Peyğəmbərliyə yetişməsini təzə dərk edən Musa, fürsətdən istifadə edərək həqiqi məhbubu ilə söhbəti daha da uzatmaq istəyib mənəvi ləzzət almaq üçün ağır-ağır dilləndi: -"Bu mənim əsamdır, ona söykənir, onunla qoyunlarım üçün ağacdan yarpaq tökürəm. Mən ondan daha başqa şeylər üçün istifadə edirəm." ("Taha" surəsi, ayə 17).

Bu sual-cavab burada sona çatmadı. Pərvərdigarın bu sualı vəhy risalətinin başlanğıcı idi. Bəlkə də Musanı təəccüblü möcüzəyə hazırlamaq istəyirdi. Buna görə, sözünün əsnasında əsasını atmağı əmr etdi. Bundan əlavə, Pərvərdigarın ölüləri necə diritməsini də ona göstərmək istədi.

Musa Allahın əmrinə itaət edərək əsasını yerə atdı. Bu vaxt onun əjdəhaya çevrilməsini gördü.. Yerə düşən kimi hərəkət etməyə başladı.

Musa Kəlimullah bu mənzərəni -əjdəhanı gördükdə vəhşətə düşüb qaçmağa üz tutdu. Amma Allah-təala "Tut onu, qorxma biz onu əvvəlki halına qaytaracağıq" -deməklə onu qaçmaqdan saxladı. O, ilahi tutmaq üçün geri qayıtdı.

Bəzi təfsirçilər belə demişlər: -"Musanın əynində yundan toxunmuş bir cübbə var idi. Əsanı tutmaq üçün cübbənin ətəyini əlinə tutub irəli gəldi. Bu vaxt yenidən səs gəldi: -"Ey Musa! Ətəyini burax! Heç bir qorxu olmadan ilanı tut."

Beləliklə Musa, Allah tərəfindən risalətə məbus olunmasına başa düşdü və bildi ki, əsa onun möcüzəsidir, lazımi yerdə ondan istifadə edib öz risalətinə şahid gətirməlidir.

Allahın ona əta etdiyi başqa bir möcüzə də bu idi: -"Əlini qoltuğuna sal. Əlində heç bir eyb olmadan parlaq halda çıxacaqdır. Bu da başqa bir möcüzə idi ki, Öz böyük nişanələrimi sənə göstərim." ("Taha" surəsi, ayə 24). Musa əlini qoltuğuna saldı. Çıxartdığı zaman qoltuğundan göz qamaşdırıcı nur ətrafı işıqlandırdı. Allahın vəhyi ilə bunun ikinci möcüzə olmasını ona risalətin təbliğ edilməsi üçün əta olduğunu başa düşdü. Allahın Kəlimi qulaq asıb aşağıda qeyd olunacaq cümlə ilə Allah təalanın böyük məmuriyyətini ondan aldı: -"Allah ona buyurdu: -"Fir`ona (və onun camaatına) tərəf get, çünki, o, həqiqətən tüğyan etmişdir. ("Taha" surəsi, ayə 26).

Bu zaman Musa onu əli ilə qətlə yetən Qibti kişini xatırladı. Digər tərəfdən, Fir'on və qibtilərin güc və qüdrəti yadına düşdü. Bu müşkülləri yadına salıb qardaşı Haruna ehtiyaclı olduğunu gördü. Pərvərdigar qarşısında yalvarışa gəlib dedi:

-"Pərvərdigara! Mən onlardan bir nəfəri öldürmüşəm qorxuram ki, məni öldürərlər. Qardaşım Harunun dili məndən fəsihdir. Onu mənə köməyə göndər. Məni təsdiq etsin. Qorxuram ki, məni yalançı adlandırsınlar." ("Qisəs" surəsi, ayə 34).

Şərif "Taha" surəsində o həzrətin Allahdan istəkləri belə gəlmişdir: -"Pərvərdigara, sinəmi genişləndir, işimi asan et, dilimin düyününü aç ki, sözümü başa düşsünlər. Mənim üçün, öz ailəmdən bir arxa (kömək) qərar ver qardaşım Harunu; arxamı onunla möhkəmlət, risalət vəzifəsində onu mənə şərik et ki, Sənə çoxlu təsbih deyək, Səni daha çox xatırlayaq, Sən bizi görürsən." ("Taha" surəsi, ayə 27-37).

Musa işinin qabağa getməsi və çətin vəzifəni yerinə yetirməsi üçün Allahdan daha artıq kömək istədi Mütəal Allah ona kömək və'dəsi verib qəlbinə təskinlik əta edərək cavabında buyurdu: -"İstədiyin sənə verildi." ("Taha" surəsi, ayə 38).

Sənin əlini qardaşınla möhkəm edib, sizə öz ayələrimizlə təsəlli veririk ki, sizə əlləri çatmasın. Siz və sizə itaət edənlər qalibdirlər. ("Qisəs" surəsi, ayə 36).

## İlahi fərmanın yerinə yetirilməsi

Rəvayətə görə, Musa (ə) ilahi əmri aldıqdan sonra nübüvvət məqamına yetişdi, arvadının yanına gəldi. Bir neçə gün sonra onu, təzə dünyaya gəlmiş körpə ilə Mədyənə yollayıb özü Misirə tərəf yolladı. Bəzilərinin dediyinə görə, onları elə həmin səhrada qoydu. Bir neçə gün sonra Mədyən çobanlarından biri ora gəldikdə onları tanıyıb özü ilə Mədyənə -Şüeybin yanına apardı. Onlar Fir'on qərq oluna qədər Şüeybin yanında qaldılar. Musanın (ə) Bəni-İsraillə dəryanı keçməsi xəbəri Şüeybə çatdıqda onları Musanın yanına göndərdi. Başqa bir rəvayətə görə, Musa onları özü ilə Misirə apardı. Allah taala və'də verdiyi kimi, Harunu ona köməkçi etdi. Ona ilham edərək Musaya qoşulmağı və bu həssas məmuriyyətdə onunla şərik olmasını buyurdu. Bəzilərinin dediyinə görə Harun ilahi vəhyi aldıqdan sonra Misirdən xaric olub Musanı qarşılamağa getdi. Onlar Nilin kənarında görüşdülər. Təbəri öz tarixində Səddidən belə nəql edir: "Musa öz ailəsi ilə birlikdə Misirə gəldi. Gecə ikən anasının evinə daxil oldu, amma anası onu tanımadı. Onlara evdə yer göstərdi. Harun evə gəldiyi zaman anasından qonağın halını soruşdu o, dedi: -"Bir qonaqdır ki, bizə gəlibdir." Harun irəli gəlib ondan hal-əhval etdikdə başa düşdü ki, qardaşı Musadır. Ayağa qalxıb qucaqlaşdılar. Hal-əhvaldan sonra Musa ona dedi: -"Gəl Fir'onun yanına gedək. Allah bizi ilahi risalətlə onun yanına göndəribdir." Harun qəbul etdi. Amma anası fəryad edərək dedi: -"Əgər onun yanına getsəniz sizi öldürəcəkdir!" Amma onlar qalxıb Fir'onun sarayına yollandılar."

## Fir‘onun sarayında

Allah təalanın Musa və Haruna verdiyi fərmanın mətni mübarək “Taha” surəsində nəql olmuşdur. Tərcüməsi belədir: Sən və qardaşın (Harun) Mənim ayələrimlə gedin, (işinizdə) Məni xatırlamaqda süstlük etməyin. Fir`ona tərəf gedin. Həqiqətən o tüğyan etmişdir. Onunla yumşaq danışın, bəlkə başa düşə və qorxa.” (“Taha” surəsi, ayə 45-47).

Musa və Harun ərz etdilər: -”Pərvərdigara, biz qorxuruq ki, o bizə zülm edə, ya üsyançılığı daha da arta. Mütəal Allah cavablarında buyurur: -”Qorxmayın, Mən sizinləyəm. Eşidir və görürəm.” (“Taha” surəsi, ayə 49).

Allahın bu aşkar vədəsi onları arxayın etdi, möhkəm iradə ilə Fir‘onun sarayına tərəf yollandılar. Bu zaman Fir‘on Misirdə elə bir qüdrətə çatmışdı ki, heç kəs onun qarşısında fikir söyləməyə cürət etmirdi. O özünü “ən böyük allah” adlandıraraq, hamını özünə ibadət etməyə məcbur edir, müxalifləri ən ağır işgəncələrlə məhv edirdi. Bir dəstə təfsirçilər “Və Fir‘onə fil əvtad” (Fir‘on mıxlar sahibi) ayənin təfsirində belə deyirlər (Bu məzmunda rəvayətlər də vardır): -”Fir‘onun əlində iti mıxlar var idi. Bir kəsə işgəncə vermək istədiyi zaman onu yerə uzatdırar əl və ayaqlarını həmin mıxlarla yerə mıxlayırdılar.

Sehrkarların Musaya iman gətirmələri hadisəsində də Fir‘on onları həmin işgəncə ilə hədələyir (bu barədə danışacağıq) Bəzilərinin dediyinə görə Fir‘on həmin işi onlarla etdi, onların əl və ayaqlarını taxtalara mıxlatdırdı.

Musa ilə sehrkarlar arasında baş verən əhvalatdan sonra ona iman gətirmiş zövcəsi Asiyəni də o cür cəzalandırmaq qərarına gəldi, onu günün altında yerə yıxıb əl-ayağını yerə mıxlayaraq sinəsinin üstünə böyük bir daşın qoyulmasını əmr etdi. Fir‘onun zülmü elə bir yerə çatmışdı ki, (qabaqkı bəhslərdə qeyd etdiyimiz kimi) münəccimlərin “Musanın nütfəsi filan gecədə bağlanacaq” xəbərini ona verdikdə Bəni-İsrail kişilərinin o gecə arvadlarının yanına getməsini qadağan etdi. Onun törətdiyi cinayətlər ağlasığmaz dərəcədə idi. Musanın dünyaya gəlməsinin qarşını almaq üçün hamilə qadınların qarnını yırtır, günahsız körpələrin başını kəsdirdilər. Bu cinayətlərin qarşısında etiraz edə biləcək bir kəs yox idi.

Tarixçilər yazırlar: -”Fir‘onu hidayət etmək üçün Musa və Harunun getdikləri saray yeddi uca qala ilə hasarlanmışdı. Bu qalalar iç-içə düzəldilmiş, əsl qala halqa kimi hasarlanmışdı. Bu qalaları tikmək üçün minlərlə adam qanına qəltan olmuşdu.

Hər iki qalanın arasında yüzlərlə əsgər keşik çəkirdi. Bəzi yerlərdə əsgərlərdən əlavə, əhliləşdirilmiş şirlər də var idi. Əgər düşmən özünü ora çatdırsaydı onlara yem olardı. Musa və Harun ora gəldikləri zaman onları içəri buraxmadılar. Bəzilərinin qeyd etdiyinə görə onlar içəri keçmək üçün günlər, bəlkə də aylarla orada gözlədilər.

Məhəmməd ibni İshaq ibni Yəsar nəql belə edir: -”Düz iki il Musa və Harun səhər tezdən Fir‘onun sarayına gəlir, axşam əli boş geri qayıdırdılar. Onların sözünü Fir‘ona çatdırmağa heç kəs cürət etmirdi. Bir gün Fir‘onun təlxəyi onları gördü, onların sözlərini gülüş üçün Fir‘onun yanında açıqladı. Bu sözləri eşidəndə Fir‘on onları yanına çağırdı. Bəzilərini fikrincə, Musa elə gəldiyi gün onun üçün icazə aldılar. Beləliklə qəsrin daxilinə yol tapdı.

Bir neçə hədisdə qeyd olunur ki, Musa əsasını, qəsrin qapısına vurdu, iç-içə olan bütün qapılar açıldı. Fir‘on Musanı gördü və onu içəri gətirilməsini əmr etdi. (“Taha” surəsi, ayə 49).

Hər halda, Fir‘onun yanına gedib haqq sözü ona çatdırmaq asan iş deyildi. Bu işdə böyük xətər və çoxlu müşküllər var idi. Musa (ə) qardaşı Harunun köməyi və Allahın: “Mən sizinləyəm” -deyə buyurub və‘də verdiyi ayə ilə bütün çətinlikləri aradan qaldırıb özünü Fir‘ona yetirdi və ilahi əmri ona çatdırdı.

Bəzilərinin dediyinə görə Fir‘on şirləri onların üstünə buraxmağı əmr etdi. Amma şirlər onlara çatdıqda ram olaraq üzlərini torpağa qoydular, Fir‘on çox təəccübləndi. Bu hadisə Fir‘onun qəlbinə qorxu saldı. Çarəsiz qalıb onları hüzurunda qəbul etdi.

Fir‘onla mübahisə (Fir‘on üçün dəlil-sübut gətirmə)

Musa və Harun sözə başlayıb dedilər:

-”Biz Allahın göndərilmişləriyik. Bəni-İsraili zülm əsarətindən azad edib bizimlə getmələrinə icazə ver!”

Fir‘on onları yalançı adlandırıb təhqir etmək üçün o həzrətin cavabında dedi:

-"Məgər körpəliyində sənə tərbiyə verən biz deyildik?! Ömrünün neçə ilini bizim yanımızda keçirmisən! (Sonra qibtinin qətlinə işarə edib dedi:) –"Görməməli olduğun işi gördün, sənə verilən nemətə nankorluq etdin." ("Şİəra" surəsi, ayə 17-19). O: "Sənin keçmişin bizim üçün aydındır" - deməklə bunu çatdırmaq istəyirdi ki, biz səni uşaqlıqdan böyütdüyümüzə görə vəziyyətini yaxşı bilirik. Sən nə vaxtdan risalətə çatıb pərərdigarın elçisi olmusan?!

Musa onun cavabında dedi:

-"O, işi gördüyüm gün (o kişini öldürdüyüm gün) sonunun nə olacağını bilmirdim. (Bilmirdim ki, o kişi öləcək, mən də vətəndən gedəcəyəm), sizdən qorxduğum üçün qaçdım. Pərvərdigarım öz hökmü ilə məni özünə peyğəmbər seçdi. ("Şİəra" surəsi, ayə 19-21).

Fir'on "Biz səni uşaqlıqda öz yaşımızda tərbiyə etdik..." -sözüylə Musanı təhqir edib onun boynuna minnət qoymaq istəyirdi. Burada həzrət buyurdu: -"Bu (nə) nemətdir ki, onunla mənə minnət qoymaq istəyirsən?! Bəni-İsraili özünə qul etmisən?!"

Yəni elə bu iş əvvəldən də zülm idi. Sən Bəni-İsraili özünə qul edir, heç bir zülmü onlardan əsirgəmirdin. İş o yerə çatmışdı ki, onların oğlan uşaqlarının başlarının kəsilməsini əmr etmişdin. Sənin zalimcəsinə verdiyin bu əmrin nəticəsində məni dəryaya atdılar. Amma ilahi təqdir məni sənin sarayın və onun kəfalətinin adına çıxartdı... Bu nə nemətdir ki, mənim boynuma minnət qoyursan?! Bu hansı nemətdir ki, ondan təşəkkür gözləyirsən?! Zülm haçandan nemət sayılmışdır?! Allahın nemətləri qarşısında naşükürlük edən sənsən! Onun bəndələrinə xidmət etmək əvəzinə, onları özünə qul edib, istədiyin zülmü onlara verirsən!

Fir'on o günə qədər özünü belə bir güclü məntiq qarşısında görməmişdi. O günə qədər hər nə demişdisə, ətrafında olan yaltaqlar sözsüz qəbul etmiş, onu tərifləmişdilər; Cinayətlərinin üstünə pərdə çəkmiş, hər biri üçün bir səbəb, bəhanə düzəltmişdilər. Nəhayət, onu allahlıq, xalqı isə bəndəlik məqamında qərar vermişdilər. Fir'on bu sözləri eşidib özünü itirdi. Musaya dərhal cəza vermək istəmədi, əvvəldə təhqir və minnətlə başladı. Əgər bununla istədiyinə nail olmasaydı, onda hədə və cəzaya başlayacaqdı. Elə buna görə də Musanın dediyi: -"Biz Allahın elçiləriyik" sözünə şərh istəyib soruşdu:

-"Dünyaların Allahı kimdir?" Musa dedi:

-"Göylərin, yerin və onların arasında olan şeylərin Pərvərdigarıdır, əgər yəqin əhlisinizsə." ("Taha" surəsi, ayə 38).

Özünü xalqa "ən uca pərvərdigar" kimi tanıtdıran Fir`on və onun bəndələri sanki bu fikirdəydilər ki, hər aləmin öz pərvərdigarı vardır: Asimanların hər birinin və yerin özünə məxsus pərvərdigarı var, bütün pərvərdigarlar bir olan Allahın əmri altındadırlar. Onlar Musanın sözünü başa düşə bilmirdilər və belə bir Allahın olması onlar üçün mə`nasız idi. Fir`onun fikir azğınlığı və ətrafında olanların rəzaləti onun əlinə bəhanə verdi, o, öz sözünü təhqir və istehza ilə başlayıb ətrafındakılara dedi: -"Aya eşitmirsiniz?" ("Şİəra" surəsi, ayə 25). (Yəni görmürsüz ki, bu kişinin məlumatı və düşüncəsi nə qədərdir?" Ondan: "Dünyaların Pərvərdigarı kimdir?" - deyə soruşduqda, cavabda demək olar ki, tərsinə çevirib həmin sözü təkrar edir!

Musa (ə) elə ilk görüşdə tək olan Allahı Fir'ona və onun ətrafındakılara tanıtdırmaq, Allahı tanımaqda səhv sual verdiklərini onlara başa salmaq istədi. Fir'onun sözünə əhəmiyyət verməyib dedi: -"Sizin və ata-babalarınızın pərvərdigarı". ("Şİəra" surəsi, ayə 26).

Yəni siz səhvən hər aləm üçün bir pərvərdigar olmasını düşündüyünüzə görə də Fir'onu özününə Allah sanıb ona ibadət edirsiniz. Xeyr, həqiqətdə sizin ata-babalarınızın, övladlarınızın, təkcə bir Allahı vardır. O həmin Allahdır ki, məni risalətə, peyğəmbərliyə çatdırmışdır.

Fir'on əlinə düşən fürsətdən lazımınca istifadə etmək istəyirdi, ona görə də sözünün ardında dedi: -"Bu adam ki, sizin rəsulunuzdur (istehza ilə) və sizin üçün göndərilmişdir, dəlidir." ("Şİəra" surəsi, ayə 27).

Musa öz sözünün ardınca dedi: -"Məşriqlər, məğriblərin və onların arasında olan hər bir şeyin pərvərdigarıdır. Əgər başa düşürsünüzsə." ("Şİəra" surəsi, ayə 28).

Fir'on aldadıcı sözlərlə Musanın qarşısını ala bilməyəcəyini görüb onu hədələməyə başladı: -"Əgər məndən başqa bir pərvərdigar seçsən də(və məndən başqasına itaət etsən də) səni zindanda olanlardan edəcəyəm." ("Şİəra" surəsi, ayə 29).

Bəlkə də "Səni zindana salacağam" deyil, "səni zindanda olanlardan edəcəyəm" kimi deyilməsində məqsəd hamının onun zindanında olan əzablardan xəbərdar olmasıdır, çünki, hamı bir nəfərin adının zindanda olanların siyahısına düşdüyü zaman onun sonunun nə ilə qurtararcağını bilirdi.

Musa (ə) sanki bu sözü gözləyirdi. Düşmənin qürurunu möhkəm məntiqlə sındırıb onun puç olmasını ona başa salmaq üçün buyurdu: -"Əgər sənin üçün aşkar dəlil (öz sözümün doğru olması üçün möcüzə) gətirsəm onda necə!?" ("ŞÏəra" surəsi, ayə 30).

Fir'on dedi: -"Onu gətir əgər düz deyirsənsə!" ("ŞÏəra" surəsi, ayə 31).

Fir'onun Musa (ə) qarşısında acizliyi (Əsa və nurlu əl möcüzəsi)

Musa dərhal, möcüzəli əsasını yerə atdı. Əsa böyük bir əjdahaya çevrildi. Onun ardınca əlini qoltuğuna saldı, çıxartdığı zaman göz qamaşdırıcı nur ətrafa yayıldı.

Əjdaha və onun Fir'onun qəlbinə saldığı qorxu haqqında çox əhvalatlar yazılmışdır. O cümlələri Sə'ləbi "Əraisül-fünun"da yazır: "Musa əsasını yerə atdıqda böyük bir əjdahaya çevrildi. Fir'on və onun ətrafında olanlar gördülər ki, əjdaha ağzını açanda saray bütün böyüklüyü ilə alt və üst çənəsinin arasında qalırdı. Bu zaman əjdaha Fir'ona tərəf hücum etdi. Sarayda olanların hamısı qaçdı. Dəhşətə düşmüş Fir'on qışqırıb dedi: -"Ey Musa, səni and verirəm Allaha! Boynunda səni tərbiyə edib böyütmə haqqım vardır. Onu tut. Sənə söz verirəm ki, iman gətirib Bəni-İsraili də səninlə göndərəcəyəm. Bu vaxt Musa onu tutdu. Əsa yenə öz əvvəlki halına qayıtdı.

Bu möcüzənin ardınca nurlu əl möcüzəsini də göstərdi. Fir'on bu iki möcüzəni gördükdən sonra vədə verdiyi kimi ona iman gətirmək istədi. Amma vəzir və məsləhətçisi olan Haman bu işə mane oldu. O, Fir'ona dedi: -"Sən hal-hazırda ibadət olunan Allahsan, necə ola bilər ki, o böyük məqamından dönüb özün bəndə olasan?!"

Bəzi rəvayətlərdə də, bu, azacıq fərqlə nəql olunmuşdur.

Belə bir vəziyyəti gözləməyən Fir'on öz məqamını və qüdrətini qorumaq üçün hiylə işlədib yalan və böhtana əl atmağa başladı. Üzünü ətrafında olanlara tutub dedi: -"Bu mahir bir cadugərdir. Bu yolla sizi vətəninizdən çıxarıb, öz yaxınlarını bu torpaqlara hakim etmək istəyir. Bu barədə sizin fikriniz nədir?" ("ŞÏəra" surəsi, ayə 34-35).

Bəziləri demişdir: Möcüzənin qüdrəti onu tutduğundan, kim olduğunu belə unutmuşdu. Acınacaqlı bir vəziyyətə düşmüşdü, nə danışdığını özü də bilmirdi.

Öz pərvərdigarlarının acizliyini görən ətrafdakılar dedilər:

-"Ona və qardaşına möhlət ver, məmurlar göndərərək şəhərdə olan bütün cadugərləri bura yığ. Müəyyən olunmuş bir gündə Musayla mübarizəyə qalsınlar. Caduya cadu ilə cavab versinlər."

Ehtimal üzrə, Fir'on ona baş vermiş pərişanlıqdan sonra ikinci dəfə idi ki, üzünü Musaya tutub dedi:

-"Ey Musa, yoxsa cadunla bizi öz torpaqlarımızdan çıxarmaq istəyirsən? Amma bilməlisən ki, biz də sənin cadun kimi cadu gətirəcəyik. Belə isə sən özünlə bizim aramızda görüş yeri təyin et ki, nə biz, nə də sən ondan boyun qaçırmayasan." ("Taha" surəsi, ayə 61).

Musa qəbul etdi, camaatın bir yerə yığılması və "zinət günü" olan bayramı görüş vaxtı təyin etdi. Fir`on Misirin hər tərəfinə adam göndərib ən yaxşı cudagərləri həmin gündə Musayla mübarizə aparmaq üçün paytaxta gəlmələrini əmr etdi.

## Sehrkarların Musayla mübarizə üçün yığılması

Sehr və cadu elmi Qədim Misirdə böyük əhəmiyyətə malik idi. Misir fir'onları öz hakimiyyətlərini qorumaq üçün onlardan çox istifadə edir, bu elmi oxuyanlara yaxından kömək edirdilər. Hədisdə buyurulduğu kimi, Allah taalanın Musaya (ə) əsa və parlayan əl möcüzəsinin verməsinin sirlərindən biri də bu idi ki, o, möcüzə sehirkarların işi ilə eyni olması idi. Onların cadu elmində çox mahir olmaları Musanın işinin möcüzə olmasına inanmaları üçün ən yaxşı dəlil idi. Əziz İslamın Peyğəmbərinin (s) möcüzəsi Qur'ani-Kərim də eynilə elə idi: O zaman fəsahət və bəlağət elmi ərəblər arasında çox yayılmışdı. Ərəbin böyük fəsihləri Qur'anı gördükləri zaman onun bəşər sözü olmamasına inanıb, onun möcüzə olmasına vaqif oldular.

Səduqun "Uyun" və "İləluş-şəraye" kitablarında imam Əli ibni Musa Rzadan (ə) nəql etdiyi rəvayət belədir: İbn Səkkit deyir: -"İmama ərz etdim ki, nə üçün Allah təala Musa ibn İmranı Əsa və parıltılı əl ilə, İsanı tibb, Məhəmmədi (s) isə Kəlam və Xütbə ilə məbus etmişdir? Həzrət buyurdu: -"Mütəal Allah Musanı göndərdiyi zaman sehr elmi o dövrün camaatına üstün gəlmişdi. Musa da Allah tərəfindən elə bir möcüzəylə gəlmişdi ki, xalq onun kimisini gətirmədən aciz olsunlar. Bu möcüzə onların sehr və cadusunu batil etsin, dəlil və hüccət onlar üçün tamamlansın. İsanın besəti zamanı çoxlu xəstəliklər var idi və xalqın təbabətə ehtiyacı çox idi. İsa (ə) elə bir möcüzəylə gəldi ki, o zəmanə ilə münasib

olsun və onlar bunun kimisini gətirə bilməsinlər. O möcüzə, ölünü diritlməkdən, anadan gəlmə koru və bərəs xəstəliyinə tutulmuş adamlara şəfa verməkdən ibarət idi. Allah təbarək və təala həzrət Məhəmmədi (ə) göndərdiyi zaman xütbə və kəlam (danışdıqda olan fəsalət, bəlağət (söz ustalığını) və şer) o zamanənin camaatına qələbə çalmışdı. O həzrət də Allahın kitabından, moizələrdən, hökmlərdən möcüzə gətirib onların dediyini batil etdi. Bu yolla hüccəti onlar üçün tamam etdi.

Bəli, Musanın zəmanəsində Sehr və cadu elmi çox yayılmışdı. Bu elmdə məharəti olanlar xalqın arasında hörmətə layiq görülürdülər. Fir‘on da özünün sarsılmış hakimiyyətini onların əli ilə qorumaq istəyirdi. O, hökm verib bayram günündə onların bir yerə yığılmasına əmr etdi.

Musayla mübarizə etməyə yığılmış cadugərlərin sayı barəsində ixtilaf vardır. Çoxusu onların yetmiş nəfər olmasını qeyd etmişdir. Bəzilərinin fikrincə, onların sayı bir neçə min olmuşdur. Onlar deyirlər: -"Bu yetmiş nəfər onların içindən seçilmişlər olub, hamısından üstün idilər. Nəhayət, vədəsi verilmiş gün yetişdi.

Qur‘ani-Kərim nəql edib buyurur: (Sehrkarlar işə başlamazdan qabaq Fir‘ona üz tutub dedilər: -"Əgər biz qalib gəlsək, hədiyyəmiz də varmı?" ("Şİəra" surəsi, ayə 41). Fir‘on onlara böyük hədiyyə verməyi vədə etməklə yanaşı dedi: -"Bəli, siz o zaman mənim müqərrəblərimdən (yaxınlarımdan) olacaqsınız. ("Şİəra" surəsi, ayə 41-42).

Əbdül-Vəhhab Nəccar bu sual-cavabdan istifadə edərək deyir: -"Məlum olur ki, Misirli Fir‘onun əmrini yerinə yetirmək hamı üçün vacib imiş. Onlar çarəsiz olaraq onun əmrlərini heç nə istəmədən yerinə yetirməliymişlər."

Hadisənin bu hissəsində Qur‘ani-Kərimin zikr etdiyi başqa bir mövzu buna şahiddir: Fir‘on sehrkarlara böyük mükafat vədəsi verərək onları daha çox həvəsləndirirdi. O ümidvar idi ki, bəlkə bu yolla öz taxt-tacını qoruya bilsin. Bu, həmin mətləbdir ki, Fir‘onun dilindən xalqa dedilər: -"Siz də tamaşa üçün vədə olunmuş yerə gəlin, sehrkarlar qalib gəldikdə onlara itaət edək." ("Şİəra" surəsi, ayə 39-40).

Sehrkarlar qalib gəldikdə xalq həqiqətdə olanlara deyil, "Fir`ondan itaətetmək"dən ibarət olan dindən asılı olacaqdılar. Elə həqiqətdə də ona itaət edirdilər. Mətləbi belə deməklə sanki onlara rüşvət verib xalqın arasında məqamlarını ucaltmaq, bu sözlə onları həvəsləndirib işlərində daha da müvəffəq etmək istəyirdilər. Bunlardan əlavə, tamaşaçıların iştirak edib onları alqışlaması sehrkarların qalib gəlməsinə çox böyük təsir qoyacaqdı.

## Musanın nəsihəti və Fir‘onun hiyləsi

Fir‘on Musanı sındırıb məhv etmək üçün əlindən gələni əsirgəməmiş bu yolda çoxlu pul xərcləmişdi. Cahil xalqda Fir‘onun düşməninin məğlub olmasına əsla şəkk qalmamışdı.

İşin gedişatından da Fir‘onun qalib gələcəyi hiss olunurdu. Cadugərlər meydana girdikdə özlərini tərəfdarlarının arasında, Musanı isə tək və qərib gördülər. Qalib gələcəklərində əsla şəkk etməyən cadugərlər cadularını hazır edib dedilər: -"Fir‘onun izzətinə and olsun ki, biz qalib gələcəyik!". ("Şİəra" surəsi, ayə 44).

Amma Rəbbinin haqq vədəsinə arxayın olan Musa zahirdə bu yığıncaqdan azaca belə təsirlənmədi. Cah-cəlalla vəzir-vəkil arasında oturan Fir‘ona baxaraq sonuncu dəfə orada olanlara öyüd-nəsihət verib dedi: -"Vay olsun sizə, Allaha yalan deməyin əks halda, O sizi böyük əzabla məhv edər! İftira və yalan bağlayan kəs naümid olar və öz hədəfinə çata bilməz." ("Taha" surəsi, ayə 64-65).

Bu pak qəlbdən qalxan bir həqiqət idi. Musa onlara xəbərdarlıq edib qorxutdu və bununla cadugərlərin iradəsində dəyişiklik yaratdı. Onlar fikrə daldılar. Bəlkə də Allaha və qiyamətə inanmayanların hamısı belədir. Çünki onların mənəvi və ruhi cəhətdən heç bir arxaları yoxdur. Əksər hallarda kiçik bir agahlıq verməklə öz sabit vəziyyətlərini itirir, işlərində şəkkə düşürlər.

Hər halda, Musa qısa, eyni halda haqq bir xəbərdarlıqla sehkarların ruhiyyəsini dəyişdi. Aralarında iki tirəlik əmələ gəldi. Onlardan bir hissəsi öz işlərində şəkkə düşdülər. Məğlubiyyətin əsər-əlamətləri Fir‘onun tərəfdarlarında görsənməyə başladı.

Bu xəbər Fir‘on və onun ətrafında olanlara yetişdi. Bunun qarşısını almaq üçün gizli iclas təşkil etdilər və sehrkarları ora dəvət etdilər. Fir‘on onlar üçün nitq söyləyib dedi: -"Bu iki cadugər öz cadularıilə sizi torpaqlarınızdan çıxarmaq, sizin yaxşı dininizi məhv etmək istəyir. Fikrinizdə möhkəm olun, birlikdə onunla mübarizəyə girişin. Bunu da bilin ki, qalib gələn kəs haqdır. ("Taha" surəsi, ayə 67-68).

Fir‘on və onun tərəfdarları burada bir daha sehrkarların düşüncələrinin inkişaf etməməsindən istifadə etdilər, onları batil əqidələrində möhkəmləndirdilər. Sehrkarların əlaqələrini daha da artırmaq üçün dünya malını sevməkdən, vətənpərəstlikdən, millətçilikdən və ata babalarının dininə sadiq qalmadan öz xeyirlərinə istifadə etdilər.

Onlar sözlə başlayarkən dedilər: -"Musa və Harun öz cadularıyla sizi vətəninizdən qovmaq, sizin müqəddəs din və millətçiliyinizi aradan aparmaq istəyirlər. Belə isə tam qüvvənizlə çalışıb bir cərgədə o iki nəfərin qarşısında durun!"

## Sehrkarların sehri və Musanın mö‘cüzəsi

Sehrkarlar minlərlə insanın qarşısında irəli çıxıb Musaya dedilər: -"Sən sehr əlamətlərini atırsan, yoxsa biz ataq?" ("Taha" surəsi, ayə 69).

Musa buyurdu: -"Siz atın". Bu sözün ardınca sehrkarlar qabaqcadan hazırladıqları bütün ipləri və əsaları yerə atdılar. Musanın (və başqalarının) gözü qarşısında onlar ilana çevrilib hərəkət etməyə başladılar.

Qəribə bir mənzərə yaranmışdı. Geniş səhrada yüzlərlə, minlərlə ip və ağac ilana çevrilərək atılıb-düşməyə başlamışdılar. Qur‘ani-Kərim buyurur: -"Xalqın gözlərini ovsunlayıb onlarda qorxu icad etdilər və böyük sehr gətirdilər." ("Ə‘raf" surəsi, ayə 116).

Çox qorxulu bir mənzərə yaranmış, iş o yerə çatmışdı ki, Musa da qorxu hissi keçirdi və ürəyində vəhşət əmələ gəlmişdi. Amma həmin halda İlahi vəhy qorxunu onun qəlbindən çıxarıb buyurdu: -"Ey Musa, qorxma, sən üstünsən. Sağ əlində olanı at. Bunların yaratdıqlarının hamısını udsun. Çünki bunlar cadugərlik hiyləsi işlətmişlər. Cadugər harda olursa olsun, (yaxud hər nə gətirirsə) düz (və qalib) olmayacaqdır. ("Taha" surəsi, ayə 73).

Musa gecikmədən əsasını atdı. Əsa qəflətən böyük bir əjdahaya çevrilərək bir anda onların ilana çevrilmiş əsa və iplərini uddu. Böyük və heybətli əjdahanı görən tamaşaçılar qaçmağa üz qoydular. Bəzi tarixçilərin dediyinə görə, yüzlərlə adam ayaqları altında qaldılar.

Bu zaman həqiqət sehrkarlara aşkar oldu. Onlar Musanın möcüzəsindən təsirlənib bir anda fikirləşmədən onun qarşısında torpağa düşdülər, Musa və Harunun pərvərdigarına iman gətirdilər, Allahın qüdrəti qarşısında öz acizliklərinə etiraf etdilər.

Fir‘on gözlənilməz məğlubiyyətlə üzləşmişdi. Sarsıntı keçirən hakimiyyətini qoruyacaq adamlar uduzmuşdu. Qəzəbini gizlədə bilmirdi. Amma acizliyini ört-basdır etmək üçün sehrkarların üstünə qışqırıb dedi: -"Mən sizə icazə verməmiş ona imam gətirdiniz!? İndi məlum olur ki, sizin sehr müəlliminiz elə o olmuşdur. O sizin böyüyünüzdür, sehri də sizə o öyrətmişdir." ("Ə‘raf" surəsi, ayə 121).

Fir‘on Musanı yaxşı tanıyır və qabaqlar onunla sehrkarlar arasında heç bir əlaqə olmamasını yaxşı bilirdi. Bəlkə də Musa o günə qədər onların heç birini görməmişdi. Amma nə etmək olar, Fir‘on öz məqamını qorumaq üçün hər cür böhtan və töhmətə əl atmağa məcbur idi. Bu yolla acizliyini gizlətmək və xalqın iman gətirməsinin qarşısını almaq istəyirdi.

Mübarək "Ə`raf" surəsində buyurulduğu kimi, onlara üz tutub dedi: -"Bu sizin əlbir olaraq tökdüyünüz tədbirdir ki, xalqı şəhərdən çıxarasınız..." Beləliklə, onları Musayla əlbir olmaq və hökumət əleyhinə plan cızmağa müttəhim etdi. Bu cümlənin ardınca xalqı bir daha onların əleyhinə qaldırmağa, haqqı xalqın gözündə gizlətməyə çalışır. O, deyir: -"Xalqı şəhərlərindən çıxarmaq üçün plan çəkmişdiniz." Bu neçənci dəfəydi ki, xalqı onların bir-biri ilə əlbir olmalarına inandırmaq istəyirdi. O yalandan xalqı başa salmaq istəyirdi ki, Musa və onun köməkçiləri sizi şəhərinizdən çıxarıb özləri bu torpağa varis olmaq istəyirlər.

Bunun ardınca Fir‘on üzünü acıqlı qiyafəyə salaraq onları cəzalandırmaq qərarına gəlib dedi: -"Əl və ayaqlarınızı bir-birinə əks olaraq kəsdirəcəyəm, sizi xurma ağaclarından asacağam, bununla biləsiniz ki, bizim hansımızın əzabı daha çətin və daimidir!" ("Taha" surəsi, ayə 75).

O günə qədər Fir‘on ətrafını yaltaq adamlar tutmuşdu. O, bir neçə günlük dünya həyatını xoş keçirmək üçün hər cür cinayətə əl ataraq, onun əmrlərini sözsüz yerinə yetirənləri indi ölümlə hədələyirdi. Amma sehrkarlar o möcüzəni, hətta onunla yanaşı olan başqa möcüzələri gördükdə başa düşdülər ki, Fir‘onun allahlıq iddiaları puç və əfsanədir, həqiqi Allah isə Musa və Harunun Allahıdır. Dünya həyatı həqiqi dünya –axirət dünyası üçün bir başlanğıc və yerdir, bu dünyanın əldən verilməsi ilə insan fani olaraq aradan getməyəcəkdir. Elə buna görə də deyirdilər: -"Heç vaxt səni, bizim üçün gəlmiş bu möcüzələri görə-görə bizi yaradan Allahdan üstün etməyəcəyik! Hər nə bilirsənsə et, sən

təkcə bu dünyanı bizim əlimizdən ala bilərsən. ("Taha" surəsi, ayə 76).Axirət dünyasında isə sənin əmrin qəbul deyildir, o dünyanın səadətini bizim əlimizdən ala bilməzsən. "Biz ziyan görməyəcəyik çünki, Pərvərdigarımıza tərəf gedirik". ("ŞÏəra" surəsi, ayə 51). Bu sözü davam edib axırda dedilər: -"Biz öz pərvərdigarımıza iman gətirmişik ki, günahlarımızı, məcbur edildiyimiz cadugərliyi bağışlasın. Allah daha yaxşı və əbədidir".

Ola bilsin ki, son cümlə Fir'onun onlara (qalib gəldikdə) hər cür neməti ixtiyarında qoyacağı ilə əlaqədar və'dəsi qarşısında deyilmişdir. Qətlilə hədələdiyi zaman da onlara dedi: -"...biləsiniz ki, bizim hansı birimizin əzabı daha çətin və həmişəlikdir!" ("Taha" surəsi, ayə 75).

Hər halda, Musanın möcüzəsini görməzdən qabaq Fir'onun böyüklüyü və əzəməti onların gözlərini tutmuşdu, onun haqqında belə deyirdilər: -"And olsun Fir'onun izzətinə, biz qalib gələcəyik!" Lakin haqqın nişanələrini görcək bəsirət gözləri açılmış, Fir'on onların nəzərində gücsüz və zəif bir şəxsə dönmüş, mal-dövlət qiymətini əldən vermişdi. Buna görə də böyük iman və cəsarət nümunəsi olan o gözəl cümlələri Fir'onun qarşısında dedilər.

Qur'an ayələrindən sonda Fir'onun sehrkarlarla necə rəftar etməsi mə'lum olmur. Hədələdiyi cəzanı həyata keçirib-keçirməməsi aydın olmur. Amma Təbəri və İbni Əsirin nəql etdiyinə görə Fir'on öz dediklərini həyata keçirərək, onların ayaqlarını və əllərini əksinə olaraq kəsdirib özlərini ağacdan asdırdı. "Əraf" surəsində Allah taalanın onların dilindən nəql etdiyi "Rəbbəna əfriğ ələyna səbrən." ("Ə'raf" surəsi, ayə 124). (Yəni Pərvərdigara, bizə səbir ver və bizi dünyadan müsəlman halda apar" -cümləsini onlar həmin əzab və işgəncə altında Allaha ərz etmişdilər. Onlar o kəslərdir ki, səhər kafir olmuş, axşam isə şəhid olaraq dünyadan getmişlər. Xoş olsun hallarına.

## Ali-Fir'onun mömini

İbni Əsir və digərlərinin yazdığına görə, Musa Fir'ona qalib gəldiyi zaman sehrkarlarla yanaşı, başqaları da iman gətirmişdi. Onlardan bir neçəsi Fir'onun əliylə və elə həmin işgəncələr altında qətlə yetirildi. Qətlə yetirilənlərdən Ali-Fir'onun mömini qeyd etmək olar.

Qur'anda bəyan edildiyi kimi, o hələ bu hadisələrdən qabaq tək olan Allaha inanırdı, amma o imanını o günə kimi gizlətmişdi. Fir'on Musanı öldürmək qərarına gəldiyi zaman (bu, zikr olunacaq) imanını zahir edib dedi:

-"Siz "Mənim Pərvərdigarım tək olan Allahdır" –deyən kişini öldürürsüz halbuki, Allahı tərəfindən sizin üçün dəlillər gətirmişdir. Əgər yalançıdırsa yalanı özü üçündür. Əgər düz deyirsə, (heç olmasa) qorxutduqlarının bəzisi sizə çatacaqdır. Həqiqətən də Allah israfçı və yalançıları hidayət etməyəcəkdir. ("Mymin" surəsi, ayə 29-30).

Onun Fir'on və onun dəstəsi ilə bəhslərindən biri də budur: -"Ey camaat! Mən sizdən qabaqkıların başına gələnləri sizin də başınıza gələcəyindən qorxuram (o cümlədən;) Nuhun, Adın, Səmudun qövümləri və o kəslər ki, onlardan sonra olmuşlar. Ey camaat sizin üçün nida olunan bir gündən qorxuram (Yəni hamının bir-birini çağırdığı qiyamət günü) o gün ki, arxa çevirmiş, geri qayıdır (üzü cəhhənəmə gedirsiniz), və Allah qarşısında sizi bir saxlayan yoxdur. ("Mymin" surəsi, ayə 32-36).

Ey camaat, mənim sözümə qulaq asın ki, sizi kamala hidayət edim. Ey camaat, bu dünya çox az mənfəət, axirət isə əbədidir.

Ey camaat, sizə nə olmuşdur ki, mən sizi nicat tapmağa dəvət edirəm, siz isə məni cəhənnəmə dəvət edirsiniz." ("Mymin" surəsi, ayə 45).

Bunun ardınca gələn bir neçə ayədən sonra Mütəal Allah buyurur: -"O (Musa) onlara dedi: -"Mənim dediklərimi tezliklə başa düşəcəksiniz, mən öz işimi Allahın öhdəsinə qoyuram, Allah bəndələrini görəndir. Allah onu, onun üçün etdikləri hiylələrdən saxladı.

Bəziləri bu ayəni belə təfsir etmişlər: -"Mütəal Allah onu fir'onçuların əlindən qorudu və onu öldürə bilmədilər. Amma İbni Əsir və başqaları, (yuxarıda qeyd olunduğu kimi) demişdir ki, Fir'on onu da sehrkarların ardınca öldürdü." ("Mymin" surəsi, ayə 48-49).

"Məhasin"də və Əli ibni İbrahimin təfsirində qeyd olunan bir hədisdə İmam Sadiq (ə) buyurur: -"Allahın onu qoruması dedikdə məqsəd, onun dinini qorumasıdır. Yəni Allah onu, onlara heyran olmaqdan, dini cəhətdən onların dininə meyilli olmaqdan saxlamışdı. Əks halda zahiri baxımdan onu tikə-tikə doğradılar."

Bəzi təfsirçilər demişlər: -"Bu ayədə olan əvəzlik Musaya işarədir. Yəni Allah Həzrət Musanı onun haqqında çəkdikləri məkrli tədbirlərdən saxladı, onu öldürə bilmədilər."

## Ali-Fir‘on mömininin adı və əsl-nəsəbi

Ali-Fir‘onun mömininini adı və nəsəbi barəsində ixtilaf vardır. Bəziləri onun adının Həzbil, bəziləri isə Xərbil, bəziləri isə Həzqil olmasını demişlər. Mərhum Təbərsi onun adını “Məcməul-bəyan”da başqa bir nəzər əsasında Həbib qeyd etmişdir.

Bir çox təfsirçilər onun Fir‘onun əmisi oğlu və vəliəhdi olduğunu yazırlar.

Hişamdan nəql olmuşdur ki, o deyir: -”Fir‘on ona Misirin yarısının hakimiyyətini vermişdi. Sə‘ləbinin yazdığına görə o, yüz il Fir‘onun xəzinədarı olmuşdu.

İmam Sadiqdən (ə) nəql olunan hədisdə deyilir: -”Ali-Fir‘onun mömini xalqı təkallahlığa, Musanın (ə) peyğəmbərliyinə və İslam Peyğəmbərinin (ə) başqa peyğəmbərlərdən üstün və fəzilətli, onun vəsilərinin də bütün vəsilərdən üstün olmasına e‘tiqada çağırır.” Deyirdi ki, Allah Fir‘ondan bizardır. Xəbərçilər bunu Fir‘ona xəbər verib dedilər:

-”Həzbil xalqı səninlə müxalifətçilik edib, düşmənlərinlə bir olmağa çağırır. Fir‘on bu sözü eşitdikdə onlara dedi: -”Əgər doğrudan da əmim oğlu, vəliəhdim və canişinim belə bir söz demiş olsa onda mən onu ən ağır şəkildə cəzalandıracağam. Yox, əgər siz onun adından yalan demiş olsanız, onda sizə həmin əzabları verəcəyəm. Həzbili Fir‘onun yanına gətirib soruşdular ki, sən Fir‘onun Allah olmasına inkar edib onun nemətlərinə nankorluq edirsən. Cavabında üzünü Fir‘ona tutub dedi:

-”Ey padşah! İndiyə qədər mənim yalan danışmağımı görmüsən?” Fir‘on dedi:

-”Yox.” Həzbil dedi:

-”Bəs onda bunlardan pərvərdigarlarının kim olmasını soruş?!” Onlar dedilər:

-”Fir‘on” Həzbil dedi:

-”Sizi yaradan kimdir?” Dedilər:

-”Fir‘on” Həzbil dedi:

-”Sizə ruzi verib öhdədar olan və pislikləri sizdən uzaq edən kimdir?” Dedilər:

-”Fir‘on” Həzbil dedi:

-”Ey padşah! Sən və burada olanları şahid tuturam ki, onların pərvərdigarı mənim pərvərdigarım, onların ruzi verəni mənim ruzi verənimdir. Onların həyatını səhmana salan mənim də həyatımı səhmana salandır. Mənim onlara ruzi verən, onları yaradan Allahdan başqa Allahım yoxdur. Mən səni və burada olanları şahid tutub deyirəm6

-”Allahdan başqa hər bir ruzi verən və yaradandan bizaram.”

Bu sözləri deyərkən qəlbində təkcə bir olan Allahı nəzərdə tutmuşdu. Amma Fir‘on və orada olanlar elə bildilər ki, onun məqsədi Fir‘ondur.

Fir‘on ondan xəbərçilik edənlərə dedi: -”Ey pislik istəyib fitnə axtaranlar! Bu yolla siz məmləkəti fəsada çəkib, mənimlə əmim oğlunun arasında düşmənçilik salmaq, onu həlak etmək və mənim belimi sındırmaq istəyirsiz! “Siz mənim işgəncə və əzabıma layiqsiniz!” Sonra onları mıxa çəkmək əmrini verərək bədənlərini tikə-tikə etdirdi.

Ali- Fir‘on mömininin zövcəsi

İbni Əsir və başqaları yazırlar. Ali-Fir‘onun həyat yoldaşı bərbər idi. O Fir‘onun qızına xüsusi bərbərlik edirdi. O da əri kimi sehrkarların əhvalatından əvvəl, Musanın Allahına iman gətirmiş, lakin əri kimi, gizli saxlamışdı. Sehkarlar və Ali-Fir‘onun mömininin qətlindən sonra bir gün Fir‘onun qızının saçını düzəltdiyi zaman birdən daraq əlindən düşdü. O, ixtiyarsız olaraq “Ya Allah” deyə səsləndi. Fir‘onun qızı ondan soruşdu:

-”Atamı deyirsən?” Dedi:

-”Yox. Mənim pərvərdigarım, sənin pərvərdigarın və Fir‘onun pərvərdigarını deyirəm!”

Fir‘onun qızı əhvalatı atasına xəbər verdi. O qadını və uşaqlarını çağırtdırıb dedi:

-”Pərvərdigarın kimdir? Qadın dedi:

-”Mənim və sənin pərvərdigarın bir olan Allahdır.

Fir‘on tam rəhimsizliklə təndiri qalamağı tapşırdı. Sonra qadını və oğlunu orada yandırmaları əmrini verdi. Qadın ona dedi:

-”Mənim səndən bir diləyim vardır? Fir‘on dedi:

-”İstəyin nədir?” Qadın dedi:

-”Məni və övladlarımı yandırandan sonra sümüklərimizi bir yerə yığıb dəfn et! “

Fir‘on qəbul etdi. Sonra uşaqları bir-bir təndirə atmağı əmr etdi, onları bir-bir yandırdılar, növbə onun axırıncı uşağına çatdı. O, çox körpə idi. Onu oda atmaq istədikdə o qadın üzünü ona tutub dedi:

-”Əziz balam səbir et, çünki sən haqlasan!”

Sonra analarını da təndirə atıb yandırdılar.

## Asiyə -Fir‘onun arvadı

Bəzilərinin dediyinə görə Müzahamin qızı və Fir‘onun arvadı Asiyə Bəni-İsraildən olmuşdur. Uzun illərdən bəri, Mütəal Allaha iman gətirmişdi, amma imanını gizli saxlayırdı. Bu qadın bərbərini təndirə atıb yandırdıqlarından sonra onun imanı daha da möhkəmləndi, yəqini qat-qat çoxaldı. Fir‘on onun yanına gəlib bərbərin ölümünü ona deyəndə Asiyə üzünü ona tutub dedi:

-”Vay olsun sənə, Allahın qarşısında nə böyük cürət etmisən?!”

Fir‘on arvadından belə bir sözü eşidəcəyini gözləmirdi. İnana bilmirdi ki, o da tək olan Allaha iman gətirmiş ola bilər. Digər tərəfdən də Allah məhəbbətinin onun ən yaxın adamlarının qəlbinə girməsinə gümanı gəlmirdi. Bu söz ona ağır bir zərbə oldu. Qəzəblənərək dedi:

-”Deyəsən dəli olmusan? Bərbərə gəlmiş dəlilik səni də tutmuşdur!” Asiyə dedi:

-”Mən dəli deyiləm, sadəcə olaraq mənim, sənin və bütün aləmlərin pərvərdigarı olan bir Allaha iman gətirmişəm.” Fir‘on Asiyənin anasını çağırtdırıb dedi:

-”Qızın bərbərin tutulduğu xəstəliyə tutulub (dəli olub)! İndi and içib deyirəm, əgər Musanın Allahına qarşı kafir olmasa onu öldürəcəyəm. Asiyənin anası məxfi şəkildə onun yanına gəlib Musanın Allahından əl çəkməsini istədi. Lakin Asiyə öz sözündən dönmədi.

Fir‘on onu çarmıxa çəkdirib işkəncə verdirməyə başladı, nəhayət onu bu yolla qətlə yetirdilər. Canvermə halında üzünü Allahın dərgahına tutub dedi:

-”Pərvərdigara, mənim üçün behiştdə, Öz yanında bir bina tikdir. Mənə Fir‘onun rəftarından (işkəncəsindən) və zalım xalqdan nicat ver.” (“Təhrim” surəsi, ayə 12).

Allah taala onun duasını qəbul etdi. Ona bəsirət əta etdi (gözünün qarşısındakı pərdələr kənara çəkildi). Mələkləri və behiştdə öz yerini müşahidə edib xoşhallıqla gülümsədi.

Fir‘on üzünü ətrafındakılara tutub dedi:

-”O dəliyə baxın! İşkəncələrin altında gülür! Beləliklə, bu imanlı və təqvalı qadının ruhu bu fani dünyadan əbədi olan behiştə doğru pərvaz etdi.

Mərhum Təbərsi “Məc`məul-bəyan”da nəql edib deyir: -”Asiyə, Musa sehrkarlara qalib gəlməmişdən sonra iman gətirdi. Fir`on bunu bildikdə onu bu işdən çəkindirmək istədi. Amma Asiyə öz əqidəsindən dönmədi. Fir`on əmr verdi ki, onu çarmıxa çəksinlər, daha sonra onun üstünə ağır bir daş atsınlar. Asiyə bu halda dua etdi. Allah da onun ruhunu behiştə apardı.

Şeyx Səduq Peyğəmbəri-Əkrəmdən (s) belə rəvayət edir: -”Behiştin ən yaxşı qadınları dörd nəfərdirlər: İmranın qızı Məryəm, Xüveylidin qızı Xədicə, Məhəmmədin (s) qızı Fatimə (s.ə) və Müzahimin qızı Fir‘onun arvadı Asiyə.

Mərhum Təbərsi “Məcmuəl-bəyan”da Peyğəmbəri-Əkrəmdən (s) belə rəvayət etmişdir: -”Kişilərdən çoxları kamala çatmışdır. Amma qadınlardan təkcə dörd nəfər kamala yetişmişdir. Müzahimin qızı Fir`onun arvadı Asiyə, İmranın qızı Məryəm, Xuveylidin qızı Xədicə və Məhəmmədin (s) qızı Fatimə(s.ə).

Yuxarıda qeyd etdiyimiz kimi, Asiyə hələ sehrkarların hadisəsindən qabaq aləmlər Rəbbinə iman gətirmiş, o günə qədər imanını gizli saxlamışdı. Amma bəzilərinin dediyi: “O həmin gün (yəni Musa (ə) ilə sehrkarlar arasında olan hadisə günü) iman gətirmişdir” -sözü düz deyildir.

Mərhum Səduq “Xisal”da rəvayət etmişdir ki, Peyğəmbəri-Əkrəm (s) buyurdu: -”Üç nəfər bir an da olsa, kafir olmamışdır: Ali-Yasinin mömini, Əli ibn Əbi Talib və Fir`onun arvadı Asiyə.”

Bəli bu imanlı qadın kamal həddinə çatmış, bəsirət və düşüncəsinə görə ən böyük zahiri məqamlara yetişmişdi. O, Fir‘onun arvadı, böyük Misirin mələkəsi idi. Yaxşı yeməklər, ən gözəl yaşayış, bir sözlə, o zamanda yaşayışa lazım olan hər bir şey onun ixtiyarında idi. Xoşgüzəranlıq üçün hər şeyi vardı. Bir sözlə, dünyada hər bir qadının istədiklərinə sahib idi.

Amma o qadın, pərvərdigarın görüşünü Onun yanında olmanı müvəqqəti və maddi ləzzətlərdən üstün saydı. Pərvərdigara yaxın olmağı, o həyatdan nicat tapmağı istədi. Pərvərdigar onun duasını qəbul edib ona behiştdə böyük bir məqam əta etdi. Onun adını imanlı insanlar üçün nümunəvi bir qadın kimi Qur‘ani-Kərimdə belə buyurdu:

-”Pərvərdigar mömin insanlar üçün Fir‘onun arvadını misal vurub dedi: -”Pərvərdigara, mənim üçün öz yanında -behiştdə ev qur və mənə Fir‘on və onun əməlindən nicat ver.” (“Təhrim” surəsi, ayə 12).

# FİR‘ONUN BƏNİ-İSRAİL ÜÇÜN ÇƏTİNLİK YARATMASI

Fir‘onun yaxın adamlarından əlavə Bəni-İsraildən ona iman gətirənlərin əksəriyyəti cavanlar idi. Bundan əlavə, Fir‘onun öz yaxınları və sehrkarların rəftarını da bəyan etmişdik. İndi isə Bəni-İsrail haqqında bəhs edəcəyik.

Onların iman gətirməsi Fir‘onun narahatlığı daha da artırırdı.

Qur‘an-Kərimin ayələrindən istifadə olunduğu kimi Fir‘on durmadan öz məsləhətçiləri ilə onların barəsində müşavirələr aparırdı. Bəzi vaxtlar ətrafındakılar onu qəti qərara gəlməyə vadar edir, Musa və tərəfdarları üçün son fikir söyləməsini istəyirdilər. Onlar bilirdilər ki, Fir‘onun məhv olması ilə tutduqları vəzifələr, əldə etdikləri var-dövlət və eyş-işrətlərə son qoyulacaqdır.

Buna görə də nəsihət olaraq Fir‘ona dedilər: -”Musa və onun qövmünü azad buraxırsan ki, burada fəsad edib səni və allahlarını tərk etsinlər?!.”

Beləliklə, onu təhrik edərək Bəni-İsrailin öldürülməsinin icazəsini ondan alaraq arzularını həyata keçirməyə başladılar. Ölüm, zülm və cinayətlə Musa və təkallahlığın qarşısını ala bilmədiklərini görüb, yenidən Fir‘onun yanına gələrək Bəni-İsrail və Musadan şikayət etməyə başladılar. İşi o yerə çatdırdılar ki, öz məsləhətlərinin əksinə olaraq qəzəblənərək onlara dedi: -”Buraxın, mən Musanı öldürüm, qoy o da Rəbbini köməyə çağırsın. Doğrusu, mən onun sizin dininizi dəyişdirəcəyindən və yer üzündə fitnə-fəsad törədəcəyindən qorxuram.” (“Mymin” surəsi, ayə 28).

Bəzən də özü-özlüyündə gələcəyi barəsində fikirləşir, hakimlik qüdrətinin və var-dövlətinin əlindən çıxacağından qorxurdu. O cümlədən, hələ Musa dünyaya gəlməmişdən əvvəl oğlan uşaqlarını öldürüb qız uşaqlarını saxlamaq hökmünü verib, Bəni-İsraili digər əzablara da düçar etmişdi.

Bəni-İsrail onun verdiyi əzablardan bezərək Musanın yanına gəlib dedilər: -”Sən gəlməmişdən öncə də biz əzab-əziyyətdə idik, indi ki, sən gəlmisən yenə də əzab-əziyyətdəyik”. (“Ə`raf” surəsi, ayə 127).

Musa Allahın buyruğu ilə onlara zülmə qalib gələcəklərini müjdə verib, Fir‘onun əzablarına səbr edərək dözmələrini əmr etdiyini söylədi: -”Allahdan yardım istəyin, səbir edin sözsüz yer üzü Allahındır. İstədiyi bəndələrinə -hər kəsə əta edər, yaxşı sonluq təqvalılarındır.” (“Ə‘raf” surəsi, ayə 126).

“...Pərvərdigarımın düşmənimizi məhv etməsinə və sizi yer üzündə onların canişini edib necə əməl edəcəyinizi müşahidə etməsinə ümid vardır.” (“Ə`raf” surəsi, ayə 127).

Uzun sözün qısası, hər gün Fir‘on tərəfindən Bəni-İsrail üçün yeni bir zülm hökmü verilirdi. Təzə-təzə hiylələr Fir‘on hakimiyyətindən Yəqub nəsli üçün planlaşdırılırdı.

Bəlkə də yaltaqlar və ətrafındakılar olmasaydı və onu təhrik etməsəydilər iş o yerə çəkməz və tarixdə o zamana qədər görünməmiş cinayətlər baş verməz, özü və digərlərinin məhvinə səbəb olmazdı. Hətta Fir‘on Musanın möcüzələrini gördükdə ona iman gətirməklə özünü və qövmünün xoşbəxtliyi də mümkün idi.

Bir çox rəvayətlərdə nəql olunduğuna və əvvəldə deyildiyi kimi Fir‘on ilk dəfə Musanın möcüzəsini gördüyü zaman ona iman gətirmək istəmişdi. “Nəhcül-Bəlağə”nin “Qasiə” xütbəsində və başqa rəvayətlərə əsasən Həzrət Musa Allah tərəfindən Fir‘ona vədə verib iman gətirdiyi surətdə qüdrətdə olduğu kimi qalacağını ona demişdi. Amma baş vəziri, ya müşaviri olan Haman onun iman gətirməsinə mane oldu və dedi: -”Bu qədər insana məbud olandan sonra Musanın Allahına iman gətirib kiminsə bəndəsi və tərəfdarı olmaq istəyirsən?” Elə Hamanın bu sözləri Fir‘onun iman gətirməsinə mane oldu.

Bu arada hamıdan bədbəxt cahillik, nadanlıq və ictimai inkişafı olmayan şəxslər onların əlində alətə çevrilmişdilər. Hər gün onların cinayətlərindən himayə etmək üçün bir yerə toplaşır, yalanla başlarını qarışdırır və öz xeyirlərinə çatmaq üçün təbliğ edirdilər.

Qur‘ani-Kərim “Zuxruf” surəsində Fir‘on və onun tərəfdarlarının tökəcəyi tədbirləri belə açıqlayır: -”Fir‘on öz qövmünün qarşısında qışqırıb dedi: “Ay camaat, Misirin hakimiyyəti təkcə mənə aid deyilmi? Bu ətrafda axan çaylar mənim ixtiyarımda olduğunu görmürsənmi? Mən yaxşıyam, yoxsa xar və aydın söz deyə bilməyən şəxs.” (“Zuxruf” surəsi, ayə 51-54). Əgər o doğrudan da hakimiyyətə layiqdirsə, bəs nəyə görə biləklərinə qızıl bilərzik salınmamış, yaxud nəyə görə mələklər onunla birlikdə gəlməmişlər?

Bu nalayiq və biabırçı çıxış bilik, idrak və inkişafdan uzaq olan adamlar üçün kifayət edirdi. Onlar quru və əsassız sözlərə aldadılaraq ona itaət edib həqiqətdən üz çevirdilər və nəticədə öz bədbəxtlik

və məhv olmaları üçün şərait yaratdılar. Allah taala yuxarıda qeyd olunan ayələrin ardınca buyurur: "Beləliklə, (Fir`on) öz qövmünü ona tabe olmaq üçün (bu sözləri ilə) aldatdı və həqiqətən də onlar fasiq idilər." ("Zuxruf" surəsi, ayə 55).

Onun ardınca digər şəxslərin yadına salıb ayıltmaq və agah olmaları üçün buyurur: "Bizim qəzəbimizi qazandıqlarına görə onlardan intiqam aldıq, hamısını suda batırdıq və başqa millətlərin onlardan və onların başına gələnlərdən ibrət almaları üçün onları başqalarına misal və ibrət dərsi etdik." ("Zuxruf" surəsi, ayə 56-57).

## "SƏRH"İN YA (UCA sarayın) TİKİLMƏSİ

Fir'on Musa və onun tərəfdarlarına verdiyi bütün əziyyətlərə xalqın ondan himayə etməsi üçün hər bir şəraiti yaratdığına baxmayaraq vəziyyətin Musanın xeyrinə dəyişdiyini və onların sayının günbəgün artmasını müşahidə edirdi. Hər gün düzəldilmiş yalançı nümayişlər, natiqlərin nitqi xalqın inkişafının və Musanın hədəfinin qarşısını ala bilmirdi. Bu səbəbdən özünü Musanın Allahına bənzətmək üçün yollar fikirləşməyə başladı. O bu yolla özünü Musanın Allahına çatdırıb, onu məhv edərək öz aləmində Musanın çağırışını kökündən kəsmək istəyirdi. Buna görə vəziri Hamana uca saray və hündür qüllə tikdirməsi əmrini verdi. O, bununla göyə qalxıb Musanın Allahının vəziyyətindən xəbərdar olmaq istəyirdi. Əgər bu yolla ona əli çatarsa, onu öldürərək rahatlığa çıxırdı.

Beləliklə də, Fir'on özü o qədər nadan və cahil olmamış, heç bir yolla asimana getmək mümkün olmadığını bilmişdir. Bundan əlavə Allahın müəyyən bir yeri olmadığından ona heç vaxt çatıb onunla hesablaşmaq imkanı olmadığını da anlamışdır. Amma bu fikir onu Allaha inanan cahil xalqı aldatmaq üçün yaxşı bir vasitə idi. O, xalqa bildirmək istəyirdi ki, mən çox qüdrətliyəm, hər bir allahı asimanda olsa belə məhv edə bilərəm. Bununla da Musanı, belə bir Allahı alçaltmaqla yalançı tanıtdırmaq istəyirdi.

Musanın Allahının göydə olması xalqı aldatmaq üçün daha başqa bir vasitə idi. O, Musanın öz Allahını tanıtdırmaq istədikdə dediyi: "Göyün və Yerin pərvərdigarı" ("Şİəra" surəsi, ayə 24). cümləsin istifadə edib demək istəyirdi ki, Musanın iddia edib xalqı ona tərəf çağırdığı Allah yer üzündə deyildir. Çünki yer üzündə təkcə bir Allah vardır, o, da mənəm. Bəlkə də bu Allah göydədir, amma mən belə güman edirəm ki, orada da elə bir Allah yoxdur və Musa yalan danışır.

Hər halda Qur'ani-Kərim onun Hamana olan əmrini belə nəql edir: "Və Fir'on (öz ölkəsinin başçılarına) dedi: -"Ey başçılar! Mən sizin üçün özümdən başqa Allah tanımıram. Ey Haman, mənim üçün gili atəşdə yandır (və kərpic düzəlt) və saray (və uca bina) tik. Bəlkə də onunla yüksəkliyə qalxım, Musanın Allahını tanıyım. Mən onun yalançı olduğunu sanıram". ("Qisəs" surəsi, ayə 39).

Başqa bir yerdə buyurur: -"Fir'on dedi: -"Ey Haman, mənim üçün uca bina tik, bəlkə yollara yəni asimanın yollarını tapam və Musanın Allahından xəbərdar olam. Əlbəttə onun yalançı olmasını sanıram". ("Mymin" surəsi, ayə 39-40).

Bəzi təfsirçilər onun məqsədinin rəsədxana düzəltmək olmasını, hazır olduqdan sonra yuxarı çıxıb göyün vəziyyətini rəsəd etmək, göydə Musanın Allahının vücudundan nişanələr ələ gətirmək istədiyi ehtimalını vermişlər.

Bəzi tarixçi və təfsirçilər isə bu əmrin ardınca on minlərlə bədbəxt adam qeyd olunan sarayı tikmək üçün işlədildiyini yazılır. Gecə-gündüz, şallaq və işgəncə altında onları işlətdilər. Bir neçə ildən sonra çoxlu pul sərf edərək, bir çox insanların qanının bahasına Fir'onun göylərə çıxmaq üçün misli olmayan uca bir bina tikdilər. Amma Allahın qəzəbi Fir'onu yaxalamış, onun və qoşununun məhv olması zamanı yetişmişdi. Allah taala külək göndərərək sarayı viran etdi. Ravəndinin "Qisəsul-ənbiya" kitıbında nəql olunmuşdur ki, qeyd olunan saray daşdan olan bir dağın üstündə tikilmişdi. Tikilib qurtardıqdan sonra Allah taala zəlzələ yaradıb sarayı başlarına xarab etmişdir. Bəziləri belə demişlər: "Sarayın ardınca bir sandıqça düzəltmələri əmrini verdi. O sandığı dörd ac quzğuna bağladılar. Quzğunların başları üstündə ətlər asdılar ki, quzğunlar o ətləri yemək üçün göyə uçsunlar. Bu zaman Fir'on və Haman sandığın içində əyləşərək quşları buraxdılar. Uzun müddət gözdən itənə qədər onları göylərə qaldırdılar. Amma havanın dəyişməsi nəticəsində yenidən geri qayıtmalı oldular."

Amma Qur'ani-Kərim və mötəbər rəvayətlərdə bu dastanlar barəsində məlumat yoxdur. Həmçinin, Hamanın onun buyuruğunu yerinə yetirib-yetirməməsi, necəliyi haqda məlumat verilməmişdir.

# FİR‘ONUN TÜĞYAN ETMƏSİ VƏ İLAHİ NİŞANƏLƏRİN MEYDANA GƏLMƏSİ

Bu arada Fir‘on xalqın başını qatmaq və onları aldatmaq üçün qəribə işlərə əl atırdı. Digər bir tərəfdən də Bəni-İsrail və Musaya iman gətirənlərə işgəncənin daha da artırılmasını əmr etmişdi. Vəzifə ardınca olan pul-pərəst şəxsiyyətsiz məmurlar ağıla gəlməz əzabı onlardan əsirgəmirdilər.

Bundan əvvəl işarə olunduğu kimi Musaya (ə) iman gətirənlər və Bəni-İsrail artıq dözə bilməyib o həzrətin yanına gələrək dedilər: “Sən gəlməmişdən öncə işgəncə və əziyyətdə idik. İndi ki, sən gəlmisən, yenə də zəhmət və əziyyət içindəyik!” (“Ə`raf” surəsi, ayə 128).

Bu yolla ona şikayət edib ondan kömək istədilər. Musa (ə) da öz növbəsində onların səbir etmələrini buyurub, onları İlahi vədələrlə ümidvar edərək Fir‘on və qitbilərin məhv olacağını onlara müjdə verdi və Allaha təvəkkül etmələrini istədi. Allah taala Musanın (ə) onlara buyruğunu “Yunis” surəsində belə bəyan etmişdir: “Musa onlara dedi: -”Camaat! Əgər Allaha iman gətirmisinizsə və onun əmrinə təslim olmusunuzsa, ona təvəkkül edin”. Onlar dedilər: -”Biz Allaha təvəkkül edirik. Pərvərdigara, bizi zalım adamların fitnəsinə düçar etmə və bizi öz rəhmətinlə kafir dəstələrin əlindən xilas et.” (“Yunis” surəsi, ayə 54-87).

Onun ardınca Allah taala buyurur: “Biz Musa və qardaşına Misir şəhərində bir-birinin qarşısında evlər (məbədlər) tikmələrini və namaz qılmalarını əmr etdik.” Musa (ə) İlahi buyruqları yerinə yetirdikdən sonra, Fir`on və qövmünün əlində çoxlu var-dövlət olduğunu və onun vəsitəsilə camaatı yoldan çıxarmalarını görüb, onları nifrin edərək Allahın dərgahına üz tutub ərz etdi: “Pərvərdigara, sən Fir`on və onun qövmünün başçılarına dünyada qızıl və mal-dövlət vermisən. Pərvərdigara, xalqı sənin yolundan azdırmasınlar deyə onların mallarını məhv və qəlblərini daş kimi et ki, sənə iman gətirməsinlər və dərdli, ağrılı əzabları dadsınlar.” (“Yunis” surəsi, ayə 88).

Allah taala cavabında Musa və Haruna xitab edib buyurdu: -”Sizin duanız qəbul oldu, səbir edib möhkəm etdi və yol bilməyənlərin ardınca getməyin.” (“Yunis” surəsi, ayə 90).

Beləliklə, Allahın əzabı Fir‘on və Qitbilərə nazil oldu və Onun qəzəbinə düçar oldular. Bəzi rəvayətlərə əsasən bu dua ilə fir‘onçuların tam surətdə məhvi arasında neçə il fasilə olmasına baxmayaraq, Allah öz peyğəmbərinin duasını qəbul etdi. Allahın Qur‘ani-Kərim də “ayat” adlandırdığı cürbəcür əzablar, biri digərinin ardınca onlar üçün nazil oldu. O cümlədən quraqlıq, qıtlıq, tufan, çəyirtkə və s. bəlaları qeyd etmək olar. Rəvayətlərə əsasən hər dəfə ilahi əzab gəldikdə Musaya üz tutub Allahdan əzabı onlardan uzaqlaşdırmasını istəməsini xahiş edirdilər. Onunla əhd-peyman bağlayıb, əgər əzablar götürülərsə ona iman gətirəcəkdərini söz verirdilər. Bəni-İsraildən və həbsdə olan iman gətirənləri azad edəcəklərini deyirdilər. Amma bəla uzaqlaşan kimi öz vədələrinə əməl etmirdilər.

Bəziləri Allahın “İsra” surəsində buyurduğu “Biz Musaya doqquz aşkar nişanə verdik...” ( “İsra” surəsi, ayə 104). Doqquz nişanəni həmin əzablarla uyğunlaşdırmaq istəyib demişlər: Bu doqquz nişanə Fir`onun qövmünə nazil olmuş həmin nişanələrdir. Bəlkə onlar bu yolla başa düşüb tüğyan etməkdən əl çəksinlər. Belə olmasaydı, Allahın Musaya göndərdiyi nişanələr bundan çoxdur. Onlar doqquz nişanəni belə qeyd etmişlər: 1) Qıtlıq, 2) Mal azlığı, 3) Ölüm-itim, 4) Məhsul azlığı, 5) Tufan, 6) Çəyirtkə, 7) Bit, 8) Qurbağa, 9) Qan.

Lakin rəvayət və təfsirçilərin fikrinə görə isə əsa və parıltılı əl o nişanələrdən olmuşdur. Bunlardan əlavə bizə ayə və möcüzələri, o cümlədən fir‘onçuların suda batmasından sonra Musanın əli ilə daşın bölünməsi və ondan su axmasını doqquz nişanədən hesab etmişlər.

Şeyx Səduq İmam Sadiqdən (ə) nəql olunan rəvayətdə o həzrət doqquz nişanəni belə yazır: “Çəyirtkə, bit, qurbağa, qan, tufan, dəniz, daş, əsa, parıltılı əl.”

Başqa bir hədisdə İmam Baqir (ə) buyurur: “Tufan, çəyirtkə, bit, qurbağa, qan, daş, dəniz, əsa və parıltılı əl.”

Bu hədisə oxşar başqa bir hədisi də Əyyaşinin təfsir kitabında o həzrətdən (ə) rəvayət etmişdir. Ola bilsin bu bəhsin sonunda bu barədə daha geniş danışaq. Qur‘ani-Kərimin “Əraf” surəsində belə zikr olunduğu kimi Allah taala fir‘onçuları qıtlıq və məhsul azlığı ilə cəzalandırdıqdan sonra tufan, çəyirtkə, bit, qurbağa, qan kimi bəlalar göndərdi. Elə biz də bu ardıcıllıqla hər birinin barəsində bir qədər açıqlama verərək dastanın davamına qayıdacağıq.

## QITLIQ VƏ QURAQLIQ

Misirin coğrafi mövqeyini tələbinə uyğun qədim zamanlardan indiyə qədər yerli camaatın əsas gəliri əkinçiliklə təmin olunurdu. Torpağı əkinə hazırlamaq və suvarmaq üçün çox da zəhmət çəkmirdilər. Nil çayının ildə bir neçə dəfə daşması nəticəsində gətirdiyi gil torpaqlara ötürülürdü. Özünə torpaqda yer etdikdən sonra həmin gil gübrəyə çevrilir və torpağın güclənməsinə səbəb olur və torpaq bu yolla əkinə hazırlanırdı. Nil çayından Misirin müxtəlif yerlərinə qollar çəkmiş və hər yerdə onun suyundan istifadə edirlər.

Fransız coğrafiya alimlərindən biri yazır: Nil çayının ətrafında olan bir çox əkin yerləri qiymətsizdir. İldə üç dəfə məhsul verməklə yanaşı çox zəhmət özünə tələb etmir. Məhsul üçün təkcə toxumu yerə atmaq kifayətdir. Gübrə tökülməsinə də ehtiyac olmadığı halda belə bütün dövlətlərdən daha sox məhsul verirdi. Məsələn, Fransanın ən münbit torpaqları beş toxumdan on toxuma qədər məhsul verdiyi halda Misir torpaqları on beş toxum bəhrə verir.

Əkinçilik sistemində fir‘onçuların zamanında olduğu kimi bu günə qədər heç bir dəyişiklik olmadan qalmışdır. Çünki, torpaqların gübrələnməsi Nil çayının və əkinin səmərə verməsi isə Günəşin öhdəsinə düşür.

Misirin sərvət mənbəyi olan Nil çayı bəzi vaxtlarda əhalinin bədbəxtçiliyinə də səbəb olur. Bu çayın suyu kifayət qədər yuxarı qalxmadıqda bütün Misiri qıtlıq təhlükəsi altına salırdılar. Bu vəziyyət bir neçə il davam edərdisə, bir çox əkinçilər ölümlə üzləşməkdən başqa çarələri yox idi. O cümlədən Hicrətin 462-ci ili Miladi tarixi ilə 1069-cu ildə Misirdə acınacaqlı qıtlıq baş vermişdir. Ərəb tarixçilərinin yazdığına görə beş il ardıcıl olaraq Nil çayının kifayət qədər suyu olmamış və digər tərəfdəndə də o zaman baş vermiş müharibələrə görə xaricdən buğda almaq da mümkün olmadığından böyük qıtlıq baş vermişdir. Məsələn, o zaman yumurtanın bir dənəsi on beş franka, bir toyuğun qiyməti isə 45 franka qədər qalxmışdı. O zamanənin xəlifəsinin şəxsi mülkü olan on min at və dəvəni camaat yeyirdi. Bir gün xəlifənin vəzirlərindən biri dəvəsinə minib məscidə getdiyi zaman camaat onu dəvədən düşürmüş və gözünün önündəcə dəvəni kəsib yemişdilər. Nəticədə araya dava düşmüş, çoxlu adam qırılmışdı. Ac camaat ölülərdən də əl götürməmiş onların meyitlərini də yemişdilər. Qıtlıq uzun sürməsindən iş o yerə çatmışdı ki, artıq camaat bir-birini yeməyə başlamışdılar. Camaat evdən çıxan arvad-uşağı mühasirə edir, qışqırmalarına etina etməyib diri-diri yeyirdilər.

Qeyd etdiyimiz bu tarixi hadisədən Nil çayının Misir xalqı üçün nə qədər əhəmiyyətli olmasını başa düşmək olar. Fir‘onun Nildən ayrılan qolların hesabına suvarılan xalqın boynuna minnət qoymasının sirri də elə bundadır. O, Nilin qollarını öz allahlıq və qüdrət nişanəsi bilir, onlara deyirdi:

-”...Ey mənim qövmüm! Mən Misirin hakimi deyiləm? Axan bu çaylar mənim əmrim ilə axmırlarmı?! Siz bunları görmürsünüz?” (“ Zuxruf” surəsi, ayə 51).

Hər halda Allah bir neçə il onlara qıtlığın nə olduğunu anlatdı. Bəlkə də bu qıtlıq Nilin yuxarı qalxmaması nəticəsində olmuş, məhsuldar torpaqlar gübrəsiz və susuz qalmış və nəticədə xalq məhsul götürə bilməmişdi.

Allah taala “Əraf” surəsində buyurur: “Biz Fir`onu quraqlıq və məhsulsuzluğa düçar etdik ki, bəlkə ibrət götürsünlər...” (“Ə`raf” surəsi, ayə 128). Həmin quraqlıq onların arasında ölüm-itimə, malların azalmasına səbəb olmuşdu. Bəzi rəvayətlərin nəql olunduğu kimi baş vermiş ölüm-itim, əkin və meyvələrinə gələn bəla, ya sel, tufan, taun xəstəliyi və s. çayın tüğyan etməsi ilə əlaqədardır. Allah daha yaxşı bilir.

## TUFAN

Nil çayının suyunun həddən artıq aşağı düşməsindən qıtlıq yarandığı kimi həddən artıq yuxarı qalxması da tufana səbəb olur. Qeyd olunan tufanın baş verməsi də bundan istisna deyildir. Nilin daşması nəticəsində fir‘onçuların evləri əkinləri su altında qalmış, yaşayış çətinləşmişdi. Təfsirçilər yazırlar ki, bu tufan fir‘onçuların evlərini viran etmiş şəhərdə yaşayış imkanı aradan getmişdi. Məcbur olaraq şəhərdən çıxmış çöllərdə çadırlar quraraq orada yaşamağa başlamışdılar. Eləcə də əkin sahələri su altında qalmış, həmin il əkin əkə bilməmişdilər. Əksinə olaraq, bu tufan Bəni-İsraillilərin ev və

əkinlərinə zərər vurmamış bir damcı su da onların torpaqlarına daxil olmamışdı. Qeyd olan tufan çoxlu yağışların yağması və sellərin gəlməsi nəticəsində də ola bilər.

Hər bir halda fir'onçular cana yığılıb Musanın yanına gələrək ondan öz Allahından tufan bəlasını onların üzərindən götürməsini istəmişdilər. Onlar da Bəni-İsraili və zindanda olanları azad edəcəklərinə söz vermişdilər. Musa dua edib tufan onlardan gğtürüldükdən sonra onlar öz vədələrinə əməl etməyib yenidən zülm və tüğyan etməyə davam etdilər.

## ÇƏYİRTKƏ

Qıtlıq ilinin ardınca o biri il Allah taala çəyirtkələri onların ağaclarına əkin sahələrinə hakim etdi. İş elə bir yerə çatmışdı ki, yaşıllıq məhv olmuşdu. Çəyirtkələr ağac və əkinlərini yeyib qurtardıqdan sonra evlərinə hücum edərək ev əşyaları, qapı və paltarlarını yeməyə başlamışdılar. Fir'onçular bu bəladan cana yığılmış və nalələri ucalmışdı. Çətinliyə düşən Fir'on üzünü Musaya tutub dedi: "Allahından istə səninlə bağladığı əhdə (görə) əgər əzabı bizim üzərimizdən götürsə, sənə iman gətirər, Bəni-İsraili də səninlə göndərərik." ("Əraf" surəsi, ayə 131). Musa da Allahdan bunu istədikdə çəyirtkələr getdilər. Amma onlar yenə də əhdlərinə vəfa etməyib iman gətirmədilər və Bəni-İsrailə zülm etməkdən də əl çəkmədilər.

Təfsirçilərin dediyinə görə "düz bir həftə yəni bu şənbə günündən o biri şənbə gününə qədər çəyirtkələr onların həyatına hakim olmuşdu." Rəvayətə əsasən Musa səhraya gələrək əsası ilə şərq və qərbə işarə etdi. Çəyirtkələr də dağılışdılar. Fir`on öz vədəsinə əməl etmək istədi, amma Haman mane olub qoymadı."

## BİT

Bu dəfə Allah taala fir'onçuları bit bəlasına düçar etdi. Paltarlarını, yataqlarını, yemək qablarını, bir sözlə, bütün yaşayışlarını bit basdı. Üz-gözlərinə qədər bit gəzir narahatçılıqlarına səbəb olurdular. Bit, tufan və çəyirtkədən də onlar üçün çətin idi.

Səid İbn Cübeyr demişdir: -"Xırda düyü, buğda və unun içində əmələ gələn xırda həşəratlar idi. O qədər çoxalmışdılar ki, əgər bir nəfər on xurcun buğda un etmək üçün dəyirmana aparsaydı onun üç xurcununu salamat geri qaytara bilməzdi. Yavaş-yavaş un və buğdadan evlərə, ev əşyalarına, paltarlarına və üz-gözlərinə doluşmuşdular. Hər yer həşəratların çoxluğundan qara rəngə dönmüşdü. Üz-gözləri xal-xal olmuşdu. Bu həşəratlar onların rahatlıqlarını əllərindən almışdı. İş o yerə çatmışdı ki, bitin əlindən fəryad çəkirdilər. Fir'on çarəsiz qalıb yenə də Musaya pənah gətirdi. Keçən dəfələrdə olduğu kimi bu bəlanın da onların üzərindən götürülməsini istədi və əvəzində iman gətirib Bəni-İsraili azad etmək vədəsini verdi. Amma yenə də öz vədəsinə əməl etmədi. Musa Allahdan istədi və O, çətin əzabı onlardan uzaq etdi. Amma onların zalımcasına rəftarında heç bir dəyişiklik olmadı."

## QURBAĞA

Allah taala bir daha fir'onçuları cəzalandırmaq üçün qurbağa bəlası ilə onları cəzalandırdı. Bütün yemək və içməklərinin hamısı qurbağa ilə doldu. Evləri və qablarına qədər qurbağa idi. Əllərini uzatdıqları hər şeydə, paltar, yemək və boşqab qurbağa olurdu. Bişirdikləri hər xörəyə qurbağa tökürdülər və onu xarab edirdilər. Bu yerdə oturan kimi qurbağalar onların paltarlarına başlarına üz-gözlərinə çıxırdılar. Danışmaq ya yemək üçün ağızlarını açdıqları zaman yemək və danışmadan öncə qurbağa girərdi ağızlarına. Xülasə çətinlikləri həddini aşmışdı. Çarəsiz qalıb yenidən Musanın yanına gələrək etdikləri vəfasızlığa görə üzr istəyir bu dəfə sözlərinə əməl edəcəklərini dedilər. Amma yenə də keçən dəfələrdə olduğu kimi Musa dua edib bəla onlardan götürüldükdən sonra yenə də verdikləri sözə əməl etmədilər.

## QAN

Qan əhvalatını iki cür nəql etmişlər. Təfsirçi və tarixçilərin bir dəstəsinin dediyinə görə Nil çayının suyu Fir'onçu və qibtilər üçün qana döndü. Nəql olunub ki, Musa (ə) Nil çayının kənarına gəlib əsasını suya vurdu və Nilin suyu elə həmin an qibtilər üçün qana çevrildi. Amma Bəni-İsrail üçün su təmiz və

zülal idi. Qibtilər o sudan götürüb və əllərini suya vurduqları zaman qana dönürdü. Amma İsraillilər üçün su olaraq qalırdı. İş o yerə çatdı ki, Qibti qadınları Bəni-İsrail qadınlarının yanına gəlib onlardan istəyirdilər ki, öz əlləri ilə qabları suyla doldurub, onların qablarına töksünlər. İsrail qadınları da su qabları əllərinə alıb su ilə doldurdular. Amma elə ki, suyu Qibti qadınlarının qablarına tökürdülər, qana dönürdü. Təbəri tarixində və başqa kitablarda nəql olunduğuna görə iş o yerə çatmışdı ki, bir Qibti qadını İsrailli qadının yanına gəlib ona deyir: "Sən suyu öz ağzına al sonra mənim ağızıma tök." İsrailli qadını suyu ağzına alıb onun ağzında olduğu zaman su, Qibti qadının ağzına tökdüyü zaman qana döndü.

Bu vəziyyət səkkiz gün davam etdi. Bütün yemək-içməkləri qana dönmüşdü. Susuzluqlarnın şiddətindən ölüm həddinə yetişmişdilər. Fir'on özü susuzluqdan təzə meyvələri yemək istədikdə, meyvələrin suyu ağzında qana dönürdü.

Bu nəzəriyyənin qarşısında Zeyd Əsləm və bir başqaları deyirlər:

"Rəaf" xəstəliyinə (burun qanına) tutulmuşdular. Durmadan burunlarından qan axırdı. Çarəsiz qalıb yenə də Musanın yanına gəldilər. Onlardan bəla götürüldükdə iman gətirib Bəni-İsrailə əziyyət verməkdən əl çəkəcəklərini söz verdilər. Amma təəssüflər olsun ki, bu dəfə də dediklərinə əməl etməyib Bəni-İsraili azad etmədilər.

Səid Cübeyr deyir:

-"Fir'onçuların düçar olduqları son bəla taun xəstəliyi olmuşdur. O xəstəlikdən yetmiş min nəfər ölmüş, sonda bu bəlada o biri bəlalar kimi Musa (ə) duası ilə onlardan uzaqlaşmışdı. Amma bu da onların səhvlərini anlamasına səbəb olmamış, tüğyan, küfr və Bəni-İsrailə əzab etməkdən əl çəkməmişdilər."

Bir çox təfsirçilərin dediyinə görə Allahın əzablarından biri mallarının daşa dönməsi idi. Bu Musanın onları nifrin etdikdən sonra başlarına gəldiyi bəla idi. O Allah dərgahına üz tutub demişdi: -"Pərvədigara, onların mallarını məhv et." ("Yunis" surəsi, ayə 88). Bir dəstə "Təms" yəni onların mallarının daşa dönməsini doqquz nişanədən saymışlar. Təbəri Məhəmməd İbni Kə`bdən nəql edib deyir. O, demişdir: "Ömər İbni Əbdüləziz məndən Allahın Fir`ona göstərdiyi doqquz nişanəsinin nə olmasını soruşduqda, dedim: -"Tufan, çəyirtkə, bit, qurbağa, qan, əsa, parıltılı əl, "Təms" (daşa dönmə) və dəniz."

Ömər dedi: -"Bəli mən bilirdim ki, "Təms" doqquz nişanədən biri olmuşdur." Mən dedim: -"Musa onları nifrin etmiş Harun isə amin demişdi. Allah onların mallarını daşa döndərmişdi." Məhəmməd İbni Kə`b sözünə davam edib deyir: -"Bunun ardınca Ömər İbni Əbdüləziz bir dəsmal gətirdi. O dəsmalda bəzi şeylər var idi. Onları Əbdüləziz İbni Mərvan Misirdən gətirmişdi. Dəsmalda Fir`on və qibtilərdən qalma şeylərdə vardı. O, iki yerə bölünmüş və daşa dönmüş yumurta çıxartdı. Bundan əlavə daşa dönüb xırdalanmış qoz, noxud və mərci də var idi."

Bəli, ilahi əzablar ayrı-ayrı surətdə fir'onçulara nazil olsa da onların haqqı anlamalarına səbəb ola bilmədi. Bu nişanələrdən sonra Musaya iman gətirib onu təsdiqləməkdənsə, yalançı adlandırıb ələ salmağa başladılar. Qur'ani-Kərimin qeyd etdiyi kimi onu cadugər adlandırdılar. Etdikləri bütün işlərin nəticəsi mübarək "Qəmər" surəsinin buyurduğu kimi olmuşdur: "Sözsüz fir'onçulara qorxuducu nişanələr nazil oldu. Amma bizim bütün nişanələrimizi yalançı adlandırdılar, biz də onları çox çətinliklə və əzabla yaxaladıq." ("Qəmər" surəsi, ayə 41-42).

"Nəml" surəsində də onların haqqında buyurur: -"Bizim aydın nişanələrimiz onlar üçün gəldikdə dedilər: -"Bu aşkar sehrdir." Onlar qəlblərinin ona yəqinlikləri olmasına baxmayaraq, zalımlardan olub onu inkar etdilər. Beləliklə, zalımların sonunun necə olduğuna diqqət et!" ("Nəml" surəsi, ayə 13-14).

## MİSİRDƏN ÇIXMA

Bəni-İsrailin Fir'onun zülmündən çıxma zamanı yetişdi. Musa (ə) Bəni-İsrail ilə Fələstinə yola düşməyə əmr olundu. Tövratın qeyd etdiyinə görə Fir'on o nişanələri gördükdən sonra Musanın əlindən xilas olub və yenidən başqa bir bəlaya düçar olmamaq üçün onların azad olmasına icazə verdi. Amma Bəni-İsrail azad olduqdan sonra peşman olub onların ardınca düşdü. Amma Qur'ani-Kərimdən istifadə olunduğu kimi onların xaric olması Allahın əmri və vəhyi ilə olmuşdur.

Bəzi rəvayətlər və tarixlərdə nəql olunduğu kimi Misirdən xaric olmazdan əvvəl Bəni-İsrail qadınları Musanın əmri ilə Qibti qadınlarının yanına gedib onlardan qızıl və cəvahiratlarını onlara əmanət vermələrini istədəlir. Qibti qadınları da əvvəlki İlahi nişanələri görüb qorxduqlarına görə bütün qızıl və cəvahiratlarını Bəni-İsrail qadınlarına əmanət verdilər. Fir'on özü belə xəzinəsində olan bütün qızıl və

cəvahiratı onlara əmanət verdi. Sabahı gün olduqda Musa qövmü ilə Misirdən çıxdıqda Bəni-İsrail qadınları qızılları da özləri ilə götürdülər.

Bu xəbər Fir'ona çatdıqda çox narahat olub qəzəbləndi. Onların ardınca getmək fikrinə düşərək qoşunun hazır olması əmrini verdi. Döyüşçüləri şəhərlərdən yığdılar. Hamını Bəni-İsrail ilə döyüşə səfərbərliyə hazırladılar. Bunun səbəbi isə bu idi: Bəni-İsrail bizim köləmiz olub qaçdıqlarına görə geri qaytarılmalıdırlar. Fir'on qoşunu ilə onların ardınca şəhərdən çıxdı. Amma bu səfərin onların bədbəxtliyinin başlanğıcı olmasını bilmirdi.

Musa (ə) ilə Misirdən çıxmış Bəni-İsrail qövmünün sayını 600 min nəfər qeyd etmişlər. Başqa nəzəriyyələrə görə bəziləri onları 620, bəziləri isə 670 min deyirlər. Amma Fir'onun qoşununa gəldikdə isə onların sayını bunlardan da çox olduğunu deyirlər. Təkcə Hamanla qabaqcadan göndərdiyi qoşunu 600 və bəziləri isə 700 min nəfər olmuşlar. Fir'ona gəldikdə isə onun çıxardığı qoşunun sayının bir milyon olması nəql olunur. Sələbi deyir: -"Hamanı qabaqcadan bir milyon yeddi yüz min əsgərlə göndərmiş, özü isə yüz minlərlə qoşunla onların ardınca hərəkət etmişdi."

Qur'ani-Kərim Fir'onun qoşununa dediyini nəql edib buyurur: "Bunların dəstəsi azdır".("Şİəra" surəsi, ayə 54). Bu cümlə onun qoşununun Bəni-İsraildən neçə bərabər çox olmasını bildirir.

Musa və Fir'onun Misirdən çıxmaları arasındakı fasilənin neçə müddət olması məlum deyildir. Yazılanlara görə Musa Bəni-İsraillə Qırmızı dənizə gəlib orada iki gün istirahət etdikdən sonra səhər açılanda uzaqdan Fir'onun saysız-hesabsız qoşununun onlara tərəf gəldiyini müşahidə etdilər.

Bəni-İsrail Fir'onun qüdrətini və qoşun çoxluğunu yaxşı bilirdilər. Onu da bilirdilər ki, Fir'onla qarşı-qarşıya durma qüdrəti onlarda yoxdur. Özlərini qoşun və dəniz arasında gördükdə vəhşət və qorxu içində Musanın yanına gəlib dedilər:

-"Elə indi bu saat Fir'onun qoşununa əsir düşəcək və onların əli ilə öldürüləcəyik!"

Musa (ə) arxayınçılıq və yüksək ruhiyyə ilə onlara cavab verib dedi:

-"Heç vaxt! Pərvərdigarım mənimlədir və məni doğru yola yönəldəcəkdir."

("Şİəra" surəsi, ayə 62).

Bu ümid verici cümlələr arxayın bir qəlbdən ucalırdı. İmanlı insanlar təskinlik tapır, süst əqidəli və zəif inamlı insanlar isə Musanı sözləri ilə öz qorxu və vəhşətlərindən əl çəkə bilmir, bir neçə saat səbir edə bilmirdilər. Buna görə də həyəcan və təşvişlə Musanın ətrafına toplaşmış tezliklə qaçmağa yol axtarırdılar. İşi elə bir yerə çatdırmışdılar ki, Musanı danlamağa başlayaraq onu təqsirləndirirdilər:

-"Ey Musa, bizə verdiyin qələbə vədəsi haradadır? İndi qarşımızda dəniz, arxamızda isə düşmən durubdur, qarşıya hərəkət etsək suda boğulacaq, yerimizdə qalsaq Fir'onun adamlarının əlində öləcəyik!"

Bu zaman güclü külək qalxıb dənizdə tufan əmələ gətirdi. Dalğalar dağ kimi ucalırdı. Yuşə İbn Nun irəli gəlib dedi:

-"Ey Musa! Əmrin nədir? Fir'onun qoşunu yaxınlaşmış dəniz də qarşımızdadır!" Musa dedi: "Dənizin bu yerindən keçməyimiz əmr olunur." Yuşə önə keçdi, atı ilə dənizin içinə girdi. Amma suyu keçə bilməyib Musanın yanına qayıtdı. Onun ardınca başqaları da dənizi keçməyə səy etsələr də sonda geri qayıtmağa məcbur oldular. Bu zaman ilahi vəhy keçid yolunu onlara göstərdi. Haqqın hidayəti Bəni-İsraili əhatə etdi. Musaya vəhy oldu: "Əsanı dənizə vur..!" ("Şİəra" surəsi, ayə 63).

Musa möcüzəli əsasını suya vurdu. Bu anda dəniz bölündü, çox çəkmədi ki, suyun dibi görünməyə başladı. Allahın əmri ilə külək və günəş köməyə gələrək dənizin dibini qurutmağa başladılar. Bəni-israil on iki tayfa olduğu üçün suda on iki keçid əmələ gəldi. Hər tayfa bir keçiddən keçməli idi. Yolların hər iki tərəfində su bir yerə yığılaraq iri dağlara bənzəyirdi. Eyni zamanda suyun şəfaflığından bir keçiddən keçənlər o biri keçidlərdən keçənləri görürdülər. Beləliklə asudə və salamat suyu keçdilər.

Bəzi təfsirlərdə suyun on iki yerə bölünməsi və Bəni-İsrailin bir-birinin yaranmış pəncərələrdən görməsi onların öz istəyi ilə olması qeyd olunmuşdu. Onlar Musaya üz tutub demişdilər:

-"Biz on iki tayfayıq. Hamımız birlikdə sudan keçə bilmərik."

(Ayrılıqda) suya girdikdən sonra yenə ona üz tutub dedilər:

-Biz öz yol yoldaşlarımızdan xəbərsizik. Musa Allaha üz tutub dedi:

-"Pərvərdigara! Bunların pis əxlaqı qarşısında mənə kömək et!"

Allah ona əsasını o tərəf bu tərəfə tutmasını əmr etdi. Bu vaxt suda pəncərələr yarandı və onlar bir-birlərini gördülər.

Bəli, Musa və Bəni-İsrail sudan keçdilər. Geriyə baxdıqda Fir'on və qoşununun sudan keçməyə hazırlaşdıqlarını gördülər. Bu zaman yenidən nigaran olub qorxuya düşdülər və Allahın dərgahına əl

açdılar. Bəzilərinin dediyinə görə Musadan dua edib Allahın dənizi öz əvvəlki halına qaytarmasını, fir'onçuların yolunun bağlanmasını istəməsini xahiş etdilər. Yenə də Allah taala Musanın köməyinə gəldi, qabaq olduğu kimi işini üstündən pərdəni götürüb Musanın bu işə razı olmaması və dənizi olduğu kimi qalmasını məsləhət bildi.

Allahın bu dəfəki – əvvəlki əmrinin ardı olması da mümkündür – vəhyi belə idi: "Dənizi öz halında (bölünmüş) qoy, onlar suda boğulmalı qoşundur." ("Duxan" surəsi, ayə 24). Yəni belə bir şey istəmə, ya dənizin əvvəlki halına qayıtmasını gözləmə. Dənizin bu bölümü sizin üçün nicat yolu, fir`onçular üçün isə məhv olma yoludur.

Onlar hal-hazırda sizin bu yoldan salamatçılıqla bu tərəfə keçdiyinizi müşahidə edib, onlar üçün də bu yolun hazır olduğunu hesab edirlər. Onlar tamaha düşüb sizin ardınızca suya girdikdə biz onları suda batıracağıq.

## YENƏ DƏ QÜRUR VƏ TÜĞYAN

Tarix kitablarında yazılır: Fir'on dənizə çatdıqda onu bir neçə yerə ayrılaraq yol açdığını gördükdə yoluna davam edərək təkəbbür və qürurla yoldaşlarına dedi: "Baxın görün, dəniz necə mənim üzümə açılıb, qaçmış düşmən və köləleri geri qaytarmağa mənə kömək edir!" Bunu deyib atını dənizə tərəf sürdü.

Qarşısında dalğalanan dəryanı görən at yerindən tərpənmədi. Bu vaxt dişi ata minmiş Cəbrayıl Fir'onun qarşısında zahir olub suya girdi. Dişi atın iyin duycaq Fir'onun atı özünü onun ardınca dənizə vurdu. Bunu görən qoşun onun ardınca hərəkət etdi.

Bəni-İsrailin axırıncı nəfəri sudan çıxan an Fir'onun qoşununun axırıncı adamı suya daxil oldu. Elə bu zaman Allahın əzab əmri fir'onçular haqqında nazil oldu. Dənizə onları qoynuna alması əmri verildi.

Bir anda kənara çəkilmiş sular bir-birinə dəydi və çox çəkmədi ki, suyun dibinə batdılar. Fir'on Allahın ona verdiyi uzun ömür müddətində çoxlu zülmlər etdiyindən daş ürəkli insana çevrilmiş, həmişə belə qalacağına arxayın olmuşdu. Amma qəflətən özünü həlakət halında görüb Musanın ona dəfələrlə əzaba düçar olacağını deməsini indi müşahidə edirdi. Əfsus çarə qapıları üzünə bağlanmış, saysız hesabsız qoşunu qiymətdən düşmüşdü. Artıq onu xilas edəcək bir kəs yox idi. Dəfələrlə Musa (ə) və onun ətrafındakılardan eşitmişdi ki, deyirdilər: -"Bütün kainat və bütün varlıqların Allahı vardır. Sən və başqaları onun aciz məxluqusunuz."

Təəssüflər olsun ki, məqam və vəzifə qəlbinin, qulağını möhürləmiş, həqiqəti qəbul etmək istəməmişdi. Qəlbinin ona dediyi: -"Zülmdən əl götürüb Allahın günahsız bəndələrinə əzab vermə! Bir gün gələr verdiyin əzabların cəzasını çəkərsən" sözlərini həmin o xətərli halda dərk edirdi. Amma təəssüf, təkcə yolu Musanın Pərvərdigarına iman gətirib nicat tapmaqda olduğundan qışqırıb dedi: -İman gətirdim ki, Bəni-İsrailin iman gətirdiyi Allahdan başqa məbud yoxdur və mən təslim olanlardanam. ("Yunis" surəsi, ayə 90).

Amma Pərvərdigar onun cavabında buyurdu: -"İndi iman gətirirsən? Bundan əvvəlki ömrünü küfr və itaətsizlikdə keçirdiyin halda?" ("Yunis" surəsi, ayə 91).

Onun bu sözünün də özünü qurtarmaq, yenidən zülmünə davam etmək üçün bir hiylə olması nəzərdən uzaq deyildir. Onun iman gətirməsi səmimi qəlbdən deyildi. Əks təqdirdə Allah onu xilas edərdi. Bu sözümüzə şahid onun iqrar etdiyi cümlədir ki, deyir: -"Bəni-İsrailin iman gətirdiyi Allaha iman gətirdim." Başqa bir sözlə desək onun imanı həqiqi deyil, təqlid üzündən olmuşdur!

## FİR'ON VƏ ORDUSU DƏNİZDƏ BOĞULDULAR

Beləliklə, Pərvərdigar Fir'on və qoşununu suda batırıb başqalarına ibrət dərsi verdi. Dalğaların bir-birinə toqquşmasından dəhşətli səs yarandı. Bu səsdən vəhşətə düşən Bəni-İsrail Musadan (ə) soruşdular:

-"Bu qorxulu səs nədir?"

Musa cavablarında buyurdu:

-"Sübhan Allah Fir'onu və onunla olanların hamısını suda batırdı!"

Fir'onun əzəməti qəlblərinə hakim olan zəif imanlı insanlar hələ də onun suda bağulmasına inanmayaraq Musadan (ə) soruşdular:

-"Fir'on necə suda batıb ölə bilər?"

Allah taala dənizin dalğalarına əmr edib Fir‘onun cansız cəsədini sahildə uca bir yerə atmasına əmr etdi. Bəni-İsrail onu gözləri ilə gördülər. Allah bu barədə buyurur: -"İndi gələcək nəsillərə ibrət dərsi olsun deyə sənin cansız bədənini uca bir yerə (sahilə) atacayıq, həqiqətən də insanların bir çoxu bizim nişanələrimizdən xəbərsizdirlər. ("Yunis" surəsi, ayə 92).

## FİR‘ONUN MƏHVİNDƏN SONRA

Tarixçi və təfsirçilər arasında Fir‘on suda batandan sonra Musanın (ə) Misirə və Beytül-Müqəddəsə qayıdıb-qayıtmaması barədə fikir ixtilafı vardır. Həsən Bəsridən olunan rəvayətdə deyilir: -"Musa (ə) Bəni-İsraili Misirə qaytararaq onları fir‘onçuların evlərində yerləşdirdi." Sələbidən olan rəvayətdə isə o, "Ərais" kitabında olduğunu demişdir: -"Hər biri on iki min olan iki böyük qoşunu Yuşə İbni Nun və Kalib İbni Yufənnanın başçılığı altında Fir‘onun şəhərlərinə qaytardı. Onlara əmr edib qoca, qarı, qadın, uşaq və xəstə olmayan şəhərlərə gedərək orada olan xəzinələri gətirmələrini əmr etdi. Onlar da o həzrətin əmrinə əməl etdilər. Misirdən çıxmaq istədikdə Yuşə İbni Nun onların özündən (Fir‘onun qövmündən müharibəyə getməyən) bir nəfəri onlar üçün başçı təyin etdi. Mütəal Allah "Duxan" surəsində buyurur: -"Necə bağlar və bulaqlar qoydular və necə əkinlərdən, gözəl yerlərdən və istifadə etdikləri nemətləri tərk etdilər və onları biz başqalarına verdik..." ("Duxan"surəsi, ayə 25-27).

Musanın Misirdən çıxma əhvalatında bu dastan da nəql olmuşdur ki, Allah taala Musaya vəhy edib Yusifin sümüklərini Misirdən Fələstinə aparmasını istədi. Musa əmri yerinə yetirmək üçün Yusifin dəfn olduğu yeri soruşdu. Axırda çox qoca olan bir qadını gətirdilər. O, qəbrin yerini bilirdi. O Musadan ona baxmaq xahişini etdi. Allahı vəhyi əsasında Musa qəbul etdi. Sonra qadın qəbrin yerini göstərdi. Musa Yusifin sümüklərini özüylə götürüb Fələstinə apardı.

Bizə məlum olan budur ki, Musa (ə) Misirə qayıtmış, belə olsa, nəhayətdə orada qalmamış, Allahın əmri ilə Bəni-İsraili özü ilə apararaq Fələstinə Sina səhrasına gəlmişdir.

## BƏNİ-İSRAİLİN İTAƏTSİZLİYİ VƏ MUSAYA VERDİKLƏRİ ƏZİYYƏTLƏR

Əvvəldə işarə edib Bəni-İsrailin uzun illər Fir‘onun və qibtilərin əsarəti altında yaşayıb, onlardan cürbəcür əzablar çəkməsini demişdik. Alçaldıcı və çox zəhmət tələb edən işləri onlara tapşırır, müharibələrdə onlardan divar kimi istifadə edirdilər. Misirin Fir‘onu uzun illər oğul-uşaqlarını öldürmüş, qızlarını diri saxlamışdı. Fir‘onun bu vəhşiliklərinin Qur‘anın dili ilə desək, bu böyük bəlanın qarşısında etiraz edib bir söz deyən olmamışdı.

Bircə Allah onların bu əzabdan qurtarmaq üçün nə qədər ah-zar etmələrindən xəbərdardır. Birlikdə, tək-tək, gizlində və aşkarda Allah dərgahına dua edib bu böyük bəladan qurtarmaq üçün göz yaşları tökmüşdülər.

Allah onlara minnət qoyub o bədbəxt, ayaq altında qalmışları xilas edərək onlara şəxsiyyət verdi. Həzrət Musa (ə) kimi böyük bir şəxsiyyəti öz aralarından peyğəmbərliyə məbus edib çoxlu möcüzə və nişanə ona əta etdi. Onu həmin nişanələrlə Fir‘onun yanına göndərib yumşaq danışmaqla Allah tərəfinə dəvət etməsini, ilahi əzabla, fəsadının cəzası ilə qorxutmasını və Bəni-İsraili xilas etməsini istədi.

Allahın Kəlimi çox əhəmiyyətli vəzifəni qəbul edib, bütün çətinliklərə baxmayaraq Fir‘ona təbliğ etməyə məşğul oldu. Ömrünün qırx ilini gecə-gündüz Fir‘on və onun tərəfdarları ilə mübarizədə keçirdi. Bu yolda hər cür təhqir, dil yarası, ölümlə hədələmə, cadugər və sehrbaz adlanmasına baxmayaraq səbir etdi. Axır ki, Allahın xüsusi və qeybi köməkləri ilə Bəni-İsraili zülm və işgəncəsindən xilas etdi. Sonra Allah Fir‘on və onun güclü qoşununu gözləri qarşısında Qırmızı dənizdə batırıb məhv etdi.

Bu nemətlərin qarşısında Bəni-İsrail şükür edərək ömürlərinin sonuna qədər bir an belə ona ibadət etmək və çəkdikləri bədbəxtlikdən qafil olmamaları lazım idi. Hər yerdə səmimi qəlblə Musa Kəlimə itaət edib onun əmrlərini yerinə yetirməlidilər. Amma təəssüf olsun ki, onların bir çoxu (çox azını müstəsna etməklə) pis əxlaqlı, yaltaq, dünyapərəst adamlar idi. Hər bir şeyə zahir və maddilik gözü ilə baxaraq qeyb aləminə diqqət yetirmirdilər. Ataları Həzrət İbrahim (ə), İshaq (ə) və Yəqub (ə) Tohid məktəbinin və qeybə imanın özülünü qoyanlar olmasına baxmayaraq, özləri ürəkdən gözə görünməyən Allaha və qeyb aləminə iman gətirmirdilər. Təəssübkeşlikləri üzündən özlərini əcdadlarının əqidə və məsləhətlərinin davamçısı hesab edirdilər. Bir neçə il Musa (ə) ilə həmkarlıq edib Tohid və

allahpərəstlikdən danışmalarına baxmayaraq, yeganə Allahı tanımamış, onu bir cisim ya insan kimi düşünürdülər. Sanki onun bədən üzvlərinin maddə kimi məhdud olmasını düşünürdülər. Uzun illər Misirin bütpərəst xalqı ilə qarışdıqları üçün onların Allaha zidd olan xüsusiyyətlərini götürmüşdülər. Bəlkə də elə bu onların arasından seçilmiş yetmiş nəfərin Tur dağında Musadan Allahı aşkar görmələrini istəməsinə səbəb olmuşdu. Həqiqətən də əgər onlar Allahı layiqincə tanımış olsaydılar, belə bir şeyi istəməzdilər. Bu müddət ərzində Musa (ə) bacardığı qədər müxtəlif yollarla Allahın sifətlərini dərk edəcəkləri miqdarda onlar üçün açıqlamış, zehinlərini batil düşüncələrdən təmizləmişdi. Amma bütün bunlara baxmayaraq, cəhalət, nadanlıq, dünyapərəstlik əxlaqı batinlərini bir tərəfə atmış, qəlblərində olanı dillərinə gətirmişdilər. Hələ Fir'onun batmasından bir neçə gün bəlkədə bir neçə saat keçməmişdi ki, Musadan (ə) onlar üçün ibadət etməyə büt düzəltməsini istəmişdilər. Sübhan Allah onların buna münasib istəyini belə bəyan edir: "Bəni-İsraili dənizdən keçirdik və onlar bütlərinə ibadət edən bir qövmün yanından keçdikdə Musaya dedilər: -"Ey Musa, bizim üçün bunların məbudları kimi ( ona ibadət etmək üçün)məbud düzəlt. Musa onlara dedi: -Həqiqətən də siz cahil insanlarsınız!" ("Ə'raf" surəsi, ayə 138).

"Bu dəstənin vəziyyəti və yolu məhvə doğrudur. Tutduqları iş batildir." ("Ə`raf" surəsi, ayə 139).

Sizə hamıdan üstünlük bəxş edən Allahdan başqa necə digər məbud axtarırsınız! ("Ə`raf" surəsi, ayə 140).Bir az diqqət etməklə Bəni-İsrailin o həssas vaxtda düşünülməmiş sözlərinin Musanın (ə) pak olan ruhuna necə təsir qoymasını anlamaq olar. O həzrətin (ə) qəlbi çox narahat oldu. Musa onlara dedi: "Siz cahil və nadan insanlarsınız." ("Ə`raf" surəsi, ayə 138).

## HƏZRƏT ƏMİRƏL-MÖMİNİN ƏLİ (Ə)-DAN BİR MARAQLI HƏDİS

İbni Şəhraşub "Mə`naqib"də rəvayət etmişdir ki, Rəsul Calut (müsəlmanların rəftar və əxlaqına etiraz olaraq) Əliyə (ə) dedi:

-"Peyğəmbərinizin vəfatından otuz il keçməmiş münaqişə edərək bir-birinizin üstünə qılınc çəkmisiniz!" Əli (ə) onun cavabında buyurdu:

-"Siz Yəhudilərin ayağının altı hələ dənizin suyundan qurumamış Musaya dediniz: -"Bunların məbudu kimi bizim üçün məbud düzəltməyini istəyirik."

Sonradan baş vermiş hadisələrdən onların Musadan ibadət üçün istədikləri bütün inək, ya da buzov olması məlum olmuşdur. Təfsirçi İbni Cərih deyir: -"Bəni-İsrailin dənizdən keçəndən sonra görüb, meyl etdikləri və ibadət etmək üçün istədikləri bütlər inək, ya da buzov olmuşdur. Buradan onların Misirdə bütpərəstlərlə daha çox ünsiyyətdə olmaları məlum olur. Səbəbi isə Misir padşahlarının onlara hakimiyyət etməsidir (məşhur cümləyə görə "insanlar öz padşahlarının dinindədirlər"). Onlar buzovpərəstliyə meylli olmuş və ona hörmətlə yanaşmışlar. Tarixçilər "Qədim Misirin dinləri və Fir`on zamanəsinin insanları barədə tarixdə yazırlar: "İnəyə ibadət etmək onların arasında adi hala çevrilmişdi. Hindlilər kimi inəyi müqəddəs və ehtirama layiq sayırdılar. Allah taala "Bəqərə" surəsində Bəni-İsrailin xüsusiyyətləri haqqında buyurur:

"Onların qəlbləri inək məhəbbəti ilə varılmışdı"("Bəqərə" surəsi, ayə 93). Bu cümlə onların buzova olan məhəbbətinin şiddətini göstərir.

Buzovun kəsilməsi əhvalatında (onun şərhində danışacağıq) bir çox təfsirçilər demişlər: "Mütəal Allahın "qatili" tapmaq üçün Bəni-İsrailə inək kəsmək hökmünü verməsinin səbəbi inək məhəbbətini onların qəlbindən çıxartmaq idi." Elə keçmişlərinin pis olması üzündən Samiri Bəni-İsraili aldadıb haqq yoldan azdıraraq yenidən bütpərəstliyə qaytarmaq istəyirdi. Buna görə də onlar üçün buzov düzəldərək ona ibadət etməyə vadar edərək Musa və başqaları üçün narahatçılıq yaratdılar.

## MUSANIN TUR dağına GETMƏYİ VƏ SAMİRİNİN əhvalatI

Təfsirçi və tarixçilərin yazdığına əsasən məsələ belə olmuşdur; Musa hələ Misirdə olduqları zaman Allahın vəhyi əsasında Bəni-İsrailə Fir'ona qalib gəldiyi zaman onlar üçün halal, haram, şəriət hökmləri olan bir kitab gətirəcəyinin vədəsini vermişdi. Allah Fir'onu məhv etdikdən sonra onlar Musadan kitabı istədilər. Musa da Allahdan verdiyi vədəyə əməl edərək kitabı göndərməsini istədi.

Allah taala Musaya otuz gün oruc tutub bədən və paltarını pak edərək kitabı qəbul etmək üçün Turi-Sinaya getməsini əmr etdi. Musa özü olmadığı müddətdə qardaşı Harunu yerinə qoyaraq Bəni-İsrailin başçılığını ona tapşırdı. Daha sonra qövmündən yetmiş nəfər nüfuzlu şəxs seçərək özüylə

Tur dağına apardı və Allah taladan kitab alıb danışdığı zaman şahid olmalarını istədi. Beləliklə, o istəyirdi ki, qayıtdıqdan sonra hadisəni Bəni-İsrailə danışıb nəticədə onu yalançı adlandırmasınlar.

Musa (ə) Pərvərdigarın əmrinə görə otuz gün oruc tutdu. Tövratın lövhələrini almaq üçün Tur dağına getdikdə Allah taala daha on gün artırdı və Musanın şəhərdə olmaması qırx gün çəkdi.

Sünni təfsirçiləri belə yazmışlar: “On günün sonradan artırılmasına səbəb otuz gün oruc tutduqdan sonra, sonuncu gecə Tur dağına getmək istədiyi zaman oruc tutma nəticəsində ağzından xoşagəlməz iy gəldiyini hiss etdi. İyi aradan aparmaq üçün ağac çubuğu ilə (bəzilərinin dediyinə görə “xərnub” ağacıyla) dişlərinin təmizlədi. Ya da bir başqalarının dediyinə görə xoş ətirli bitki yedi. Allah ona vəhy etdi:

-”Ey Musa, nə üçün iftar etdin?” Həzrət Musa (ə) dedi:

-”Pərvərdigara, səninlə danışmaq istədiyim zaman ağzımdan xoş ətir gəlməsini istədim.”

Allah taala buyurdu:

-”Ey Musa! Bilmirsən ki, oruc tutanın ağzının iyi mənim üçün müşkün iyindən də ətirlidir? İndi qayıt daha on gün oruc tut, sonra bizim yanımıza gəl!” Musa belə də etdi.

Artırılmış on gün Bəni-İsrailin imtahan olmasına səbəb oldu (əvvəllər də buna işarə etmişdik). Samiri onlar üçün buzov düzəldib onları ibadət etməyə vadar etdi.

SAMİRİ KİMDİR?

Samirinin əsl-nəcabəti haqqında ixtilaf vardır. Bir dəstə onun zinadan doğulduğunu qeyd edib deyir ki, onun əsl adı Musa olmuşdur. Samiri adının ona verilməsinin səbəbi onun Şamirə, ya Şamiruna mənsub olduğuna görədir. Şamirə, ya Şamirun ibri dilindən ərəb dilinə tərcümə olunduqda “Şin” hərfi “Sin” hərfinə çevrildiyinə görə Samiri kimi tanınmışdır. Məsələn, Yəşu, Şəmuil, Muşa ərəb dilində Yəsu, Səmuil və Musa kimi oxunur. Şamirə ya Şamirunu bir şəhər adı, ya Yəqub övladlarından biri, ya Bəni-İsrail qəbilələrindən bilmişlər. Onun Bəni-İsraildən, ya Misirdə yaşayan qibtilərdən olması barəsində ixtilaf vardır. Məsudi “İsbatul-vəsiyyə”də deyir: -”O zərgər idi. Kahinlik elmindən də xəbəri vardı. O, ulduzların vəziyyətindən Bəni-İsrailin dənizdən keçəcəyini öyrənmiş, Fir`onun əlindən xilas olacağını bilirdi. Elə buna görə də onlardan olmamasına baxmayaq onlara qoşulmuşdu. Onun əsli Musilda yerləşən qəbilələrdən biri idi. O qəbilənin əhalisi buzov pərəst idi.

İbni Əsir və bir başqaları onun Bacərmi şəhərinin əhalisindən olmasını qeyd etmişlər. Onların dediyinə görə onun adı Mixa olmuşdur. Lakin Səid İbn Cübeyr onun Kermanlı olduğunu demişdir.

Onun həqiqətən iman gətirib gətirməməsi barəsində də müxtəlif fikir ayrılıqları vardır. Çoxu onu münafiq adlandırıb zahirdə iman gətirmiş, ürəyində isə buzovpərəst olduğunu açıqlamışdılar. Əlbəttə bunların əksinə olaraq bəzi kitablarda, o cümlədən Əli İbn İbrahimin təfsirində belə gəlmişdir? O Musanın (ə) yaxşı sahabələrindən olmuşdur. Amma Musa Tur dağına getdiyi zaman Şeytana aldanmış, buzovu düzəltmişdi. Daha sonra Bəni-İsraili ona ibadət etməyə çağırmışdı. Gələn fəsldə bu barədə geniş surətdə bəhs edəcəyik. Bu nəzərlərin düzgün olub-olmamasını, Qur‘an ayələrinə müraciət edərək düzgünlüyünü aydınlaşmağa çalışacağıq.

## BUZOV NƏ İDİ?

Bəni-İsrailin azğınlığına səbəb olmuş buzovun haqqında çox sözlər deyilmişdir. Elə buna görə də çarəmiz təkcə Qur‘an ayələrinə müraciət edərək deyilmiş nəzərləri xülasə də olsa araşdırmağa qalmışdır.

Samirinin adı onun törətdiyi fitnə və gətirdiyi buzov haqqında Qur‘ani-Kərim in mübarək “Taha” surəsinin 93-dən 97-ci ayələrində gəlmişdir. Başqa yerlərdə isə buzovun dastanı, Bəni-İsrailin buzovpərəstliyi icmali bəhs olmasına baxmayaraq, Samirinin adı çəkilməmişdir.

İndi aşağıda “Taha” surəsinin ayələrini və tərcüməsini gətirərək onun haqqında olan müxtəlif təfsirləri araşdırırıq:

“(Allah buyurdu:)-”Ya Musa! Səni öz camaatından (Tur dağına getdiyin yetmiş kişidən) ayırıb (bu məqama) tələsdirən nə idi?” (Musa) belə cavab verdi: -”Onlar da arxamca gəlirlər. Ey Rəbbim! Məndən razı qalasan deyə, hüzuruna tələsdim!” (Allah:)”Səndən sonra ümmətini imtahana çəkdik. Samiri onları yoldan çıxartdı (buzova sitayiş etdilər)”, -deyə buyurdu. Musa qəzəbli, kədərli halda camaatının yanına qayıdıb dedi: “Ey ümmətim! Məgər Rəbbiniz sizə gözəl bir və’d verməmişdimi? Yoxsa (mənim sizdən ayrılmağımdan) uzun bir müddət keçdi? (Nə tez hər şeyi unudub nankor oldunuz?) Yaxud Rəbbinizdən sizə bir qəzəb gəlməsini istəyib mənə verdiyiniz və’də xilaf çıxdınız?” Onlar dedilər:

“Biz sənə verdiyimiz və’də öz ixtiyarımızla xilaf çıxmadıq. Amma biz (Fir’on) tayfasının (bir bayram günü əmanət olaraq aldığımız) zinətlərindən ibarət ağır bir yüklə yüklənmişdik. Onları (“əmanətə xəyanət haramdır” -deyərək günahdan qurtulmaq məqsədilə oda) atdıq. Samiri də bizim kimi (özündə olan bəzək şeylərni oda) atdı”.

(Oda atılmış qızıl-gümüş əridikdən sonra Samiri çuxurun içindən) onlara böyürən bir buzov heykəli (düzəldib) çıxartdı. (Samiri və onun yoldan çıxartdığı bir neçə kişi) dedilər: “(Ey İsrail oğulları!) Bu sizin tanrınızdır. Musanın da tanrısı budur, lakin unutmuşdur”. (Musa heykəli itirmiş, onu axtarıb tapmaqdan ötrü Tur dağına getmişdir). (Məgər bu cansız heykələ sitayiş edənlər) buzovun onların heç bir sözünə cavab verə bilmədiyini və onlara nə bir zərər, nə də bir xeyir verməyə qadir olmadığını görmürdülərmi?! (Nə böyük cəhalət!) Harun isə bundan (Musa Tur dağında qayıtmamışdan) əvvəl onlara belə demişdi: “Ey ümmətim! Siz bununla (hansınızın əqidəcə möhkəm, hansınızın şəkkak olduğunu ayırd etmək məqsədilə Allah tərəfindən) yalnız imtahana çəkildiniz. Sizin Rəbbiniz, şübhəsiz ki, Rəhmandır. Mənə tabe olub əmrimə itaət edin!” Onlar: “Musa (Tur dağından) qayıdıb yanımıza gələnə qədər bu buzova sitayiş etməkdən əl çəkməyəcəyik!” -deyə cavab vermişdilər. (Musa ümmətinin yanına qayıtdıqdan sonra) dedi: “Ya Harun! Onların (haqq yoldan) azdıqlarını gördüyün zaman sənə nə mane oldu ki, (Mö’minləri də götürüb) arxamca gəlmədin? (Mənə bu barədə heç bir xəbər verməin, yaxud mənim yolumla gedərək bütə tapınanları danlayıb onlara qarşı hiddətlənmədin?) Əmrimə asimi oldun? (Allahdan başqasına ibadət edənlərlə bir yerdə yaşamağı özünə nə cür rəva bildin?) (Harun) belə cavab verdi: “Ey anam oğlu! Saçımdan, saqqalımdan tutma. (Saqqalımı, başımı yolma). Doğrusu, sənin: “İsrail oğulları arasına ayrılıq saldın, sözümə baxmadın!” -deyəcəyindən qorxdum. (Musa:)”Ey Samiri! Sənin (bu pis, əcaib işi görməkdə) məqsədin nə idi?” -deyə soruşdu. (Samiri) belə cavab verdi: “Mən (İsrail oğullarının) görmədiklərini (Cəbraili) gördüm (yaxud bilmədiklərini bildim). Mən o Rəsulun (Allah elçisinin) ləpirindən (Cəbrailin atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu (çaladakı od içində əriyən bəzək şeylərinə) atdım (o da dönüb böyürən bir buzov oldu). Beləcə, öz nəfsim məni bu işə sövq etdi”. (Nəfsim bu işi mənə xoş göstərdi, mən də ona uydum). (Musa) dedi: “Çıx get burdan. Həyatın boyu (cəza olaraq) : “Bir kəs mənə toxunmasın (mən də bir kəsə toxunmayım) !” -deməli olacaqsan. (Heç kəs səni dindirməyəcək, süfrəsinə buraxmayacaq, səninlə alış-veriş etməyəcək. Heç kəslə ünsiyyət etməyib tamamilə təcrid olunmuş bir vəziyyətdə yaşayacaqsan. Dəhşət səni bürüyəcək). Hələ səni əsla qaçıb canını qurtara bilməyəcəyin daha bir vaxt (qiyamət günü) gözləyir. İndi tapınıb durduğun tanrına (bütünə) bax. Biz onu yandıracaq, sonra da (külünü) dənizə atacağıq! (“Taha” surəsi, ayə 83-97).

Bu ayələrdə Musanın Tura getməsi və Bəni-İsrailin buzovpərəstliyinə işarə olunandan sonra o həzrətin qayıtdıqdan sonra Bəni-İsrailə qəzəblənməsi, Harun, qövmü və Samiri ilə sual-cavabına işarə olunmuşdur. Bu fəslə aid olan ayələrin tərcüməsini burada qeyd edirik. Qalan ayələrə gəldikdə hər bölməsini gələn və özünə aid olan fəsillərdə açıqlayacağıq. İnşaallah.

Birinci hissə, Musanın (ə) Bəni-İsraillə danışığına aiddir. Həzrət Musa (ə) onlardan vədələrinə vəfa etməyib buzovpərəstliyin səbəbini soruşduqda dedilər:

-”Biz öz ixtiyarımızla sənə verdiyimiz vədədən üz çevirməmişik. Özümüzlə gətirdiyimiz qövmün zinətlərini (zahirən Fir‘onun qövmünə işarədir) atdıq və Samiri də belə onları atdı və onlar üçün səs çıxaran buzov düzəltdi və onlar dedilər: -”Bu sizin və Musanın Allahıdır və unutdu...” (“Taha” surəsi, ayə 87-88).

İkinci hissə, o Həzrətin (ə) Samiri ilə danışığıdır. Həzrət onu danlayaraq dedi:

-”Ey Samiri, nə oldu ki, belə böyük bir işə əl atdın?” Cavabında dedi:

-”Mən onlar görmədiyi bir şey gördüm. O, Rəsulun (elçinin) əsər-əlamətlərindən (yerdə qalmışından) bir ovuc götürüb atdım. Nəfsim mənim üçün belə cilvələndi (ki, bu işi görüm).”

Üçüncü hissə, həmin hadisənin ardıdır, yəni Samirinin cəzalanmasıdır. Musa onun üçün cəza təyin etdi və buyurdu: -”Get bu həyatda sənin nəsibin odur ki, deyəsən, Məsas (və mənimlə əlaqə) deyildir və (başqa dünyada sənin üçün) vədə verilmiş yer vardır ki, orada xilaf etmək yoxdur və həmişə ibadət etdiyin məbudu da biz yandıracaq və dənizdə pərakəndə edəcəyik.” (“Taha” surəsi, ayə 96).

Bizim bu fəsildə bəhsimizə aid olan ayələr bunlardan ibarət idi. Diqqət etdiyimiz kimi üç bölümün hər birində dastan çox qısa şəkildə nəql olmuşdur. Buzovun həqiqəti və necəliyi birinci hissədə o qədər də aşkar qeyd olunmamışdır. Elə ikinci hissədə də həmin xülasə gözə çarpır. Samirinin dediyi: -”Mən gördüyümü onlar görmədilər. O Rəsuldan qalanlardan bir ovuc götürüb atdım” cümləni deməkdə

məqsədinin nə olduğu anlaşılmır. Üçüncü hissəyə gəldikdə isə Samirinin dünyəvi cəzasına xülasə işarə etmiş, bu cümlədən "Ən təqulu la misas" Samirinin kənara qoyulması, ictimai hüquqlardan qadağan olaraq xalqın onunla əlaqədə olmadan uzaqlaşdırılması, ya Musanın o cümləni nifrin kimi buyurması və nifrinin nəticəsində Samirinin xalq kütləsindən vəhşətə düşüb, səhra və biyabanlarda avara olması, ya da xəstəliyə tutulması ilə xalqın ondan uzaqlaşması" olması məlum deyildir.

Allah taalanın belə ixtisarla buyurması təfsirçilərin nəzəriyyələrində ixtilafın meydana gəlməsinə səbəb olmuş, hər bir dastanı müxtəlif mə'nalandırmış, haqqında ehtimal irəli sürmüşlər. Mötəbər rəvayətlərdə də ayələrin icmalını aradan götürmək üçün bir şey ələ gəlməmişdir.

Bir çox təfsirçilərin nəzərinə görə Cəbrayılı madyana minmiş halda Fir'onun qoşununun qarşısında görünməsi və dənizə girməsini (əvvəldə qeyd etdiyimiz kimi) Samiri görmüşdü, Cəbrayılın atının ayağını qoyduğu hər yerdə həyat nişanələrinin yaranmasını görmüşdü. Elə bu da Samirinin Cəbrayılın atının, ya onun öz ayağının altından bir ovuc torpaq götürməsinə səbəb olmuşdur. O, götürdüyü torpağı özündə saxlamış yerində istifadə etmək istəmişdi. Musanın Tur dağından qayıtması təxirə düşdüyü zaman Bəni-İsrail Harunun (ya Samirinin öz) göstərişi ilə Fir'ondan əmanət götürdükləri zinət əşyalarını oda atdılar. Samiri də götürdüyü torpağı oda atdı. Bu da həmin zinət əşyalarının buzova çevrilməsinə səbəb oldu. Buzov canlanaraq inək səsi çıxardı. Samiri bu işin ardınca onlardan buzova itaət etmələrini istəyib dedi: "Musanın sizi ona tərəf dəvət etdiyi Allah və həmin ayələri ona verən Allah həmin buzovdur və sizi özü ilə aparmağı unudub burada qoyan sizin və Musanın Allahı budur. İndi gəlin ona ibadət edək."

Beləliklə, deyirlər ki, onun bu sözdən məqsədi: "Mən gördüyümü onlar görmədilər" yəni mən Cəbrayılın ya atının ayaq yerini gördüm, amma camaat görmədilər. Bu cümlədən isə "O rəsulun əlamətlərini götürdüm və onu atdım" məqsədi, mən o torpaqdan götürüb oda atdım və suya dönmüş zinət dirildi və buzova çevrilərək səs çıxardı..." mə`nasındadır.

Bu təfsirə edilən əsas irad budur: Qur'an buyurur: -"Buzovun bədənini çıxartdı". Bədən dedikdə cəsədi nəzərdə tuturlar. Bu da məlumdur ki, cəsəd o bədənə deyilir ki, onun ruhu və həyatı olmasın. Bunların dediyinə görə buzov dirilmiş və cana gəlmişdi. Bir sözlə bu təfsir ayənin zahiri mə'nası ilə müxalifdir. Bundan əlavə Cəbrayıl zahir olduğu zaman Samiri Musanın tərəfdarlarından olmuş hələ Fir'on ora çatmamışdan o suyu keçmişdi. Beləliklə, onun Cəbrayılı görməsi və onun, ya atının ayağının altından torpaq götürüb ondan istifadə etməsi mümkün deyildir.

Elə buna görə də bəzi təfsirçilər o cümlədən, Əbu Müslim İsfahani və Fəxr Razi ikinci hissəni belə mə'na etmişlər ki, Samiri Musaya dedi: -"Mən bundan əvvəl sənin dininin bir hissəsini qəbul etmişdim. Amma sən Tur dağına getdikdən sonra dininin batil olduğu mənə məlum oldu. Elə buna görə də buzovpərəstliyin haqq olduğunu bilib sənin dinindən üz çevirdim və bu işi öz ürəyimin istəyi ilə etdim." Bu mə'naya diqqət etdikdə bəzi iradların görülməsinə baxmayaraq, bir başqa səhvlər hələ də qalır. Qeyd olunan iradlar heç də birinci təfsirdə olan iradlardan az deyildir. Bundan əlavə üçüncü hissə ilə də uyğunluğu yoxdur. Əgər Musanın dediyi bu cümləyə: "Və həmişə ibadət etdiyim məbudu necə yandırıb dənizdə pərakəndə edəcəyik." ("Taha" surəsi, ayə 97).Diqqət etsək, Samirinin Musaya heç bir zaman iman gətirməməsinin və həmişə buzovpərəst olmasının şahidi olarıq. Amma təfsirdən alınan nəticəyə əsasən o, müvəqqəti iman gətirmişdir. Digər tərəfdən də xitab etdiyi Musaya "rəsul" deməsi düzgün nəzərə çarpmır. Belə bir söz deyilməsi də mümkündür: Samiri Misirdə olduğu zaman buzovpərəst olmuşdur. Amma Bəni-İsrail qövmündan olduğuna görə, ya kahinlik elmini bildiyinə görə, Fir'onun suda boğulub, Bəni-İsrailin isə xilas olacağını bilirdi. Ona görə də onlara qoşulub zahirdə iman gətirməsini bildirmişdi. Bəni-İsrail Misirdən çıxdığı zaman Samiri də onlarla çıxmışdı. Yolda, ya da çıxmamışdan qabaq heykəl düzəltmiş buzov bütünü israillilərdən gizlin özüylə götürmüşdü. Musanın Turdan gəlməsi təxirə düşdüyündən öz gizli hiyləsini üzə çıxardı. Musadan zahirdə öyrəndiklərini kənara qoyub Bəni-İsraili azdırmaq fikrinə düşdü. Bu fikirlə onların yanına gəlib dedi: -"Musa sizə vədə verib otuz gün keçdikdən sonra yanınıza qayıdacağını demişdi. İndi isə vaxt keçmişdir. O artıq qayıtmayacaqdır. Gəlin hamımız onun yaddan çıxarıb özüylə aparmadığı Allahına ibadət edək." Bəni-İsraili bu işə hazır gördükdə aldararaq əllərində olan zinətləri onlardan alıb (qibtilərdən aldıqları qızılları) özünü elə apardı ki, guya qızılları oda atmışdır. Amma həqiqətdə onları özü üçün götürüb yerinə onlar üçün buzovun heykəlini gətirdi. Onu yerdə çox məharətlə qurduğundan külək içinə girdiyi zaman səs çıxarırdı. Bu məharəti öz zərgərlik sənətindən öyrənmişdi. Nəticədə ona ibadət etməyə başladılar. Harun onların qarşısını almağa nə qədər sə'y etsə də buna müvəffəq ola bilmədi və onlar Samiriyə aldandılar.

Yuxarıda qeyd etdiyimiz məsələ bir sıra tarix və təfsir alimlərinin, o cümlədən Əbu Müslim İsfahani, Fəxr Razi, Əbdülvəhhab Nəccar və başqalarının sözüdür. Əgər onları Qur'an ayələri ilə uyğunlaşdırmaq istəsələr azca iraddan uzaqlaşa bilərlər. Amma onları Qur'an ayələri ilə uyğunlaşdırmanın özü ayrı bir problemdir.

Üçüncü hissədə bu hadisənin ardınca Musanın Samirəyə dediyi: -"Fəzhəb fəinnə ləkə fil həyati ən təqulə la misas" ((Mu-sa) de-di: -"Çıx get bur-dan. Hə-ya-tın boyu (cə-za ola-raq) : "Bir kəs mə-nə to-xun-ma-sın (mən də bir kə-sə to-xun-mayım) !" -de-mə-li ola-caq-san.) -cümləsi barəsində bir neçə fikir vardır. "Bəlağətli Qur`an dastanları eksiklopediyası"nda belə bəyan etmişdir: "Təfsirçilərin bir dəstəsi bu ilahi cümlənin təfsirində demişlər: -"Musa Samirini öz yanından qovub, heç kəsin onunla danışmamasını əmr etdi. Elə buna görə də onunla danışan hər şəxs hərarətə və xəstəliyə düçar olurdu. Digər təfsirçilərin fikrinə görə isə "Təmaslar"nın (Toxunmalar) mə`nası bir növ ictimadan məhrumolma deməkdir. Musa Samirini Bəni-İsraillə get-gəl, ictimai mənfəət, yoldaşlıq və alveri qadağan etdi." Qədim təfsirçilərdən olan Məqatil bu barədə deyir: -"Musa Samiri və onun ailəsinə əmr verərək Bəni-İsrail tayfasından çıxmasını tapşırdı və çarəsiz qalıb biyabanlara düşdü."

Ustad Əbdürrəhim Misri "Mö`cəmul-Qur`an" kitabında yazır: "Təmaslar" qanunu Tabu qanunu adı ilə məşhurdur. Bu qanun bir dəstə insanları, ya heyvanları və ya əşyaları paklıq və müqəddəslikdə, yaxud əksinə napaklıq qeyri-müqəddəslikdə qərar verir. Hər iki halda onlara yaxınlaşmaq, ya onlarla əlaqədə olmaq qadağandır. Əgər bir insan, heyvan, ya əşya barəsində "Təmasda olmaq" qanunu verilərsə o müqəddəsləşib ehtiramsızlıqdan uzaq olar. Amma əgər pis insan, heyvan və əşya olarsa başqaları onların pisliyinə bulaşmamaq üçün ondan uzaq olarlar. Hər kəsin haqqında pisliyə görə "Təmaslar" qanunu verilərsə, çox böyük kəffarə verməklə ondan azad ola bilər. "Təmaslar"ın kəffarəsi tutulan günaha görə müxtəlifdir. Bəzi vaxtlarda onun kəffarəsi ağır işgəncə, sürgün, bəzi bədən əzalarının kəsilməsi, bəzən də özünü qurtarmaq üçün özünə qəsddir.

"Təmaslar" qanunu qədim iranlıların əqidəsinə görə, xüsusi qanunlara malikdir və bu onların dini kitablarında qeyd olunmuşdur.

Samiri Bəni-İsraili haqq yolundan çıxardığına görə, böyük günah etmiş və "Təmaslar" qanunu ilə məhkum olmuşdu. Onunla əlaqə saxlayan hər kəsin haqqında nəcis hökmü verilmişdi.

Əli ibni İbrahimin təfsirində yazılır ki, Samirinin övladları və sonradan olanlarda bu hökm də olub, indi də Şam və Misirdə Samirinin nəslindən olanlar "Təmaslar" adı ilə məşhurdurlar. Bu rəvayətin oxşarı İbn Abbasdan da nəql olunmuşdur. Rəvayətdə Musanın Samirini öldürmək istəməsi də qeyd olunmuşdur. Amma Allah taala Musaya vəhy edib onun səxavətli olduğuna görə öldürməməsini buyurmuşdu.

## HAQQ TAALANIN GÖRÜNMƏSİ BARƏDƏ SUAL

İndisə qayıdaq Musanın Tur dağına getməsinə və başına gələnlərə. Bundan əvvəl işarə edərək Musanın Tövrat lövhələrini almaq üçün otuz gün oruc tutmasını, Bəni-İsraildən yetmiş nəfər seçib Allahla olacaq rabitəyə otuz günə daha on gün əlavə etməsini demişdik. Musa qırx gündən sonra Tövratın lövhələrini alıb qövmünün yanına qayıtdı.

O cümlədən Turda baş vermiş və Qur'anın qeyd etdiyi kimi hadisələrdən biri də Musa və onunla olanların Allahı görmək istəmələri və mənfi cavab almalarıdır. Onların bu istəkləri Musanın bihuş, onunla olanlarınsa ölümünə səbəb oldu. Sonra Musanın duası ilə yenidən dirilib Bəni-İsrailin yanına qayıtdılar.

Əvvəldə qeyd etdiyimiz kimi, tarix və təfsirçilər bu barədə nəzərləri müxtəlifdir. Əsas ixtilafları Musanın yetmiş nəfəri ilk dəfə Tura gedəndə özüylə aparıb, yaxud sonralarda aparmasındadır. Bir dəstə təfsirçilərin fikrincə Bəni-İsrail buzovpərəst olduqdan sonra Musa ikinci dəfə də onları özü ilə aparmışdı. Bu yolla onların tövbə edib Allah dərgahından Bəni-İsrailin bağışlanmasını ondan istəmələri idi. Amma bizim fikrimizcə birinci fikir daha düzgün olduğu üçün biz onu qeyd etdik. Bu barədə olan ikinci ixtilaflı məsələ Allahı görmək istəmələri məsələsidir. Bu bir dəfə, ya bir neçə dəfə baş verməsində fikir ayrılığı vardır. Belə ki, bir dəfə bu işin baş verməsi deyənlərin fikrinə görə Bəni-İsrailin seçilmiş yetmiş nəfəri Musaya üz tutub: "Biz sənə Allahı aşkar göstərməyənə qədər iman gətirməyəcəyik" -dedikdən sonra o çarəsiz qalıb Allahın gözlə görünməsinin mümkün olmamasını bildiyi halda, pərvərdigardan bunu istəmişdi. Başqa bir fikrə görə, bu istək iki dəfə baş vermişdir. Bir dəfə Musanın

öz tərəfindən özü üçün, ikinci dəfə isə Musayla olanların istəyi ilə baş vermişdir. Əlbəttə, Musanın bu istəkdən məqsədi Allahı zahiri gözlə görmək istəməsi deyildi.

Burada ikinci fikrin üstün olmasına baxmayaraq, ilk fikrin düz olması da nəzərə çarpır. Amma dastanın Qur'an ayələrində fikrinə gəldikdə bir dəfə "Bəqərə" surəsində Allahın Bəni-İsrailə verdiyi nemətləri saydığında "O zaman ki, siz dediniz: -"Ey Musa, Allahı görməyənə qədər sənə iman gətirməyəcəyik, nəticədə siz görə-görə ildırım sizi tutdu, sonra sizi öləndən sonra diriltdik, bəlkə şəkk edəsiniz".

Başqa bir dəfə isə "Nisa" surəsində qeyd etmişdir. Orada Musayla olanların istəyini qeyd edib, Allah taala İslam peyğəmbərinə buyurur: -"Kitab əhli səndən onlar üçün asimandan kitab gətirmələrini istəyirlər." Musadan bundan da böyüyünü istədilər və dedilər: "Allahı bizə aşkar göstər." Etdikləri zülmə görə ildırıma düçar oldular və sonra onlara gəlmiş möcüzələrə baxmayaraq, buzova pərəstiş etdilər." ("Nisa" surəsi, ayə 153).

Daha başqa bir surə "Ə`raf" surəsidir. Burada Musanın Allahdan özünü ona göstərmək istəməsi zikr olunmuşdur. Allah taala buyurur: -"Musa bizim vədə yerimizə gəldikdə pərvərdigarına dedi: -"Pərvərdigara! Özünü mənə göstər ki, səni görüm!" Dedi: -"Heç vaxt məni görməyəcəksən, amma bu dağa bax əgər öz yerində sabit qalsa, məni görə bilərsən." Elə ki Pərvərdigarı o dağa təcəlli edərək onu dağıdıb yerlə bərabər etdi, Musa bihuş oldu və özünə gəldikdə dedi: -"Paksan sən! Mən sənə tövbə edirəm və ilk iman gətirənəm." ("Ə`raf" surəsi, ayə 143).

Hər halda "Bəqərə" və "Nisa" surəsində zikr olunduğu kimi, Allahı görmək istəyənləri ildırım vurub öldürdü. Hadisəni belə görən Musa pərişan oldu və dedi: -"Pərvərdigara! Mən Bəni-İsrailin cavabın əgər desələr ki, sən yetmiş nəfəri aparıb qətlə yetirdin, nə verə bilərəm!?"

Allah taala Musanın duasına görə onları diriltdi. Onlar birlikdə Bəni-İsrailin yanına qayıtdılar. Beləliklə, Musanın onların daxilindən xəbərsiz olduğu məlum olur. Musa onların daxili hislər, anlayış hədlərinin nə dərəcədə olduğunu bilmirdi. Yeddi yüz min adamın içindən seçdiyi, allahpərəst mömin kimi tanıdığı yetmiş nəfərin bu qədər fikir azğınlığını və imanının zəif olduğunu bilmirdi. Onlar Həzrət Musaya üz tutub demişdilər: "Allahı bizə göstərməyənə qədər biz sənə iman gətirməyəcəyik." ("Bəqərə" surəsi, ayə 55).

## BU əhvalatDAN İSTİFADƏ OLUNAN İMAMƏT MÖVZUSU

Təbərsi "İhticac" kitabında ƏHməd ibni İshaqdan nəql edir ki, o İmam Zaman (ə.c) ağadan soruşdu: -"Xalqın özlərinin imam seçə bilməməsi və Onun Allah tərəfindən təyin olmasının səbəbi nədir?" Həzrət (ə) cavabında buyurdu:

-"İslahedici imam, yoxsa fəsad törədən?" Dedi:

-"Əlbəttə ki, islahedici!" Həzrət buyurdu:

-"Əgər Allahdan başqa insanların daxilindən onların yaxşı-pisindən heç kəsin xəbəri yoxdursa, xalqın xəbərsiz olduğu üçün fəsad törədənlə islahedicinin yerinə seçmək ehtimalı olmazmı?" Əhməd ibni İshaq dedi:

-"Niyə! (yəni ehtimalı var)." Həzrət buyurdu:

-"Səbəbi də elə budur." Sonra ona buyurdu:

-"İndi sənə ağlın yaxşı qəbul edəcəyi sübut gətirəcəyəm." Sonra misal olaraq həmin əhvalatı onun üçün danışdı. Həzrətin dediklərinin xülasəsi budur: -"Həzrət Musa bütün ağıl-kamalına və ona vəhy olmasına baxmayaraq (qeyb elmi ilə əlaqədə idi) yetmiş nəfər öz qövmünün başçılarından və qoşununun tanınmışlarından özü ilə Allahla görüşə aparmaq üçün seçdi. Onlar elə insanlar idilər ki, Musa onların iman və ixlasında heç şəkk etmirdi. Bununla belə onun seçdikləri münafiqlər idi. Allahın Qur'anda buyurduğu mövzu irəli gəldi. Yəni əgər Allahın peyğəmbərliyə seçdiyi adamın seçimi fəsad törədənlər olarsa (baxmayaraq ki, o Həzrət onları layiqli və səlahiyyətli bilirdi), başa düşürük ki, Allahdan başqa heç kəs qəlblərə agah deyildir. Beləliklə, xalq islahedici və fəsad törədən ayırd edib imam seçə bilməz."

## ƏHVALATIN ARDI

Allah taala "Taha" surəsində hekayət edərək buyurur: -"(Tur dağında Musaya buyurdu) Ey Musa! Sənin tələsməyinə nə səbəb oldu və (Tur dağına gəlməkdə) öz qövmündən qabağa düşdün?" Musa

dedi: -"Onlar mənim ardımcadırlar və mən (sənin razılığını almaq üçün) sənə tərəf tələsdim ki, məndən razı olasan!" Pərvərdigar ona buyurdu: -"Biz sənin arxanca qövmünü imtahan etdik və Samiri onları azdırdı. Musa acıq və təəssüflə qövmünün yanına gəldi. Onların çoxusunun Samiriyə aldanmasını və buzovpərəst olmasını gördükdə onlara dedi:

-"Ey qövüm! Məgər Pərvərdigarınız sizə yaxşı vədə verməmişdi?" ("Taha" surəsi, ayə 83-86).

Bəzi təfsirçilərin dediyinə görə, "Məgər sizin səadətinizi öz öhdəsinə alan Tövrat kitabını göndərməyi sizə vədə verməmişdi? Məgər mən onu qəbul etməyə getməmişdim? Sonra əlavə edib dedi: -"Sizə bu müddət uzun göründü, yoxsa Pərvərdigarın qəzəbinin sizə nazil olmasını istəyib mənim verdiyim vədədən dönürsünüz?" ("Taha" surəsi, ayə 83-86).

"Əraf" surəsində də buyurmuşdur: "Musa acıqlı və qəmgin öz qövmünün yanına qayıtdığı zaman onlara dedi: -"Məndən sonra nə pis iş gördünüz? Pərvərdigarımızın hikmətli işində tələsdiniz və bu tələsdiyinizə görə də işi öz yolundan döndərdiniz? Bu vaxt (Tövratı) lövhələri atdı və qardaşının başından tutdu, (qəzəbindən) onu özünə tərəf çəkdi." ("Ə`raf" surəsi, ayə 150).

"Taha" surəsində gəlmişdir ki, Haruna dedi: -"Ey Harun! Bunların azdığını gördüyün zaman, sənin qarşını almağa nə səbəb oldu ki, mənə itaət edib mənim kimi hərəkət edəsən və nə üçün əmrə üsyan etdin?" ("Taha" surəsi, ayə 92-93).

"Əraf" surəsində deyilir: "Harun ərz etdi: -"Ey anam övladı, bu dəstə məni zəif və gücsüz hesab edib az qala məni öldürəcəkdilər. (Bu rəftarınla) düşməni şad etmə, məni zalımlardan hesab etmə." ("Ə`raf" surəsi, ayə 94).

Musa qəzəbini uddu. Qəzəbindən yerə atdığı lövhələri götürdü öz qövmünü islah etməyə başladı. Əvvəlcə, Samirinin yanına gəldi. Əvvəldə qeyd etdiyimiz kimi buzovu Bəni-İsrail üçün gətirməsi, ya düzəltməsinin səbəbini soruşdu və daha sonra onu özündən uzaqlaşdırıb cəmiyyətdən məhrum etdi. Buzovu da yandıraraq dənizə atdı.

Bəni-İsrail düşdüyü pis yolu anlayıb özlərinə gələrək etdikləri pis işin əvəzini çıxmağa hazır olub tövbə etmək istədilər. Buna görə də Allahdan tövbə və bağışlanmaq yolunu pərvərdigardan soruşdular.

## BƏNİ-İSRAİLİN TÖVBƏSİ

Musa (ə) Allah dərgahından təyin olunan vəzifəni bildikdən sonra onlara dedi: -"Ey qövüm! Siz (bu işlə) özünüzə zülm etdiniz. Bununla da Allah dərgahına tövbə edin, ona tərəf qayıdın, özünüzü öldürün. Bu iş sizin üçün Allah dərgahında yaxşıdır." ("Bəqərə" surəsi, ayə 54).

"Bəqərə" surəsində hekayət olunan bu cümlə Allah tərəfindən verilən əmrin icmalı idi. Onun ardınca Allahın onların tövbəsini qəbul etdiyini buyurur. Amma bu işin necəliyi təfsirlərdə müxtəlif növdə yazılmışdır. Misal olaraq rəvayətdə belə buyurulmuşdur: "Musa onların kəfən geyinib iki sırada üzbəüz durmalarını əmr etdi. Bu zaman buzovpərəst olmayanlardan on iki min nəfəri Harun gətirdi, əllərinə iti qılınc verib onları öldürməyi əmr etdi. Onlar öldürməyə başladılar. Ölənlərin sayı yetmiş minə çatdıqda Allah onların tövbələrini qəbul etdi və ölüb-öldürməkdən əl çəkdilər."

Digər bir rəvayətə görə, Musa ilə olan yetmiş nəfərə başqalarını öldürmək əmr olundu. Onlar yetmiş min nəfər buzovpərəsti öldürdülər.

Bəziləri demişlər: "Onlar iki cərgə olaraq üzbəüz durub bir-birini öldürməyə başladılar. Beləliklə, yetmiş min nəfər özlərindən öldürdülər."

Başqa bir rəvayətə görə, qatı qaranlıq hər tərəfi bürüdü. Onlar o qaranlıqda bir birlərini öldürməyə əmr olundular. Qaranlıq çəkiləndən sonra artıq yetmiş min nəfər ölmüşdü.

Başqa bir hədisdə Musa və Harun kənarda durub onların bağışlanması və tövbələrinin Allah dərgahında qəbul olması üçün dua edirdilər. Allah taala Musaya vəhy edib onları əfv etdiyini və tövbələrini qəbul etdiyini buyurduğu an Həzrət Musa da onlara dayanmalarını əmr etdi.

Süyuti "Durrul-Mənsur" kitabında Əlidən (ə) belə buyurduğunu rəvayət etmişdir: "Bəni-İsrail Musaya dedilər:

-"Bizim tövbəmiz nədir?" Həzrət Musa buyurdu:

-"Bir-birinizi öldürməkdir."

Onlar bıçaqları əllərinə götürüb bir-birini öldürməyə başladılar. Bu davada bir kişi öz qardaşını, atasını və övladını öldürdü. Beləliklə, onlardan yetmiş min nəfər öldürüldükdən sonra Allah taala Musaya vəhy edib qırğından əl çəkmələrini istədi. Allah ölənləri bağışlamış, yerdə qalanın da tövbəsini qəbul etmişdi."

Amma nəyə görə belə çətin hökm vermiş və onların tövbəsi bu qədər çətinliklə qəbul olunmuşdur? Bəziləri məsələni belə bəyan etmişlər: “Məsələ Tovhiddən uzaqlaşıb bütpərəstlik olduğu üçün sadə bir məsələ deyildi. Ona görə də asanlıqla onun üstündən keçmək olmazdı. Digər tərəfdən də bu hadisə lazımı qədər nişanə və möcüzədən sonra baş vermişdi. Həqiqətdə dini bir kəlmədə xülasə etmək mümkündür. O da Tovhid kəlməsidir. Tovhidin məhv olması dinin məhvinə bərabər olduğu üçün, əgər bütpərəstlik sadə problem hesab olunardısa, onda bu gələcəkdəkilər üçün bir adət ola bilərdi. Bu barədə Bəni-İsraili xüsusi qeyd etmək olar. Tarixin verdiyi şəhadətə əsasən onlar tərs, dünyapərəst, bəhanəçi idilər. Belə bir xətərli iş, yəni buzovpərəstlik Musanın zamanında baş vermişdi. Əgər onun qarşısı alınmasaydı, gələcək nəsillər üçün çox xətərli örnək ola bilərdi. Elə buna görə də ağır cəza təyin olunmalı, onun təsiri uzun müddət insanlar arasında qalmalı idi.

Bu məsələ təkcə dini və məzhəbi bir məsələ deyildir. Müasir dünyada da onu müşahidə etmək olar. Əgər bir nəfər iş görüb bir millətin varlığını xətərə salarsa, onun qarşısında möhkəm cəza tədbirləri görülər, təkcə peşmançılıqla kifayətlənməzlər. Ağır cəzadan məqsəd, onun özünün və ondan sonra gələcək nəslin belə bir fikrə düşməsinin qarşısını almaqdır.

## BƏNİ-İSRAİLİN ƏHD PEYMANI

Qeyd etdiyimiz kimi, Musa Tövratın lövhələrini Tur dağında qəbul etdi. Bəni-İsrailin yanına gələrək onlar üçün Kitab gətirdiyini dedi. Kitabın içindəkilərini belə açıqladı? Gətirdiyim asimani kitabda dini hökmlər, Allahın halal-haramı təyin olunmuşdur. Ona əməl edib gündəlik proqramınıza salmaq sizin vəzifənizdir. Bəni-İsrail onun əmrlərinin çətin və əməl etməyi mümkün olmadığını düşünüb ona əməl etməkdən boyun qaçırdılar. Allah taala Cəbrayıl (və başqa mələkləri) məmur edərək dağın böyük bir parçasını qoparıb onların başı üstə tutmağı əmr etdi. Bu vaxt Musa onlara dedi: -”Əgər əhd bağlayaraq Tövratın hökmlərinə əməl edib onu möhkəm tutacağınıza söz versəniz, bu əzab sizdən uzaqlaşacaqdır. Yox əgər, etməsəniz, onda, hamınız həlak olacaqsınız. Onlar vəziyyəti belə görüb qəbul etdilər. Əzab onlardan uzaqlaşdı.

İbni Əsir və başqalarının etdiyi rəvayətə görə Bəni-İsrail orada səcdə etdilər. Amma üzlərinin bir tərəfini torpağa qoyaraq gözlərini dağa dikib üstlərinə düşməsindən qorxurdular. Onların tutduğu bu iş Bəni-İsrailin arasında bir adətə çevrildiyindən bu gün də yəhudilər üzlərinin bir tərəfini səcdə əlaməti olaraq yerə qoyurlar.

Amma Bəni-İsrailin təbiəti tüğyan, tərslik olduğundan çox keçmədi ki, əhdlərini sındırıb Tövratın hökmlərinə əməl etməkdən çəkindilər. Qur‘ani-Kərim bu dastanın xülasəsini üç surədə bəyan etmişdir. “Bəqərə” surəsində onlara xitab olaraq buyurur: -”O vaxt sizdən əhd alıb Tur dağını sizin başınız üstündə saxladıq və (dedi:) sizə verdiyiniz şeyi möhkəm tutun və onda olan hər şeyi yadda saxlayın (ona əməl edin) ola bilsin ki, təqvalı olasınız. Ondan sonra siz arxa çevirdiniz (əhd sındırdıq) və əgər Allahın sizə fəzl və rəhməti olmasaydı, ziyankarlardan olardınız.” (“Bəqərə” surəsi, ayə 63).

“Nisa” surəsində buyurur: -”Tur dağını əhdlərinə görə, başları üstündə saxladıq.” (“Nisa” surəsi, ayə 154).

“Əraf” surəsində də buyurur: “Dağı qoparıb başları üstündə saxladığımız vaxt sanki kölgə idi. Güman etdilər ki, dağ onların üstünə düşəcəkdir və (onlara dedik) sizə verdiyimiz şeyi möhkəm tutun və onda olan şeyi yadda saxlayın, bəlkə təqvalı olasınız.” (“Ə`raf” surəsi, ayə 171).

“Təfsirul-Mə`nar”ın yazıçısı və başqalarının qeyd etdiyinə görə, burada qarşıya belə bir sual çıxır: Belə olduqda onların Tövrata iman gətirmələri icbar və ikrah üzündən olmuşdur və bu da məlumdur ki, dini qəbul etməkdə heç bir ikrah yoxdur?”

Bu sualın cavabında demişlər: “Onlar əhd-peyman bağlamağın özünü məcbur olaraq qəbul etmişlər, amma məcburiyyət aradan getdikdən sonra etdikləri işlər ixtiyar üzündən olmuşdur. Bundan əlavə, bir şəxsi xoşbəxt etmək üçün ondan güclə əfv olmanın və ona şəxsi və ictimai vəzifələrini layiqincə yerinə yetirməsini zaminə götürmüş proqram verməyin heç bir eybi yoxdur. Çünki məcbur etmək insanı pis bir işə vadar edib onun tam haqqını əlindən alaraq öz xeyrinə olan işdən çəkindirən işdir. Belə bir icbar və ikrah xəstələnməyə bənzəyir. Xəstələndikdə (xeyri, dərman qəbul etməkdirsə) hamını dərman içməyə məcbur edirlər.”

Bəziləri cavabda belə demişlər: -”Belə bir ikrah keçmiş ümmətlərin arasında caiz olmuşdur. İkrahın rədd olunması, təkcə İslam dininə məxsusdur. Elə ona görə Qur‘anda buyurur: -”Dində ikrah yoxdur.” Təkcə keçmiş dinlərdə ikrah caiz olmuşdur.”

## TEYYƏ VADİSİNDƏ

Bəni-İsrail Fir‘onun əlindən xilas olduqdan sonra Musa onları müqəddəs torpaqlara yəni, Şam və Beytül-Müqəddəsə aparmaq əmrini aldı. Onların Sina səhrasında neçə gün yol gedib Şam şəhərinə çatması barəsində dəqiq məlumat yoxdur. Təfsirçilər ümumən onların yetişdikləri ilk şəhərin Əreyha olduğunu qeyd edirlər. Bəni-İsrail oranı fəth etmək üçün yerli əhali ilə müharibə etməyə məcbur idilər. O şəhərdə çox güclü hündürboy adamlar yaşayırdı. Deyilənlərə görə onlar (Əmaliqə) Əmlaq ibni Lavuz ibni Sam ibni Nuhun övladları olmuşlar. Rəvayətdə onların Ad qövmünün qalıqları olmaları da qeyd olmuşdur. Ovc ibn Ənaq da onların arasında olmuşdur. Musa (ə) Bəni-İsrailin on iki tayfasının hər birindən bir nəfər seçib özlərindən öncə şəhərə göndərərək vəziyyəti öyrənməyi tapşırdı. Bu on iki nəfər Əreyha şəhərinin yaxınlığına gəlib güclü və hündürboylu adamları müşahidə etməklə yanaşı çoxlü təəccüblü şeylər gördülər. Onlar Musanın (ə) yanına qayıdıb gördüklərini ona xəbər verdilər. Musa (ə) onlara dedi:

-”Gördüklərinizi başqalarına deməyin.”

Onlardan iki nəfəri istisna olmaqla, yəni Yuşə ibni Nun və Kalib ibni Yufənnanı çıxmaqla qalan on nəfər gördüklərinin hamısını Bəni-İsrailə xəbər verdilər. Bu xəbər onların arasında yayılıb hamısının canına qorxu düşdü. Onlar öz-özlərinə dedilər: -”Əgər biz onlarla döyüşə getsək qadınlarımızı əsir tutub malımızı qənimət götürəcəklər.” Beləliklə, özlərini Əmaliqə ilə döyüşdən qorxudub Misirə qayıtmaq fikrinə düşdülər. Sələbinin dediyinə görə, uca səslə ağlamağa başlayıb dedilər: -”Ey kaş, Misirdə öləydik, ya burada ölərdik, amma o şəhərə getməyəydik!”

(Beniyamin tayfasından olan) Yuşə ibni Nun Yəhud böyüklərinindən olan Kalib ibni Yufənna ilə Musaya ürəkdən iman gətirmiş, haqqa itaət etmişdilər. Çox çalışmalarına baxmayaraq, onları sakitləşdirə bilmədilər. Allah taala o iki nəfərin dilindən hekayət edir ki, onlar dedilər: -”Ay camaat, qorxmayın, şəhərin qapılarına tərəf hərəkət edin, daxil olduqda qalib gələcəksiniz.” (“Maidə” surəsi, ayə 27).

Lakin Bəni-İsrail o iki nəfərin sözünə qulaq asmadı. İş o yerə çatdı ki, o iki nəfərin çox təkid etdiyinə görə, onları daş-qalaq da etmək istədilər. Digər tərəfdəndə Musanın yanına gəlib dedilər: “Bu şəhərdə cabbar (güclü) imkanlar vardır, onlar nə qədər bu şəhərdədirlər biz ora daxil olmayacağıq.” (“Maidə” surəsi, ayə 26). Bunun ardınca onların həyasızlığını və imansızlığını bildirən cümlə dedilər: -”Siz Allahınızla gedib onlarla döyüşün və biz burada oturmuşuq!” (“Maidə” surəsi, ayə 28).

Məqsədləri bu idi ki, sən öz Allahının köməyi ilə get onlarla döyüş, elə ki, qüdrətləri məhv edib qılınclarını əllərindən aldın, onları və şəhəri fəth etdin və orada heç bir mane qalmadıqda bizə xəbər ver, biz də rahatlıqla şəhərə girib orada olan nemətlərdən bəhrələnək. Bu yersiz, əzici sözlər və zəiflik göstərmək Musanın (ə) səfalı və incə ruhunu, əzəmətli və pak qəlbini necə narahat etdiyini deməyə ehtiyac duyulmur. Heç nəyin, Fir‘on qarşısında zəlil olub heç bir söz deməyə hüququ olmayan xalq, o qədər zəhmət və əzab-əziyyətdən sonra ilahi möcüzə və nişanələri ilə Fir‘onu məhv edib onları xilas etmiş bu böyük peyğəmbərə yad bir adam kimi heç bir xəcalət çəkmədən deyirlər: “Sən Allahınla gedib müharibə et və biz burada oturmuşuq!” (“Maidə” surəsi, ayə 28).

Bəlkə də onları bu nalayiq sözləri deməyə vadar edən çəkdikləri zülm və alçaldılmaları olmuşdur. Uzun müddət zülm altında yaşamış bu millət, şücaət ruhiyyəsini itirmiş, müharibə adı gələndə dəhşətə düşürdülər. Bəzilərinin dediyi kimi, o qədər zillət altında yaşamağa öyrənmişdilər ki, ona dözməkdən ləzzət alırdılar.

Allahın böyük peyğəmbəri belə bir vəziyyətdə nə edə bilərdi? Ümidi həmişə olduğu kimi arxalandığı Allah dərgahına üz tutub bu məsələni həll etmək üçün Ondan kömək istəmək idi. Musaya (ə) etdikləri cəsarətə görə, bu qorxaq xalqın cəzasını Allahdan istəmək idi. Elə buna görə də pərvərdigarına üz tutub dedi: -”Pərvərdigara! Sən özün bilirsən ki, özüm və qardaşımdan başqa heç kəsin ixtiyarı mənimlə deyildir və heç kəsim də yoxdur, bəs mənimlə bu zalım qövmün arasında hökm ver.” (“Maidə” surəsi, ayə 25).

Allah taala Musanın (ə) duasını qəbul etdi. Etdikləri ədəbsizliyə görə o şəhəri girməyi onlara haram etdi və Musaya xitab edib buyurdu: -”Bu şəhər qırx il müddətində bunlar üçün haramdır. Onlar bu

torpaqlarda sərgərdan olmalıdılar və bu zalım camaatın qəmini yemə və onları öz başlarına burax!” (“Maidə” surəsi, ayə 25).

O gündən sonra Allahın buyurduğu kimi düz qırx il biyabanda sərgərdan oldular. Hər gün səhər yuxudan ayıldıqdan axşama qədər yol gedir, amma sabahı gün özlərini yenə də həmin yerdə görürdülər.

Bu müddət ərzində onlar hamısı öldülər. Yeni nəsil onları əvəz etdi. Məşhur nəzəriyyəyə görə, Musa (ə) və Harun da dünyadan getdilər. Qırx il keçəndən sonra Musadan sonra peyğəmbərliyə yetişən Yuşə ibni Nun onların övladlarını özüylə götürüb Əriha şəhərinə yollandı.

İbni Xəldun və başqalarının dediyinə görə, bu əhvalatın sirri, qorxaq və düşüncəsiz olan bu xalqın zillətə adət edib, azadlığı və izzətə ləyaqətlərinin olmaması idi. Allah taala bu alçaq millətin qırx il müddətində məhv olub yerlərinə azadlıq ruhiyyəsi olan yeni bir nəslin gəlməsini istəyirdi. Elə bir nəsil ki, zillət görməmiş Əriha camaatı ilə müharibədən çəkinməsinlər. Qılınclarının sayəsində azadlıq və əzəmətlərini ələ alsınlar.

## MƏNN, SƏLVA VƏ BAŞQA NEMƏTLƏR

Bəni-İsrail səhra və biyaban həyatına uyğunlaşmışdılar. Musaya itaətsizliyə görə, sərgərdanlığa müstəsna olan bu qövüm yaşamaq üçün yemək, içmək, geymək, kölgəlik və s. şeylərə ehtiyacları olduğu üçün əziyyətdə idilər. Bunların hamısının səbəbkarı da elə özləri idi. Amma Allah taala orada da onların dadına çataraq ehtiyaclarını ödəməklə öz nemətlərini onlardan əsirgəmədi.

“Bəqərə” surəsində Allah taala Bəni-İsrailə verdiyi nemətləri sadalayarkən onlara xitab edərək buyurur: -”Buluddan sizin üçün kölgəlik yaradıb “Mənn” və “Səlva” göndərdik və sizə dedik: -”Sizə əta etdiyimiz pakizə nemətlərdən yeyin və onlar Musa (ə) qarşısında bu cəsarət və itaətsizliyə görə, bizə deyil, əslində özlərinə zülm etdilər” Buna görə də qırx il biyabanda zəhmətə düşüb sərgərdan oldular.”

Ondan sonrakı daha iki ayədə buyurur: -”Musa (ə) qövmü üçün su istədiyi zaman biz ona dedik öz əsanı daşa vur. Nagahan o daşdan on iki bulaq açıldı ki, hər dəstə (Bəni-İsrailin on iki tayfasından) özünün xüsusi bulağını tanıdı... (“Bəqərə” surəsi, ayə 57).

Bu minvalla Allah taala buludu kölgə kimi, onlara göndərdi. Onlar günəşin qaynar istisindən qorunurdular. Daşın içindən onlar üçün on iki bulaq çıxararaq onları susuzluqdan ölmədən, “Mənn” və “Səlva” göndərərək aclığın həlakətindən qorudu.

## MƏNN VƏ SƏLVA NƏ İDİ

“Mənn” və “Səlva”nın mə`nası barəsində çox sözlər deyilmişdir. Bəziləri bu iki sözün lüğətdə olan mə`naları kimi qeyd etmiş və demişlər: -”Nemət “m n t” kökündən olub və ürək-dirək vermə, “təsəlli” mə`nasındadır.” Onlar deyir: -”Bunların hər ikisi Allahın onlara Təyyə səhrasında verdiyi nemətlərə işarədir. Həqiqətdə isə onların hər ikisi bir şeydir. Amma adlarını “Mənn” qoymasının səbəbi onlara bəxş etdiyi nemətlərə görədir. “Səlva” adlandırmasının səbəbi isə onlara arxayınlıq vermək üçündür.” Bir başqaları onları xüsusi isim kimi hesab etmiş cürbəcür mə`nalar söyləmişlər.

Mücahid “Mənn” barəsində deyir: -”Ağacın üzərinə tökülən sumağa bənzəyən şirin bir şeydir.”

Zəhhak onunla ağac şirəsindən hazırlanmış turuncəbin adlı dərman olmasını bildirmişdir.

Vəhbin dediyinə görə, isə “nazik çöräklər” olmuşdur.

Südey deyir: -”Gecələr ağacların üstünə tökülən bal” olmuşdur.

Əkrəmənin sözünə görə isə “tamat pastasına bənzər bir maddə” olmuşdur.

Tövratda belə nəql olunmuşdur: -”Mənn” keşniş tumuna oxşayan bir şey olmuşdur. Gecələr səhraya tökülür Bəni-İsrail isə onları yığıb döyür yağlı çörək dadı verən yumru şeylər bişirirdilər. Bəziləri onları dağlarda və daşlıqlarda olan təbii bal olduğunu demişlər.

Bəziləri “Səlva”nın barəsində demişdir: “Onun mə`nası bal deməkdir.” Amma ümumiyyətlə, onun bildirçin və kəklik də olmasını söyləyirlər.

Bəziləri deyir: -”Onlar göyərçinə oxşar quşlar olmuşlar. Külək o quşları onlar üçün gətirirdi.” Sələbi “Ərais”də başqa bir nəzər söyləmişdir. O deyir: -”Onlar çox aşağıdan uçan quşlar olmuşdur. Belə ki, Bəni-İsrail onları əlləri ilə tuturmuş.”

Bu sözü təsdiq edən “Əhdeyn” təfsirində deyilən sözdür. Orada deyilir: -”Bil ki, Səlva böyük kütlə ilə Afrikadan hərəkət edərək şimala gedən quşlardır. Kapri adasında bir fəsildə onlardan on altı min ovlanır. Bu növ quşlar “Qulzum” dənizindən hərəkət edib İsveçrə körfəzindən keçərək Sina yarımadasına daxil olurlar. Yolun yorğunluğundan asanlıqla əllə tutulurlar. Uçuşları da yerə yaxındır.”

Beləliklə, Allahın “Bəqərə” surəsində Bəni-İsrail üçün əta etdiyi nemətləri saydıqda qeyd etdiyi bu iki nemət təbii nemət olmuşdur.

Bir müddət belə keçdi. Bəni-İsrail “Mənn və Səlva”dan ərzaq kimi istifadə etdilər. Amma yeməklərinin bir növ olmasından, ya da nemətə nankorluq edib bəhanə axtarmaq üzündən (ki onlar buna adət etmişdilər) Musadan (ə) başqa yeməklər tələb edib dedilər:

-”Biz bir növ yeməklə kifayətlənmirik. Allahdan istə torpaq tərəvəzlərindən (o cümlədən) xiyar, buğda (ya sarmısaq), mərci və soğan bizim üçün gətirsinlər.” (“Bəqərə” surəsi, ayə 61).

Musa (ə) onların cavabında buyurdu:

-”Pis yeməyi yaxşı yeməklə dəyişirsiniz?” (“Bəqərə” surəsi, ayə 61). Sanki bu sözü deməkdə həzrətin məqsədi bu idi: “Siz daha ləzzətli və dadlı yeməyi ondan aşağı olan bir yeməklə dəyişmək istəyirsniiz?” Ardınca buyurur:

-”Bu yeməkləri ələ gətirmək üçün gərək şəhərə daxil olasınız və orada istədikləriniz vardır. Artıq tənbəlliyi kənara qoyub hər şeyi dua ilə Allahdan istəməyisiniz!”

## MUSA VƏ QARUN

Tarixdə Qarun, onun Musa ilə nisbəti və ona aid başqa mövzularda müxtəlif nəzəriyyələr vardır. Onların hamısının bu kitabda qeyd etməyə imkan yoxdur. Elə buna görə də ilk növbədə Allah taalanın Qur‘anda buyurduğu ayələrin tərcüməsini yazıb daha sonra təfsirçilərin təfsiri, rəvayətlər və tarixçilərə müraciət edərək məşhur olan kitablarda yazılanları qeyd edəcəyik.

Amma Qur‘anda bəyan olunmuş ayələrin tərcüməsi belədir:

“Həqiqətən Qarun Musanın qövmündən idi və onların əleyhinə tüğyan etdi və ona o qədər sərvət verdik ki, xəzinənin açarlarını gəzdirmək qüdrətli kişiləri əldən salmışdı. Qövmü ona dedi:

-”Bu qədər məğrur və şad olma. Allah məğrur insanları sevmir. Allahın sənə verdiyi ilə axirəti axtar, dünyadan öz nəsib və bəhrələrini unutma, Allahın sənə etdiyi yaxşılıq kimi, sən də yaxşılıq et və yer üzündə fəsad törətmə! Həqiqətən də Allah taala fəsad edənləri sevmir.” Qarun dedi: -”Əldə etdiyim bu mal öz elm və tədbirimlə olmuşdur (Amma onun sözü yersiz idi). Məgər o bilmir ki, pərvərdigar ondan əvvəlkiləri qüdrətli və sərvətliləri (əzabın nazil olduğu an) həlak etmişdi və günahkarların günahından sual olunmaz. Qarun (bir gün) qızıl, zinətlə öz qövmünün (yanına) gəldi, dünya həyatını istəyən insanlar dedilər: -”Ey kaş, Qarunda olanlardan bizdə də olaydı, həqiqətəndə onun böyük nəsibi vardır.” Amma alim olan kəslər onlara dedilər: -”Vay olsun sizə! Pərvərdigarın yaxşı payı, imanı olan və yaxşı iş (saleh əməli) edən üçün daha yaxşıdır və səbir edən insanlardan başqa heç kəs ona çatmayacaqdır. Biz Qarunu evi ilə qarışıq yerin altına apardıq və o zaman pərvərdigar qarşısında ona kömək edə biləcək dəstə yox idi və kömək olunmadı. Bir gün öncə onun yerində olmaq arzusunda olanlar dedilər: -”Ey vay! Sanki pərvərdigar istədiyi vaxt öz bəndələrinə ruzusunu verir və istədiyi zaman da alır. Həqiqətən də əgər pərvərdigar bizə lütf etməsəydi, biz də yerin altına getmişdik. Ey vay? elə bil ki, kafirlər heç zaman nicat tapmayacaqlır...”

Burada Qarunun əhvalatı sona çatır. Onun ardınca pərvərdigar nəticə almaq və başqalarına ibrət olmaq üçün buyurur: -”Bu axirət dünyasını biz o kəslər üçün yaratmışıq ki, yer üzündə tüğyan və fəsad etmək fikrində olmasınlar və xoş aqibət təqvalılara məxsusdur. Yaxşı iş edən (hər kəs) daha yaxşı hədiyyə (alacaqdır) və pis iş gətirən hər kəs təkcə etdiyi işin cəzasını görəcəkdir.”

Qarunun barəsində olan ayələrin ardınca yaxşı və pis işlərin “ilahi sünnə”də xəbərdarlığı və mükafatı qeyd olundu.

Amma təfsir, tarix və rəvayətlərdə Qarunun barəsində buyurulanların xülasəsi bunlardır:

Bəni-İsraildən olan Qarun Musanın əmisi oğlu olmuşdur. Musa və Harundan sonra heç kəs onun kimi gözəl və savadlı olmamışdır. Tövratı hamıdan yaxşı oxuyur, yaxşı səsə malik idi. İbni Abbas deyir: -”Musa gəlməmişdən əvvəl Fir‘on onu Bəni-İsrailin hakimi qoymuşdu. Həmçinin hələ o zaman onun Bəni-İsrailə nisbət təkəbbürlü və tüğyankar olmasını nəql etmişlər.

Mal və sərvət baxımından öz zamənəsində misli-bərabəri olmamışdır. Qızıl və gümüşlə dolu olan anbarlarının çoxluğundan, anbardarlar dəmir açarların ağırlığından gəzdirə bilmədiklərinə görə onlar

üçün dəridən açar düzəltdirmişdi. Yenə buna baxmayaraq, dəri açarları aparıb gətirmək üçün bir neçə nəfərə ehtiyac var idi.

Bəzi təfsirçilərin dediyinə görə, o kimya elminin dərinliklərinə yol tapmışdı. O, bundan istifadə edərək günbəgün qızıl və gümüşünü artırırdı. Var-dövlətinin çoxluğu axır ki, onu tüğyan etməyə vadar etdi. Dostcasına ona xəbərdarlıq edən öz qövmünün möminlərinə qarşı tüğyanını artıraraq, əlində olan sərvətini öz elminin və ağlının səmərəsi olduğunu bildirdi. Bir sözlə, özünü Allahdan ehtiyacsız hiss etdi.

Bir gün qüdrət və sərvətini xalqa göstərmək üçün qiymətli paltar geyinib özünü cəvahiratla bəzəyərək, öz yaxınları və tərəfdarları ilə yola düşdü. Hamının gözü ona dikilmişdi. Dünyapərəst insanlar onun kimi olmağı arzu edib dedilər:

-"Ey kaş, bizim də onun kimi pul və qüdrətimiz olaydı. Amma həqiqəti görən anlayışlı insanlar aldadıcı zahirə fikir vermədilər. Allah taala bunu Qur'anda bəyan etmiş və onlardan danışmışdır.

Qarunun gün-gündən sərvəti artdıqca Musayla (ə) mübarizə etmək fikrinə düşdü. O, həzrətlə (ə) düşmənçilik yaradıb Bəni-İsrail başçılarını onun əleyhinə qaldırmaq, dəstələr düzəltmək istəyirdi. Fikrini həyata keçirmək üçün böyük bina düzəldib qonaq qəbul etmək üçün yeməklər hazırlayırdı. Bəni-İsrail gecə-gündüz onun evinə gedir, çörək yeyib onunla bəzi məsələləri müzakirə edirdilər. Bir sözlə, Musanın (ə) müqabilində yeni Fir'on yaranmışdı.

Musa (ə) Qarunla olan qohumluq və yaxınlığına görə onunla yumşaq rəftar edir, verdiyi əziyyətlərə göz yumurdu. Allahdan Musaya (ə) zəkat hökmü nazil olduqda zəkat almaq üçün onun yanına adam göndərdi. Qarun nə qədər çalışsa da özünü zəkat verməyə razı sala bilmədi. Axırda Musa ilə aşkarcasına mübarizə etmək, xalqı onun ətrafından dağıtmaq fikrinə düşdü.

Qarun Bəni-İsraildən bir çoxunu evinə dəvət edib dedi:

-"Musanın sizə dediyi hər şeyə siz əməl etdiniz, indi də malınızı əlinizdən almaq istəyir!"

Orada olanlar dedilər: Dediyi hər şeyə hazırıq. Qarun dedi:

-"Filan zinakar qadını mənim yanıma gətirin. Zahirdə gözəl olan o qadını onun yanına gətirdilər. Qarun ona pul (bəzilərinin dediyinə görə, teştlə dolu qızıl ona) verib dedi:

-"Bəni-İsrail bir yerə yığıldığı zaman ayağa qalxıb Musanı (ə) zina etməkdə ittiham et."

Sabahısı gün Bəni-İsrail bir yerə yığılıb Musanın (ə) yanına gəldi və dedi:

-"Camaat yığışıb sənin gəlməyini gözləyirlər. Onların yanın gəlib ilahi əmrləri və dinlərinin hökmlərini de!" Musa (ə) onların yanına gəlib moizə edərək buyurdu:

-"Ey Bəni-İsrail oğurluq edən hər kəsin əlini kəsib iftira atan şəxsə səksən taziyanə vuracayıq. Həyat yoldaşı olmayan zina etmiş kəsə yüz taziyanə və həyat yoldaşı olub "möhsinə" zina edəni isə daş-qalaq edəcəyik.

Bu vaxt Qarun ayağa qalxıb dedi:

-"Özün də olmuş olsan belə?" Musa dedi:

-"Bəli, mən də olsam belə." Qarun dedi:

-"Bəni-İsrail deyir ki, sən filan qadınla zina etmisən?" Musa soruşdu:

-"Mən?" Qarun dedi:

-"Bəli." Musa buyurdu:

-"O qadını gətirin." Qadını gətirdikdə Musa ondan soruşdu:

-"Ey qadın, mən səninlə belə bir iş görmüşəm?" Sonra onu and verib düzünü deməsini istədi.

O qadın bir qədər fikrə daldı sonra dedi: -"Yox!" Onlar yalan deyirlər. Qarun mənə pul və vədə verərək sənə belə bir töhmət atmağımı istədi.

Bu sözü eşidən Qarun xəcalət çəkib xalqın qarşısında rüsvay oldu. Musa (ə) da səcdə edib ağlayaraq Allahın dərgahına ərz etdi:

-"Pərvərdigara! Sənin düşmənin məni incidib rüsvay olmağımı istədi. Əgər mən sənin peyğəmbərinəmsə, mənim intiqamımı ondan al və məni qüdrətli et.

Sübhan Allah Musaya (ə) vəhy edib buyurdu:

-"Torpağı sənin itaətinə verdik. Necə əmr istəyrsənsə ver, torpaq sənə itaət edəcəkdir."

Musa (ə) üzünü Bəni-İsrailə tutub buyurdu:

-"Allah taala məni Fir'onun üstünə göndərdiyi kimi indi də Qaruna göndərmişdir. Hər kəs onunladırsa durduğu yerdə qalsın. Hər kəs mənimlədirsə, ondan uzaqlaşsın."

Bu sözü eşidən Bəni-İsrail iki nəfər istisna olmaqla Qarunun ətrafından dağıldılar. Bu zaman Musa yenə əmr edib dedi:

-"Ey torpaq bunları öz daxilinə apar!" Yer aralandı və onları dizə qədər özünə çəkdi. Ud! İkinci dəfə kəmərə, üçüncü dəfə isə boğaza qədər batdılar. Dördüncü dəfə də Qarunun evi və bütün var dövləti ilə birlikdə yerin altına getdi. Hər dəfə də Qarun Musadan (ə) onunla qohumluğuna and verib bağışlanmasını istədi. Amma Musa (ə) etina etməyərək torpağa onların udmasını əmr etdi.

Əli ibni İbrahimin təfsirində olan nəqlə görə, Musanın (ə) Qaruna qəzəblənməsinə səbəb Bəni-İsrailin Teyyə vadisində qırx il giriftar olub, o biyabanlarda sərgərdan olacaqlarını bildikdə Allah dərgahına üz tutub ağlayır, gecələri dua və Tövrat oxumaqla keçirirdilər. Tövratı hamıdan yaxşı oxuyan Qarun tövbə etməyə hazır olmadı. Musa (ə) onu çox sevirdi. Onun yanına gəlib buyurdu: -"Ey Qarun, sənin qövmün tövbə etməyə məşğul olduğu halda sən burada əyləşmisən?! Qalx, onlarla birlikdə tövbə et. Əgər belə etməsən, sənin üçün əzab nazil olar!" Qarun Musanın (ə) sözünə etina etməyib onu ələ saldı. Musa (ə) qəmli halda onun yanından çıxıb sarayının arxasında əyləşdi. Qarun əmr edib küllə qarışmış torpağı yuxarıdan onun başına tökmələrini istədi. Bu işi gördükdə Musa (ə) çox qəzəbləndi və onun məhv olmasını Allahdan istədi. Başqa bir rəvayətə görə Allah torpağı onun ixtiyarına verdikdə torpağa əmr verib onu udmasını istədi. Bu nəqldən məlum olur ki, Qarunun həlak olması Təyyə vadisində baş vermişdir. Amma saysız-hesabsız var-dövlətinin də onunla olub, ya başqa bir yerdə yerin altına getməsi məlum deyildir. Əlbəttə, birinci nəzəriyyənin düzgün olması həqiqətdən uzaqdır. Düzgününü Allah bilir.

# İNƏYİN KƏSİLMƏSİ

Qabaqkı fəsillərdə olduğu kimi, bu fəsildə də birinci növbədə "Bəqərə" surəsindən bir neçə ayəni tərcümə edəndən sonra təfsirçilərin nəzərlərini və rəvayətlərini nəql edəcəyik.

Allah taala "Bəqərə" surəsindəki hadisəni belə açıqlayır.:

"Musa öz qövmünə "Allah taala sizə hökm edir ki, bir inək kəsin" -deyərkən, onlar belə cavab verdilər: Sən bizi ələ salırsan? Musa buyurdu: -"Nadançılıqdan Allaha pənah aparıram." Onun qövmü dedi:

-"Allahdan istə inəyin necə olduğunu bizim üçün aydınlaşdırsın." Musa dedi:

-"Allah buyurur ki, elə bir inək olsun ki, nə qoca olsun, nə də cavan, orta yaşlı bir inək seçin. Bəs indi isə əmr olunduğunuz işi yerinə yetirin (və Allahın hökmünü yerinə yetirməyi gecikdirməyin.)" Musanın qövmü dedi:

-"Allahdan istə ki, inəyin hansı rəngdə olduğunu bizim üçün məlum etsin." Musa dedi:

-"Allah buyurur ki, sarı rəngli inək olsun ki, onu görənləri şadlandırsın." Dedilər:

-"Allahdan istə ki, necə inək olduğunu bizim üçün bəyan etsin. Çünki belə inək bizi çaş-baş salıb. Əgər Allah istəsə, biz hidayət olacayıq. Musa dedi:

-"Allah buyurur ki, yer şumlamayan və əkin suvarmayan bir inək olsun. Heç bir eybi olmayıb və dərisində sarı rəngdən başqa bir rəng olmasın." Onlar dedilər:

-"İndi işin haqqını əda etdin. (Onlar qeyd olunan xüsusiyyətlərə malik olan inəyi tapandan sonra kəsdilər. Həqiqətdə bu işi görmək istəmirdilər.)"

"Bir nəfəri öldürüb sonra isə onun qatilinin kim olduğu barədə ixtilafa qalxdığınız və Allah sizin gizlətdiyinizi aşkar etdi. Biz dedik: -"Kəsilmiş inəyin bir parça ətini öldürülmüş şəxsə vurun (təki dirilsin və öz qatilini göstərsin.) Allah ölüləri belə dirildir və öz nişanələrini sizə göstərir, ümidvaram bunu dərk edəsiniz."

Bu hadisə təfsir və rəvayətlərdə aşağıdakı kimi qeyd olunur:

"Bəni-İsraildən bir nəfəri öldürdülər və cənazəsini yola atdılar. Heç kəs bilmir onu kim və nə üçün öldürüb. Bu da səbəb olurdu ki, Bəni-İsrailin tayfaları bir-birini müttəhəm etsinlər. Nəhayət, şiddətli ixtilaf və dava-dalaş baş verdi. Öldürülmüş şəxsin qohum-əqrəbası Həzrət Musanın (ə) yanına gəlib bu məsələni həll etməsini ondan xahiş etdilər. Musa (ə) peyğəmbər də ilahi vəhyin köməyi və Allahın hökmünə əsasən onlara əmr etdi ki, bir inəyi kəssinlər. İnəyi kəsəndən sonra bir üzvünü öldürülmüş şəxsin bədəninə vursunlar. O, dirilib öz qatilini göstərəcək. Belə olan halda, Bəni-İsrail qədim adətləri üzündən tərslik edib və bəhanə gətirməyə başladılar. Hətta bu hökmün onları ələ saldığını bəhanə etdilər. Danışıq və sual tərzində Həzrət Musaya (ə) qarşı ədəb və hörmətə riayət etmədilər Həzrət Musadan (ə) inək haqqında artıq və yersiz izahlar istədilər. Musa (ə) Allahın hökmü ilə inəyin sifətlərini sayandan sonra Bəni-İsrail daha bəhanə gətirə bilməyib onunla razılaşdılar. Belə bir inəyi tapmaq üçün çox axtardılar. Nəhayət, Bəni-İsrail tayfalarının birindən o inəyi tapıb həmin cavandan aldılar.

Sonra isə inəyi kəsdilər. İnəyi kəsdikdən sonra Allahın hökmünə əsasən, onun bir üzvünü öldürülmüş şəxsin bədəninə vurdular. O, dirilib öz qatilini Bəni-İsrailə göstərdi."

Təfsirçilərin nəql etdiyi hadisənin konspekti belədir. Amma bu hadisədə bir neçə məsələnin izahına ehtiyac var. Təfsirlərdə və rəvayətlərdə o məsələlərin bəzisi izah olunmuşdur.

1. Nə üçün həmin şəxs öldürülmüşdü?

2. Nə üçün Bəni-İsrailə inək kəsmək əmr olundu?

3. Nə üçün sadalanmış sifətlərə malik olan inəyin kəsilməsi onlara əmr olundu və bu işdə nə sirr var idi?

Birinci sualın cavabı:

Müfəssirlər bu qətlin səbəbini iki cür nəql edirlər. Müfəssirlərin bir dəstəsi deyirlər ki, öldürülmüş şəxsin çoxlu sərvəti var idi. Həmin şəxs uzun ömür sürmüşdü. Onu əmisi oğlundan başqa heç kəsi yox idi. Əmisi oğlu onun mal-dövlətinə malik olmaq məqsədilə onun təbii ölümünü çox gözlədi. Lakin o, uzun ömr sürürək öz həyatına davam edirdi. Nə isə əmisi oğlu hövsələdən çıxdı. Bu qərara gəldi ki, onu gizli yolla öldürərək mal-dövlətini ələ keçirtsin. Elə də etdi. Onu öldürəndən sonra cənazəsini camaatın gəl-get etdiyi yolun başına atdı. Özü isə Həzrət Musanın (ə) yanına gəlib qatilin kim olduğunu tələb etdi.

Müfəssirlərin başqa bir dəstəsi yazırlar ki, qatil cavan bir oğlan idi. O, öldürdüyü şəxsin qızını istəyirdi. Qızın gözəlliyi oğlanı valeh etmişdi. Lakin atası qızın həmin oğlanla evlənməsinə razı olmadı və qızı başqasına verdi. Belə olan halda, oğlan qızın atasını gizlincə öldürdü, sonra isə Həzrət Musanın (ə) yanına gəlib qatilin kim olduğunu tələb etdi. (Bu məsələ bəzi rəvayətlərdə imamlardan (ə) da nəql olunub.

Hər halda, ölümün səbəbi ya sərvət, yaxud da şəhvət olmuşdur. Necə ki, bu gün də cinayətlərin və nahaq qan tökülməyin başlıca səbəbləri sərvət və ya şəhvətdən başqa bir şey deyildir.

İkinci sualın cavabı:

Nə üçün Bəni-İsrailə məhz inək kəsmək əmr olundu? Ola bilsin bunun səbəbi əvvəldə qeyd etdiyimiz kimi, Bəni-İsrailin yanında inəyin hörmətə malik olması idi. Onların bir dəstəsi inəyə pərəstiş həddinə qədər hörmət edirdilər. Samiri də elə onların bu zəif və puç fikirlərindən istifadə edərək onları düz yoldan azdırdı. Allah taala da bu hökmlə onların inəyə etdikləri hörmətini sındıraraq bu səhv təfəkkürü onların fikirlərindən silmək istəyirdi.

Üçüncü sualın cavabı:

Nə üçün sadalanmış sifətlərə malik olan inəyin kəsilməsi onlara əmr olundu və bu işin nə sirri nə idi?

Bu barədə İmam Rzadan (ə) bir rəvayət nəql olunubdur. Həzrət (ə) buyurur ki, Bəni-İsrail o inəyi tapıb kəsəndən sonra bir neçə nəfər Həzrət Musaya (ə) dedi: -"Bu inəyin bir dastanı var." Həzrət Musa (ə) soruşdu ki, onun dastanı nədir? Onlar dedilər:

-"Bu inəyin sahibi cavan bir oğlandır. O, öz atasına həmişə yaxşılıq edir və ona məhəbbət bəsləyir. Bir dəfə o cavan əlində olan ticarət mallarını alıcı ilə qiymətləşdi. Bu ticarətdə çoxlu pul qazandı. Nə isə malları müştəriyə təhvil vermək üçün anbarın açarlarını götürmək məqsədi ilə evə gəldi. Gördü ki, atası yatıb və anbarın açarlarını başının altına qoyubdur. O, atasını oyatmağa razı olmadı və bu ticarətdən əl çəkdi. Atası yuxudan durandan sonra məsələnin nə yerdə olduğunu bildi. Ata övladını yanına çağırıb həmin ticarətdə qazana bildiyi mənfəət qarşısında bu inəyi ona bağışlayaraq dedi: -"Əlindən çıxan qazancın qarşısında bu inəyi sənə bağışlayıram."

Həzrət Musa (ə) bu hadisəni eşidib buyurdu: -"Baxın görün ki, yaxşılıq və ehsan yaxşılıq edən adamla nə edir!"

Qeyd etmək lazımdır ki, bu hədisdə bir neçə məsələni başa düşürük:

1) Bəni-İsrailin Allaha və Musaya (ə) olan imanının zəifliyi. Çünki ilk növbədə Həzrət Musa (ə) onların öz istəkləri və Allahın hökmünə əsasən buyurdu: -"Allah taala sizə bir inək kəsmənizi hökm edir." Onlar isə Allahın hökmünü ələ salaraq dedilər: -"Sən bizi ələ salırsan?" Halbuki, Həzrət Musa (ə) özü bu hökmü onlara vermişdi. Açıq-aşkar onlara dedi ki, Allah bu işi sizə əmr edir. Digər tərəfdən əgər Həzrət Musa (ə) özü də bu hökmü onlara etsəydi itaət etmələri lazım idi. Çünki Həzrət Musa (ə) Allahın peyğəmbəri idi və onların ona itaət etməsi vacib idi. Həzrət Musanın (ə) onlara verdiyi cavab çox maraqlıdır. Həzrət onların cavabını belə buyurur:

"Allah özü məni cahillikdən qorusun." ("Bəqərə" surəsi, ayə 67).

Yəni ələ salmaq cahil və nadan insanların işidir. Biz ilahi peyğəmbərlər isə bu işlərdən uzağıq.

Həmçinin, Bəni-İsrail həzrət Musaya (ə) müraciət edib inəyin necə olduğunu Allahdan soruşmasını bu ibarətlə bəyan edir:

Yəni, öz Allahından soruş. Bu da onların Allaha imansızlığının bir əlamətidir. Elə bil ki, öz Allahlarını həzrət Musanın (ə) Allahından ayrı hesab edirdilər və bu cümləni bir neçə dəfə təkrar etdilər.

Həzrət Musa (ə) inəyin bütün xüsusiyyətlərini bəyan edəndən sonra Bəni-İsrail dedi:

-"İndi işin həqiqətinə gəlib çatdın."

Onların bu cümləsindən belə çıxır ki, həzrət Musa (ə) o zamana qədər haqqı deməmişdi və dediklərinin heç birinin həqiqəti yox idi. Bunun özü Bəni-İsrailin həzrət Musaya (ə) olan əqidələrinin nə qədər zəif olduğunu göstərir.

2) Bəni-İsrail tərslik edir və hər bir şeyin qarşısında bəhanə gətirirdilər. Çünki Musa (ə) birinci onlara hökm verdi ki, bir inək kəsin. Lakin onlar bəhanə gətirməyə və inəyin xüsusiyyətlərini soruşmağa başladılar. Halbuki, əgər onlar birinci hökmə əməl etsəydilər, onların sualları bəhanə üzündən olmayacaqdı. Həm də Allahın hökmünü daha tez yerinə yetirərək öz məsuliyyətlərini ağırlaşdırmayacaqdılar. İmam Rza (ə) bir hədisdə buyurur ki, Bəni-İsrail işi çox çətinləşdirdilər. Allah taala da onların işini çətinləşdirdi. Əli ibni İbrahimin təfsirində rəvayət olunduğu kimi, elə ki, Bəni-İsrail inəyin bütün xüsusiyyətlərini soruşdular və Musa (ə) cavab verdi, həmin inəyi tapıb sahibindən almaq istədilər. İnək sahibi dedi:

-"Siz bu inəyin dərisini qızılla doldurub mənə verməsəniz, onu sizə satmaram."

Bu söz Bəni-İsrailə ağır başa gəldi və bu qiymətə inəyi almağı özlərinə rəva bilmədilər. Ona görə də Musa (ə) onlara buyurdu:

-"İndi daha heç bir çıxış yolu yoxdur, gərək o inəyi alasınız."

Onlar məcburiyyət qarşısında qalıb həmin qiymətə inəyi alıb kəsdilər.

3) Allah taala buyurur:

"Onlar inəyi gəsdilər, amma kəsmək istəmirdilər." ("Bəqərə" surəsi, ayə 71).

Bu ayədən başa düşürük ki, Bəni-İsrailin sualları və bəhanələrinin səbəbi həqiqəti ört-basdır etmək idi. Ona görə də çalışırdılar işi uzadaraq qatilin kim olduğunu fikirlərdən uzaqlaşdırsınlar. Lakin Allah taala onların cinayətinin üstünü açmaq istədiyi üçün məsələni gizli saxlaya bilmədilər. Öz işlərini daha çox çətinləşdirdilər. Bunu sonrakı ayədən də başa düşürük Allah taala buyurur:

-"Allah taala sizi gizli saxlamaq istədiyinizi aşkar edəcək."

Bu cümlə bəyan edir ki, onların bir dəstəsinin həmin hadisədən xəbərləri var idi. Onlar qatili tanıyırdılar, lakin gizli saxlamağa çalışırdılar.

4) Allah taala bu hadisədə sonuncu məsələyə, yəni ölülərin dirilməsinə və cismani məadın həqiqətinə toxunaraq buyurur:

"Allah taala ölüləri belə dirildər və sizə Öz nişanələrini göstərər ki, bəlkə təfəkkür edib (bunu) dərk edəsiniz. ("Bəqərə"(surəsi, ayə 73).

Bu ayədən də istifadə olunur ki, həmin hadisə yalnız qatili tanıtdırmaq məqsədi daşımırdı. Allah taala Bəni-İsrailə böyük bir həqiqəti, yəni ölülərin dirilməsini və ölümdən sonrakı həyatı göstərmək istəyirdi.

## MUSA VƏ XIZIR

Əziz oxucular! Həzrət Musa və Xızırın (ə) əhvalatına başlamazdan əvvəl bilməlisiniz ki, mən bu əhvalatı şöhrət tapmış təfsirçilərin və tarixçilərin sözlərinə əsasən nəql edirəm. Çünki bu əhvalat haqqında tarixçilərin və təfsirçilərin sözlərində müxtəlif nəzəriyyələrlə rastlaşırıq. O cümlədən yazırlar:

1- Əhvalatda adı çəkilmiş Musa (ə) Allahın peyğəmbəri Musa ibni İmran deyil. O, Musa ibni İmrandan qabaq Bəni-İsrail peyğəmbərlərindən biri idi. Onun adı Musa ibn Mişa ibn Yusifdir. Buna dəlil olaraq deyirlər: -"Musa ibni İmran "Ulul-əzm" (yəni, kitab nazil olmuş beş) peyğəmbərlərdən biridir. Necə ola bilər ki, o, başqa bir şəxsdən elm öyrənmək üçün onun yanına getsin? Bu suala cavab verilir ki, Musanın (ə) adı Qur`anda yüz otuz dəfədən çox gəlmişdir və bunların hamısından məqsəd həmin Musa ibni İmrandır. Əgər bu əhvalatda Musa başqa bir şəxs olsaydı, əlavə izahla qeyd olunardı. Ayələrdə əlavə izah olmadığı üçün məlum olur ki, adı çəkilmiş Musa elə həmin Musa ibni İmran Kəlimullahdır (Kəlim Həzrət Musanın məşhur ləqəbidir. O, Allahla çox danışdığı üçün bu ləqəbi almışdır.). Bəs nə üçün Musa (ə) "Ulul-əzm" peyğəmbərlərdən ola-ola başqasından elm öyrəndi? Bu sualın cavabını Seyyid Murtəza belə verir:

Həzrət Musaya (ə) elm öyrədən alim özü də Allahın peyğəmbəri idi. Bunun heç bir iradı ola bilməz. Ola bilsin ki, Allah taala Musanın (ə) bilmədiyi bəzi elmləri həmin alimə öyrətmişdi. Allah taala Musaya (ə) əmr etdi ki, həmin alimin yanına gedib ondan elm öyrənsin. Bunun heç bir eybi yoxdur. Bəli, əgər Həzrət Musa (ə) elm öyrənmək məqsədilə adi insanlardan birinin yanına getsəydi buna irad tutmaq olardı. Lakin Musanın (ə) Allahın peyğəmbəri olan həmin alimdən elm öyrənməsi mələyin vəhyilə ona elm öyrətməsinə bənzəyir. Bu da o demək deyil ki, həmin alim elmdə Musadan (ə) üstün idi. Çünki Musanın (ə) başqa elmlərdə ondan üstün olması mümkündür.

Rəvayətlərdə Həzrət Musa (ə) həmin alimdən elm öyrənməsinin səbəbi aşağıdakı kimi qeyd olunub:

-Bir gün Musa (ə) Bəni-İsrailə xütbə oxuyurdu. Bir nəfər ondan (ə) soruşdu:

-"Sizdən savadlı alim vardırmı? Musaya (ə) vəhy gəldi ki, mənim bəndəm Xızır (ə) peyğəmbər səndən də alimdir." Şiə vastəsi ilə nəql olunmuş rəvayətlərdən bəzisində yazılıb ki, Musa (ə) bu barədə fikirləşib özü-özünə dedi:

-"Allah taala məndən savadlı adam yaratmayıbdır. Bu vaxt Allah taala həzrət Cəbrailə buyurdu:

-"Tez Musanın yanına get! O, bu fikirlə özünü həlak etdi." Ona de: -"Məcməül-Bəhreyndə" bir kişi səndən də savadlıdır. Onun yanına gedib elm öyrən!"

Ürfan alimləri də Musanın (ə) zahiri elm və Xızırın (ə) batini elmlərə malik olduğunu bildiriblər. Onlar deyirlər ki, Həzrət Musaya (ə) əmr olundu ki, Xızırdan (ə) batini elmləri öyrənsin. Ariflər həzrət Xızıra (ə) böyük əhəmiyyətlə yanaşırlar. Onlar öz ürfani şe'rlərində Xızırın (ə) adını çox çəkmiş, onu eşq cilvəsi, "pire-təriqət" və əbədi həyata malik olduğunu qələmə alıblar.

2) Musanın (ə) elm öyrəndiyi alimin kim olduğu haqda da müxtəlif nəzəriyyələr vardır. Çünki Qur'anda həmin alimin adı çəkilməyib. Bu barədə də çoxlu sözlər deyilmişdir. Lakin o alimin Xızır (ə) olduğu daha çox alimlərin arasında məşhurdur. Bundan əlavə Xızırın (ə) öz barəsində də müxtəlif nəzəriyyələr gözə çarpır. Qur'anda adı çəkilmiş Xızır (ə) ya həmin İlyas peyğəmbərdir, ya Yəsə peyğəmbərdir və yaxud da başqa bir şəxsdir? Ümumiyyətlə, o, peyğəmbər olubdur, ya xeyr? Sonra isə onun nəsəbi (yəni hansı nəsildən olduğu) haqqında da müxtəlif sözlər deyilib. Şeyx Səduqun İmam Sadiqdən (ə) rəvayət etdiyi hədisə əsasən imam buyurur: -"Xızır (ə) mürsəl peyğəmbərlərdən idi. Allah taala onu öz qövmünə peyğəmbər göndərdi. O da camaatı Allahın təkliyinə, peyğəmbərlərin və onlara nazil olmuş kitabların haqlı olduğuna dəvət etdi. Həzrət Xızırın (ə) möcüzələrindən biri bu idi ki, qurumuş ağaca söykənsəydi, ya ot bitməyən yerdə otursaydı durandan sonra ora yaşıllaşardı. Elə buna görə də ona Xızır (ə) ləqəbini vermişdilər. Onun əsl adı Taliyadır. O, Mələkan ibni Abir ibni Ərfəxşəd ibni Sam ibni Nuhun oğludur.

Bəzi rəvayətlərə əsasən, o, İskəndərin qoşunun başçısı idi. Əbədi həyat suyunu içdi. Ona görə də uzun ömr sahibi olaraq indiyə qədər yaşayır. Bir hədisdə İmam Rza (ə) buyurur: -"Xızır (ə) həyat suyu içdi və Sur (Qiyamətdə səslənən şeypur) səslənənə qədər sağ qalacaq. Şiə mühəddisləri nəql edirlər ki, Məhəmməd peyğəmbər (s) dünyadan gedəndən sonra Xızır (ə) baş sağlığı vermək üçün naməlum bir şəxs kimi, həzrətin (s) evinə gəldi. Hələ Məhəmməd peyğəmbər (s) sağ ikən Xızır (ə) dəfələrlə həzrətin və Əlinin (ə) yanına gəlib onlardan bəzi sualları soruşmuşdu. Həmçinin Əli (ə) də şəhid olanda Xızır (ə) Kufəyə gəlib bir neçə söz dedi. O, başqa imamların yanına da gedirdi. Xızır (ə) on ikinci imamın qeybə çəkildiyi dövrdə də o həzrətin yanına gedir və imamla söhbət edərək onu tək qalmağa qoymurdu. Hər il həcc mərasimində iştirak edir. Nəql olunduğu kimi müxtəlif yerlərdə adi adamlar da Xızırı (ə) görüb və onun söhbətlərini, hədislərini danışıblar. Əgər hər kəs bu hədisləri yığsa bir kitab yaza bilər. Mühəddis Qumi adi adamların Xızırı (ə) görüb ondan nəql etdikləri hədislərin mündərəcatını "Səfinətül-bihar" kitabında gətirmişdir.

3- Musa (ə) və Xızır (ə) Məcməül-Bəhreyn adlanan yerdə bir-birləri ilə görüşüblər. Həmin yerin hara olduğu barədə də alimlər bir neçə nəzəriyyə irəli sürüblər. Bu əhvalatın bəzi mövzularında qalan müxtəlif nəzəriyyələri bir-bir xatırlayacağıq.

Bəli, məşhur rəvayətlərdə nəql olunduğu kimi Musa (ə) Allahın bəndələri arasında özündən başqa savadlı şəxsi tanımırdı. Bəzi alimlərin dediyinə əsasən, hətta məclislərdən birində bu məsələni açıq-aşkar elan etmişdi. Ondan sonra Allahın əmri ilə Xızırın (ə) yanına gedib ondan elm öyrənməyə başladı.

Beyzavi öz məşhur təfsir kitabında yazır ki, Musa (ə) Allaha xitab edərək dedi:

-"Hansı bəndən sənin yanında ən əzizdir?" Allah tərəfindən vəhy gəldi:

-"Məni yada salıb yaddan çıxartmayan." Musa (ə) soruşdu:

-"Hansı bəndən hökm məqamında başqalarından üstündür?" Allah taala buyurdu:

-”Haqqı hökm verib həvayi-nəfsinə (nəfsi istəklərinə) tabe olmayan.” Musa (ə) soruşdu:

-”Hansı bəndən ən savadlıdır?” Allah taala buyurdu:

-”Başqalarından elm öyrənib öz elmini artıran şəxs ən savadlıdır. Ola bilsin ki, elm toplayan vaxt onu hidayət edib fəlakətdən qoruyub saxlayan sözlə rastlaşsın.” Musa (ə) soruşdu:

-”Həmin şəxsi necə tapım?” Vəhy olundu:

-”Zənbilin içinə bir balıq qoyub yoluna davam et. Hər yerdə balığı itirsən Xızır (ə) oradadır.”

Musa (ə) səfərə hazırlaşdı. Özü ilə bir zənbil götürüb onun içinə duzlu, ya bişmiş balıq qoydu. Canişini Yuşə ibni Nunu da özüylə apardı. Ona da tapşırdı ki, hər yerdə balıq itsə, ona xəbər versin. Musa (ə) Yuşə ilə gəlib Məcməül-Bəhreyn deyilən yerə çatdılar.

Gecə-gündüz yol getdikləri üçün çox yorulmuşdular. Orada bir saat dincəlmək məqsədilə oturdular, həmin yerdə bir daşa söykəndilər. Musanı (ə) oturduğu halda yuxu apardı. Bəzi alimlərin dediyinə görə, yağış yağmağa başladı. Balığın üstünə yağış yağandan sonra dirildi və özünü dənizə atdı. Lakin başqa bir dəstə alimlərin dediyinə əsasən, Yuşə ayağa qalxıb orada olan “abi-həyat” (dirilik suyu) ilə dəstəmaz aldı. Dəstəmazın suyundan bir az balığın üstünə töküldü və balıq dirilib dənizə atıldı. Başqa bir nəzəriyyə isə balığın möcüzə vasitəsilə dirilməsini təsdiqləyir. Lakin balığın dirilib dənizə getməsi Yuşənin yadından çıxdığı üçün Musaya (ə) demədi. Həmin yerdən hərəkət edib uzaqlaşdılar. Musa (ə) həm yorğun, həm də acmışdı. O, Yuşəyə buyurdu:

-”Yemək gətir yeyək. Bu səfər bizi çox yordu.” Elə bu vaxt balığın dirilib suya atılması Yuşənin yadına düşdü. O, Musaya (ə) dedi: -”Bizim bir yerdə daşa söykənib oturmağımız yadındadırmı? Həmin yerdə balıq dirilib dənizə atıldı. Mənim yadımdan çıxdı sənə xəbər verim. Bu hadisənin mənim yadımdan çıxmağının səbəbi də şeytan idi.”

Musa (ə) bu sözü eşidən kimi həmin yeri tapmaq məqsədilə dala qayıtmağa başladı. O, bu sözdən sonra özündə qələbə hissi duyurdu. Musa (ə) buyurdu: -”Biz həmin yeri tapmalıyıq.” Həmin yeri tapdılar. Orada bir nəfər arıq kişiylə rastlaşdılar. O, Xızır (ə) peyğəmbər idi. Nübüvvət və peyğəmbərlik əlamətləri onun gözəl camalında müşahidə olunurdu. Musa (ə) irəli gəlib ona salam verdi. Sonra dedi: -”İcazə verirsiniz sizə təqlid edim, təki Allahın sizə təlim etdiklərini mənə də öyrədəsiniz?”

Başqa bir rəvayətdə deyilir ki, Musa (ə) ona dedi: -”Allahın əmrilə mən sənin yanına gəlmişəm ki, elm öyrənim.” Xızır (ə) dedi: “Sən elə bir işin dalınca gəlmisən ki, mənim ona taqətim yoxdur. Həmçinin mən elə bir işin dalınca gedirəm ki, sənin ona taqətin yoxdur. Sən heç vaxt mənimlə bir yerdə səbir edə bilməzsən. Çünki mən elə işlər görəcəyəm ki, onların batinindən xəbərin olmayacaq və nəhayət dözə bilməyəcəksən.”

Musa (ə) dedi: -”İnşaallah, mən səbir edəcəyəm və sənin heç bir sözündən çıxmayacağam.” Xızır(ə) dedi: -”Əgər mənimlə birlikdə getmək istəyirsənsə məndən heç nə soruşma, nə lazım olsa, özüm sənin üçün izah edəcəyəm.”

Musa (ə) Xızırla (ə) razılaşdı və onunla birlikdə yola düşdülər. Bir gəmiylə rastlaşdılar. Gəmidə olan sərnişinlərdən istədilər ki, onları da qəbul etsinlər. Onların üzündə peyğəmbərlik nurunu görənlər bu təklifi qəbul edərək pul almadan gəmiyə minmələri ilə razılaşdılar. Gəmi dənizin sahilində dayanan kimi Xızır (ə) gəmini batırmaq niyyəti ilə onu bir tərəfdən deşdi. Musa (ə) Xızırın (ə) bu işini gördü. O qədər bu işə təəccüb etdi ki, hətta Xızırla (ə) bağladığı əhd-peyman yadından çıxdı. Narahat olub üzünü Xızıra (ə) tutaraq dedi:

-”Bu nə işdir gördün! Gəmidəkiləri batırmaq istəyirsən? Doğrudan da, çox ağır və qorxulu işə əl atdın!

Xızır (ə) təmkinlə üzünü Musaya (ə) çevirdi. Onunla bağladığı əhdi yadına salıb dedi:

-”Sənə demədimmi ki, sən heç vaxt mənimlə dözüb səbir edə bilməzsən?”

Musanın (ə) ona verdiyi söz yadına düşdü. Xızırdan (ə) üzr istədi. Sonra dedi:

-”Yadımdan çıxdığına görə, məni cəzalandırma. İşi çətin tutub məni özünlə aparmaqdan məhrum etmə!”

Xızır (ə) daha bir söz demədi. Gəmidən çıxıb yola düşdülər. Yolda gedərkən göyçək bir oğlana rast gəldilər. O, öz yaşıdlarıyla bir yerdə oynayırdı. Xızır (ə) onun əlindən tutub kənar bir yerə apardı. Sonra isə onu öldürdü. Musa (ə) üçün çox acı bir hadisə oldu. O, Xızırla (ə) bağladığı əhdi-peymanı yadından çıxardıb ona etiraz edərək dedi:

-”Nə üçün günahsız insanı öldürürsən? Doğrudan da çox pis iş gördün?” (“Kəhf” surəsi, ayə 62).

Xızır (ə) həmin təmkinlə Musaya (ə) xitab edib dedi:

-”Mən demədim ki, sənin mənimlə getməyə taqətin yoxdur?” (“Kəhf” surəsi, ayə 75).

Musa (ə) tələsik ona etiraz etdiyi üçün peşman oldu. Yenidən üzür istəyib təzədən əhd bağlayıb dedi:

-"Əgər bundan sonra səndən bir şey soruşsam, daha mənimlə yol getmə və üzrümü də qəbul etmə." ("Kəhf" surəsi, ayə 76).

Bu dəfə də Xızır (ə) Musanı (ə) bağışladı. Yenidən birlikdə yola düşdülər. Uzun yol getdikdən sonra həm acıdılar, həm də yoruldular. Bu vaxt bir kəndə yetişdilər. Çox acmışdılar. O kəndin camaatından yemək istədilər. Lakin kənd camaatı paxıllıq üzündən onları qonaq etmədilər. Musa (ə) və Xızır (ə) o kənddən ac qarnına getməyə məcbur oldular. Kəndin kənarında xarabalıq yerdə bir divar sökülmüşdü. Musa (ə) birdən gördü ki, Xızır (ə) dayandı və həmin divarı təzədən tikməyə başladı. Xızır (ə) divarı tikib qurtarınca Musanın (ə) səbri tükəndi. Bir tərəfdən də kənd camaatının ədəbsizliyi və onlarla pis davranışı həm Xızır (ə), həm də Musanı (ə) narahat etmişdi. Üçüncü dəfə də Musa (ə) Xızırla (ə) bağladığı əhdi yaddan çıxarıb ona irad tutub dedi:

-"Belə bir iş görmək istəyirsənsə yaxşı olardı ki, əvvəlcə kənd camaatından gördüyün işin qarşısında pul alırdın. Onlardan zəhmət haqqı alsaydın, biz də ac qalmazdıq. Xızır (ə) Musanın (ə) daha onun işlərini müşahidə etməyə qadir olmadığını görüb dedi:

-"Daha bizim bir-birimizdən ayrılmaq vaxtı çatıb. İndi isə sənin dözə bilmədiyin işlərin sirrini deyəcəyəm."

Xızır (ə) etdiyi işlərin hikmətini belə açıqladı:

-"Sən gördün ki, mən gəmini deşdim. Onun hikməti bu idi ki, həmin gəmi bir dəstə fəqir-füqəranın idi. Onlar dənizdə işləyib öz ailə-uşaqlarını saxlayırdılar. Onların yolu üstə zalım bir padşah dayanmışdı. Padşah oradan keçən təzə gəmiləri zor gücünə alırdı. Mən də gəmini deşdim ki, padşah ondan gözünü çəksin və fəqir-füqəraların gəmisi o zülümkarın əlinə düşməsin.

Gördüyün göyçək oğlanı öldürməyimin də hikməti var. O oğlan zahirdə göyçək olsa da batində kafir və imansız idi. Onun ata-anası isə çox imanlı şəxslərdən idi. O, öz ata-anasını da küfr və zülmkarlığa çəkirdi. Ata-anası da övladını çox istəyirdilər. İki nəfər mömininin kafir olacağından narahat idim. Mənə əmr olundu ki, o oğlanı öldürüm. Allah da onun əvəzində onlara pak və mehriban övlad nəsib edəcək.

Tikdiyim divarın sahibi isə iki yetim uşaq idi. Onların saleh və pak atası olub. Həmin divarın altında xəzinə var idi. Xəzinə yetim uşaqlarındır. Vəhy vasitəsilə mənə əmr olundu ki, həmin divarı təzədən tikim. Atasız uşaqlar həddi-büluğa çatandan sonra öz xəzinələrini divarın altından çıxardıb istifadə etsinlər. Bu da o iki yetimin atasının pak və saleh olduğuna görə Allah tərəfindən onlar üçün əta olmuş rəhmət idi.

Deməli, mən o işləri öz istəyimlə yerinə yetirməmişəm. Əksinə, ilahi fərman və Allahın vəhyilə əmr olunmuşdum. Sən isə bunları görməyə dözmür və səbir etmirdin.

Sonra onlar bir-birindən ayrıldılar.

## XIZIRIN MUSAYA SİFARİŞİ

Şeyx Səduq İmam Sadiqdən (ə) "Əmali" kitabında rəvayət edir ki, imam buyurdu: -"Musa (ə) Xızırdan (ə) ayrılan vaxt ona üzünü tutub dedi ki, mənə bir nəsihət et! Xızırın (ə) Musaya (ə) etdiyi nəsihətlərdən bir hissəsi bu idi: Ləcacətdən (bilərəkdən haqqı qəbul etməmək) uzaq ol! Məqsədsiz iş görmə! Səbəbsiz gülmə! Öz səhvlərini yadına sal və camaatın səhvlərini üzlərinə çəkmə!"

Başqa bir hədisdə İmam Səccaddan (ə)n rəvayət olunur ki, Xızırın (ə) Musaya (ə) axırıncı sifarişi bu idi: "Heç kəsi günahına görə danlama! Bilməlisən ki, Allahın ən çox istədikləri üç şeydir: Mal-dövlət sahibi olanda orta səviyyədə yaşamaq, qüdrət sahibi olanda başqasının təqsirindən keçmək, Allahın bəndələrilə yaxşı rəftar etmək. Elə bir insan yoxdur ki, dünyada başqaları ilə yaxşı rəftar etsin, amma Allah Qiyamətdə onunla yaxşı rəftar etməsin. Hikmətin əsas və bünövrəsi Allahdan qorxmaqdır."

## MUSA VƏ HARUNUN VƏFATI

Musa (ə) və Harunun (Musanın (ə) köməkçisi) ömür müddəti, onların dünyadan necə getmələrini rəvayət və tarixdə iki cür qeyd ediblər.

Alimlər arasındakı məşhur nəzəriyyəyə əsasən Musa (ə) 120 il və Harun 123 il ömür sürübdür. Amma Şeyx Səduq "İkmalud-din" kitabında Məhəmməd peyğəmbərdən (s) rəvayət edir ki, Musanın (ə) ömrü 126 il, Harunun ömrü isə 123 il olubdur. Musanın (ə) qəbri "Nəba" (ya Nəbu) dağındakı yolun üstündə, qırmızı rəngli təpəlik yanında və Harunun qəbri "Turi-Sina"dakı "Hur" dağındadır. Həmçinin, Musa (ə) "Təyyə" səhrasında dünyadan gedərkən Bəni-İsrailin oradan çıxıb "Əriha" ölkəsinə getməsi, ya hələ orada olması barədə də iki nəzəriyyə mövcuddur. Lakin məşhur rəvayətlərə görə, Həzrət Musa (ə) "Təyyə" səhrasında dünyadan getdi. Ondan sonra həzrətin vəsisi Yuşə ibni Nun Bəni-İsraillə Ərihaya gedib oranı fəth etdilər. Bəzi alimlər isə Əriha Musanın (ə) rəhbərliyi altında fəth olunduğunu deyirlər. Sonra həzrət vəfat etdi.

Şeyx Səduqun İmam Sadiqdən (ə) rəvayət etdiyi hədisə əsas olaraq Harunun vəfatı belə olub; Musa (ə) Harunla "Turi-Sina"ya getdi. Orada bir evə rast gəldilər. Evin yanında bir ağac var idi. Ağacda iki paltar asılmışdı. Musa (ə) Haruna dedi ki, paltarını çıxart və bu iki paltarı gey. Sonra evə daxil olub oradakı həmin taxtın üstündə yat.

Harun Musanın (ə) dediklərini etdi. Evə daxil olub həmin taxtın üstündə yatandan sonra Allah taala onun ruhunu bədənindən çıxartdı. Musa (ə) Bəni-İsrailin yanına qayıtdı. O, Harunun necə ölməsini xəbər verdi. Bəni-İsrail Musanı (ə) danaraq dedilər: -"Sən özün onu öldürmüsən. Onlar Musanı (ə) Harunun qətli ilə müttəhim etdilər. Musa (ə) bu ittihamdan canını qurtarmaq üçün Allaha pənah apardı. Allah taala mələklərə əmr etdi ki, Harunun cənazəsini taxtın üstündə göydə hazır etsinlər. Bəni-İsrail bu mənzərəni görəndən sonra Harunun dünyadan getməsinə inandılar. "Əmali" və "İkmalüd-din" kitablarında İmam Sadiqdən (ə) belə nəql olunur: Musanın (ə) əcəli çatmışdı. Allah taala ölüm mələyini göndərdi. Ölüm mələyi Musanın (ə) yanına gəlib ona salam verdi. Musa (ə) salamın cavabını verəndən sonra ondan soruşdu:

-"Sən kimsən?" Dedi:

-"Mən ölüm mələyiyəm və sənin ruhunu bədənindən ayırmağa gəlmişəm. Musa (ə) soruşdu:

-"Ruhumu haradan çıxardacaqsan?" Dedi:

-"Ağzından." Musa (ə) buyurdu:

-"Necə! Mən ağzımla Allah ilə danışmışam." Ölüm mələyi dedi:

-"Əllərindən çıxardacağam." Musa (ə) buyurdu:

-"Necə! Mən bu əllərimlə Tövratı qəbul etmişəm." Ölüm mələyi dedi:

-"Ayaqlarından." Musa (ə) buyurdu: -"Necə! Mən bu ayaqlarımla Turi Sinaya getmişəm." Ölüm mələyi dedi:

-"Gözlərindən." Musa (ə) buyurdu:

-"Necə! Daim ümidlə pərvərdigarımdan nigaran olduğum halda?" Ölüm mələyi dedi:

-"Qulaqlarından." Musa (ə) buyurdu: -"Necə! Allahımın sözünü bu qulaqlarımla eşitmişəm." Allah taala ölüm mələyinə buyurdu:

-"Musa özü ölüm istəməyincə onunla işin olmasın."

Bu hadisədən bir müddət keçdi. Musa (ə) Yuşə ibni Nunu çağırıb ona öz vəsiyyətlərini etdi. Sonra Bəni-İsrailin yanından getdi. Həmin dövrdə bir kişi ilə rastlaşdı. O kişi qəbir qazırdı.

Musa (ə) ona dedi: -"İstəyirsən qəbir qazmaqda sənə kömək edim?" Kişi dedi:

-"Bəli."

Musa (ə) həmin kişiyə kömək edib qəbri qazdı. Qəbrin içində bir ləhəd düzəltdi. Sonra qəbrə girib yatdı ki, görsün necədir. Həmin vaxt Musanın (ə) gözü önündən pərdə çəkildi və Cənnətdə öz yerini müşahidə etdi. Allah taalaya dedi: -"Ey mənim allahım! Məni öz yanına apar."

Həmin kişi həqiqətdə ölüm mələyi idi. O, insan surətində qəbir qazırdı. Musanın (ə) ruhunu bədənindən çıxartdı və o qəbirdə də onu dəfn edib üstünü torpaqla örtdü. Bu zaman bir nəfər fəryad çəkərək dedi:

-"Musa Kəlimullah dünyadan getdi. Hansı şəxs ölməyəcək!"

Şeyx Tusi "Təhzib" kitabında rəvayət edir ki, Musa (ə) Ramazan ayının 21-ci gecəsində (Həzrət İsanın (ə) da həmin gecə ərşə çəkildiyi kimi) dünyadan getdi. Həmçinin Şeyx Səduqun nəql etdiyi rəvayətə əsasən Musanın (ə) vəsisi Yuşə ibni Nun da həmin gecə dünyasını dəyişdi.

XVII FƏSİL

# Musadan(ə)sonra Bəni-İsrail peyğəmbərləri

## YUŞƏ İBNi NUN

Dediyimiz kimi, məşhur rəvayətə əsasən Musa (ə) "Təyyə" vadisində dünyadan getdi. Musanın (ə) vəfatından sonra peyğəmbərlik onun vəsisi Yuşə ibni Nuna çatdı. Yuşə ibni Nun Əfraim ibni Yusifin övladlarından idi. Yuşə ibni Nun Bəni-İsrailə rəhbərlik edərək "Əmaliqə" ilə müharibə etməyə getdi. Onlarla bir müddət vuruşandan sonra qələbə çaldılar. Əriha şəhərini fəth edib Bəni-İsraili orada yerləşdirdi.

Rəvayətdə nəql olunubdur ki, Yuşə ibni Nun Musadan (ə) sonra 30 il yaşadı. Bu müddətdə Bəni-İsrailin işlərini səhmana saldı. Onların düşmənləri ilə vuruşaraq hamısını məhv etdi. Fələstin və Şamat torpaqlarını onların arasında böldü. Yuşə ibni Nunla müharibə edənlərdən biri də Musanın (ə) həyat yoldaşı Safura idi. O, bir dəstə Bəni-İsraili Yuşənin əleyhinə qaldırıb onunla döyüşdülər. Lakin onlar məğlubiyyətə uğrayıb əsir oldular. Lakin Yuşə böyük ruhiyyə, geniş qəlblə Safura ilə rəftar etdi və onu hörmətlə evinə qaytardı. Bu hadisəyə oxşar hadisə Cəməl müharibəsində də baş vermişdi.

## BƏL'ƏM İBNi BAURUN əhvalatI

Tarix kitablarında Yuşə ibni Nunun Bəni-İsrailin düşmənlərilə vuruşduğu müharibə-lərdə Bəl'əm ibni Baurunun da adı çəkilib. Təfsirçilərdən bir dəstəsi də "Əraf" surəsinin ayələrini də belə təfsir ediblər. Allah taala o iki ayədə öz peyğəmbərinə xitab edərək buyurur:

-"Biz ayələrimizi belə ətraflı izah edirik ki, onlar bəlkə, (batildən haqqa, küfrdən imana) dönələr. (Ey Məhəmməd!) Onlara (yəhudilərə) ayələrimizi verdiyimiz kimsənin xəbərini də söylə (oxu). O, (ayələrimizi inkar edib) imandan döndü. Şeytan onu özünə tabe etdi və o, (haqq yolundan) azanlardan oldu. Əgər biz istəsəydik, onu (həmin ayələrlə) ucaldardıq. Lakin o yerə (dünyaya) meyl edib nəfsinin istəklərinə uydu. O, elə bir köpəyə bənzəyir ki, ona tərəf gəlsən də, gəlməsən də hürkər (onun üçün heç bir fərqi yoxdur.) Bu, ayələrimizi yalan hesab edənlər barəsində çəkilən misaldır. (Ey peyğəmbərimiz!) Bu əhvalatları (yəhudilərə) söylə ki, bəlkə, düşünsünlər! ("Ə`raf" surəsi, ayə 174-176).

"Kamilüt-təvarix" kitabının müəllifi Musanın (ə) "Əriha"nı fəth edəndən sonra dünyadan getməsini deyən alimlərin nəzərinə əsas olaraq yazır: Musa (ə) Təyyədən çıxıb Əriha şəhərinə tərəf hərəkət etdi. Musanın (ə) qoşunun önündə Yuşə ibni Nun və Kalib ibni Yufənna gedirdi. Qoşun Əriha şəhərinə çatanda şəhərin zalım adamları Lut peyğəmbərin övladlarından olan Bəl`əm ibni Baurun yanına getdilər. Onlar Bəl`əmə dedilər:

-"Musa bizi öz şəhər və diyarımızdan çıxartmaq məqsədi ilə müharibəyə gəlib. Sən onlara nifrin et." Allahın "İsmi-Ə`zəm"ini bilən Bəl`əm onlara dedi:

-"Allahın peyğəmbərlərinə və imanlı insanlara nifrin edim? Halbuki, ilahi mələklər onlarla birlikdədir." Əriha əhalisi çox çalışdılar, lakin Bəl'əm imtina etdi. Camaat Bəl'əmin həyat yoldaşına hədiyyə alıb onun yanına gəldilər. O, hədiyyəni qəbul etdi. Sonra ona dedilər ki, hansı yolla olursa-olsun Bəl'əmi razı sal, qoy Musa və onun qoşununa nifrin etsin. O da Bəl'əmi çətinliklə razı saldı. Bəl'əm ulağa minib nifrin etmək məqsədilə bir dağa sarı yola düşdü. Bəl'əm bir az yol gedəndən sonra ulaq dayandı və yerə yatdı. Bəl'əm ulaqdan düşüb onu o qədər vurdu ki, ulaq ayağa qalxdı. Təzədən minib yoluna davam etdi. Amma bu dəfə də bir az yol getmişdi ki, ulaq yenə dayandı və hərəkət etmədi. Üçüncü dəfə də bu hadisə təkrar oldu. Nəhayət, Allahın izni ilə heyvan dilə gəlib Bəl'əmə dedi: -"Vay olsun sənə, ey Bəl'əm! Hara gedirsən? Görmürsənmi mələklər məni geri qaytarırlar!"

Bəl'əm ona diqqət etməyib hərəkət etməyə başladı. Dağa yetişdi. Bəni-İsrailin hamısını görürdü. Nifrin etmək istədi, amma bacarmadı. Hər dəfə nifrin etmək istəyəndə dili dolaşaraq dua edirdi. Axırda dili ağzından çölə çıxdı. Başa düşdü ki, bu iş görüləsi iş deyil. Öz qövmünün yanına qayıdıb dedi: -

”Daha mənim dünya və axirətim viran oldu. Əlimdən də heç bir iş gəlmir. Onları hiylə ilə aldatmaqdan başqa yol qalmayıb.”

Sonra camaata göstəriş verdi ki, qadınlar özlərini bəzəsinlər. Əllərinə satdıq malları götürüb Musanın qoşununun içinə getsinlər. Əgər qoşunda bir kişi onlarla zina etmək istəsə mane olmasınlar. Çünki onlardan biri zina etsə hamısı həlak olacaqlar. Sizin də onların şərrindən canınız qurtaracaq.

Bəl‘əmin göstərişi ilə qadınları bəzədilər. Malları satmaq məqsədilə qadınlara verib Musanın qoşununun içinə göndərdilər. Şəm‘un ibni Yəqub tayfasından olan Zumri ibni Şəlum o qadınlardan birinin əlini tutub Musanın yanına gətirib dedi: -”Səncə bu qadın mənə haramdır. Amma and ola Allaha sənin sözünə qulaq asmayacağam.”

Sonra o qadını öz xeyməsinə aparıb onunla zina etdi. Bu vaxt Allah taala taun xəstəliyini onların canına saldı. Bir saatın içində iyirmi, ya yetmiş min nəfər həlak oldu. Qoşun başçısı Fənhas ibni İzhar ibni Harun Musanın (ə) yanına gəldi. O, bu bəlanın səbəbini biləndən sonra qəzəblənib bir başa Zumri ibni Şəlumun xeyməsinə gəldi. Onu və xeymədə olan qadını öldürdü. Taun xəstəliyi yox oldu.

Ravəndi də bu hadisəni azacıq fərqli olaraq “Qisəsül-ənbiya” kitabında bir hədislə bəyan edib. Lakin hədisdə Musanın (ə) yerinə Yuşə ibni Nunun adı zikr olunub. Məsudi də “İsbatul-vəsiyyə” kitabında Ravəndi kimi nəql edib.

Yuşə ibni Nunun ömrünü “Kamilüt-təvarix”də 126 il yazıblar. Bəzi tarix kitablarında yazıblar ki, onun qəbri Fələstində olan Əfraim dağındadır.

## KALİB İBNi YUFƏNNA

“Kamilut-tarix”in müəllifi öz tarixində yazır:

Yuşə ibni Nun dünyadan gedəndən sonra Kalib ibni Yufənna Bəni-İsrailə rəhbərlik etdi. Mərhum Təbərsi də “Məcməül-bəyan” kitabında “Bəqərə” surəsinin 244-cü ayəsində bu məzmunda yazır.

Sələbi “Ərais” kitabında yazır ki, Kalib ibni Yufənna Həzrət Musanın (ə) bacısının əri, yəni İmranın qızı Məryəmin həyat yoldaşı idi. İbni Əsir də bu xəbəri “Kamil” kitabında Əriha şəhərinin fəthində qeyd edib.

Amma Yuşə‘dən sonra Kalibin peyğəmbər olması Məsudinin “İsbatul-vəsiyyə” kitabındakı və Yəqubinin yazdığı tarixdəki sözü ilə ziddiyyətdədir. Məsudi yazır: Elə ki, Yuşənin əcəli çatdı, Allah taala ona vəhy edərək yanındakı əmanəti oğlu Fənhasa verməyi əmr etdi. Yuşə də Fənhası çığırıb peyğəmbərlərin irslərini ona tapşırdı və dünyadan getdi. Fənhasdan sonra da oğlu Bəşir ibni Fənhas onun canişini olub peyğəmbərlik məqamına nail oldu.

Yəqubi yazır ki, Yuşə ibni Nundan sonra Bəni-İsrailin rəhbərliyini Duşan Kifri öz öhdəsinə götürdü və səkkiz il onların rəhbəri oldu. Ondan sonra Kalibin qardaşı, Yəhudanın nəvəsi Əsnail ibni Qənəz qırx il Bəni-İsrailə hökumət etdi.

## HÜZQƏYL

Tarixçilərin dediyinə görə, Kalibdən sonra Bəni-İsrail üçün Hüzqəyl peyğəmbərliyə çatdı. İbni Əsir və Təbəri yazırlar ki, Hüzqəylə “İbnul-əcuz” (qarının oğlu) ləqəbini vermişdilər. Çünki anası qoca arvad və sonsuz idi. Qoca vaxtında Allahdan uşaq istədi. Allah taala Hüzqəyli ona nəsib etdi. Təbərinin dediyinə görə, Hüzqəyl həmin Zulkifldir. Bu adın ona verilməsinin səbəbi o idi ki, yetmiş peyğəmbəri ölümdən qurtarandan sonra onlara dedi:

-”Siz arxayın gedin. Çünki bir nəfər mənim ölməyim sizin hamınızın ölümündən yaxşıdır.” Yəhud Hüzqəylin yanına gəlib yetmiş peyğəmbərin yerini ondan soruşdular. Hüzqəyl onlara dedi: -”Buradan getdilər. Onların hara getməyini mən bilmirəm.

Allah taala da Zulkifli onların şərrindən qorudu.

“Bəqərə” surəsində 243-cü ayədə Allah taala buyurur: -”(Ey Məhəmməd!) Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi? Allah onlara: “Ölün!” -dedi və sonra da (yenidən) diriltdi. Həqiqətən, Allah insanlara qarşı səxavətlidir, lakin insanların çoxu bunu bilmirlər.”

Təfsirçilərin çoxu belə düşünürlər ki, bu ayə Hüzqəylin qövmü və onların sərgüzəştləri haqqındadır. Onların başına gələn hadisələri azacıq bir-birindən fərqli olaraq yazıblar. Kuleyninin “Rövzətul-kafi” kitabında bu ayənin təfsirində İmam Baqirdən (ə) nəql etdiyi hədisə görə onların sərgüzəştləri belə olub:

Onlar Şam şəhərlərinin camaatı idilər. Şəhər camaatının sayı yetmiş min nəfərə çatırdı. Müxtəlif fəsillərdə taun xəstəliyi şəhəri bürüyürdü. Onlar taun xəstəliyinin gəldiyini hiss edən kimi, varlı adamlar şəhərdən çıxıb başqa yerlərə gedirdilər. Yoxsul insanlar isə məcbur olub şəhərdə qalırdılar. Şəhərdə qalanlardan çoxu ölürdü. Şəhərdən çıxanların arasında isə az adam ölürdü. Nəhayət, qərara gəldilər ki, taun gələndə hamı şəhərdən çıxsın. Elə buna görə də axırıncı dəfə taun gələndə heç kəs şəhərdə qalmadı. Hamı qorxusundan qaçıb şəhərdən çıxdılar. Bir müddət başqa şəhərlərdə qaldılar. Axırda xaraba bir şəhərə çatdılar. Oranın camaatını taun xəstəliyi həlak etmişdi. Onlar həmin şəhərdə məskən saldılar. Elə ki, özləriylə gətirdikləri yükü açıb orada qalmağı qərara aldılar Allah tərəfindən onların ölüm hökmü verildi. Hamısı öldü. Bədənləri çürüyüb sümükləri yerdə qaldı. Oradan keçib gedənlər zaman keçdikcə onların sümüklərini bir yerə yığırdılar. Bəni-İsrail peyğəmbərlərindən Hüzqəyl adında bir peyğəmbər oradan keçərkən gözü toplanmış sümüklərə dəydi. Ağlayaraq üzünü Allahın dərgahına tutub dedi: -”Əgər iradə etsən bu dəqiqə onları dirildərsən. (Necə ki, onları öldürdün.) Təki şəhərlərini abad etsinlər, bəndələrin övlad dünyaya gətirsinlər və başqa bəndələrinlə sənə pərəstiş etsinlər.”

Allah taala Hüzqəylə bir neçə kəlmə öyrətdi. (İmam Sadiq (ə) buyurur ki, o kəlmələr “İsmi-əzəm” idi.) Hüzqəyl elə ki, o kəlmələri oxudu sümüklər bir-biriylə birləşməyə başladılar. Hamısı dirilib Allaha zikr etməyə başladılar.

Hüzqyəl bu mənzərəni görən kimi dedi: -”Şəhadət verirəm ki, Allah taala hər bir şeyə qadirdir.”

İmam Sadiq (ə) bu hadisəni nəql edəndən sonra buyurdu: -”Bu ayə onların barəsində nazil olub.”

Şeyx Səduq rəvayət edir ki, İmam Rza (ə) Mə‘munun məclisində toplaşan başqa dinlərin alimlərilə mübahisə edərkən, o həzrət Casəliqə (məsihi dininin alimi) buyurdu: -”Hüzqəyl peyğəmbər də İsa ibni Məryəmin (ə) gördüyü işi gördü. Çünki 35 min adamın 60 il ölümlərindən keçəndən sonra Allahın izni ilə diriltdi.

Təbərisi “Məcməul-bəyan” kitabında bəzi alimlərdən nəql edir ki, həmin işi Şəm`un görüb.

Kəlbi, Zəhhak və Məqatildən nəql edirlər ki, Bəni-İsrail padşahlarından biri öz qövmünə düşmənlə vuruşmaq fərmanını verdi. Lakin onlar ölüm qorxusundan özlərini xəstəliyə vurdular və müharibəyə getməkdən boyun qaçırtdılar. Onlar öz padşahlarına dedilər:

-”Sən bizi müharibəyə aparmaq istədiyin yerdə vəba xəstəliyi yayılıb. Nə qədər ki, xəstəlik orada var biz müharibəyə getməyəcəyik. Allah taala ölümü onlara göndərdi. Onların padşahı da nifrin edib dedi: -”Ey Musa və Yəqubun Allahı! Sən özün bəndələrinin itaətsizliyini görürsən. Onlara öz nişanələrindən birini göstər ki, başa düşsünlər ki, sənin fərmanından qaçmaq olmaz.” Allah taala onların hamısını həlak etdi. Yeddi gün keçəndən sonra bədənləri şişib iyləndi. Camaat onları basdırmağa gəldilər. Lakin dəfn edə bilmədilər. Buna görə də onların cəsədlərinin ətrafına divar çəkdilər. İllər keçəndən sonra bədənləri çürüyüb sümükləri qaldı. Bu zaman Hüzqeyl oradan keçərkən onları görüb təəccüb etdi. Onlar haqqında fikrə getdi. Allah taala Hüzqeylə vəhy etdi: -”Ey Hüzqəyl, istəyirsənmi sənə öz nişanələrimdən birini göstərim? İstəyirsənmi ölülərin necə dirildiyini sənə göstərim?” Hüzqəyl dedi: -”Bəli” Allah taala onları diriltdi.

Rəvayətlərdə nəql olunur ki, həmin qövm diriləndən sonra neçə il yaşadı. Sonra təbii ölümlə dünyadan getdilər.

## İLYAS (İLYA)

Qur‘ani-Kərimdə iki yerdə İlyasın adı gəlib, biri “Ən‘am” surəsində, o birisi isə “Saffat” surəsində. “Ənam” surəsində Allah taala buyurur:

-”Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da (hidayətə qovuşdurduq). Onların hamısı buna layiqli idilər. (“Ən`am” surəsi, ayə 85).

“Saffat” surəsində buyurur:

-”Həqiqətən, İlyas da (Bizim tərəfimizdən göndərilmiş) peyğəmbərlərdəndir! Bir zaman o öz tayfasına belə demişdi: -”Siz (bütlərə ibadət etməklə) Allahdan qorxmursunuz? Siz yaradanların ən yaxşısını (Allahı) qoruyub Bələ (Bəl adlı bütə) ibadət edirsiniz? Həm sizin Rəbbiniz, həm də (sizdən) əvvəlki atalarınızın (babalarınızın) Rəbbi olan Allahı (tərk edirsiniz)?” Lakin onlar onu təkzib etdilər, buna görə də (Qiyamət günü Cəhənnəmə) gətiriləcəklər. Yalnız Allahın xalis bəndələrindən başqa! Sonradan gələnlər arasında onun üçün (yaxşı ad, gözəl xatirə) qoyduq. (Onu belə yad edirlər:) “İlyasinə (İlyasa) salam olsun!” Həqiqətən, Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq! Şübhəsiz ki, o Bizim mömin bəndələrimizdən idi! Həqiqətən, Lut da peyğəmbərlərdəndir! (“Saffat” surəsi, ayə 123-133).

Amma Qur'ani-Kərimdə İlya haqqında bir söz açılmayıb. Ola bilsin ki, İlya həmin İlyas peyğəmbərdir. Alimlərin çoxu bu ehtimalı veriblər.

İlyas haqqında da müxtəlif sözlərlə rastlaşırlar. İbni Məs'ud deyir ki, İlyas həmin İdris peyğəmbərdir. Vəhb isə deyir ki, İlyas Zulkifldir. İbni Abbasın dediyinə görə isə İlyas Xızır peyğəmbərin adlarından biridir. Başqa bir kitabda İbni Abbasdan belə nəql olunur: "İlyas Bəni-İsrail peyğəmbərlərindən biridir. O, Harun ibni İmranın övladlarından və Yəsə'in əmisi oğludur. Onun nəsəbi belədir: İlyas ibni Yasin ibni Fənhas ibni Əyzar ibni Harun ibni İmran.

Həzrətin əhvalatını belə qələmə alıblar: O, Hüzqeyldən sonra peyğəmbər oldu. Bu da Bəni-İsrailin başına gələn acı hadisələrlə təsadüf edirdi. Təbərsinin "Məcməül-bəyan" kitabında nəql etdiyinə görə, Yuşə ibni Nun Şamı fəth edəndən sonra Bəni-İsraili orada yerləşdirdi. Şamın ərazisini onların arasında bölüşdürdü. İlyasın nəvəsinə də Bə`ləbəkdə yer verdi. Allah taala onların arasında İlyası peyğəmbər seçdi. Şəhərin padşahı İlyasın dəvətini qəbul etdi. Lakin padşahın arvadı onu vadar etdi ki, İlyasın sözlərini qəbul etməsin. İlyasın əleyhinə qiyam etsin. Padşah da arvadının sözü ilə İlyasa itaət etmədi. Nəhayət, onu öldürmək fikrinə düşdü. İlyas dağlara, səhralara qaçdı. Bir nəzəriyyəyə görə, öz yerinə Bəni-İsrailin içində Yəsə`i qoydu.

Bu tarixə oxşar "Qamusul-e`lamda" yazılıb: "İlyas, Bəni-İsrail peyğəmbərlərindən biri və Bə`ləbək əhalisindən idi. Miladdan doqquz əsr öncə Axarın (ya Ahabın) dövründə yaşayırdı. O, Bəni-İsraili düz yola dəvət edir və bütpərəstlikdən çəkindirirdi. Lakin onun qövmü sözünə qulaq asmırdı. Həzrətə əzab-əziyyət verirdilər. Buna görə də çox vaxt səhralarda və dağlarda gününü keçirirdi. Onun göstərdikləri möcüzələri inkar edirdilər. Axırda Yəsə`i özündən sonrakı peyğəmbər elan edib miladdan 880 il qabaq ərşə çəkildi."

Bəzi tarixlərdə və rəvayətlərdə qeyd olunub ki, İlyas (ə) Xızır (ə) peyğəmbər kimi "abi-həyat"dan içdi və əbədi olaraq yaşayır. Xızır (ə) peyğəmbər quru yerlərin ağası olduğu kimi, o da dəryaların ağasıdır. Hədislərdən birində Məhəmməd (s) peyğəmbərdən nəql olunur:

Xızır (ə) və İlyas (ə) hər il həcc mərasimində bir-birilə görüşürlər. Başqa bir rəvayətdə yazılıb ki, İlyas Məhəmməd (s) peyğəmbərin hüzuruna gəldi. O, həzrətlə görüşdü.

Lakin bu iki rəvayət heç biri mötəbər sənədə malik deyil.

Kuleyni "Üsuli-Kafi"də, Səffar isə "Bəsairüd-dərəcat" kitabında İlyas və İlyanın oxuduqları duaları nəql ediblər. Həmin duaların mə`sum imamlar da oxuyurmuşlar. Sələbi "Ərais" kitabında yazır: Əsqəlan camaatından biri İlyas peyğəmbəri İordaniya çölündə görüb və ondan bir neçə sual soruşub. O, da sualların cavabını verib. Lakin bu ilk nəzərdə həqiqətə uyğun gəlmir.

Rəvəndinin "Qisəsül-ənbiya" kitabından bir əhvalat "Biharül-ənvar"da nəql olunur. Bu əhvalat İlyas haqqındadır. Lakin rəvayətin sənədi Vəhb ibni Münəbbihə çatdığı üçün e`tibardan düşür. Ona görə də o rəvayəti burada nəql etmirik.

## YƏSƏ

Bu böyük peyğəmbərin adı Qur'anda iki dəfə gəlib, bir dəfə "Ə'nam" surəsinin 86-cı ayəsində, bir dəfə isə "Sad" surəsinin 48-ci ayəsində. Qabaqda qeyd olunduğu kimi, bütün müfəssirlər və tarixçilər onu İlyasın şagirdi və canişini bilirlər. Tövratda ibri olduğuna görə onun adı Yəşədir. Amma ərəb dilində ona Yəsə deyirlər.

Müfəssirlərin nəzərinə görə, o Uxtubun oğludur. "Qamusi-müqəddəs"də isə onu Şafatın oğlu bilirlər və Abil Mühəvvələdə sakin oldu. Nuhu təsdiqləyirlər.

"E`lami-Qur`anda" "Kitabe-padşahan" kitabının on doqquzuncu fəslində nəql olunur: İlya (deyəsən həmin İlyas) öz səfərində Yəsə ilə rastlaşır. Yəsə yer şumlayırdı. İlya Yəsəyə dedi ki, gəl mənimlə gedək. Yəsə ata-anasından icazə alıb İlyanın səhabələrinin dəstəsinə daxil oldu. Tövrata əsasən İlya onu xilafətə seçdi və İlya alovlu araba ilə ərşə çəkiləndə Yəsə də onunla idi.

Həmçinin nəql olunur ki, İlyas binəva bir qadının evində qalırdı. Bu qadının əri -Uxtub dünyadan getmişdi. Bu zaman Uxtubun oğlu Yəsə ağır xəstələndi. İlyas ona şəfa verdi və özüylə apardı. Yəsə İlyasdan sonra peyğəmbər oldu. Bəni-İsrail onun dəvətini qəbul edəndə Allahdan istədi ki, İlyasa qovuşsun.

İmam Rza (ə) müxtəlif dinlərin rəhbərləri ilə mübahisə edərkən Casəliqə buyurdu: -"Yəsə də İsa görən işləri gördü. Suyun üzərində yol getdi, ölüləri diriltdi, kor və dəri xəstəliklərinə düçar olanlara şəfa verdi. Onun ümməti isə onu Allahın peyğəmbəri bilmədilər."

## ZULKİFL

Zulkiflin adı da Qur'an-Kərimin iki surəsində zikr olunub. "Ənbiya" surəsinin 85-ci ayəsində və "Sad" surəsinin 47-ci ayəsində. Onun Zulkifl adlandırılması barədə müxtəlif nəzəriyyələr verilmişdir.

Təbərsi "Məcməül-bəyan"da Əbu Musa, Qutadə və Mücahiddən belə nəql edir:

Zulkifl peyğəmbər deyildi. O, pak kişi olub. Peyğəmbərlərdən birinin göstərişi ilə gündüzləri oruc tutur və gecələri ibadət edirdi. Əsəbləşmir, haqqa əməl edirdi. Öz vədəsinə əməl etdiyi üçün Allah taala onun adını Qur'anda peyğəmbərlərin sırasında zikr edibdir.

İbni Abbas deyir ki, o ilahi peyğəmbərlərdən biri idi. Onun əməllərinin savabı neçə bərabər çox olduğu üçün Zulkifl ləqəbini aldı.

Bəzi alimlərin yazdıqlarına əsasən o, Yəsə ibni Xətub idi. Bu Qur'anda adı çəkilmiş Yəsə deyil. O, zalım padşahlardan birini öz öhdəsinə götürdü ki, əgər tövbə etsə, Cənnətə daxil olar. Bu barədə məktub da yazıb padşaha verdi. Adı Kən'an olan həmin padşah da tövbə etdi.

Beyzavi öz təfsirində Zulkifli İlyas peyğəmbər bilir. Bir dəstə alim də bu əqidədədirlər ki, o, Yuşə peyğəmbərdir. Başqa rəvayətlərdə isə Zulkiflin Zəkəriyya peyğəmbər olduğunu göstərirlər.

Dehxuda öz "Lüğətnamə"sində bu nəzəriyyələrin hamısını yazır. Bəziləri onu İlyas, bəziləri Zəkəriyya, bəziləri Yuşə, ya Hüzqəyl, ya Yunis ibni Məta olduğunu deyirlər. Fasi "Şərhüd-dəlail" kitabında yazır: Bəzi alimlərin dediyinə görə, o, Allah taala tərəfindən əmr olundu ki, Kən`an adında padşahı iman gətirməyə dəvət etsin və onun Cənnətə getməsinə də söz versin. O da öz əl xətti ilə zəmanətnamə yazıb padşaha verdi. Səaləbi isə "Muzaf və Mənsub" kitabında yazır ki, onun adı təfsirçilərin ixtilafına səbəb olmuşdur. Allah taala onu Əyyubdan sonra peyğəmbər seçdi. O, Şamda yaşayırdı.

Bəzi alimlərin dediyinə görə, o, saleh adamlardan olduğu üçün peyğəmbərlərin sırasında adı çəkilib. Onun elmi peyğəmbərlərin elmi qədər idi. Lakin alimlərin çoxu onun özünü də peyğəmbər bilirlər. "Məalimüt-tənzil" kitabının müəllifi Həsən və Muqatildən əsas olaraq deyir ki, o, yetmiş peyğəmbərin Kəfili olduğu üçün Zulkifl ləqəbini almışdır. Bəzi alimlər yazırlar ki, o, gündə yüz rükət namaz qılmasını nəzr edən gündən hər gün dediyi miqdarda namaz qılırdı.

Zulkiflin Kən'an adlı padşahla olan əhvalatını nəql edəndən sonra axırda deyir: -Türki "Qamusul-elam"kitabında belə yazır: Bəni-İrail peyğəmbərlərinin arasında olduğu üçün Qur'anda adı çəkilib. Zulkifl ərəb sözü olsa da onun ibri olması haqda ixtilaf var. Onun Hüzqəyl olması da güman olunur və Yəsədən sonra peyğəmbərliyə məqamına yetşib. Bir rəvayətə görə, onun qəbri "Bətlis"dədir. Həmçinin onun qəbrinin Şam və başqa yerlərdə də olduğunu yazırlar. Bəzi müasir tarixçilərin nəzərinə görə, Zulkifl Bəni-İsraildən deyil. Onun fikirləri, moizələri, əqidəsi Bəni-İsrail ilə ziddir. Onun ərəb qəbilələrindən birində olduğunu və peyğəmbər olmadığını iddia edirlər.

Zulkifl barəsində ibrətamiz bir əhvalat nəql olunub. "Biharül-ənvar" kitabında Məhəmməd (səlləllahu ələyhi və alihi və səlləm) peyğəmbərdən rəvayət olunur. Rəvayətin xülasəsi bundan ibarətdir:

Yəsə peyğəmbərin ömrü sona yetişəndə öz canişinini təyin etmək qərarına gəldi. Camaatı bir yerə toplayıb dedi: -"Hər kəs sizin aranızdan mənim dediyim üç işi görməyə söz versə, onu öz yerimə canişin seçəcəyəm. Birinci; gündüzləri oruc tutsun, ikinci; gecələri oyaq qalıb ibadət etsin, üçüncü; əsəbləşməsin. Üveydiya ibn İdrim adında bir cavan dedi: -"Mən bu işləri görməyi söz verirəm." Yəsə peyğəmbər sabahısı gün də camaatı toplayıb öz sözlərini təkrar etdi. Yenə də həmin cavan öz hazırlığını elan etdi. Yəsə də onu öz canişini təyin etdi. Yəsə dünyadan gedəndən sonra Allah taala onu peyğəmbərliyə seçdi. Həmin cavan Zulkifl idi. Şeytan bu macəranı bilən kimi qərara gəldi ki, Zulkifli əsəbləşdirsin və onu verdiyi sözdən çıxartsın. Şeytan öz dostlarına dedi:

-"Kim Zulkifli əsəbləşdirə bilər?" Şeytana tabe olanlardan Əbyəz adında bir nəfər dedi:

-"Mən bu işi görərəm." Şeytan ona dedi:

-"Zulkiflin yanına get, onu bir yolla əsəbləşdir.

Zulkifl gecələr yatmır və ibadət edirdi. Gündüz isə bir az yatırdı. Əbyəz gözlədi ki, Zulkifl yatsın. O, yatandan sonra Əbyəz tez gəlib qışqırmağa başladı: Mənə zülm ediblər, mən məzlumam. (Mənim haqqımı zalımdan al!) Zulkifl yuxudan oyanıb ona dedi:

-"Get onu mənim yanıma gətir." Əbyəz dedi:

-"Mən buradan getməyəcəyəm." Zulkifl öz xüsusi üzüyünü ona verib dedi:

-"Bu üzüyü al və sənə zülm edən adamın yanına gedib bunu göstər. Sonra onu mənim yanıma gətir."

Əbyəz üzüyü alıb getdi. Sabah yenə də Zulkifl yatan vaxt gəlib qışqırmağa başladı:

-Mən məzlumam! Mənə zülm edən adam sən verdiyin üzüyün heç üzünə də baxmadı və mənimlə gəlmədi!

Zulkiflin xidmətçisi Əbyəzə dedi:

-"Səs-küy salma qoy yatsın. O, nə dünən gündüz, nə də gecə yatıb! Əbyəz dedi:

-"Heç vaxt onu yatmağa qoymayacağam. Çünki mənə zülm olub. Gərək mənim haqqımı zalımdan alsın!"

Xidmətçi evə daxil olub Zulkiflə xəbər verdi. Zulkifl yuxudan durub onun üçün bir məktub yazdı. Məktuba möhür vurub ona verdi.

Əbyəz məktubu alıb getdi. Üçüncü gün də Zulkifl təzə yuxuya gedərkən gəlib fəryad çəkdi:

-"Mənə zülm edən şəxs bunların heç birinə hörmət etmir."

Əbyəz o qədər qışqırdı ki, Zulkifl yuxudan oyandı. O, Əbyəzin əlindən tutub onun haqqını almaq məqsədilə yola düşdü. Həmin gün elə isti idi ki, əti günəş qabağında qoysaydın bişərdi. Bir az yol getdilər. Amma Əbyəz gördü ki, onu heç cür əsəbləşdirə bilmir. Ona görə də Zulkiflin əlindən çıxıb qaçdı.

Allah taala Zulkiflin adını Qur'anda zikr edib onun dastanını Məhəmməd (səlləllahu ələyhi və alihi və səlləm) peyğəmbər üçün danışır, əvvəlki peyğəmbərlərin bu bəlalara səbir etdiyi kimi təki camaatın əzab-əziyyəti qarşısında səbir etsin.

Başqa bir hədisdə rəvayət olunur ki, Əbdül-Əzim Həsəni dedi: -"İmam Cavada (ə) məktub yazdım. O məktubda soruşdum: -"Zulkiflin adı nə idi? O, mürsəl olub ya yox?" Həzrət məktubun cavabında yazdı:

-"Allah taala 124 min peyğəmbər göndərib. Onların 313 nəfəri mürsəl olubdur. Zulkifldə mürsəldir və o, Süleyman ibni Davuddan sonra olubdur. O, Davud peyğəmbər kimi, camaatın arasında qəzavət edərdir və yalnız Allah yolunda əsəbləşərdi. Onun adı Üveydiya idi. Allah taala onun adını Qur'anda gətirərək buyurur:

"Ey Peyğəmbər! İsmayılı, (İlyasın əmisi oğlu) Yəsə`i və Zulkifli də xatırla! Onların hamısı seçilmiş, ən yaxşı kimsələrdəndirlər!" ("Sad" surəsi, ayə 48).

XVIII FƏSİL

# Davud(ə)

Qeyd olunduğu kimi, Bəni-İsrail Yuşə ibni Nundan sonra bölündü. Daha doğrusu onlar Allah qarşısında fərmansızlıq etdilər. Düşmənlər bu fürsəti qənimət bilib bəzi şəhərləri və torpaqları Bəni-İsrailin əlindən aldılar. Bəni-İsrailin müharibədə çoxlu əsgərləri tələf oldu.

Bəni-İsrailin bir tabutu var idi. Bəzi rəvayətlərə görə, tabutun uzunluğu üç dirsək və eni iki dirsək olub. Tabutun içindəkilərə və ya başqa bir səbəbə görə, Allah taala ona bir xüsusiyyət bəxş etmişdi ki, hər vaxt Bəni-İsrail düşmənlə vuruşa getmək istəyəndə həmin tabutu qoşunun qabağında qoyurdular. Bu da Bəni-İsrailin qəlblərinin rahatlığına və düşmənə qələbə çalmasına səbəb olurdu. Hətta bəzi rəvayətlərə əsasən, tabut Bəni-İsraillə danışır və xeyir-şərrlərini onlara bəyan edirdi. Bəzi alimlərin dediyinə görə, elə həmin iman onların qəlblərinə təskinlik verirdi. Bu da Bəni-İsrailin hidayətinə səbəb olurdu.

Bəni-İsrailin fitnə-fəsad, zülm, tüğyan və günahlar, şərəf və qüdrətlərinin əldən çıxması ilə bərabər oldu. Düşmənin istismarına mə'ruz qaldılar. Nəhayət müharibələrdən birində "müqəddəs tabut" da düşmən əlinə keçdi. Ondan sonra məğlubiyyət hissi və ruhiyyəsizlik Bəni-İsraildə daha da gücləndi. İş o yerə çatdı ki, Bəni-İsrailin düşmənləri və padşahlardan biri olan Calut onlardan bac aldı. Bununla da Bəni-İsrail xar və zəlil oldu.

Əli İbni İbrahim öz təfsirində İmam Baqirdən (ə) rəvayət edir ki, o zamana qədər Bəni-İsrail tayfasında peyğəmbərlik məqamı Lavi nəslində idi. Allah taala Bəni-İsrail peyğəmbərlərini onun övladlarının arasından seçirdi. Padşahlıq və səltənət isə Yusifin nəslinə, onun övladlarına çatırdı.

## İŞMUİL VƏ TALUT

Allah taala Lavi nəslindən İşmuil və ya Şimuil adında bir peyğəmbər seçdi. İlahi peyğəmbər qırx il zəhmət və çətinliklərdən sonra Bəni-İsrailin siyasi vəziyyətini müəyyən qədər səhmana saldı. Onların çoxunu bütpərəstlikdən və zəlalətdən xilas etdi.

Bəni-İsrail düşmənlərlə müharibə etmək, öz torpaqlarını işğal altından çıxartmaq, əvvəlki şərəf və qüdrətlərini bir daha qazanmaq üçün İşmuil peyğəmbərə dedilər ki, onlar üçün bir padşah təyin etsin. İşmuil peyğəmbər Allahın hökmü ilə Talutu onlar üçün padşah seçdi. Bu hadisəni Allah taala Qur'ani-Kərimin "Bəqərə" surəsində belə bəyan edir:

"Bəni-İsrail başçılarından ibarət dəstənin Musadan (ə) sonrakı peyğəmbərə belə dediklərini eşitmədinmi?" Allah yolunda mübarizə etmək üçün bizə padşah tə'yin et! O dedi: -"Bəlkə sizin üçün mübarizə yolu yazılarsa mübarizə etmədiniz?" (yəni Allahın əmrindən boyun qaçırdınız) Dedilər: -"Nəyə görə mübarizə etməliyik. Halbuki, öz vətənimiz və övladlarımızdan uzaq düşmüşük." Mübarizə onlar üçün təyin edildikdən sonra az bir dəstədən başqa (düşmənlə müharibə etməkdən) hamı üz çevirdi. Allah zalım və nadanların işindən xəbərdardır. Peyğəmbərləri onlara dedi: -"Allah Talutu sizə padşah təyin etdi". Onlar (etirazla) dedilər: -"Padşahlığa bizim layiq olduğumuz və onun mal-dövləti aldadıcı (çoxlu mal-dövlət yox idi) olan halda o, necə bizim padşahımız olacaq?" ("Bəqərə" surəsi, ayə 246-248).

Beləliklə, İşmuil Talutun padşahlıq əlamətini onlar üçün açıqladı və onların iradına cavab verdi. Talut Bəni-İsrailə qaytarılması haqda belə yazırlar:

Bəni-İsrailin düşmənləri tabutu onlardan alandan sonra bütxanaya gətirib qoydular. Bir neçə gündən sonra boyunlarında ağrı hiss etdilər. Başa düşdülər ki, bu ağrı həmin tabutun təsiridir. Tabutu bütxanadan çıxartmağa məcbur oldular. Onun yerini dəyişdirdilər. Lakin tabutu hara aparırdılarsa orada bəla, ölüm və vəba kimi xəstəliklər yayılırdı. Axırda tabutu Bəni-İsrailə qaytarmağı qərara aldılar. Tabutu bir taxtın üstünə qoydular, taxtı iki inəyə bağladılar. İlahi mələklər inəkləri Bəni-İsrail tərəfə hərəkət etdirdilər. Tabut Bəni-İsrailə qaytarıldı.

Bəni-İsrail tabutu görəndən sonra Taluta itaət etməyə və onun fərmanına əməl etməyə öz hazırlıqlarını bildirdilər. Talut da onları Calutla müharibəyə apardı.

Qur'ani-Kərim əhvalatın ardınca belə buyurur:

“Talut qoşunu yola düşdüyü zaman onlara dedi: -”Allah sizi bir bulaq ilə imtahana çəkdi. Sudan bir ovuc götürəni çıxmaq şərti ilə kim o sudan içməzsə, mənim tərəfimdədir. (Bulağa çatarkən) bir neçə nəfərdən başqa (digərləri) o bulaqdan su içdilər.”

Talutun səksən minlik, yaxud da yetmiş minlik qoşunu möhkəm susamışdılar. Talut onlara dedi: -”Sizin yolunuzun üstündə çay axır. Amma hər kəs bir ovuc sudan çox içsə, mənim tərəfdarım deyil. Bu, Allahın sizin üçün qoyduğu imtahandır. Burada mənim fərmanıma əməl edənlər və fərmanımdan boyun qaçıranlar məlum olacaq”.

Lakin suya çatandan sonra yalnız üç yüz nəfər Talutun hökmünə əməl etdi. Qoşunun qalan hissəsi ürəkləri istədiyi qədər su içdilər. Elə bu da onların daha çox susamalarına səbəb olmuşdu. Müharibə meydanında da öz qüdrətlərini itirib dedilər: -”Bu gün Calut və onun qoşunu ilə vuruşmağa taqətimiz yoxdur.”

Amma Talutun göstərişinə əməl edib bir ovuc sudan çox su içməyənlərin susuzluğu aradan getdi və döyüş meydanında da öz hazırlıqlarını elan etdilər. Onlar düşmənin çoxsaylı qoşunundan qorxmayaraq dedilər:

-”Az əsgərləri olan dəstələr Allahın köməyi ilə çox qoşunu olan düşmənlərinə qələbə çalmışlar və Allah səbir edənlərin dayağıdır.” (“Bəqərə” surəsi, ayə 249).

Onlar Allah taaladan kömək istəyərək dedilər:

-”Pərvərdigara, bizə səbir və dözüm ver, bizi kafirlərin dəstəsinə qalib et.”

Beləliklə, ixlas və itaət əhli münafiq insanlardan seçildi. Talut başa düşdü ki, qoşunun çoxunu iradəsiz və qorxaq insanlar təşkil etmişdir. Onlar imtahan günü öz günahkar ruhiyyələrini və daxili fərmansızlıqlarını aşkara çıxartdılar.

## DAVUDUN ƏLİ İLƏ CALUTUN ÖLDÜRÜLMƏSİ VƏ BƏNİ-İSRAİLİN QƏLƏBƏSİ

İki qoşun üz-üzə gəldi. Bir-birinin qarşısında sıraya düzüldülər. Talutun əsgərləri arasında üç qardaş gözə çarpırdı. Bu üç qardaşın İşa adında qoca atası və Davud adında kiçik bir qardaşı var idi. İşa üç oğlunu Talutun qoşunuyla müharibəyə göndərdi. Amma Davudu qoyunları otarmaq və özünə kömək üçün saxladı. Çünki Davudun müharibəyə hazırlığı yox idi. İşa fikirləşirdi ki, Calutun qoşunu ilə vuruşmağa Davudun kifayət qədər qüdrəti yoxdur. Bir müddətdən sonra İşa gördü ki, müharibə çətinləşib, döyüşün vaxtı uzanıb və Talutun qoşunun işi ağırlaşıbdır. O, Davudu çağırıb dedi:

-”Qardaşların üçün yemək apar. Həm də müharibə meydanındakı vəziyyətdən mənim üçün təzə xəbər gətir”.

Davud qoyunları otarmağa aparanda heyvanların hücum etməyib, qoyunları ram etmək üçün çox vaxt özü ilə gəzdirdiyi sapandını özü ilə götürdü. Qardaşlarının yeməyini də götürüb müharibə meydanına tərəf yola düşdü. O, yol gedərkən yerdən üç daş götürüb özüylə apardı.

Davud meydana girən kimi gördü ki, Talutun əsgərləri Calutu tərifləyir və onun cür‘ətindən söz açırlar. Davud onlara dedi:

-”Nə üçün Calutdan qorxur və onu tərifləyirsiniz? And olsun Allaha, əgər onu görsəm öldürəcəyəm”.

Əsgərlər Davudun sözünü Taluta çatdırdılar. Talut onu öz yanına çağırıb soruşdu: -”Sənin gücün nə qədərdir? Öz qüvvəni necə təcrübə etmisən?” Davud dedi: -”Bəzi vaxt yırtıcı şir qoyunlarıma hücum edib onlardan birini götürüb aparır. Mən şirin ardıyca gedib şirin başını bədənindən ayırmışam. Öz əllərimlə şirin çənəsini bir-birindən ayırıb qoyunu ağzından çıxartmışam.”

Bundan əvvəl Allah taala Taluta vəhy etmişdi ki, Calutun qatili sənin zirehini geyinəcək və əyninə də yaxşı qalacaq. Bu zaman Talut öz zirehini Davuda geyindirdi. Gördü ki, zireh onun əyninə yaxşı qalır. Bu hadisə Talutu və onun yanındakıları təəccübə gətirdi. Talut dedi: -”Ümidvaram ki, Allah taala Calutu bu cavanın əli ilə məhv edəcək”.

Başqa bir gün iki qoşun döyüşə hazırlaşdı. Davud dedi:

-”Calutu mənə göstərin”.

Calutu ona göstərdilər. Davud daşı sapanda qoyub Calutun alnını nişan aldı. Daşı atdı. Daş Calutun başını yardı. Davud ikinci və üçüncü daşı da sapanda qoyub Calutu vuraraq öldürdü və onun qoşununa vəlvələ saldı. Calutun qoşunu məğlub oldu.

Davudun adı dillərə düşdü. O, zaman keçdikcə məşhurlaşdı. Bəni-İsrail onu özlərinə rəhbər seçdi. Allah taala da Davudu peyğəmbərliyə çatdırdı.

Tarix kitabları və sünni təriqi ilə nəql olunmuş rəvayətlər göstərir ki, Talut öz qızını Davudla evləndirdi. Ondan sonra Davuda paxıllığı tutub onu öldürmək fikrinə düşdü. Amma Allah taala Davudu onun şərrindən qorudu. Lakin bu hədislərin sənədi düz deyil. Çünki, Allah taala Talutu onun elmi və hikmətilə tərif edib. Bəni-İsrail rəhbərliyini ona tapşırıb, ona görə də Taluta bu töhməti vurmaq olmaz. Elə buna görə də Nəccarın nəql etdiyi Talutun bu macərasının bu hissəsinə etirazımızı bildirmirik və bununla da bu fəsli burada bitmiş elan edirik.

## ALLAH TAALANIN DAVUDA ETDİYİ BƏXŞİŞ

Allah taala peyğəmbərlik məqamından başqa Bəni-İsrailin səltənətini də Davuda bəxş etdi. Davud iki böyük məqama yetişdi. Allah taala başqa nemətləri də Davuda nəsib etdi. O cümlədən "Ənbiya" surəsində buyurur:

-" Biz dağla-rı və quş-la-rı Da-vud-la bir-lik-də (Al-lahı) təq-dis edib tə'rif-lə-sin-lər deyə ona ram et-dik. Bun-la-rı Biz et-miş-dik. Biz (Da-vu-da) si-zi (düş-mən-lə) vu-ruş-da qo-ru-maq üçün zi-reh (to-xu-maq) sə-nə-ti-ni öy-rət-dik. "("Ənbiya" surəsi, ayə 79-80).

Əlbəttə, dağların və quşların Davudla etdikləri təsbihin necəliyi haqqında təfsir kitablarında müxtəlif fikirlər deyilmişdir. Bəzi təfsirçilərin nəzərinə görə, dağlar və quşlar möcüzə üzündən Davudla gəzirdilər. Onlar Davudun fərmanı altında idilər. Başqa alimlərin dediklərinə görə isə dağlar və quşlar Davudla birlikdə təsbih deyirdilər. Yəni Davud Allaha zikr etdikcə onlar da zikr edirdilər.

Tarix və rəvayətlərə əsasən Allah taala dəmiri Davudun əlində yumşaldırdı. Davud dəmiri odda qızdırmadan onu öz əlində mum kimi əridib nazik məftil edərək zireh düzəldirdi. Təfsir alimi Qutadə yazır: "İlk dəfə Davud zireh düzəldib və müharibələrdə ondan istifadə ediblər."

Həmçinin "Səba" surəsinin 10-11-ci ayələrində Allah taala buyurur:

-"Davuda Öz tərəfimizdən üstünlük verdik (dedik): -"Ey dağlar, onunla həmahəng olun və ey quşlar! Dəmiri onun üçün yumşaltdıq (ona dedik), kamil zireh düzəlt və onun halqalarını eyni ölçüdə et, layiqli işlər görün ki, sizin etdiyiniz hər şeyi görürəm."

Allah taala "Sad" surəsində buyurur:

-"...Qüvvə sahibi olan bəndəmiz Davudu xatırla ki, həqiqətən o, (Allaha sarı) çox müraciət edən idi. Biz dağları onun üçün ram etdik ki, gecə və gün doğan zaman onunla təsbih edirdilər. Quşları da hamılıqla (onun üçün ram etdik). Onun padşahlığını möhkəm etdik və ona hikməti, keçərli söz əta etdik."

Bir çox təfsirçilərin dediyinə görə, son cümlənin mə'nası insanlar içində hakimlik elmini ona verilməsidir.

İbni Əsir yazır: "Allah taalanın Davuda verdiyi nemətlərdən biri də onun gözəl və ruhoxşayan səsi idi. Hər vaxt Zəburu oxuyanda səhranın vəhşiləri onun başına yağılırdı.

Allahın Davuda bəxş etdiyi nemətləri qısa olaraq aşağıda yazırıq:

1) Dağlar və quşlar Davudun ixtiyarında idi. Onlar Davudla zikr edirdilər;

2) Dəmir Davudun əlində yumşalırdı. O, dəmiri qızdırmadan istədiyi formaya salırdı;

3) Zireh tikmək elmi ona öyrədildi. Bu da Bəni-İsrailin müharibələrdə qələbə çalmağına səbəb olurdu;

4) Allah taala ona cisim, elm və ibadət nöqteyi-nəzərindən böyük qüvvə vermişdi;

5) Allah taala onun səltənətini möhkəmləndirdi. Əqəbə körfəzindən Fərat çayına qədər onun fərmanı altında idi. Fələstin şəhərlərini çoxlu müharibələrdən sonra ələ keçirtdi. Dəməşqi armilərin əlindən aldı. Fərat sahili boyunca olan şəhərləri fəth etdi. Ümumiyyətlə, demək olar ki, Əqəbə körfəzindən İran sərhədlərinə qədər onun hökuməti altında idi;

6) Allah taala hikmət, müdriklik və qəzavət elmini ona bəxş etdi;

7) "Məntiqüt-teyr" elmini ona öyrətdi. Bununla da quşların dilini başa düşürdü. Bunu bir dəstə müfəssirlər də təsdiq edirlər. Bəzi alimlər də buna "Nəml" surəsinin 16-cı ayəsini sübut-dəlil gətirirlər. Həmin ayədə həzrət Süleyman buyurur:

-"Allah taala bizə quşların dilini öyrətdi."

həmçinin "Sad" və "Səbə" surələrinin ayələrini də bu məsələ üçün şahid gətirirlər.

8) Zəburu ona nazil etdi. Bu ilahi kitab məzhəbi məsələləri, Allahın təsbih və təmcidi, həmçinin gələcəkdə baş verəcək bəzi hadisələri xəbər verirdi. Allah taala Qur'ani-Kərimdə buyurur:

“Biz kitabdan (Tövratdan, yaxud lövhi-məhfuzdan) sonra Zəburda da yer üzünə yalnız Məim saleh bəndələrimin varis olacağını yazmışdıq.” (“Ənbiya” surəsi, ayə 105).

9) Allah taala Davuda məlahətli səs vermişdi. Bu indiyə qədər atalar misalı olub. Bəzi elmi müəssisələr Həzrət Davudun fəzadakı səsini tapmaq fikrinə düşüblər;

10) Allah taala Davuda Süleyman kimi övlad verdi. Həzrət Süleyman atasının elminə, hikmətinə və səltənətinə yiyələndi. O, ilahi böyük peyğəmbərlərdən biri oldu.

### DAVUDUN İBADƏTi VƏ ALLAH QARŞISINDA AĞLAMASI

Həzrət Davud Allaha çox ibadət edir və Haqq taalanın dərgahında ağlayırdı. Kuleyni İmam Sadiqdən (ə) hədis nəql edir ki, Davud ömrünün axırlarına qədər bir gün oruc tutur və bir gün iftar açırdı.

“Kamilüt-təvarix” kitabının müəllifi yazır:

Davud (ə) gecə ibadətlə məşğul olurdu. O, ömrünün yarısını oruc tutub. Yəni bir gün oruc tutur və bir gün iftarını açırdı. O, ibadət edir və Allah dərgahında çox ağlayırdı. Sələbinin “Ərais” kitabında Davudun ağlaması barədə maraqlı söhbətlər olubdur. Onun göz yaşıyla ot və bitki göyərirdi.

Peyğəmbəri-əkrəmdən (s) rəvayət olunur ki, həzrət Davud (ə) ağlamaqdan yanaqlarında iki arx yaranmışdı. Allah hamıdan yaxşısını bilir.

Həmçinin nəql olunur ki, həzrət Davud gününü dörd yerə bölmüşdü. Bir gün Bəni-İsrailin məhkəmə və qəzavət işlərinə çatırdı, bir gün öz əhli-əyalına xidmət edirdi, bir gün Allahı zikr və təsbih etmək üçün dağlara, səhralara gedirdi, bir gün də öz evində tək-tənha ibadət edirdi. Rahiblər onun yanına gəlir və bir yerdə dua oxuyurdular.

## HƏZRƏT DAVUDUN TÖVBƏ VƏ QƏZAVƏTİ

Qur‘ani-Kərimdə həzrət Davudun (ə) qəzavətindən biri, onun həmin hadisədə imtahan olmasından qısa söz açılıb və Davudun (ə) tövbəsi bəyan olunubdur. Həmin ayələri cürbəcür təfsir ediblər. Çox təəssüf ki, bəzi müfəssirlər sünni təriqi ilə təfsir olunmuş kitablara və indiki Tövratda yazılmış mətnə əsaslanaraq, o ilahi, böyük peyğəmbərə xoşagəlməz sözləri nisbət veriblər. Hətta o həzrətin böyük günaha mürtəkib olduğunu iddia ediblər. Biz bu məsələnin aydınlaşması üçün əvvəl Qur‘ani-Kərimin ayələrini tərcümə edib sonra isə imamların (ə) buyurduqları sözləri ilə onu açıqlayacağıq.

Allah taala “Sad” surəsində Məhəmməd (s) peyğəmbərə buyurur:

“Dava əhlini mehrabın divarından (yə’ni Davudun ibadət mehrabından) yuxarı dırmaşdıqları əhvalatı eşitməmisən? Davudun yanına çatanda, Davud onlardan qorxdu. Onlar dedilər: -”Qorxma, biz iki nəfər dava etmişik. Biz bir-birimizə zülm etmişik. Sən bizim aramızda hökm ver və (hökmdə) zülm etmə. Bizi ortaq və ədalətli yola yönəlt. Mənim qardaşımın 99 camışı var. Mənim isə bir camışım var. O, deyir ki, o bir camışı da mənə ver. O, məni sözdə məğlub etmişdir”. Davud dedi: -”Həqiqətən də sən camışlarına bir camış da artırmaq üçün özünə zülm etdin”. Çox şəriklər bir-birləri ilə çox qarışdıqlarına görə zülm edirlər. İman və layiqli əməllərə sahib olanlardan başqa. Onların da sayı çox azdır. Biz Davudu sınadığımızı bilirdi. Pərvərdigarından əfv olunmasını istədi, rükuya gedib tövbə etdi. Biz də bu hadisəni ona bağışladıq. Bizim dərgahımızda onun məqam və yaxşı aqibəti var idi. Ey Davud, biz səni bu diyarda xəlifə və canişin seçdik. Camaat arasında haqla hakimlik et. Nəfsin istəklərinə tabe olma ki, səni Allah yolundan azdırar. Doğrudan da Allah yolundan azmışların çətin əzabları var. Çünki onlar “Hesab” gününü unutmuşlar”.

Yuxarıdakı ayələrdən məlum olduğu kimi iki nəfər qeyri-adi yolla, yəni mehrabın divarından aşıb düşmənçiliyi aradan götürmək üçün Davudun (ə) yanına gəldilər. Davud bu səbəbə görə onları başı üstündə görüb və ya onun düşmənləri çox olduğundan elə başa düşdü ki, o iki nəfər onu öldürməyə gəlir. Davud (ə) onların nagahan gəlmələrindən qorxdu. Amma onlar Davuda təskinlik verib dedilər ki, biz sənin yanına aramızdakı mübahisəni həll etmək üçün gəlmişik. Sonra onlar öz şikayətlərini etdilər. Davud (ə) isə fikirləşmədən hökm verir. Hökm verəndən sonra başa düşür ki, bu Allahın imtahanı idi. Müxtəlif dəlillərə və rəvayətlərə əsasən həmin iki nəfər mələk idilər. Onlar insan surətində Davudun (ə) yanına onu imtahan etmək məqsədilə gəlmişdilər. Buna görə də Davud (ə) istiğfar edərək Allahdan bağışlanmaq istəyir. Allah taala da onun təqsirindən keçib sifariş edir ki, haqqa hökm etsin və nəfsinə tabe olmasın.

Qur‘ani-Kərimdə əhvalatın xülasəsi belə zikr olubdur. Gördüyünüz kimi ayələrdə Davudun (ə) imtahan verməsindən, istiğfarından, tövbə etməsindən, sonra isə haqqa hökm verməsinə əmr olunması

və nəfsi istəklərinə tabe olmamasından söz açılıb. Müfəssirlər əhvalatın necə baş verməsini tədqiq etmək fikrinə düşüblər. Onlar bilmək istəyirlər ki, görəsən o hadisədən qabaq Davud (ə) bir iş görərək bu imtahana və ona verilən göstərişə səbəb olubdur? Yoxsa həmin macəra, yəni iki nəfərin qeyri-adi vəziyyətdə mehrabın divarından gəlməsi Davudun (ə) başqa cür fikirləşməsinə və onları tənbih etmək niyyətinə düşməsinə səbəb oldu. Lakin birdən yadına düşdü ki, bu fikirlər, ehtimallar peyğəmbərlik məqamı ilə uyğun gəlmir və onun pak ruhunu, təmiz qəlbini aludə etdi. Bu, Davud (ə) üçün bir imtahan və sınaq idi. Buna görə də o, istiğfar edir, bağışlanmaq istəyir və Allahın dərgahına tövbə edirdi.

Yaxud da həzrət Davudun (ə) tələsik, fikirləşmədən və hər iki tərəfin vəziyyəti aydınlaşmadan hökm verməsi bir növ səhv idi. Birdən öz səhvini düşünüb Allah dərgahına tövbə etdi və bağışlandı.

Bəzi müfəssirlər isə bu əhvalatı həzrət Davudun (ə) Uryanın arvadı ilə evlənməsi ilə əlaqələndirirlər. Onlar həzrət Davudun (ə) Uryanın arvadı ilə evlənməsini indiki saxta Tövratdan nəql edirlər. Sonra isə bu məsələni həmin iki nəfərin arasındakı qəzavətlə əlaqələndirmək üçün özlərindən başqa sözlər də əlavə edirlər.

Həzrət Davudun (ə) guya Uryanın arvadıyla evlənməsi indiki Tövratda belə nəql olunur:

Bir gün Həzrət Davud (ə) evin damına çıxdı. Oradan Uryanın arvadını gördü. Uryanın arvadı çox gözəl idi. Davud (ə) ona vuruldu. Bu vaxt Urya müharibədə idi. Davud qoşun başçısına sifariş göndərdi ki, Uryanı tabutun üstünə qoyub qoşunun qabağında düşmənlə üzbəüz saxlasın. Davudun (ə) bundan məqsədi Uryanın öldürülməsi və onun arvadı ilə özü evlənməsi idi. Düşmənin düşərgəyə yaxınlaşmaq, müharibənin qayda-qanunu ilə zidd olmasına baxmayaraq, qoşun başçısı Davudun hökmünü icra etdi. Bu da Uryanın ölümünə və Davudun onun arvadı ilə evlənməsinə səbəb oldu.

Bu əhvalatı özlərindən düzəldənlər doxsan doqquz camışı olan iki nəfərin arasındakı qəzavətlə bunu əlaqələndirərək deyirlər:

-"Davudun doxsan doqquz arvadı var idi. Elə ki, Uryanın arvadına vuruldu Allah taala onun səhvini başa salmaq üçün iki mələk göndərdi.

Dastan düzəldənlər buna əlavə edirlər: Davud mehrabda namaz qılırdı. İblis ağ və gözəl bir quş simasında Davudun (ə) gözündə cilvələndi. Davud quşu görüb namazını kəsdi. Quşun uçduğu səmtə getdi. Evin damına çıxanda quş Uryanın evinə getdi. Uryanın arvadı bədənini yuyurdu. Davudun (ə) gözü Uryanın arvadına sataşdı və ona vuruldu. Amma dastanı düzəldənlər fikirləşməyiblər ki, bu töhməti hətta adi və sıravi şəxsə nisbət vermək düzgün deyil. Lakin onlar başa düşmürlər ki, ilahi və böyük peyğəmbərlərdən olan Davuda (ə) belə töhmət vurmaq ağılsızlıqdır. Həzrət Davud (ə) gecə-gündüz ibadətlə məşğul olur və Allah dərgahına xüzu-xüşu edirdi. Seyid Murtəzanın dediyi kimi, bu sözlərin nə qədər yanlış və həqiqətdən uzaq olduğu çox aydındır. Onlara cavab verməyə ehtiyac yoxdur. İndi hal-hazırda olan Tövrat Davudu peyğəmbər kimi tanımır. Bundan əlavə indiki Tövrat həzrət Musaya (ə) nazil olan Tövratdan tamamilə fərqlənir. Çünki hətta onun mətnini də dəyişiblər. İndiki Tövratda təkcə Davuda yox, başqa peyğəmbərlərə də hörmətsizliklə yanaşıblar. Ona görə də Davuda olunan laqeydlik heç də təəccüblü deyil. Lakin bu dastanı düzəldib iki hadisəni bir-biriylə əlaqələndirmək çox təəccüblü işdir. Həqiqətdə isə nə Davudun Uryanın arvadıyla evlənməsi onların dediyi kimidir, nə də ki, bu iki hadisə bir-biriylə əlaqədar deyil. Şeyx Səduq Əbasəlt Hərəvidən bir hədis nəql edir ki, İmam Rza (ə) Əli İbni Məhəmməd İbni Cəhmdən soruşdu: -"Camaat Davud haqqında nə deyirlər?"

Əli İbni Məhəmməd İbni Cəhm şeytanın gözəl, ağ quş timsalında Davudun gözünə görünməsini, Davudun namazı sındırması, Uryanın arvadına baxmasını və nəhayət onunla evlənməsi haqqında düzəldilmiş dastanı imam (ə) üçün nəql etdi. İmam (ə) əlini alnına vurub buyurdu:

-"Hər şey Allahındır və hər şey ona sarı qayıdır.Siz ilahi peyğəmbər haqqında deyirsiniz ki, bir quşun dalınca düşmək məqsədilə öz namazını batil etdi?! O, bu qədər namazı yüngül sanırdı?! Sonra da iddia edirsiniz ki, naməhrəm qadına baxıb və onun ərini qətlə yetirib?!"

Əli İbni Məhəmməd ərz etdi: -"Ey Allah Rəsulunun övladı! Bəs Davud haqqında deyilən səhv nə idi?

İmam (ə) buyurdu: -"Vay olsun sənə! Davud özlüyündə təsəvvür etdi ki, Allah taala ondan savadlı məxluq yaratmayıbdır. Allah taala da iki mələyi onun yanına mehrabın üstündən göndərdi. Onlar öz şikayətlərini Qur'anda olduğu kimi Davuda dedilər. Davud da tələsik (iddia edən şəxsdən dəlil və şahid istəmədən) onlardan birinin əleyhinə qəzavət etdi. Davud siz təsəvvür etdiyiniz kimi, səhv etməyib, o, qəzavət və hökmdə səhv edibdir. Siz eşitməmisinizmi Allah taala o hadisədən sonra Davuda buyurdu: -"Ey Davud, Biz səni yer üzündə xəlifə seçdik. Beləliklə, camaatın arasında haqla hökmranlıq et!

Əli İbni Məhəmməd imamdan (ə) soruşdu: -"Bəs Davudla Uryanın əhvalatı necə olub?"
İmam Rza (ə) buyurdu: -"Davudun dövründəki adətə görə əri ölmüş və ya öldürülmüş arvad ömrünün axırına qədər heç kəslə evlənmirdi. İlk dəfə bu işi Allah taala Davuda halal etdi. Urya müharibədə şəhid olandan və arvadının iddəsi çıxandan sonra Davud həmin arvadla evləndi."
Davudun imtahana çəkilməsini Fəxr Razi və başqaları belə bəyan edirlər:
Davudun düşmənlərindən bir dəstəsi onu öldürmək niyyətinə düşdülər. Onlar bir gün Davud mehrabda ibadət edərkən mehrabın divarından qalxıb ona yaxınlaşdılar. Lakin Davudun yanında bir neçə nəfər gördülər. Başa düşdülər ki, bu vəziyyətdə Davudu öldürə bilməyəcəklər. Ona görə də istədilər həmin vaxtda və o vəziyyətdə Davudun yanına gəldikləri üçün bir məsələyə cavab istəsinlər. Əvvəldə qeyd olunan iddianı həmin formada bəyan etdilər. Həqiqətdə həmin iddianı məcburiyyət qarşısında özlərindən düzəltdilər. Çünki Davudu öldürmək istədiklərini bir yolla ört-basdır etməyə məcbur idilər. Həzrət Davud isə onların əsl niyyətini bildiyi üçün onlardan intiqam almaq istədi. Lakin birdən peşman oldu. Öz-özünə fikirləşdi ki, ola bilsin onlar məni öldürmək məqsədi ilə gəlməyiblər. Ola bilsin ki, doğrudan da öz məsələlərini həll etmək üçün gəliblər.
Bu hadisə Davud üçün bir imtahan idi. Elə bu da səbəb oldu ki, Davud onlar barəsində tutduğu fikirdən dönüb tövbə etsin.

## DAVUDUN HƏYATI VƏ ONUN QƏZAVƏTLƏRİ

Şeyx Tusi "Təhzib" kitabında İmam Baqirdən (ə) rəvayət edir: Bir gün İmam Əli (ə) məscidə gəldi. Həzrət gördü ki, bir cavan ağlayır. Bir neçə nəfər də cavanın ətrafına toplaşıb onu sakitləşdirmək istəyirlər. İmam Əli (ə) o cavana buyurdu: -"Nə üçün ağlayırsan?" O cavan dedi: -"Ey Əmirəl-möminin (ə), Qazi Şüreyh mənim haqqımda elə bir hökm veribdir ki, məni ağlamağa vadar edibdir. Atam bu bir neçə nəfərlə birlikdə səfərə getdilər. Onlar qayıtdılar, lakin atam qayıtmadı. Onlardan soruşdum ki, atama nə olubdur? Dedilər:
-"Atan öldü".
Soruşdum:
-"Atamın malları haradadır?"
Dedilər:
-"Onun heç nəyi yox idi. Mən onları Şüreyhin yanına gətirdim. Şüreyh də onlara and içdirdi. Onlar da dediklərinə and içdilər. Halbuki, atam səfərə gedəndə çoxlu malı var idi."
Əli (ə) hökm verdi ki, cavanı atasıyla səfərə gedənlərlə birlikdə Şüreyhin yanına aparsınlar. Şüreyhin yanına gələndən sonra Həzrət (ə) üzünü ona tutub buyurdu: -"Ey Şüreyh! Bunların arasında necə qəzavət etdin?" Şüreyh dedi: -"Ey Əmirəl-möminin! Cavan oğlan iddia edir ki, atası bunlarla bir yerdə səfərə gedib, lakin qayıtmayıblar. Mən də bu davanı görüb cavandan soruşdum: -"İddia etdiyin sözlərə şahidin vardırmı?" O, dedi: -"Xeyr". Mən də bunlara and içdirdim."
Əli (ə) buyurdu: -"Ey Şüreyh! Bu yerdə belə qəzavət edirsənmi?"
Şüreyh dedi: -"Bəs, bu barədə hökm necədir?"
Əli (ə) buyurdu: -"Ey Şüreyh! Allaha and olsun, bu gün elə bir hökm verəcəyəm ki, məndən qabaq Davud peyğəmbərdən başqa heç kəs belə hökm verməyib."
Sonra Əli (ə) Qənbəri çağırıb buyurdu: -"Qoşun başçılarını çağır gəlsin". Cavan oğlanın atasıyla səfərə gedənlərin hər birini bir qoşun başçısına təhvil verərək onlara uca səslə buyurdu: -"Siz nə deyirsiniz? (nə fikirdəsiniz?) Elə bilirsiniz ki, mən bilmirəm bu cavanın atasının başına nə gətirmisiniz?"
Sonra Əli (ə) hökm verdi ki, onların baş-gözlərini örtüb hər birini məscidin bir sütununun yanında saxlasınlar. Əli (ə) öz məxsus katibi Übeydullah İbni Əbi Rafiəni çağırıb buyurdu:
-"Qələm-kağız gətir".
O həzrət (ə) qəzavət kürsüsündə oturdu. Camaat da həzrətin (ə) başına toplaşdılar. Əli (ə) camaata buyurdu: -"Mən təkbir deyəndə siz də təkbir (Əllahu əkbər) deyin." Sonra Həzrət hökm etdi ki, onlardan birini baş-gözü bağlı halda gətirin. Həzrətin yanına gələndən sonra onun gözünü açdılar. Əli (ə) Übeydullah İbni Əbi Rafiə buyurdu: -"Bu hər nə desə, sən də yaz."
Sonra həzrət həmin gün kişidən soruşdu:
-"Siz hansı gün evdən çıxdınız?" Dedi:
-"Filan günü". Soruşdu:
-"Hansı ay?" Dedi:

-”Filan ayda”. Soruşdu:
-”Bu cavanın atası öləndə hara çatmışdınız?” Dedi:
-”Filan yerə”. Soruşdu:
-”Harada öldü?” Dedi:
-”Filan yerdə”. Soruşdu:
-”Xəstəliyi nə idi?” Dedi:
-”Filan xəstəlik”. Soruşdu:
-”Xəstəliyi neçə gün çəkdi?” Dedi:
-”Filan qədər”. Soruşdu:
-”Kim ona qulluq edirdi? Hansı gün öldü? Kim ona meyit qüslü verdi? Harada qüsl verdi? Kim onu kəfənə bükdü? Nə ilə kəfən etdi? Kim onun namazını qıldı? Kim onu qəbrə qoydu?

Bu sualların hamısının cavabını yazdı. O sual-cavab qurtarandan sonra həzrət təkbir dedi. Camaat da İmamla (ə) təkbir dedilər.

Təkbirin səsi qalan dustaqların qulağına çatanda yəqin etdilər ki, hadisənin necə olduğunu Əliyə (ə) dedi.

Əli (ə) hökm verdi ki, yenidən onun gözünü bağlayıb zindana salsınlar. Sonra ikinci nəfəri Həzrətin yanına gətirib üz-gözünü açdılar. Əli (ə) ona buyurdu: “Sən elə bilirsən ki, mən bilmirəm siz nə etmisiniz?”

O kişi dedi: “Ey Əmirəl-möminin! Mən bir nəfər idim. İstəmirdim onu öldürsünlər.” Beləliklə etiraf etdi ki, cavanın atasını onlar özləri öldürüblər. Onlar tək-tək hamısı buna etiraf etdilər. Birinci zindana saldığı nəfər də gəlib etiraf etdi.

Əmirəl-möminin (ə) atanın diyə və qan bahasını alıb cavana verdi.

Bu vaxt Şüreyh İmamdan (ələhis-salam) soruşdu: -”Ey Əmirəl-möminin! Davudun qəzavəti necə idi?”

Həzrət buyurdu: -”Davud bir dəstə uşaqla rastlaşdı. Onlar bir yerdə oynayırdılar. Uşaqlardan birinin adını “Matəddin” çağırırdılar. Davud həmin uşağı çağırıb soruşdu: -”Adın nədir?” Uşaq dedi: -”Matəddin” (yəni din öldü.)

Davud soruşdu:
-”Bu adı sənə kim qoyub?”
Uşaq dedi:
-”Anam”.
Davud onun anasının yanına gəlib soruşdu:
-”Ey qadın! Bu oğlunun adı nədir?”
Uşağın anası cavab verdi:
-”Matəddin”.
Davud soruşdu:
-”Bu uşağın adını kim qoyub?”
Ana dedi:
-”Atası”.
Davud:
-”Nə üçün və nə münasibətələ?”
Ana:
-”Uşağın atası bir dəstə kişiylə səfərə getdi. Həmin vaxt mən bu uşağa hamilə idim. Bir müddətdən sonra ərimlə səfərə gedənlər qayıtdılar. Lakin ərim onlarla qayıtmadı. Mən onlardan ərimi soruşdum. Onlar dedilər ki, ərin öldü. Soruşdum:
-”Onun malları hanı?” Dedilər:
-”Onun heç bir malı yox idi”. Onlardan soruşdum:
-”Ərim öləndə sizə bir vəsiyyət etmədimi?” Dedilər:
-”Niyə, o dedi ki, arvadım hamilədir. Ona deyərsiniz ki, uşaq oğlan və ya qız olsa adını “Matəddin” qoysun. Mən də ərimin vəsiyyətinə görə oğlumun adını “Matəddin” qoydum”.
Davud qadına buyurdu:
-”Ərinlə səfərə gedənləri tanıyırsanmı?”
Qadın dedi:
-”Bəli”.

Davud soruşdu:
-"Onlar sağdırlar, ya ölüblər?"
Qadın dedi:
-"Sağdırlar".
Davud buyurdu:
-"Məni onların yanına apar".
Davud onların yanına gedib bir-bir evlərindən çıxartdı. İndi burada mən etdiklərimi gördüyün kimi onları məhkəməyə çəkdi. Məlum oldu ki, uşağın atasını onlar özləri öldürüb, onun mal-dövlətini ələ keçiriblər. Sonra Davud o kişinin malıyla qan bahasını onlardan alıb qadına verəndən sonra buyurdu: -"Oğlunun adını Aşəddin (din yaşayır) qoy!"
Məclisi "Biharul-ənvar" kitabında yazır ki, İmam Baqir (ə) buyurub: -"Bir gün Həzrət Davud oturmuşdu. Sirsifətindən fəqirlik yağan cavan bir oğlan onun yanında idi. O, həmişə Davudun yanına gəlirdi. Bu dəfə ölüm mələyi (həzrət Əzrayıl) daxil olub qəzəblə o cavana baxdı".
Həzrət Davud (ə) ölüm mələyinə buyurdu: -"Nə üçün bu cavana qəzəblə baxırsan?" Ölüm mələyi dedi: -"Bəli, mənə əmr olub ki, yeddi gündən sonra bu cavanın canını elə burada da alım."
Davud peyğəmbərin bu sözündən sonra cavana ürəyi yandı. Ondan soruşdu: -"Ey cavan! Sən evlənmisənmi?" Cavab verdi:
-"Hələ evlənməmişəm." Davud ona dedi:
-"Filan kişinin (Bəni-İsrail tayfasının böyük şəxsiyyətlərindən biri) yanına gedib ona de ki, Davud hökm verdi qızını mənə verəsən".
Sonra buyurdu: -"Elə bu gecə onun qızıyla evlənməlisən. Toy xərcini də özünlə apar. Yeddi gündən sonra elə bura gələrsən".
Cavan ayağa qalxıb həmin kişinin yanına getdi. Davudun sifarişini ona dedi. O, da qızını cavana verdi və həmin gecə evləndilər. Cavan yeddi gün həyat yoldaşıyla yaşadı. Yeddi gündən sonra həzrət Davudun yanına gəldi. Davud ondan soruşdu: -"Bu bir neçə gündə vəziyyətin necə idi?" Cavab verdi:
-"Heç vaxt bu bir neçə gün kimi nemət içində olmayıb xoş gün keçirtməmişdim." Davud buyurdu:
-"İndi əyləş." Cavan oturdu. Davud ölüm mələyinin gəlişin gözləməyə başladı. Çünki, o, cavanın canını almağa gələcəkdi və bunu xəbər vermişdi. Bir müddət keçdi. Lakin Əzrail gəlmədi. Davud üzünü cavana tutub buyurdu:
-"Öz evinə get, səkkizinci gün yenə də mənim yanıma gələrsən."
Cavan evinə qayıtdı. Səggizinci gün yenə də Davudun yanına gəlib oturdu. Əzraili gözlədilər. Lakin ondan bir xəbər olmadı. Bu minvalla üç gün keçdi. Nəhayət, ölüm mələyi Davudun yanına gəldi. Davud ona dedi:
-"Sən demədinmi yeddi gündən sonra bu cavanın canını almağa əmr olunmusan?" Cavab verdi:
-"Bəli." Buyurdu:
-"İndiyə qədər üç həftə keçib." Əzrail dedi:
-"Ey Davud! Sən bu cavana məhəbbət göstərdiyinə görə Allah taala da ona rəhm etdi və onun ömrünü otuz il artırdı.
Şeyx Səduq "İkmal" və "Əmali" kitablarında İmam Sadiqdən (ə) belə rəvayət edir:
Bir gün Davud (ə) evdən çıxdı. O, Zəburu oxumaqla məşğul idi. Hər vaxt Zəbur oxusaydı dağ, daş və quşlar onunla həmsəda olurdu. Davud yoluna davam edərək bir dağa yetişdi. Dağda Hüzqəyl adında bir peyğəmbər Allaha ibadət edirdi. Hüzqəyl dağın, vəhşi heyvanların və quşların avazını eşidən kimi başa düşdü ki, dağa Davud gəlibdir. Hüzqəyl ilahi vəhy ilə Davudu öz yanına apardı. Davud üzünü ona tutub buyurdu:
-"İndiyə qədər günah etmək fikrinə düşmüsənmi?" Hüzqəyl cavab verdi:
-"Xeyr." Davud dedi:
-"İndiyə qədər Allaha etdiyin ibadətlər səndə qürur və özünü bəyənmək ruhiyyəsinə səbəb olubmu?" Dedi:
-"Xeyr." Davud soruşdu:
-"İndiyə qədər dünyaya meyl göstərmək onun ləzzətlərindən və şəhvətlərindən bəhrələnmək istəmisənmi?" Cavab verdi:
-"Bəli bəzi vaxt ürəyimdən keçir." Davud dedi:
-"Belə bir vaxt nə iş görürsən?" Hüzqəyl dedi:

-”Bu mağaraya daxil olub onun içindəkilərdən ibrət dərsi alıram.”

Davud ayağa qalxıb mağaraya daxil oldu. Orada dəmir bir çarpayı və üstündə çürümüş kəllə və sümüklər var idi. Həmçinin dəmir bir lövhənin üstündə yazılmışdı: “Mən Əruy Şəliməm. Min il hökmranlıq etmişəm. Min şəhər qurmuşam. Min qızla evlənmişəm. Mənim axırım budur. Yatacağım torpaq, möhkəm daş balışım və ilan-əqrəb qonşum olubdur! Hər kəs mənim bu halımı görsə, dünya ilə qürurlanmasın!”

Vərram İbni Əbi Fəras “Tənbihül-xəvatir” kitabında İmam Sadiqdən (ə) belə bir hədis rəvayət edir ki, Davud peyğəmbər Allahın dərgahına ərz etdi: -”İlahi! Mənimlə cənnətdə oturub-duranı tanımaq istəyirəm.”

Allah taala ona vəhy etdi ki, Yunisin atası -Məta sənin həmnişinindir.

Davud onunla görüşmək üçün Allahdan icazə istədi. Allah taala icazə verdi. Davud oğlu Süleymanla Məta olan yerə getdi. Mətanın həsirdən düzəldilmiş evini tapdı. Davud Mətanı soruşdu: -”Onlar dedilər ki, Məta bazardadır”. Davud, oğlu ilə bazara gəlib Mətanı soruşdular. Dedilər:

-”Onu işçilərin arasında tapa bilərsən”.

Onlar işçilərin yanına gəlib Mətanı soruşdular. İşçilərdən bir dəstəsi dedi: -”Biz də onu gözləyirik, indi gələr.”

Davud və Süleyman orada oturub Mətanı gözlədilər. Birdən gördülər ki, Məta uzaqdan gəlir. O, bir qucaq odun başına qoyub gətirirdi. Camaat onu görüb odun bağlamasını başından götürdü. Məta Allaha həmd-səna edib dedi: -”Kim pakı pakla ala bilər?” (Yəni kim halal pulla halal mal ala bilər?) Bir nəfər ayağa qalxıb odunun qiymətini dedi. Pulu vermək istəyəndə başqa bir nəfər dürüb odunun qiymətini artırdı. Nəhayət, Məta odunu onlardan birinə satdı. Bu vaxt Davud və Süleyman irəli gələrək ona salam verdilər. Məta dedi: -”Gəlin evə gedək.” Məta bazardan buğda alıb evə gətirdi. Buğdanı un edib xurma ağacından düzəltdiyi qabda xəmir etdi. Od qalayandan sonra xəmiri bir qaba töküb odun üstə qoydu. Daha sonra Davud və Süleymanın yanına gəlib söhbətə başladı. Bir az keçəndən sonra ayağa qalxıb çörəyə baxmağa getdi. Çörək bişmişdi. Məta çörəyi qaba qoyub çörəyin arasına duz tökdü. Sonra bir qab su da öz yanına qoydu. Məta bir tikə çörək kəsib ağzına qoymamışdan qabaq “Bismillah” dedi. O, çörəyi çeynəyib udandan sonra “Əlhəmdulillah” dedi. Məta hər bir tikədə bu işi görürdü. Yəni əvvəl “Bismillah” sonra isə “Əlhəmdulillah” deyirdi. Çörək yeyib qurtarandan sonra su qabını götürdü. “Bismillah” deyib bir az su içdi. Sonra “Əlhəmdulillah” dedi. Daha sonra dedi: -”Ey mənim Allahım! Kimə mənim kimi nemət vermisən? Kimi mənim kimi öz rəhmət və pənahında saxlamısan? Sən mənə sağlam göz, qulaq və bədən verdin. Sən mənə qüvvət verdin və əkmədiyim, suvarmadığım, qoruyub saxlamadığım ağaclardan odun qırıb gətirdim. Odunun müştərisini mənə yetirdin. Mən onun puluyla əkib-biçmədiyim buğdanı aldım. Un düzəldib xəmir etdim. Onu çörək bişirdim. Çörək yemək üçün mənə iştaha verdin. Çörəyi yeyəndən sonra sənə itaət etmək üçün yenidən qüvvə topladım. Ey Allahım, həmd və səna sənə məxsusdur!...” Məta bu sözləri deyib ağladı.

Davud bu mənzərəni görəndən sonra Süleymana dedi: -”Ey oğlum, qalx ayağa! Mən indiyə qədər bu kişi kimi Allaha şükür edən bir nəfər görməmişəm!”

## DAVUDUN ÖMRÜ VƏ VƏFATI

Səduq “İkmaluddin” kitabında İmam Sadiqdən (ə), o həzrət də ata-babasından və nəhayət, Məhəmməd (s) peyğəmbərdən belə bir hədis rəvayət edir: -”Davud 100 il ömür sürüb. Qırx il hökmranlıq edib”.

İbni Əsir də “Kamilüt-təvrix” kitabında həmin sözə oxşar hədis nəql edir; Davud dünyadan gedəndə 100 yaşı var idi. O, 40 il hakim olub. Bu xəbər səhih rəvayətlə Peyğəmbərdən (s) nəql olunubdur.

Davud ömrünün axırında oğlu Süleymanı öz canişini etdi. Ona vəsiyyətini edib dünyadan getdi. Bəni-İsrail Həzrət Davudu Beytül-Müqəddəsdə Davud kəndinin yaxınlığında dəfn etdi.

Burada qeyd etmək istəyirəm ki, tarixçilərdən bir dəstəsi “Beytül-Müqəddəsin” Davudun vasitəsilə tikilməsini təsdiqləyirlər. Lakin tarixçilərin çoxu bu əqidədədirlər ki, “Beytül-Müqəddəsin” tikilişi Süleymanın əlilə başa çatıb. Biz bu haqda geniş məlumat verəcəyik.

## DAVUDUN HİKMƏTİ

Allah taala “Nisa” və “Bəni-İsrail” surəsində buyurur: -”Biz Davuda, Zəbur verdik.” (“Nisa” surəsi, ayə 16; “İsra” surəsi, ayə 55).

“Ənbiya” surəsində buyurur:

-"Biz kitabdan (Tövratdan, yaxud Lövhi-Məhfuzdan) sonra Zəbura da (cənnət torpağına, yer üzünə və ya müqəddəs) torpağa yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq." ("Ənbiya" surəsi, ayə 105).

İndiki "Zəbur" 150 məzmura malikdir. Onun birinci məzmuru belədir: "Şərr adamların məşvərətinə qulaq asmayanların, günahkarların yoluna getməyənlərin və başqalarını ələ salanların məclisində oturmayanların xoş halına. Əksinə, onlar Allahın şəriətinə rəğbət göstərir və Onun şəriətində təfəkkür edirlər. Belə adamlar su arxının kənarında əkilmiş ağac kimi öz mövsümlərində bəhrə verirlər və yarpaqları solmur. Etdikləri hər iş yaxşıdır. Şərr adamlar isə belə deyillər. Əksinə, şərr adamlar saman çöpü kimi külək onları dağıdır. Buna görə də şərr adamlar hakimlik etməyə səlahiyyətləri yoxdur. Günahkarlar da ədalətli camaatın sırasında ola bilməzlər. Allah taala ədalətli insanların yolunu tanıyır. Lakin günahkarların yolu həlak edicidir."

Bu 150 məzmur beş kitaba bölünür. Deyildiyinə görə yetmiş üç məzmur Davudun və qalanı başqa şəxslərin və ya naməlum müəlliflərin yazdıqlarıdır. Onun 72-ci və 127-ci məzmuru "Süleymanın məzmuru" adı ilə tanınıbdır.

Ümumiyyətlə, heç bir şəkk-şübhə yoxdur ki, indiki Zəburun bir hissəsi Davudun ölümündən yüz illər sonra tənzim olubdur. O cümlədən 137-ci məzmuru misal olaraq gətirmək olar. Bu məzmurun birinci cümləsi belə başlanır: "Babul şəhərlərinin yanında, orada oturduq..."

Məlum olur ki, bu hissə Bəni-İsrailin əsirlik dövründən sonra və "Bəxtün-nəsr" hücumunda onların Babula sürgünü zamanı yazılıbdır. Həmçinin, heç bir şəkk-şübhə yoxdur ki, Zəburda böyük dəyişiklik və ilahi peyğəmbərlərə nalayiq sözlərlə töhmət vurublar. Bizim rəvayətlərdə Davud peyğəmbərə nazil olmuş hökmətli sözlər və ya həzrət Davuddan nəql olunmuş ibrətli nəsihətlər çoxdur. Həmin rəvayətlərdən bəzilərini seçib burada sizin üçün yazıram. Ola bilsin ki, indiki Zəbura müraciət zamanı bu rəvayətlərin məzmununu orada müşahidə edəsiniz:

1) Şeyx Səduq "Əmali", "Uyun" və "Məaniül-əxbar" kitablarında İmam Sadiqdən (ə) rəvayət edir ki, Allah taala Davuda belə vəhy etdi: -"Bəzi vaxt bəndələrindən biri mənim yanıma yaxşı əməl gətirir. Mən də həmin yaxşı əmələ görə Cənnətimi ona halal edirəm". Davud dedi:

-"Mənim Allahım, həmin yaxşı əməl nədir?"

Allah taala buyurdu: -"Həmin yaxşı əməl mənim mömin bəndəmin qəlbini sevindirməkdir. Ola bilsin bu əməli ona bir dənə xurma verməklə yerinə yetirsin!" Davud dedi:

-"Səni tanıyan adam səndən ümidini kəsməsi onun üçün yaramaz işdir."

2) Hümeyri "Qürbül-əsnad" kitabında yazır ki, İmam Baqir (ə) buyurub: -"Həzrət Davud oğlu Süleymana dedi: -"Oğlum, çox gülməkdən çəkin. Çünki, Allah bəndəsinin çox gülməyi Qiyamət günündə onu həqir və alçaldar. Oğlum, yalnız xeyirli söz danış! Çünki, söz deməyib bir dəfə peşman olmaq çox danışıb dəfələrlə peşman olmaqdan yaxşıdır. Oğlum! Əgər danışmaq gümüşdürsə, danışmamaq qızıldır."

3) Şeyx Tusi "Məcalis" kitabında Məhəmməd (s) peyğəmbərdən rəvayət edir ki, Allah taala Davuda vəhy etdi: -"Ey Davud, həqiqətən mənim bəndəm Qiyamət günü yaxşı əməl gətirəcək. Həmin əməlinə görə Behiştdə ona hökumət verəcəyəm". Davud dedi:

-"Mənim Allahım! Hansı bəndən belə yaxşı əməl gətirəcək və həmin əməlinə görə onu Behiştdə hakim edəcəksən?

Allah taala buyurdu:

-"Həmin şəxs müsəlman qardaşının ehtiyacını ödəmək üçün çalışan və yaxud onun çətinliyinin həll olmasını ürəkdən istəyən mömin bəndədir. İstər müsəlman qardaşının çətinliyi həll olsun, istərsə də həll olmasın".

4) Rəvəndinin "Qisəsül-ənbiya" kitabında bir hədisdə rəvayət olunur ki, Allah taala Davuda vəhy etdi: -"Ey Davud! Məni rahat və xoş günündə yada sal, təki mən də sənin duanı çətin günündə qəbul edim".

5) Kuleyni "Kafi" kitabında İmam Sadiqdən (ə) rəvayət edir ki, o Həzrət Ali-Davudun hikməti barədə buyurdu: -"Ağıllı adam gərək öz dinini tanısın, öz işini davam etdirsin və dinini qorusun."

6) Başqa bir hədisdə İmam Sadiq (ə) rəvayət edir ki, Allah taala Davuda vəhy etdi: -"Ey Davud! Necə ki, Allaha ən yaxın insanlar təvazökarlardır, eləcə də Allaha ən uzaq insan qürurlu insanlardır."

7) Vərram İbni Əbi Fəras "Tənbühül-xəvatir" kitabında rəvayət edir ki, Ali-Davud hikmətində yazılıb: "Ağıllı adama dörd saatdan qafil olmamaq vacibdir. Birinci saat Allaha ibadəti, ikinci saat öz hesab-kitabına yetişməsi, üçüncü saat mömin qardaşlarının yanına gedib onları öz eyblərindən xəbərdar

etməsi və dördüncü saat bəyənilmiş və halal ləzzətlərlə öz nəfsini bəhrələndirsin. Çünki, dördüncü saat qabaqkı saatlara kömək edir."

8) İbni Fəhd Hilli "Üddətüd-dai" kitabında yazır ki, Allah taala bu kəlmələri Davuda vəhy edib: "Ey Davud! Mən beş məsələni beş əmrə tabe etmişəm. Lakin camaat onu başqa beş şeydə axtarır və tapa bilmirlər. Mən elmi aclıq və çalışmaqda qoymuşam. Camaat isə onu toxluq və rahatçılıqda istəyir və tapa bilmirlər. İzzət və şərəfi ibadətdə, Allaha itaət etməkdə qoydum, camaat isə onu padşahlara xidmət etməkdə axtarır və tapa bilmirlər. Sərvət və ehtiyacsızlığı qənaətdə qoydum, amma camaat onun mal-dövlətin çoxluğunda axtarır və tapa bilmirlər".

10) Kuleyni "Kafi" kitabında İmam Sadiqdən (ə) rəvayət edir ki, Allah taala Davuda buyurdu: -"Ey Davud! Günahkarlara necə muştuluq verim və dostları nə ilə qorxudum?"

Allah taala buyurdu: -"Günahkarlara muştuluq ver ki, mən tövbələrini qəbul edir və onların günahlarını bağışlayıram. Dostları da qorxut ki, özlərindən razı qalıb qürurlanmasınlar. Çünki, mənim hesab-kitab ayağına çəkdiyim bəndə yalnız həlak olur."

XIX FƏSİL

# Süleyman(ə)

Süleymanın adı tarixdə mehriban peyğəmbər, ədalətli padşah və hikmətli bir alim kimi tanınıbdır.

Tarixçilərin çoxunun yazdıqlarına əsasən Davud peyğəmbər Süleymanı öz canişini seçəndə 13 yaşı var idi. Bu İmam Musa ibni Cəfərdən (ə) də bir hədisdə nəql olunubdur. Bəzi hədislərə əsasən Davud Süleymanı öz canişini edərək uşaq olduğuna görə alimlər və Bəni-İsrailin abidləri müxalifətçiliyə qalxdılar. Onlar dedilər:

-"Davud uşağı bizim xəlifəmiz edir, halbuki, bizim aramızda ondan böyüklər də var". Allah taala Davuda vəhy etdi:

-"Bir məclis qur, canişinlik iddiasında olanların əsasını, həmçinin Süleymanın əl çubuğunu alıb bir otağa qoy. Başqa bir gün əsaları otaqdan çıxartsınlar. Hər kəsin əsası yaşıl olsa o, Davudun xəlifəsi olacaq".

Bu işi gördükdən sonra ikinci gün otağa daxil oldular. Gördülər ki, Süleymanın əl çubuğu yaşıllaşıb.

Başqa hədislərdə isə Davudun Süleymanı öz canişini kimi seçməsinin səbəbini Süleymanın qəzavəti vurğulanıblar. O, uşaq ikən bir nəfər yer və bir nəfər qoyun sahibi barəsində qəzavət edibdir. Allah taala bu məsələni "Ənbiya" surəsində zikr edibdir. Həmin qəzavətin xülasəsi bundan ibarətdir ki, iki nəfər Davudun yanına gəldi. Onlardan biri dedi:

-"Mənim əkin yerim vardır. Oranı əkmişdim, əkinim məhsul verdikdən sonra bu kişinin qoyunları gecə gəlib onları yeyibdir.

Başqa rəvayətlərə görə, o üzüm bağı olubmuş. Üzümün salxımları təzə çıxarkən qoyunlar onu yemişdi.

Davud bu məsələyə qəzavət etmək üçün Süleymanı çağırdı. O, Süleymanla məşvərət etdi. Bəzi hədislərə görə bu barədə qəzavət etməyi Süleymanın öhdəsinə qoydu.

Davud onlara dedi:

-"Süleymanın yanına gedin, qoy o, bu barədə hökm versin".

Süleymanla məşvərət və ya qəzavəti onun öhdəsinə qoymağın səbəbi, Davud onun canişin olmağa ləyaqətli olduğunu Bəni-İsrailə sübut etmək üçün idi.

Süleyman hökm etdi ki, qoyunları əkin sahibinə, əkini isə qoyun sahibinə verin. Əkin öz əvvəlki vəziyyətinə çatana qədər əkin sahibi qoyunların südündən və yunundan istifadə etsin. Qoyun sahibi də əkin əvvəlki vəziyyətinə qaytarmağa çalışsın. Bununla da heç biri zərər çəkməsin.

Kuleyni İmam Sadiqdən (ə) nəql edir ki, Həzrət Davud Süleymana dedi: -"Nə üçün qoyunların özünü əkin sahibinə vermədin? Çünki Bəni-İsrailin alimləri belə qəzavət edirlər".

Süleyman dedi:

-"Qoyunlar əkin və ağacların kökünü yeməyiblər, gələn il əkin öz adi vəziyyətinə qayıdacaq".

Süleymanın belə hökmündən sonra ilahi vəhy Davuda nazil oldu. Allah taala ona buyurdu:

-"Hökm Süleyman etdiyi hökmdür".

Beləliklə, Süleymanın canişinliyə ləyaqət və istedadı Bəni-İsrail, o cümlədən Davudun digər övladlarına sabit oldu.

## SÜLEYMANIN İŞƏ BAŞLAMASI

Tarixçilər yazırlar ki, Süleymanın bir neçə qardaşı var idi. Lakin onların anası bir deyildi. Süleymandan yaşda böyük olduqları üçün atasının canişini olmaq iddiasını edirdilər.

Allah taalanın fərmanı ilə Davud Süleymanı canişin edən vaxt Abşalum adında bir oğlu narahat olaraq atası ilə müharibə etmək fikrinə düşdü. O, bir qoşun yığıb Davudla müharibəyə gəldi. Davud onun qorxusundan İordaniyanın şərqinə qaçdı. Abşalum qısa bir müddət Davudun səltənət taxtına çıxdı. Nəhayət, Davud Yuab adında bir nəfərin sərgüzəştləri ilə Abşalumla müharibə etməyə qoşun göndərdi. Abşalum həmin müharibədə öldü və Davud öz səltənətinə qayıtdı.

Davud dünyadan gedəndən sonra Süleymanın Ədvini adında qardaşı Abşalumun tərəfdarlarını başına toplayıb Süleymanla müharibəyə gəldi. Müharibədən sonra Ədvina da öldürüldü. Süleymanın səltənəti Bəni-İsrail arasında möhkəmləndi.

## ALLAH TAALANIN SÜLEYMANA BƏXŞ ETDİYİ NEMƏTLƏR

Allah taala Süleymana da atası Davud kimi, çoxlu nemətlər verdi. O cümlədən, peyğəmbərlik, səltənət, "məntiqüt-təyr" (quşların dili) elmi, qəzavət elmi, hikmət və alimlik, cinləri, divləri, şeytanları ram etmək... Digər nemətlər də şərh olunacaq. Təəssüf olsun ki, bu böyük peyğəmbərin əhvalatı və tarixi çox yerlərdə əfsanə yazanlar və xürafatçıların vasitəsilə dəyişilibdir. İsraliyyat (yəhudilərin yazdıqları qondarma hədislər) Həzrət Süleymanın tarixində çoxdur. Hətta o həzrətə yaraşmayan sözlər də tarixdə yazıblar.

Atası Davud haqqında da qondarma sözlər çoxdur. Biz Allah qoysa mötəbər hədislərlə onun tarixini açıqlayacağıq və Vəhb ibni Münbih, Kə'b kimi adamların nəql etdiyi qeyri-mötəbər hədisləri yazmayacağıq. Çünki onların nəql etdikləri hədislər daha çox əfsanə və xürafata oxşayır.

Bəli, qeyd etdiyimiz kimi Allah taala peyğəmbərlik və padşahlığı birlikdə Süleymana nəsib etdi. O, böyük, münbit və yeraltı mədənlərə malik olan ölkəyə, yəni Üqbə körfəzindən Fərat çayına qədər olan torpaqlara hökmranlıq edirdi. Həzrət Süleyman cinlər, şeytanlar və külək qüvvələrini öz ixtiyarı altında saxladığı üçün Beytül-Müqəddəs, məşhur heykəl kimi əzəmətli binalar və əsərlər özündən iz qoydu. İndiyə qədər həmin tarixi abidələrin çoxunu Fələstin və Şamat torpaqlarında müşahidə etmək olar. Müəllif bəzi tarixi abidələri yaxından görübdür. Belə uca tikintilərin divarlarındakı nəhəng daşları görən şəxs üçün onun gözə görünməyən qüvvələrin gücü ilə tikilməsində heç bir şəkk-şübhə qalmır.

## BEYTÜL-MÜQƏDDƏSİN TİKİLİŞİ

Bəzi tarixçilər Beytül-Müqəddəsin tikilişini Davuda aid olduğunu deyirlər:

Davudun dövründə bir dəstə insan taun xəstəliyinə düçar olmuşdular. Davud indiki "Məscidul-Əqsa" məkanında mələklərin oradan səmaya getdiklərini müşahidə etdiyi üçün camaatı oraya dua etmək məqsədilə gətirdi. Taun xəstəliyinin məhv olması üçün Allah dərgahına dua etdi. Allah taala onun duasıyla həmin xəstəliyi aradan götürdü. Ondan sonra Davud həmin məkanda məscid tikməyin hökmünü verdi. Özü də məscidin tikintisində yaxından iştirak etdi. Lakin tikinti tam qurtarmamış Davud dünyasını dəyişdi. O, işi axıra qədər davam etdirməyi Süleymana vəsiyyət etdi. Başqa bir fərziyyəyə əsasən, Davud özü Beytül-Müqəddəs şəhərini tikəndən sonra həmin yerdə bir məscid tikərək işi axıra yetirdi. O, çoxlu qızıl və cəvahiratla məscidin divarlarını, günbəzini bəzədi. Məscidin tikilişi qurtarandan sonra böyük bayram edərək çoxlu qurbanlar kəsdilər.

Tarixçilərin bir dəstəsi isə bu əqidədədirlər ki, Davud məscidi tikmək ərəfəsində idi. Lakin Allah taala ona vəhy etdi ki, bu iş sənin əlinlə yerinə yetrilməyəcək. Məscidin tikilməsini oğlun Süleymana tapşır. Burada başqa bir tarix də vardır. Amma mənim nəzərimcə bu düzgün olmayıb heç bir e'tibara malik deyil. O da bundan ibarətdir ki, Davud Beytül-Müqəddəs məscidinin tikilişinə aid olan hər bir şeyi hazırladı. Amma Süleyman özü onu tikdi. Məscidə alınan şeylər aşağıdakılardan ibarətdir:

1) Yüz min qızıl pul;

2) Bir milyon gümüş pul;

3) Çoxlu dəmir və mis.

Onun gümüşünün qiyməti bu günkü 342000000 və qızılının qiyməti 889500000 İngilis funt-sterlinqinə bərabərdir. Süleyman səltənətinin dördüncü ilində heykəlin (Beytül-Müqəddəsin məbədi) tikilişini başladı. Orada 183600 nəfər işləyirdi. Bu məbədin tikintisi yeddi il yarım çəkdi. Miladdan 1005 il öncə tikinti başa çataraq dünyanın ən gözəl binasına və Uruşəlimin iftixarına çevrildi. Təbərsi "Məcməül-Bəyan" kitabında Cubaidən nəql edir ki, Allah taala taun xəstəliyini Bəni-İsrailə göndərdi. Bir gündə çoxlu insan həlak oldu. Davud onlara hökm verdi ki, qüsl edib arvad-uşaqla səhraya gedin və orada ağlayıb Allahdan kömək istəyin. Qeyd olunan səhra həmin yerdir ki, Bəni-İsrail sonra orada məscid tikdi. Davud özü də böyük və uca bir daşın (həmin daş indi də qalır) üstünə çıxıb səcdədə Allah dərgahına ağlayaraq kömək istədi. Bəni-İsrail də onunla səcdə edib ağladı. Hamı alınlarını səcdədən götürməmiş taun xəstəliyi onların arasından getdi. Üç gün bu hadisədən keçəndən sonra Davud onları bir yerə toplayıb dedi:

-"Allah taala sizin boynunuza minnət qoydu və məhəbbət göstərdi. İndi isə siz bu nemətə şükür etməyə gəlin və duanız qəbul olan məkanda məscid tikin."

Bəni-İsrail Davudun göstərişinə əməl etdi və Beytül-Müqəddəsi tikməyə başladı. Davud özü də daşı çiyninə qoyub işə başladı. Bəni-İsrailin arasında olan böyük şəxsiyyətlər və yaxşı insanlar bunu görüb Davuda qoşuldular. Onlar daş gətirib məscidin divarını iki metrəyə qədər tikdilər. Həmin vaxt Davudun ömründən 127 il keçmişdi. Allah taala Davuda vəhy etdi ki, məscidin tikintisi oğlun Süleymanın əliylə axıra çatdırılacaq.

Davud 140 yaşına çatandan sonra Süleymanı öz yerinə canişin qoydu. Sonra isə özü dünyadan getdi. Süleyman da cinləri və şeytanları yığıb tikinti işlərini onların arasında böldü. Hər dəstəyə bir iş tapşırdı. Cinlər və şeytanlardan bir dəstəsinə mərmər və büllur daşları yerin altından çıxardıb gətirməyi tapşırdı. Süleyman Beytül-Müqəddəs şəhərinin ağ mərmər daşlarla tikilməsinə hökm verdi. Onun üçün on iki qala tikdilər. Bəni-İsrail tayfalarının hər birini bir qalada yerləşdirdi. O, şəhərin tikintisi qurtarandan sonra məscid tikməyə başladı. Cinləri və şeytanları dəstə-dəstə qızıl, cəvahirat çıxartmağa göndərdi. Bir dəstəni də onaları Beytül-Müqəddəsə daşımağa ayırdı. Başqa bir dəstə isə müşk, ənbər və sair ətrləri onun üçün gətirirdi. Digər bir dəstəyə isə dəryaların dibindən mirvarid daşlarını çıxardıb gətirməyi əmr etdi. Nəhayət, o qədər mədən daşları, qızıl, cəvahirat və sair qiymətli daşlar gətirdilər ki, onların sayını Allahdan başqa heç kəs bilmirdi. Süleyman daşları memarlara yondurdu. Sonra məscidin divarını ağ, sarı və yaşıl daşlarla tikdi. Məscidin sütunlarını büllur mərmər daşlardan düzəltdi. Onun divar və tavanını cürbəcür ləl-cəvahiratla bəzədi. Məscidin yerini isə lay-lay firuzə daşlarla döşədi. Yer üzündə oradan gözəl və parlaq yer yox idi. Elə düzəldilmişdi ki, hətta qaranlıq gecədə on dörd gecəlik ay kimi parıldayırdı. Süleyman məscidi tikəndən sonra Bəni-İsrailin böyük şəxsiyyətlərini, ağsaqqallarını bir yerə toplayıb dedi: -"Mən bunu Allah üçün tikmişəm." Məscidin tikintisi qurtaran günü bayram tutdu. Beytül-Müqəddəs, Bəxtünnəsr Bəni-İsraillə müharibə edənə qədər abad idi. Lakin müharibədə şəhəri viran etdilər. Sonra Bəxtünnəsr məscidi dağıtmağa hökm verdi. Məscidin tikintisində işlədilmiş bütün qızıl-cəvahiratı yığıb İraq məmləkətindəki öz ölkəsinin paytaxtına apardı.

Cubainin Beytül-Müqəddəs və Məscidül-Əqsa haqqında yazdığı tarix bura qədərdir. Biz də coğrafiya alimlərindən və tarixçilərdən nəql etdiyimiz xəbərlərlə bura qədər kifayətlənirik. Yaxşı olardı burada qeyd edək ki, Beytül-Müqəddəs nə ticarət yönümlü şəhər idi, nə də ki, bir o qədər əkinçilik nöqteyi-nəzərindən münasib idi. Lakin tarix boyu başqa şəhərlərdən çox bu şəhər daha artıq hücum və qarətə məruz qalıb. Dəfələrlə şəhəri yandırıb camaatı kütləvi surətdə öldürüblər. Dəfələrlə bu şəhər üstündə yəhudi, məsihi, müsəlmanlar arasında müharibə olub və indiyə qədər də onun hakimiyyəti üçün dava-dalaş, ölüm-itim davam edir. Gələcəkdə də bu şəhərin müqəddəratı məlum deyil. Ümumiyyətlə xristianların vasitəsilə bu şəhərdə baş verən müharibələr (Xaç döyüşlərində), onların müsəlman uşaq, qadın və günahsız insanları faciəli surətdə öldürməsi tarixdə misilsizdir. Orada baş verən bəzi hadisələri qələm yazmağa həya edir. Biz burada nümunə üçün Fransa yazıçısı Qustav Lubonun kitabından bəzi hadisələri yazırdıq. O, özü xristian olubdur və bu hadisələri öz gözü ilə görən Lupoy şəhərinin keşişlərindən biri olan Reymond Dacildən nəql edir. Reymond Dacil xristianların Beytül-Müqəddəsdə vəhşicəsinə etdikləri rəftarlarını yaxından müşahidə edibdir. O, öz müşahidələrini kitabında belə yazmışdır.

"Bizim qoşun Beytül-Müqəddəs şəhərinin qalalarını tutanda şəhərin müsəlman xalqını qorxu bürümüşdü. Qoşun camaatın başını bədənindən ayırırdı. Bu onların ən kiçik cinayətlərindən idi. Bəzi insanların qarınlarını yırtırdılar. Yəni uzun müddət zülm və işkəncə altında saxlayandan sonra küçələrində, meydanlarında müsəlmanların kəsilmiş başlarından və ayaqlarından düzəlmiş təpələrdən başqa heç nə görünmürdü. Cənazələr qoşunun ayaqları altında qalırdı. Hələ bunlar müsəlmanların başına gələn kiçik müsibətlər idi. Doğrudan da, bizim qoşun "Süleyman heykəlində" misilsiz qan tökdülər. Bir tərəfdə yaralılıra öz qanına batıb əl-ayaq çalırdılar, bir tərəfdə isə bədənlərindən üzülmüş qol-qıçlar elə bil ki, zikr edir və hər biri bir bədənə birləşmək istəyirdi. Cənazələri bir-birindən ayırmaq qeyri-mümkün idi. Arası kəsilmədən insanları rəhimsizcəsinə öldürən qoşun qanların buxarından zəhmətə düşmüşdü.

Səlib döyüşçüləri buna kifayətlənmədilər. Onlar məclis qurub bu qərara gəldilər ki, Beytül-Müqəddəsin bütün sakinlərini istər müsəlman, istər yəhudi, istərsə də məsihiləri nabud etsinlər. Şəhər sakinlərinin sayı 60 minə yaxın idi. Qoşun səkkiz gün insanları kütləvi şəkildə qırdı. Hətta uşaqlara, qadınlara və qocalara da rəhm etmədilər. Hamını iti qılınclarla doğradılar.

Sonra onlar öz yorğunluqlarını almaq üçün bir sıra çirkin işlərə əl atdılar. Onlar şərab içib məst olur və küçələrdə qışqır-bağır salırdılar. Ümumiyyətlə, xristian tarixçiləri xaç döyüşçülərinin cinayətlərindən göz yumublar. Lakin onların bu çirkin əməllərindən qəzəbləniblər. "Bernard Xazen" onları dəliyə oxşadıb "Del" keşişlərinin rəhbəri "Budan" öz nəcislərinə bulaşan heyvanlara bənzətmişdir.

## SÜLEYMANIN BAŞQA TİKDİKLƏRİ BİNALAR

Qur'anda "Ənbiya", "Səba" və "Sad" surələrində Süleymanın fərmanıyla cinlər və şeytanların tikdikləri əzəmətli binalar, məbədlər, daş hovuzları, böyük qazanlar və sair tikintilərə qısa işarə olunubdur. Tövratda nəql olunur ki, Süleymanın əli ilə tikilən imarətlər bundan ibarətdir: Beytür-Rəb, Beytül-Mülk, Urşilim divarı, Hasur, Məcdu, Çarz, Beyti Hurun Sufla, Bələ və Tədmur. Banlardan başqa o Həzrət böyük xəzinələr və məmləkətin ətrafında əsgər bazarları, əsgər düşərgələri düzəltmişdi. Həmçinin Livanda da o Həzrətdən çoxlu binalar yadigar qalıbdır. Yemək və qoşunlara su vermək üçün düzəldilmiş böyük qazan və su hovuzları haqqında maraqlı sözlər nəql olubdur. O cümlədən yazırlar ki, hər qazanın başına min kişi toplaşıb yemək yeyirdi.

Müasir yazıçılardan biri Süleymanın padşahlıq taxtı və səltənət sarayı haqqında yazır: Süleymanın dövründə böyük əhliyyətə malik olan binalardan biri onun sarayı idi. Bu saray qiymətli daşlarla tikilmiş və rəngbə-rəng cəvahirlərlə, filizdən düzəldilmiş heyvan və ağac timsallarıyla bəzədilmişdi. Sarayda gözəl və əzəmətli taxt vapr idi. Bu taxtı qızıl, fil sümüyü və cəvahirlə bəzənmiş qiymətli çubuqlarla düzəltmişdilər. Taxtın hər iki tərəfində iki şir və üstündə iki kərkəs heykəli görünürdü. Həzrət Süleyman taxta çıxanda şirlər əllərini açır və o, ayaqlarını onun üstünə qoyurdu. Elə ki, taxtda əyləşirdi kərkəslər qanadlarını Süleymanın başı üstündə açırdılar. Bu taxt haqqında tarixçilər və müfəssirlər bir-birindən fərqli sözlər nəql edirlər.

Bəzi tarixçilər misilsiz imarətlər və təəccüblü daş qalalara malik olan Bələbək şəhərinin də Süleymanın vasitəsilə tikilməsinə mötəqiddirlər. Yaqut Həlləvi deyir: O şəhərdə maraqlı binalar, böyük əsərlər və mərmər daşından tikilmiş sarayların dünyada misli yoxdur. İndinin özündə də dünyanın hər yerindən oraya gedir və maraqlı tarixi abidlərə yaxından müşahidə edirlər.

## SÜLEYMANIN BƏSATI VƏ KÜLƏYİN ONUN İXTİYARINDA OLMASI

Qur'anda Süleymanın bəsatından ad aparılmayıb, yalnız bəzi rəvayətlərdə bu haqda söhbət açılıbdır. Bəsatın necəliyi, eni və uzunluğu haqqında Vəhb ibni Munəbbih və Kə'b əfsanəvi sözlər deyiblər. O cümlədən nəql edirlər ki, həmin bəsat ağacdan düzəldilmişdi. Onun eni və uzunluğu bir neçə kilometr idi. Neçə min oturacağa malik olubdur. Süleymanın qoşunu da ona minirdi. Süleymanın hökmü ilə külək bəsatı hərəkətə gətirirdi. Bir aylıq yolu səhərdən günortaya qədər, günortadan axşama qədər də bir aylıq yolu gedirdi. Beytül-Müqəddəsdən hərəkət edib günortanı İstəxrdə (Şiraz ölkəsi) və şamı Xorasanda yeyirdi... Bunları və buna oxşar sair sözlər nə Qur'anda, nə də mötəbər hədislərdə zikr olmayıbdır. Qur'anda "Ənbiya", "Səbə" və "Sad" surələrində bu haqda xəbər verilibdir. Ola bilsin ki, bəzi şəxslər həmin xəbəri şişirdərək ondan əfsanə düzəldibdir. Lakin bu ayələrdə Allah taala yalnız küləyi Süleymanın ixtiyarında qoymasını buyurubdur. "Ənbiya" surəsində belə buyurur:

-"Əmrilə bərəkət verdiyimiz yerə (Şama) doğru şiddətlə əsən küləyi də Süleyman üçün biz ram etdik. Biz hər şeyi bilənik!" ("Ənbiya" surəsi, ayə 81).

"Süleyman üçün də küləyi ram etdik. O (külək), səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol gedirdi. (Bir gündə iki aylıq məsafə gedirdi.)" ("Səba" surəsi, ayə 12).

"Sad" surəsində buyurur:

-"Biz küləyi ona ram etdik. Külək onun əmri ilə istədiyi yerə rahatca gedirdi." ("Sad" surəsi, ayə 36).

Bu ayələrdən ümumi formada başa düşürük ki, külək Süleymanın fərmanı altında idi. O, mələklərin idarəsi, müharibə işləri, tikinti və sair işlərdə küləkdən istifadə edirdi. Necə ki, cinlər və şeytanlar onun əmri altında idilər. Onlar da Süleyman üçün böyük daş sütunlar və qazanlar düzəldirdilər. Ola bilsin ki, o, xəbərləri çatdırmaq üçün sürətli küləkdən və hava dalğalarından istifadə edirdi. Necə ki, bəzi rəvayətlərdə buna işarə olubdur. Əlbəttə, mümkündür ki, Süleymanın özü, ya onun məmur və bəzi qoşunları da külək qüvvəsindən istifadə edibdir. Onun vasitəsilə məmləkətin lazım olan yerinə gedirdilər. Ya da onların düzəltdikləri hər hansı bir aləti külək istədikləri tərəfə aparırdı. Lakin nəql

olunmuş bəzi xəbərlər həqiqətdən uzaqdır. Ümumiyyətlə, Süleyman belə bir bəsata və o cür səfərlərə ehtiyacı yox idi. Bundan əlavə Süleymanın qarışqa ilə söhbəti və həmin qarışqanın başqa qarışqalarla etdiyi söhbətdən başa düşürük ki, Süleymanın qoşunu ilə hərbi səfərləri havada yox, yer üzündə olmuşdur.

## SÜLEYMAN VƏ QARIŞQA

Qur'ani-Kərimdə "Nəml" (Qarışqa) adında surə nazil olubdur. Bu surənin "Nəml" adlanmasının səbəbi Süleymanla qarışqanın əhvalatıdır. Allah taala bu əhvalatı bir neçə ayədə zikr edibdir. Həmin ayələrin tərcüməsi bundan ibarətdir:

Nəhayət, onlar (Taifdəki, yaxud Şamdakı) qarışqa vadisinə gəlib bir qarışqa (qarışqaların padşahı) dedi: -"Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!"

(Süleyman qarışqanın) bu sözündən gülümsəyib dedi: -"Ey Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Və məni Öz mərhəmətinlə saleh bədənlərinin sırasına daxil et!" Sonra (Süleyman) quşları yoxlayıb dedi: -"(Torpaq altında suyun harada olduğunu bilən) hüdhüdü (şanapipiyi) niyə görmürəm? Yoxsa o burada yoxdur?"

Müfəssirlər yuxarıdakı ayələrin təfsirində bir neçə məsələyə işarə ediblər:

1) Müfəssirlərdən bir dəstəsi deyirlər: -"Yuxarıdakı ayələrdən belə başa düşürük ki, Süleyman və qoşunu, istər piyada, istərsə də atlı, səmada yox, yerdə gedirlər. Əgər səmaya getsəydilər qarışqalar ayaq altında qalmaqdan qorxmazdılar. Düzdür, bəzi rəvayətlərdə qeyd olunur ki, qarışqanın sözünü külək Süleymanın qulağına səmada çatdırdı. Ondan sonra küləyə hökm verdi ki, bəsatı saxlasın və qarışqanı onun yanına gətirsinlər.

2) Bu ayələrdən başa düşürük ki, Süleyman quşların dilindən əlavə, başqa heyvanlar və həşəratın dilini də başa düşürdü. Düzdür, bəzi alimlər deyirlər ki, həmin qarışqalar qanadlı qarışqalardan olduğu üçün quşların cərgəsinə daxildir. Buna görə də Süleyman yalnız quşların dilini başa düşürdü.

3) Müfəssirlər "Nəml" səhrasının harada olduğu barədə bir-birindən fərqli sözlər deyiblər. Bəziləri Şamda, bəziləri Yəməndə və bəzi təfsirçilər onun Hind və ya Tibet ölkəsində olduğunu deyiblər.

Yaqut Həməvi və İbni Bətutə "Nəml" səhrasının Əqəlan torpağında olduğunu bildirirlər. Bu şəhər Şamın ən gözəl şəhərlərindən biridir. Əbdülvəhhab Nəccar və bəzi başqa yazıçılar da bu nəzəriyyəni qəbul edirlər. Əli ibni İbrahim öz təfsir kitabında İmam Sadiqdən (ə) rəvayət nəql edir ki, Allah taalanın qızıl və gümüşlə dolu bir ölkəsi vardır. Həmin yeri ən zəif məxluqları, yəni qarışqaların vasitəsilə qoruyur.

4) Ümumiyyətlə, deyilir ki, Süleyman qarışqanın sözündən təəccüb etdiyinə görə təbəssüm etdi. Ondan sonra dayanıb qarışqanı çağırdı və onunla söhbətə başladı. Qarışqa o həzrətdən bəzi sualları soruşdu. Onların arasında söhbətlər oldu. O cümlədən Süleyman qarışqaya buyurdu: -"Ey qarışqa! Sən bilmirsənmi mən Allahın peyğəmbəriyəm və heç kəsə zülm etmərəm?" Qarışqa cavab verdi:

-"Niyə!" Süleyman buyurdu:

-"Bəs nə üçün mənim gəlişimdən qarışqaları qorxutdun? Nə üçün onlara dedin ki, evlərinizə daxil olun, Süleyman qoşunu ilə gəlir? Onlar sizi tapdalamasın." Qarışqa dedi:

-"Qorxdum ki, qarışqalar sənin cah-cəlalına valeh olub Allahın zikrindən uzaqlaşarlar."

Fəxr Razi qarışqanın cavabını belə nəql edir: -"Onlara dedim ki, evlərinizə gedin, təki Allah sənə verdiyi nemətləri görməsinlər və ilahi nemətlərə naşükürlük etməsinlər."

Şeyx Səduq "Mən la yəhzurul fəqih" kitabında və Məsudi "İsbatul-vəsiyyə" kitabında Süleymanla qarışqanın əhvalatı haqqında başqa bir rəvayət nəql edirlər. Onun xülasəsi bundan ibarətdir:

Süleymanın dövründə bir dəfə camaat qıtlıq və quraqlığa düçar oldu. Camaat Süleymandan xahiş etdi ki, yağış yağmaq üçün Allaha dua etsin. Süleyman səhabəsi ilə şəhərdən çıxdı. Onlar bir yerə çatdılar. Allahdan yağış istədilər. Oradan keçərkən Süleymanın gözü bir qarışqaya sataşdı. Gördü ki, həmin qarışqa əllərini göyə qaldırıb dua edərək deyir: -"Ey mənim Allahım! Biz də sənin məxluqunuq və sənə möhtacıq. Bəs bizi Adəm övladlarının günahlarına görə həlak etmə!"

Süleyman bu vaxt üzünü yoldaşlarına tutub dedi: -"Qayıdın! Siz də başqalarının bərəkəti hesabına sirab oldunuz."

Həmin il hər ildən çox yağış yağdı.

## SÜLEYMAN VƏ ATLARIN MANEVRİ

"Sad" surəsində sürətli külək atlarının Süleymana təqdim olunması haqqında söhbət açılıbdır. Bu da fikircə fərqli təfsirlərə səbəb olubdur. Şərif ayələrin mətni bundan ibarətdir:

"Biz Davuda Süleymanı bəxş etdik. Nə gözəl bəndə! O daim Allaha sığınan bir kimsə idi. (Onun rizasını) qazanmaq diləyərdi. (Bir gün) axşamüstü ona cins (bir ayağını dırnağı üstünə qoyub, üç ayağı üstündə duran), çapar atlar göstərildiyi zaman. O, dedi: -"Mən gözəlliyi (bu atları) Rəbbimin zikrindən (Tövratdan) çox sevirəm (çünki Allahın dinini qüvvətləndirmək üçün bir cihad vasitəsi kimi onların tərifi Tövratda mövcuddur). Nəhayət, (o atlar Süleymanın gözündən) qeyb olub gizləndi". (Süleyman dedi:) "Onları (atları) mənə qaytarın!" (Atlar qaytarılıb gətirildikdən sonra) onların qıçlarını və boyunlarını sığallamağa başladı.

Bu ayələrin təfsirində bilmək lazımdır ki, Süleyman peyğəmbər (ə) düşmənləri məhv etmək və ölkəsini genişləndirmək üçün çoxlu müharibələr etdi. Buna görə də atların tərbiyə olunmasına, müharibə sursatlarına və döyüşçü yetişdirməyə ciddi yanaşırdı. Allah taala da ona kömək etdi. Məharətçi əsgərlərdən əlavə cinlər, şeytanlar, quşlar, hətta külək də ona ram olmuşdu. Müharibə texnikasında o vaxt tərbiyə olunmuş sürətli atlar düşmənə qələbə çalmaq üçün daha böyük əhəmiyyətə malik idi. Elə ona görə də Süleyman Allah yolunda, müqəddəs tovhid məqsədi üçün və ilahi dinin yayılması xatirinə müharibəyə çox meyl göstərdiyinə görə, belə atları hazırlayırdı. Yuxarıdakı ayələr də hər bir təfsir və izahatdan qabaq bu məsələni vurğulayır, Süleymanın müharibə atlarının tərbiyəsinə, məharətli at minənlər və əsgərlərin manevr verməsinə ciddiyyət göstərdiyini yada salır.

Bu ayələrin başqa hissələrində və işarə əvəzlikləri barəsində fərqli fikirlər irəli sürülübdür. Əlbəttə, bəzən də Süleymanın (ə) peyğəmbərlik məqamına yaraşmayan sözlər də deyilibdir. Bu da peyğəmbərlik məqamı ilə heç də uyğun gəlmir. O cümlədən, guya Süleyman (ə) zülm edibdir. İmamlarımız (ə) bu sözləri qətiyyətlə təkzib ediblər. Misal olaraq Kə'bin nəql etdiyi saxta sözü yazırıq. Kə'b deyir ki, Süleyman atlara baxmağa başı qarışmışdı. Gün batdı. Onun əsr namazı qəzaya getdi. Süleyman qəzəblənib hökm verdi ki, atları geriyə qaytarın. Qisas almaq məqsədilə min və ya mindən çox atın başını kəsdirdi... Kə'b başqa dastanlar da bunun ardınca nəql edir. Lakin onun dediklərinin heç biri həqiqətə uyğun deyil. Lakin imamların (ə) rəvayətinə əsasən Süleyman (ə) atların manevrinə başı qarışdığı üçün əsr namazı qəzaya getdi. Bu vaxt Allahın hökmü ilə Günəşə vəkil olunmuş mələklər Günəşi geri qaytardılar və Süleyman peyğəmbər səhabəsi ilə əsr namazını qıldı.

İmamlar bu təfsirdə "təvarət" və "rudduha" kəlmələrindəki əvəzliklərin Günəşə aid olduğunu bildiriblər. Bu təfsir ayənin əvvəli, axırı və cümlələrin arasındakı münasibəti riayət etdiyinə görə ən yaxşı təfsirdir. Süleyman (ə) üçün "Günəşin geri qayıtması", ilahi peyğəmbərlər və onların vasitələrinin möcüzələrini sübut edəndən sonra sadə bir məsələdir. Bizim rəvayətlərdə bunun oxşarı Yuşə ibni Nun və Əli ibni Əbi Talib (ə) üçün də zikr olubdur.

Müfəssirlər başqa təfsirlər də ediblər. Bəzi təfsirlər diqqəti özünə cəlb edir. Misal üçün deyirlər ki, "təvarət" və "rudduha" kəlmələrindəki əvəzliklər atlara qayıdır. Belə olan surətdə ayənin təfsiri aşağıdakı kimi olur:

Süleyman atları təhvil alanda onları çapmaq hökmünü verdi ki, atların yolu tapmaq üçün sürətini yoxlasın. Süleymanın göstərişi ilə atları çapmağa başladılar. Atlar sürətlə gedərək Süleymanın gözündən itdilər. Sonra Süleyman (ə) onların geriyə qaytarılmasına hökm verdi. Atları qaytardılar. Süleyman ayağa qalxıb atların boynunu və ayaqlarını tumarladı.

Bu təfsirdə yalnız Süleymanın dediyi aşağıdakı cümlənin mə'nası qaranlıq qalır. Bu cümləni də belə mə'na edirlər ki, Süleyman dedi: -"İndi mən atların qaçışına tamaşaya gəlmişəm. Onları imtahan və tərbiyə etməyi sevirəm. Bu da öz nəfsi istəyinə görə yox, Allahın zikri və Onun dinini yaymaq üçündür.

Bu təfsirə görə "təvarət" kəlməsindəki əvəzliyi Günəşə və "rudduha" sözündəki əvəzliyi isə atlara qaytarmaq mümkündür. Bu təfsirdə heç bir irada düçar olmuruq.

## SÜLEYMAN VƏ BİLQEYS

Mübarək "Nəml" surəsində Süleymanla Səba mələkəsinin əhvalatı geniş zikr olunubdur. Tarixçilər və təfsirçilərin dediyinə görə, Səba mələkəsinin adı Bilqeys (Şərahil ya Şərəhbilin qızı) idi. Biz Süleymanın Bilqeyslə əhvalatını Qur`ani-Kərimin ayələri və tarixçilərin, müfəssirlərin sözləri və hədislərlə gətirəcəyik. Bəzi kitablardakı əfsanə və həqiqətdən uzaq məsələlərə də toxunacağıq.

Süleyman Beytül-Müqəddəsin tikintisini qurtardıqdan sonra həccə getdi. O, bir dəstə adamla Məkkəyə gedib Kə'bə evini ziyarət etdi. O, Misirin qiymətli "Qubati" parçalarıyla Kə'bə evinə örtdü. Bir müddət orada qalandan sonra öz ölkəsinə qayıtmağı qərara aldı.

Bundan qabaq dedik ki, Süleyman quşların dilini başa düşürdü. İstəsəydi hər vaxt onları iş dalınca görderirdi. Quşlar da cinlər, şeytanlar və külək kimi ona ram olmuşdular.

Süleyman Məkkədən qayıdarkən yolda su axtardı, lakin tapa bilmədi. Süleyman bu məsələni həll etmək üçün quşlara diqqət yetirdi. Ona suyu tapmaqda kömək edə bilən şanapipiyi orada görmədi. Süleyman and içdi ki, əgər şanapipiyin orada olmaması üzürsüz olsa, onu cəzalandıracaq və ya kəsəcək.

Bir az keçmişdi ki, şanapipik gəldi və dedi: -"Elə bir şey öyrənmişəm ki, sənin ondan xəbərin yoxdur. Sənin üçün "Səba"dan xəbər gətirmişəm. Mən orada bir qadın gördüm. O, Səba xalqına hökmranlıq edir. Onun böyük qüdrəti, taxt-tacı vardır. Lakin onlar Allahın əvəzinə Günəşə sitayiş edirlər. Şeytan bu işi onların gözündə cilvələndirir və haqq yolundan uzaqlaşdırır. Doğrusu, nə üçün onlar yeri-göyü yaradan, gizli və aşkarı bilən Allaha ibadət etmirlər. Halbuki, bir olan Allahdan başqa Allah yoxdur. O, böyük ərşin Allahıdır.

Süleyman şanapipiyin sözlərini və üzrünü eşidəndən sonra buyurdu:

-"Biz bu haqda axtarış aparacağıq, görək ki, sən düz danışırsan, yoxsa yalan. Sonra bir məktub yazdı. Onu möhürləyəndən sonra şanapipiyə verib buyurdu: -"Mənim bu məktubumu aparıb onların yanına at. Məktubu atan kimi oradan uzaqlaş və bir tərəfdə otur. Sonra qulaq as gör onlar nə deyirlər!"

Şanapipik məktubu alıb gətirdi. Bilqeysin yanına atdı. Səba padşahı məktubu oxudu. O, məmləkətin böyük şəxsiyyətlərini və qoşun başçılarını bir yerə toplayıb dedi: -"Mənim əlimə hörmətli bir məktub düşüb. Bu Süleymanın məktubudur. Məktubda bu bir neçə cümləni yazıbdır: -"Bismillahir Rəhmanir Rəhim. Məndən özünüzü üstün tutmayın və itaət məqsədi ilə yanıma gəlin!"

Bilqeyis məktubu oxuyandan sonra onların fikrini bilmək istədi və dedi: -"İndi deyin nə edək? Mən sizin məsləhətiniz olmadan heç bir iş görməyəcəyəm."

Səba məmləkətinin böyükləri və Bilqeysin qoşun başçıları öz qüdrətlərinə öyünürdülər. Onlar dedilər: -"Biz hər bir nöqtəyi-nəzərdən qüdrətli və müharibəyə hazırıq. Amma iş sizin əlinizdədir və biz sizin fərmanınıza tabeyik. Sizin fikriniz və hökmünüz nə olsa biz əməl edəcəyik."

Səba padşahı dərin fikrə daldı. Onların öyünməsinə heç bir əhəmiyyət vermədən işi hər tərəfli nəzərdən keçirtdi. Sülhü müharibədən üstün tutdu. Müharibə və döyüşdən hasil olan ziyanları gözünün qabağına gətirib dedi:

-"Padşahlar bir şəhərə daxil olanda və müharibə ilə onu fəth edəndə xarabaya çevirirlər. Şəhər camaatının, hörmətli, əziz insanları xar və təhqir edirlər. Onların işi budur. Mən məsləhət görürəm ki, onlar üçün hədiyyə göndərək. Sonra görək bizim nümayəndələrimizi necə qarşılayırlar və göndərdiyimiz heyət nə xəbər gətirəcək. Onlar bizim hədiyyəmizi qəbul edəcəklər, ya yox?

Təfsirçilər yazırlar ki, Bilqeys bu yolla Süleymanın padşah, ya peyğəmbər və ilahi elçi olub-olmamasını yoxlayırdı. Çünki Bilqeys yaxşı bilirdi ki, padşahlar mal-dövlətdən, hədiyyədən xoşları gəlir və qəbul edirlər. Lakin ilahi peyğəmbərlər onu qəbul etməyib geri qaytarırlar.

Bilqeys Süleymana gördərdiyi hədiyyənin nə olduğu haqda tarixçilər və müfəssirlər müxtəlif sözlər yazıblar. Ümumi sözlərdən belə çıxır ki, həmin hədiyyə çoxlu qiymətli ləl-cəvahir, nökər və gözəl kənizlərdən ibarət idi. Bu hədiyyələri ağıllı və böyük şəxsiyyətlərlə Süleyman üçün göndərdi.

Şanapipik Bilqeysin nümayəndələri gəlməmişdən qabaq özünü Süleymana çatdırdı. Ona lazım olan xəbərləri dedi. Süleyman da Bilqeysin göndərdiyi nümayəndələri qəbul etmək və onlarla necə rəftar edəcəyi üçün özünü hazırladı. Bəzi tarixi sənədlərə görə Süleyman sarayı bəzəmək hökmünü verdi. Onun qoşunu hədiyyə gətirən qonaqların saraya daxil olduqları zaman onların qarşısında sıraya düzüldülər təki Süleymanın qüdrət və zəhmi onları qorxuya salsın.

Bilqeysin nümayəndələri Beytül-Müqəddəs şəhərinə daxil oldular. Onlar şəhərdə olan bütün gözəllikləri, əzəmət və cəlalı müşahidə etdikcə mat-məəttəl qaldılar. Gətirdikləri hədiyyəyə həqarət

gözü ilə baxır və utanırdılar. Sonra Süleymanın böyük səltənət sarayına daxil oldular. Gətirdikləri çoxlu hədiyyələri Süleymana təqdim etdilər. Süleyman isə onların hədiyyələrini qəbul etmədi. Onlara dedi: -"Mənə mal-dövlətlə kömək edirsiz? Allahın mənə bəxş etdiyi nemət sizin hədiyyələrinizdən daha yaxşıdır. Siz özünüz belə hədiyyələrlə öyünür və şad olursunuz. Mən heç vaxt mal-dövlətə tamah etməyəcək və haqqa dəvət etməkdən, Allaha pərəstiş etməkdən əl çəkməyəcəyəm!"

Daha sonra buyurdu: -"Səba xalqının yanına qayıdın! Mən onlarla müharibəyə elə bir qoşun göndərəcəyəm ki, müqavimət edə bilməyib öz ölkələrini tərk edib gedəcəklər."

Bilqeysin nümayəndələri öz hədiyyələrini götürüb onun yanına qayıtdılar. Onlar gördüklərini və eşitdiklərini danışdılar. Bilqeys başa düşdü ki, Süleymanla müharibə etməyə qüdrəti yoxdur. Buna görə də təslim olub məmləkət başçıları ilə Süleymanın yanına getdi.

Cəbrayıl Bilqeysin qərarını Süleymana çatdırdı. Süleyman Allahın ona verdiyi nemətləri Bilqeysə göstərmək üçün, ya bəzi tarixçilərin dediyinə görə, öz peyğəmbərliyini möcüzə yolu ilə ona sübut etmək üçün və ya Bilqeysin ağıl və zirəkliyini yoxlamaq məqsədiylə Bilqeysin qiymətli böyük taxtını Yerusəlimə, öz yanına gətirmək istədi. O, köməkçilərinə, qoşununa və yaxın dostlarına buyurdu: -"Onlar bura gəlməmiş hansınız Bilqeysin taxtını mənim yanıma gətirə bilərsiniz?"

Cinlərin arasında qüdrətli bir div dedi: -"Sən öz oturduğun yerdən durmamış mən onu gətirə bilərəm və bu işi görməyə əminəm! Onu olduğu kimi sənin yanına gətirəcəyəm."

Süleyman ondan da tez taxtın gətirə bilən şəxs üçün yenə də baxdı. Onun vəziri və qardaşı oğlu Asif ibni Bərxiya "Elmul-kitab"dan (Qeyb elmindən) bəhrələnmişdi. Rəvayətlərdə olduğu kimi Asif ibni Bərxiya "İsmi-Əzəm"dən bir şe`yi bilirdi. O, Süleymana dedi:

-"Mən gözünü yumub açınca taxtı sənin yanına gətirə bilərəm."

İmam Sadiqdən (ə) nəql olunan hədisə əsasən Asif ibni Bərxiya "Təyyul-ərz" yolu ilə taxtı Süleymanın yanına gətirdi. Süleyman elə ki, baxdı taxtı öz yanında gördü və Allaha şükür edərək dedi: -"Bu mənim Allahımın kərəmidir və məni imtahan edir ki, görsün ona şükür edirəm, yoxsa yox." Həmçinin Süleyman fərman verdi ki, sarayı ağ büllurdan düzəltsinlər. Bilqeysin taxtında dəyişikliklər etsinlər ki, görsün o, öz taxtını tanıya biləcək, ya yox.

Bilqeys saraya daxil olanda ona dedilər: -"Sənin taxtın belədir?" Bilqeyis dedi: -"Deyəsən mənim taxtımdır."

O, çox təəccüb etdi. Çünki, öz böyük taxtını Səbada qoymuş və onu qarovulçulara tapşırmışdı. Bu məsələ Süleymanın peyğəmbər olduğunu Bilqeys üçün daha da şəffaflaşdırdı.

Sonra ona büllur saraya daxil olmağı təklif olundu. Saraya daxil olduqda büllur şüşələri su kimi təsəvvür etdi. Ayaqqabılarını sudan keçmək məqsədiylə soyundu. Süleyman dedi: -"Bu, su yox, büllur şüşələrdən düzəldilmiş saraydır!"

Bilqeys bu mənzərəni görüb dedi: -"İlahi! Mən özüm-özümə zülm etmişəm. İllər boyu küfr içində yaşamışam. İndi Süleymana iman gətirir və aləmlərin yaradanına itaət edirəm."

Bilqeys məsələsinin sonu da necə qurtarması haqqında ixtilaf vardır. Bir çoxları Süleymanın (ə) onunla evlənməsi ilə səltənətinin özünə qaytarıldığını söyləyirlər. Həbəşə padşahlarının bəziləri isə özlərini Süleyman (ə) və Bilqeysin nəslindən hesab edirlər. Bəziləri isə Bilqeysi Təb adlı bir padşahla nigah etdiyini yazırlar.

## SÜLEYMANIN VƏFATI

Süleyman peyğəmbər bütün səltənəti, mal-dövlət və məqamıyla yanaşı çox sadə yaşayır və dünyaya etinasız idi. Yeməyi arpa çörəyi idi. Deyləmi "İrşadül-qulub" kitabında deyir: Süleyman imkanı ola-ola, tükdən düzəlmiş paltar geyinirdi. Elə ki, qaranlıq gecə düşdü, əli qoynunda sübhə qədər ağlayır və ibadət edirdi. Öz əliylə toxuduğu zənbilləri satır və azuqəsini hazırlayırdı. Lakin Allahdan o cür əzəmətli səltənət istəməsinin səbəbi, kafir padşahları məğlub etmək idi.

Şeyx Təbərsi "Məcməül-bəyan"-da nəql edir ki, Süleyman bəzən bir il, ya iki il, ya bir ay, ya iki ay bundan az və yaxud da çox Beytül-Müqəddəs məscidində e`tikaf tuturdu. Öz yemək-içməyin götürüb məsciddə qalır və ibadətlə məşğul olurdu. Bu minvalla onun ölüm əcəli yetişdi. Bir gün o bir bitkini gördü ki, yaşıllaşıb. Ondan adını soruşdu. Bitki dedi: -"Mənim adım xəznubdur". Süleyman başa düşdü ki, yaxın zamanlarda öləcək. Buna görə Allaha ərz etdi: -"İlahi! Mənim ölümümü cinlərdən gizli saxla, təki insanlar bilsinlər ki, cinlər qeybə alim deyillər.

Onun tikinti işlərindən bir il qalırdı. Öz ailəsinə də tapşırdı ki, cinlər mənim ölümümü bilməsinlər, təki tikinti işlərini axıra çatdırsınlar. Sonra ibadət mehrabına daxil oldu, öz əsasına söykəndi və dünyadan getdi. Bir il həmin vəziyyətdə, yəni əsasına söykənib ayaq üstündə qaldı. Tikinti işləri qurtardı. Sonra Allah taala taxta bitinə əmr etdi ki, əsanı yesin və Süleyman yerə yıxılsın. Nəhayət, bununla da cinlər o həzrətin ölüm xəbərini eşitdilər.

Bir rəvayətə görə Allah taala Süleymana nə vaxt öləcəyini xəbər verdi. Həzrət qüsl alıb kəfən geydi. İmam Sadiqdən (ə) rəvayət olunur ki, bu müddətdə Süleyman ayaq üstündə durdu. Asif ibni Bərxiya onun işlərini idarə edirdi.

Bir hədisi Səduq "Uyunul-əxbar" və "İləlüş-şəraye" kitablarında İmam Sadiqdən (ə) rəvayət edir və həmin əhvalatı geniş surətdə nəql edir. Lakin həmin hədisdə bir ildən söhbət açılmayıbdır. İmam (ə) həmin müddəti xülasə buyurubdur. Hədisin tərcüməsi belədir:

"Səkkizinci imamın atası Həzrət Sadiqdən (ə) rəvayət edir ki, bir gün Süleyman ibni Davud öz əshabına dedi: -"Allah taala başqasına layiq olmayan belə bir səltənəti mənə verdi. Külək, cin, insan, quşlar və vəhşi heyvanları mənə ram etdi. Quşların dilini mənə öyrətdi. Mənə hər şey verdi. Amma bunların hamısıyla yanaşı bir gün axşama qədər rahat yaşamamışam. Mən sabah öz sarayıma daxil olmaq istəyirəm. Sarayın üstünə çıxacağam. Mənim fərmanımın altında olanlara baxacağam. Heç kəsə icazə verməyin mənim yanıma gəlsin. Qoyun bir gün rahat yaşayım."

Əshab onun sözünü qəbul etdilər. Sabahısı gün Süleyman öz əsasını əlinə alıb saraya daxil oldu. Sarayın ən uca yerində əsasına söykəndi. Sevinclə sarayın ətrafına baxırdı. Allahın ona verdiyi nemətlərə sevinirdi. Birdən gözəl və təmiz paltar geyən bir cavanı gördü. Həmin cavan sarayın bir küncündən peyda oldu. Süleyman onu görən kimi dedi:

-"Kim səni saraya girməyə icazə verdi."Cavan cavab verdi:

-"Sarayın Allahı mənə saraya girməyə icazə verdi." Süleyman dedi:

-"Əlbəttə sarayın Allahı məndən də böyük və layiqlidir. İndi de görüm kimsən?" Cavan dedi:

-"Mən ölüm mələyiyəm." Süleyman soruşdu:

-"Nə üçün gəlmisən?" Cavan dedi:

-"Gəlmişəm canını alam və ruhunu bədənindən çıxardam." Süleyman dedi:

-"Öz işini yerinə yetir. Bu gün mənim xoş və sevinc günüm idi. Lakin Allah istəmədi ki, onun ziyarət və görüşündən başqa heç nə ilə sevinməyim."

Ölüm mələyi Süleymanın canını əsaya söykəndiyi halda aldı. Süleyman ölsə də Allah istədiyi vaxta qədər həmin vəziyyətdə qaldı. Camaat ona baxırdılar və təsəvvür edirdilər diridir. Bir dəstə camaat dedi: -"O, uzun müddətdir ki, ayaq üstə dayanıb və heç bir yorğunluq hiss etmir. Yatmır, yemir və içmir. Bəs o bizim Allahımızdır və ibadətə layiqdir. Başqa bir dəstdə dedi: -"O, sehirbazdır və bizi cadu edibdir!" Lakin mömin insanlar dedilər: -"Süleyman Allahın bəndəsi və onun elçisidir. Allah nə istəsə onun üçün edir".

Elə ki, xalq arasında söz-söhbət başladı, Allah taala taxta bitinə hökm verdi ki, əsanın içini yesin. Beləliklə əsa sındı və Süleyman sarayın üstündən yerə düşdü.

Əli (ə) bu haqda buyurur:

-"Əgər bir nəfər dünyada qalmaq üçün bir vasitə əldə edibsə, ya ölümün qarşısını almaq üçün bir yol tapıbsa, o Süleyman ibni Davud (ə) olmuşdur. Süleyman elə bir şəxs idi ki, cin və ins ona ram olmuşdular və peyğəmbərlik məqamına malik idi. Lakin elə ki, öz təqdirlənmiş ruzisindən bəhrələndi və ömrü sona çatdı, yoxluq kamanı ölüm oxlarıyla onu ayaqdan saldı. Diyar onsuz olub, evlər Süleymansız qaldı. Lakin başqaları onlara sahib oldular."

Süleymanın ömrünü 55 il yazıblar.

Bəziləri də Yəqub kimi 52 il qeyd ediblər. O həzrətin qəbri Beytül-Müqəddəsdə atası Davudun qəbrinin kənarındadır.

## SƏBA QÖVMÜ

Bilqeyslə Süleymanın başına gələnlərdə Səba qövmündən ad aparıldı. Allah taala da onların əhvalatını Qur'anda zikr edib və "Səba" adında surə nazil edibdir. Burada xülasə olaraq Səba qövmünün taleyini nəzərinizə çatdırırıq. Bu barədə Qur'an buyurur:

-"Səba (tayfası-nın) yurdunda (qüdrətimizə dəlalət edən) bir nişanə var idi. (Orada) sağdan və soldan (dağla əhatə olmuş) iki bağça var idi. (Səba əhlinə belə buyurulmuşdu:)"Rəbbinizin ruzisindən

yeyin və Ona şükür edin. (Yurdunuz) gözəl bir diyar, (Rəbbiniz də) bağışlayan bir Rəbbdir!" Lakin onlar (itaətimizdən) üz döndərdilər, Biz də üstlərinə Ərim (bəndnin) selini göndərdik. (Bunun nəticəsində yurdlarını su basdı). Onların iki (gözəl) bağçasını (tikanlı) acı meyvəli, (içərisində) yulğun ağacları və bir az da sidr ağacı olan iki bağçaya çevirdik. Onları nankorluqlarına görə beə cəzalandırdıq. Biz heç nankordan başqasına cəzamı verərik?" ("Səba" surəsi,16-18-ci ayələr).

Amma Səba qövmünün coğrafiyası barəsində Yəmən ölkəsi və Ərəbistan yarımadasının cənub-qərbində yerləşir. Qədim zamanlardan o dövrün böyük ölkələri həmin yerləri fəth etmək üçün müharibə ediblər. Bir dəfə də Yəmən sasanilər dövründə iranlıların əlinə keçibdir. Bəzi vaxtlar da orada müstəqil dövlətlər olubdur. O cümlədən müasir alimlərindən birinin dediyinə görə, miladdan 850 il qabaq, Səba padşahları Yəməndə dövlət təşkil ediblər. Onlar 600 ildən çox orada hökmranlıq ediblər. Axır zamanlarda oradan tarixi əsərlər, əşyalar və abidələr tapılmışdır və indi onu Avropa muzeylərində saxlayırlar. Belə tarixi əsərlər Səba qövmünün yüksək mədəniyyətə malik olduqlarını sübüta yetirir. Onlar qızıl-gümüş qablar düzəltməkdə, əzəmətli binalar tikməkdə, abadlıq işlərində və şəhərləri bəzədilməsində kamil məharətə malik olublar.

Səba padşahlarının bu günki texnikaya malik olmadıqları halda əhəmiyyətli işlərindən biri "Mərəb" səddini tikməkdir. Mərəb şəhər adıdır. Səba sultanları oranı özləri üçün paytaxt etmişdilər.

Bu şəhər böyük bir dərənin ətəyində olubdur. Dərənin üstünü uca dağlar örtürdü. Həmin dərədə bir dağ keçidi vardır. Keçidin hər iki tərəfini iki məşhur dağ təşkil edibdir. Bu iki dağın adı Bəlq və arasındakı məsafə 600 addımdır.

Yəmən torpağı geniş və münbit torpaqdır. Lakin Ərəbistanın başqa yerləri kimi orada da su az tapılır. Böyük çayları yoxdur. Bəzi vaxtlar fəsil yağışlarıyla sel yaranıb geniş səhralarda hədər olurdu. Buna görə də Yəmən xalqı sədd düzəltmək fikrinə düşdülər, təki çoxlu yağış sularını onun içində saxlayıb və yay fəslində işlətsinlər. Bu fikirlə çoxlu sədlər düzəltdilər. Onların ən əhəmiyyətli Mərəb səddi idi. Bu səddi iki Bəlq dağının arasında tikdilər. Həndəsə qanunlarına uyğun olaraq onun hər iki tərəfində sudan istifadə üçün dəlik açdılar. Lazım olan vaxtda həmin su dəlik yolları ilə suyu çoxaldıb azalda bilirdilər.

Səddin uzunluğu təqribən 800 addım idi. Eni isə əlli addım olardı. Bu səddin hesabına onu iki tərəfindəki səhralar yaşıllığa və şəhərlərə çevrildi. Bəzi tarixçilər deyirlər ki, səddin ətrafında 13 şəhər salındı. Qızmar çınqıllıqlar cənnət bağlarına çevrildi. Həmin şəhərlər və firavan nemətləri haqda çoxlu sözlər deyilmişdir.

Tarixçilərin dediyinə görə, əgər bir nəfər onun bağlarında gəzsəydi, meyvə ağacları o qədər çox idi ki, on gün yol getsəydi Günəşin rəngini görməzdi. Bu uzun yolu yaşıl və meyvəli ağacların kölgəsində gedirdi.

Qadınlar zənbilləri başlarına qoyurdular. Ağacların altında bir neçə addım yol gedəndən sonra zənbillər meyvə ilə dolurdu.

Hər halda həmin səddin hesabına oranın təmiz havasından, axar sularından və başqa nemətlərinin əvəzində Allaha şükür etsinlər. Onları aclıqdan və susuzluqdan xilas edən Allaha gərək ibadət edəydilər. Lakin tədricən qəflət onlara qalib gəldi və böyük günahlara düçar oldular.

Allah taala Səba qövmünün hidayəti üçün peyğəmbərləri göndərdi. Lakin onlar peyğəmbərlərin sözlərinə, moizələrinə və öyüd-nəsihətlərinə qulaq asmaq əvəzinə onları təkzib etdilər.

Səba camaatı əyyaşlıq və şəhvətpərəstlik içində qərq oldular. Başqa şəhvətpərəst və günahkar xalqlar kimi peyğəmbərləri öz yolları üstündə maneə görüb onlara əzab-əziyyət verməyə başladılar. Beləliklə, ilahi əzaba düçar oldular.

Allah taala "İrəm" seli ilə həmin səddi dağıtdı. Su bütün səhra, bağ-bağça və evləri sudə qərq etdi. Hər şeyi viran etdi. Bir müddətdən sonra həmin yaşıl səhraları, bağçaları quraqlıq və yandırıcı səhraya çevrildi.

XX FƏSİL

# Yunis(ə)

Yunis peyğəmbərin həyatı Qur'anda qısa surətdə zikr olunubdur. O Həzrətin adına da surə vardır. Lakin "Yunis" surəsində yalnız bir ayədə onun qövmünün tövbə etməsi və iman gətirilməsi qeyd olunubdur. Hər halda cəmi altı ayədə Yunisin (ə) adı gəlibdir. İki surədə yəni "Nisa" və "Ənam" surəsində o Həzrətin adı başqa peyğəmbərlərin sırasında zikr olunub. Lakin qalan dörd surədə onun bəzi əhvalatı və qövmü haqqında əvvəlki iki surədən geniş izahat verilibdir. Dörd surədən biri da həmin "Yunus" surəsidir. Bu surədə onun qövmü haqda belə deyilir:

-"Əzab gəl-mək-də ikən Yu-ni-sin üm-mə-tin-dən baş-qa iman gə-ti-rib ima-nı öz-lə-ri-nə fay-da ve-rə bi-lən bir məm-lə-kət əh-li var-dır-mı?! (Yu-ni-sin üm-mə-ti) iman gəti-rən za-man on-la-rı dün-ya-da-kı rüs-vay-çı-lıq əza-bın-dan qur-tar-dıq və bir müd-dət (ömür-lə-ri-nin axı-rı-na-dək) gün-gü-zə-ran ver-dik." ("Yunis" surəsi, 98-№i ayə).

"Ənbiya" surəsində də buyurur:

-"Zunnunu (Yunisi) camaatın yanından qəzəbli halda getdiyini xatırla. O, elə fikirləşirdi ki, onun üçün çətin olmayacaq. Beləliklə, zillətdə (və qaranlıqda) səslədi ki, "Səndən başqa məbud yoxdur və mən zülmkarlar dəstəsində olmuşam". Biz qəbul etdik və qəm-qüssədən onu xilas etdik. Biz mömінləri belə xilas edirik." ("Ənbiya" surəsi, 88-№i ayə).

Həmçinin, "Saffat" surəsində buyurur:

"Yunis peyğəmbərlərdən biri idi. (Adamla dolu) gəmiyə sarı qaçdığı zaman püşk atdılar və o püşkdə məğlub oldu. (Püşk onun adına çıxdı). Balıq onu uddu. Bir halda ki, o özünü danlayırdı (ya peşman idi). O, Qiyamət gününə qədər təsbih deyənlərdən idi. Adamların çağırıldığı gün balığın qarnında qalır. Beləliklə, onu səhraya atdıq və orada o xəstə idi. Balqabaq bitkisini onun üçün cücərtdik və onu yüz min (əslində daha çox) adama tərəf göndərdik. Bununla da iman gətirdilər. (Müqəddər olunan vaxta qədər) və həyatdan bəhrələndirdik." ("Saffat" surəsi, 139-№Ї ayə).

"Nuh" surəsində Allah taala Məhəmməd peyğəmbərə (s) xitab edəndən sonra buyurur:

-"Pərvərdigarının hökmü qarşısında səbirli ol!" Bunun ardınca buyurdu: "Qəmli halda fəryad edən balıq sahibi kimi olma. Əgər pərvərdigarının rəhməti ona şamil olmasaydı, səhrada peşmançılıqla düşüb qalmışdı. Beləliklə, pərvərdigar onu seçib layiqlilər cərgəsinə saldı." ("Nuh" surəsi, 48-51-№i ayələr).

Rəvayətlərdə və təfsirlərdə də Yunisin peyğəmbərlik məqamına çatması, o həzrətin qövmünün iman gətirməsi, tövbə etməsi, gəmi ilə gəlməsi və başqa hadisələri, həm qısa, həm də geniş surətdə izah edilibdir. Biz isə burada xülasə, eyni zamanda bütün hadisələrə toxunucağıq.

Yunis peyğəmbər Allahın hökmü ilə camaatı hidayət etmək üçün getdiyi yer Musil torpağındakı Neynəva şəhəri idi. Bir rəvayətdə yazılır ki, o həzrət peyğəmbərlik məqamına çatanda 30 yaşı var idi. Başqa bir hədisdə isə ona 28 yaş verilib. Əyyaşinin nəql etdiyi hədisə görə, Yunis (ə) 33 il camaata təbliğ edibdir. Lakin bu müddət ərzində yalnız iki nəfər, Rubil və Tənuxdan başqa heç kəs ona iman gətirməmişdir. Rubil elm və nübuvvət ailəsindən idi. O, Yunis (ə) peyğəmbərliyə çatmamışdan qabaq o həzrətlə tanış olmuşdur. Lakin Tənuxa abid və zahid kişi olsaydı da o, elm və hikmətdən bəhrələnməmişdi.

Yunis uzun müddət camaatı hidayət etməklə məşğul oldu. Amma gördü ki, o iki nəfərdən başqa heç kəs ona iman gətirmir və həmişə onu danırlar. Hətta Yunisi öldürmək istədilər. O, da Allah dərgahına şikayət edərək camaat üçün ilahi əzabın gördərilməsini istədi. Rubilin camaata ürəyi yandı. Yunisdən xahiş etdi ki, nifrin etməsin. Amma Tənuxa Yunislə eyni fikirdə idilər. Onlar əzabın tez göndərilməsini və camaata nifrin etmək istəyirdilər. Nəhayət, Yunis ciddi surətdə Allahdan istədi ki, o qövmə əzab nazil etsin. Allah taala da Yunisa xəbər verdi ki, filan gün bəla göndərəcəyəm və sən camaata bunu xəbər ver. Qoy özləri də bilsinlər.

Yunis Rubilə əzabın gəlməsini xəbər verdi. Rubil nə qədər çalışdı ki, Yunisi öz fikrindən döndərsin, lakin bacarmadı. Yunis camaatı bir yerə toplayıb bu xəbəri onların nəzərinə çatdırdı. Neynəva xalqı isə həmişəki kimi onu yalançı qələmə verdilər. Onlar kobudcasına Yunisi oradan qovdular.

Yunis Tənuxa ilə birlikdə şəhərdən çıxdılar. Şəhərin yaxınlığında özlərinə yer düzəltdilər. Elə bir yerdə qaldılar ki, oradan şəhəri bütövlükdə görürdülər. Onlar ilahi əzabın gəlməsini gözləyirdilər. Başqa bir tərəfdən isə Rubil hündür bir yerdə dayanıb Neynəvalıları uca səslə çağıraraq dedi:

-"Ey camaat! Mən Rubiləm və sizə ürəyim yanır. Sizi mən çox istəyirəm. Bilməlisiniz ki, Yunis sizin peyğəmbərinizdir. Sizə xəbər verdi ki, Allah taala ona vəhy edərək filan gündə əzabın nazil olacağını elan edilibdir. Allah taala öz peyğəmbərlərinə verdiyi vədəni həyata keçirdir. İndi isə siz baxın görün nə etmək istəyirsiniz?"

Rubilin sözləri xalqın ürəklərində müsbət təsir qoydu. Onlar peşman olub Rubilə dedilər:

-"Ey Rubil, sən de biz nə edək? Rubil onlara dedi:

-"Əzab gələn günü günəş çıxmamışdan qabaq arvad-uşaqlarınızı götürüb səhraya gedin. Uşaqları analardan ayırın. Elə ki, gördünüz məşriqdən sarı külək sizə tərəf əsir, ağlamağa başlayıb Allahın dərgahına dua edin. Allahdan bağışlanmaq istəyin! Tövbə edin! Üzünüzü göyə tutub məyus və ağlar gözlərlə Allaha yalvarın, öz təqsirinizə etiraf edərək deyin: -"Ey mehriban Allah! Biz özümüz-özümüzə zülm etdik və sənin peyğəmbərini yalançı bildik. İndi öz günahlarımızı boynumuza alıb tövbə edirik. Əgər sən bizi bağışlamasan, bədbəxt olacağıq. Ey ən mehriban! Bizim tövbəmizi qəbul et."

Yorulmadan ağlayın və dua etməyə davam edin. Allah əzabı sizin üstünüzdən götürənə qədər bu işdən əl çəkməyin.

Camaat Rubilin sözlərinə əməl etməyi qərara aldılar. Əzab günü çatanda arvad-uşaqları özləriylə götürüb səhraya getdilər. Onları bir-birindən ayırdılar. Elə ki, ilahi əzabın əlamətlərini müşahidə etdilər, şivən səsləri hər yerdən ucaldı. Əzab onların üstündən götürülənə qədər tövbə etdilər.

Təbərsi Səid ibni Cübeyr və başqalarından nəql edir ki, Yunis onlara xəbər verdi: -"Əgər tövbə etməsəniz üç gündən sonra Allahın əzabına düçar olacaqsınız." Camaat bir-birinə dedilər:

-"İndiyə qədər Yunisdən yalan söz eşitməmişik. Əgər Yunis bu gecə sizin aranızda olsa bilin ki, bir şey olmaycaq. Amma əgər şəhərdən çıxsa sabah tezdən əzab sizə nazil olacaq.

Elə ki, Yunis gecə yarısı şəhərdən çıxdı səhər açılan kimi əzab onların sorağına gəldi. Bəzi alimlər yazırlar ki, qara buludlar səmanı bürüdü. Qəliz tüstü buludların arasından çıxıb şəhəri başdan-başa qaranlıq etdi. Yavaş-yavaş aşağı enib evlərin üstünü də qaranlıqlaşdırıb qaraya bürüdü.

İbni Abbas deyir: -"Əzab onların başlarının üstünü bürüdü. Camaat əzabı görən kimi fəlakətlərinə yəqin etdilər və Yunisin yanına getdilər. Yunisi tapa bilmədilər. Tez səhraya tərəf üz tutub arvad-uşaqları və heyvanları da özləriylə apardılar. Kobud və qalın paltarlar geyindilər. Pak qəlblə və xalis niyyətlə iman gətirdilər. Uşaqlarını və kiçik heyvanları analarından ayırıb onları bir-birindən uzaqlaşdırdılar. Bu vaxt uşaqlar və anaların şivən səsi fəzanı bürüdü. Özləri də ağlaya-ağlaya dedilər: -"Ey mehriban Allah! Biz Yunis peyğəmbərin iman gətirdiyinə iman gətirdik."

Bu vaxt Allah taala onların dualarını qəbul edib başları üstündə gölgə salan əzabı onlardan uzaqlaşdırdı."

İbni Məsud deyir: -"Neynəva camaatı elə tövbə etdilər ki, hər kəsin boynunda digərinin haqqı var idisə, hamısını geri qaytardı. Əgər şəxs bir daş parçası belə evinin divarı altında olsaydı belə onu çıxarıb sahibinə qaytardı."

Nə isə Allah taala onlara rəhm etdi. Əzabı onlardan uzaqlaşdırdı. Camaat Yunisi təkzib edib kobudcasına şəhərdən qovandan sona, o da narahat olduğu üçün şəhərə qayıtmadı. Qəzəbli halda dəryaya tərəf hərəkət etdi. Dəryaya çatanda gördü ki, bir gəmi hərəkət etmək istəyir. Bir dəstə insan gəmidə oturmuşdu. Yunis onlardan istədi ki, onu da gəmiyə minməyə icazə versinlər. Onlar Yunisi gəmiyə mindirdilər. Gəmi yola düşdü. Gəmi dəryanın ortasına çatanda tufan qalxdı. Dənizin dalğaları gəmini sarsıtdı. Gəmidə olanlar dedilər: -"Gəmi yüngülləşmək üçün püşk atıb bir nəfəri dəryaya ataq."

Başqa tarixçilər yazırlar:

Gəmi hərəkət edə bilmədi. Gəmi sahibi dedi ki, sizin aranızda qaçaq adam vardır. Çünki mənim gəmimin adəti budur ki, qaçaq adam ona minəndə yerindən tərpənmir.

Püşk atdılar. Püşk Yunisin adına çıxdı. Bəzi rəvayətlərdə gəlib ki, böyük bir balıq gəminin yolu üstündə dayandı və onu hərəkət etməyə qoymadı. Gəmi sahibi dedi:

-"Burada qaçaq adam var." Yunis dedi:

-"Bəli, həmin qaçaq adam mənəm." Sonra özünü dəryaya atdı. Balıq onu uddu.

Bəzi alimlər ehtimal verirlər ki, gəmidə olanlar dəryanın ayrıca bir Allahı olduğuna etiqadları olubmuş. Dəryadakı tufanı da onun qəzəbi bilirdilər. Buna görə də dərya Allahın qəzəbini sakitləşdirmək üçün

məcbur oldular dəryaya qurban versinlər. Püşk atdılar və Yunisin adına çıxdı. Üç, ya yeddi dəfə püşk atıldı. Hər dəfə də Yunisin adına çıxdı. Başa düşdülər ki, burada bir sirr və hikmət vardır. Yunisi dəryaya atdılar. Yunisi udmağı əmr olunmuş böyük bir balıq irəli gəlib onu uddu. Əlbəttə, balığa əmr olunmuşdu ki, yalnız Yunisi udub qarnında saxlasın. Buna görə də o, Yunisin ətini yeyə bilməzdi və ya sümüyünü sındırmağa icazəsi yox idi.

Bir hədisdə deyilir: "Allah balığa vəhy göndərdi: "Mən Yunisi sənin ruzin olaraq göndərmişəm. Məbada sümüyünü sındırıb əlindən yeyəsən!"

Müxtəlif fərziyyələrə görə, Yunis yeddi saat, ya üç gün və ya bundan çox balığın qarnında qaldı. Balıq onu dəryanın ən zülmət qaranlıqlarında gəzdirdi. Allah özü bilir ki, bu müddətdə Yunis nələr çəkdi. O, balığın zülmət qarnında, dəryanın dərinliklərində və qaranlıq gecələrdəki zülmət zülmətin üstündə, qəm-qüssə içində qərq olmuşdu. Həyat onun üçün çox çətin oldu. Belə bir vəziyyətdə aləmlərin Yaradanı və Mehriban Allahdan başqa kimə üz gətirib təsəlli tapmaq olar? Pənahsızların pənahı olan Allahdan başqa kim Yunisə pənah verə bilərdi? Biçarələrin dadına çatan Allahdan başqa, kim onun dadına çata bilərdi?

Tohid məktəbinin müəllimi və bir olan Allahın dərgahına insanları hidayət edən Yunis heç kəsə ehtiyacı olmayan Xaliqin dərgahına ehtiyac əllərini uzatdı. Raz-niyaz edərək ərz etdi: -"Ey Sübhan Allah! Səndən başqa məbud yoxdur. Sən paksan və mən özümə zülm edənlərdənəm."

Allah taala onun duasını qəbul edib qəm-qüssədən nicat verdi. Balığa əmr etdi ki, xəstə halına düşmüş Yunisi dəryanın sahilinə atsın.

Bu ayənin təfsirində buyurulur ki, balıq Yunis peyğəmbəri dəryanın sahilinə atanda, qolsuz-qanadsız cücə kimi onun heç bir qüdrəti və qüvvəsi qalmamışdı. Allah taala onun üçün ağac bitirdi, təki meyvə və kölgəsindən istifadə etsin. Həmçinin bir dağ keçisi onun yanına göndərdi ki, südünü sağıb içsin. Bir müddət keçəndən sonra həmin ağac qurudu. Yunis ağacın qurumasına ağladı. Allah taala ona vəhy etdi: -"Sən bir ağacın quruduğu üçün ağlayırsan, lakin yüz min nəfərin həlak olmasını məndən istədiyin üçün ağlamırsan?"

Yunis oradan durub Allahın əmri ilə ikinci dəfə öz qövmünün yanına qayıtdı. Şəhərin yaxınlığında bir oğlan uşağına rast gəldi. O, qoyun otarırdı. Yunis ona buyurdu:

-"Şəhərə get və mənim qayıtmağımı camaata xəbər ver."

Oğlan şəhərə gedib camaata xəbər verdi. Camaat Yunisi qarşılayıb onu şəhərə apardılar. Onlar ilahi peyğəmbərə itaət etməyə başladılar.

Bəzi alimlər isə bu əqidədədirlər ki, Yunis ikinci dəfə başqa bir qövmə təbliğ etməyə getdi. Fərat çayının kənarında günbəzli bir qəbir vardır. Camaat arasında Yunis peyğəmbərin qəbri kimi şöhrət tapmışdır.

XXI FƏSİL

# Zəkəriyya(ə)

Qur'ani-Kərimin dörd surəsində Zəkəriyyanın (ə) adı zikr olubdur. Həmin surələr "Ali-İmran", "Ənam", "Məryəm" və "Ənbiya" surələridir. "Ənam" surəsində yalnız o Həzrətin başqa peyğəmbərlərin adları arasında gətirilib. Lakin qalan üç surədə Zəkəriyyanın (ə) bəzi əhvalatı haqqında da ayələr nazil olubdur. "Ali-İmran" surəsində İmranın qızı və İsanın (ə) anası Məryəmi öz öhdəsinə götürməsi, Allahdan övlad istəməsi, Yəhyanın dünyaya gəlməsini mələklər ona müjdə verməsi və buna aid başqa məsələlər belə zikr olubdur:

"Zəkəriyya Məryəmin himayədarlığını öz üzərinə götürdü. Zəkəriyya mehraba Məryəmin yanına getdiyi zaman onun yanında naz-nemətli ruzilərin olduğunu görürdü. Ona deyirdi:

-"Ey Məryəm, bu ruzi sənin üçün haradandır?" Məryəm deyirdi:

-"Allah tərəfindəndir. Allah istədiyi hər kəsə hesabsız ruzi verir." Burada Zəkəriyya Pərvərdigarını çağırıb dedi:

-"Pərvərdigara, mənə öz tərəfindən pak bir övlad bağışla. Sən duaları eşidənsən (istəkləri qəbul edənsən)." Allahın mələkləri ona mehrabda namaz qıldığı zaman səslədilər: -"Allah sənə Yəhya adında övlad müjdəsini verir və o, Allah kəlməsini təsdiqləyəndir (yəni İsanı). Layiqlilərdən olan peyğəmbər, dözümlü və ağadır." Zəkəriyya (təəccüblə) dedi: -"Pərvərdigara! Mənim qoca və həyat yoldaşımın sonsuz olduğu halda mənim necə oğlum ola bilər!" Allah buyurdu: -"Belə olacaq və Allah istədiyi hər şeyi edəcək." Zəkəriyya dedi: -"Pərvərdigara! Mənim üçün nişanələr (əlamətlər) göstər (ki, bu hadisə nə vaxt baş verəcək)!" Allah buyurdu: -"Sənin üçün nişanə budur ki, adamlarla nişanələrdən başqa üç gün söz danışmazsan, Pərvərdigarını çox xatırlayıb gecə yarısı və səhər tezdən ona təsbih oxuyarsan." ("Ali-İmran", ayə 33-37).

## YUXARIDAKI AYƏLƏRİN İZAHI

1) Beytül-Müqəddəsin xidmətçiləri və ruhaniləri Məryəmin himayədarlığı üçün püşk atdılar. Püşk Zəkəriyyanın adına çıxdı və o, Məryəmi öz öhdəsinə götürdü. Bu haqda geniş məlumat verəcəyik.

2) Zəkəriyya Allahın Məryəmə etdiyi rəhmət və verdiyi fəziləti görəndən sonra özü üçün övlad istədi. Zəkəriyya Məryəmin Allah yanındakı məqamını müşahidə edirdi. Hər vaxt Məryəmin mehrabına (namaz qıldığı yerə) gəlirdi, onun yanında Allahın göndərdiyi ruzini görürdü. Zəkəriyyanın övladı olmadığı üçün Allahdan pak övlad istəyərək onun üçün Allahdan Məryəmin məqamı kimi məqam dilədi. Allah taala ona bir oğlan uşağı müjdəsini verdi və buyurdu ki, o, camaatın hamısından çox İsaya (ə) oxşayacaq. Bunun da şərhi Yəhyanın (ə) əhvalatında gələcək.

3) Yuxarıdakı ayələrdən belə məlum olur ki, Yəhyanın adını Allah taala özü qoyubdur. Necə ki, "Məryəm" surəsinin ayələri də bunu sübut edir.

4) Zəkəriyyanın Allahdan nişanə və əlamət istəməsinin səbəbi haqda bir neçə nəzəriyyə vardır. Bəzi alimlər deyiblər: -"Səbəbi bundan ibarət idi ki, Zəkəriyya bilmək istəyirdi bu xitab və müjdə Rəhman Allahın öz müjdəsidir, yoxsa şeytanın vəsvəsəsidir."

Lakin başqa alimlər bu nəzəriyyəni irəli sürürlər ki, ilahi peyğəmbərlər məsum (günahsız) olduqları üçün heç vaxt belə fikirləşmirlər. Onlar belə bir şəkk edə bilməzlər. Ümumiyyətlə, şeytanın onlara əli çatmır və şəkkə sala bilmir. Buna görə də deyirlər: -"Zəkəriyya həyat yoldaşının nə vaxt uşağı dünyaya gətirəcəyi üçün bir əlamət istədi. Həmin nişanə və əlamət öz qohum-əqrəbasına Allahın ona verdiyi müjdənin nə vaxt həyata keçəcəyini xəbər vermək istəyirdi."

5) Nişanə və əlamətin necə olduğu haqda da fikircə fərqli sözlər deyilibdir. Allah taala Zəkəriyyaya buyurdu ki, üç gün işarə və rəmzdən başqa yolla camaat ilə danışma. Bu əlamətin necəliyi barədə alimlər ixtilaf edirlər. Yəni bu suallar qarşıya çıxır ki, Zəkəriyya bu işdə məcbur idi, ya ixtiyarlı? Həmin üç gündə Zəkəriyyanın dili Allahın fərmanıyla işdən düşdü və yalnız işarə ilə camaatla danışa bilirdi, ya bu cümlələr dini bir hökm idi? Yəni bu yolla Allah taala Zəkəriyyaya hökm verdi ki, müjdə həyata keçəndən sonra ona şükür etmək məqsədiylə üç gün "sükut" orucu tutsun? Yoxsa, Zəkəriyya özü

Allahdan istədi ki, həmin nemətə şükür məqsədi ilə onun üçün vəzifə və bir ibadət təyin etsin? Nəhayət, Allah taala da ona "sükut" orucu tutmağı əmr etdi. Lakin ikinci nəzəriyyəni ayədən başa düşmək və Allahın kəlamıyla uyğunlaşdırmaq çətindir. Necə ki, "Məryəm" surəsinin ayəsi ilə də uyğun gəlmir. Birinci nəzəriyyənin düzgünlüyü həqiqətə uyğun gəlir.

"Məryəm" surəsində Zəkəriyya haqqındakı ayələrin tərcüməsi bundan ibarətdir:

"Bu xəbər sənin Pərvərdigarının öz bəndəsi Zəkəriyyaya olan rəhmətidir. Allahını gizli çağırdığı zaman dedi: -"Pərvərdigara! Sümüklərim süstləşib, saçlarım qocalıqdan ağarıb. Amma sənin duan barəsində isə, Allahım, heç vaxt məhrum və bədbəxt olmamışam. (Etdiyim hər duanı qəbul etmisən). Özümdən sonrakı varislərimdən nigaranam. Həyat yoldaşım sonsuzdur. Mənə öz qəbul etdiyim duanı əta et (və mənim işlərimin icraçısı olan övlad ver) ki, mənim və Yəqub nəslinin varisi olsun. Onu özün bəyəndiyin və ondan razı qalacağın kimi et. (Ona dedik:) "Ey Zəkəriyya! Biz sənə adı Yəhya olacaq bir oğlan uşağının müjdəsini veririk. Bundan öncə onunla eyni adlı (ya onun kimisi) olmamışdır." Zəkəriyya dedi: -"Allahım, mənim qocalıqdan zəifləyib, qadınımın isə sonsuz olduğu bir halda mənim necə oğlum ola bilər?" Allah taala buyurdu: -"Bəli, sənin Pərvərdigarın bunu deyir, bu iş mənim üçün asandır. Mən sənin özünü (heç nə olduğun halda) bundan əvvəl yaratdım (yəni səni puçluqdan həyat verdim)." Zəkəriyya dedi: -"Allahım! Mənim üçün əlamətləri göstər!" Allah buyurdu: -"Əlamətlər bunlardır: "Tam üç gecə heç kəslə söz danışma! Beləliklə də Zəkəriyya öz qövmünün yanına gəlib onlarla işarə ilə danışdı. (İşarə və əlamətlərlə dedi) ki, səhər tezdən və gecələr təsbih desin." ("Məryəm" surəsi, 3-13-№Ї ayələr).

"Ənbiya" surəsində də Zəkəriyya haqqında qısa məlumat verilibdir. Allah taala iki ayədə belə buyurur:

"...Allahını səsləyən Zəkəriyyanı xatırla ki, belə deyirdi: -"Pərvərdigara, məni tənha qoyma! Əlbəttə, Sən bütün varislərdən yaxşısan." Biz duasını qəbul etdik, Yəhyanı ona bağışladıq və qadınını (hamiləlik dövrünə) layiqli etdik. Onlar xeyirli işlər görməyə tələsər (yaxşı əməllər etməkdə bir-birini ötməyə çalışar), ümid və qorxu ilə (rəhmətimizə ümid bəsləyib əzabımızdan qorxaraq) Bizə ibadət edərdilər və bizim qarşımızda təvazökar idilər." ("Ənbiya" surəsi, 90-91-№i ayələr).

Bu həzrət Zəkəriyya haqqındakı ayələrin tərcüməsinin qısa izahı idi.

Tarixçilər və müfəssirlərin nəzərincə Zəkəriyya "Bəni-İsrail" peyğəmbərlərindən biri və Harunun övladlarından idi.

Atasının adı Bəlxiya və həyat yoldaşı İşadır. Deyirlər ki, İşa Məryəmin xalası idi. Lakin bəziləri onu Məryəmin bacısı bilirlər. Amma birinci söz daha da məşhurdur.

Məryəmin atası İmran nəzr etmişdi ki, övladı dünyaya gəlsə, onu kilsədə xidmətçi qoyacaq. Məryəm dünyaya gəldi. O, Məryəmi Məscidül-Əqsaya gətirdi. Onu kilsənin rəhbərləri və ruhanilərinə tapşırdı. Lakin bəzi tarixçilər bu əqidədədirlər ki, Məryəm dünyaya gəlməmiş İmran vəfat etdi. Dünyaya gələndən sonra anası "Hənət" onu ağ parçaya büküb kilsə ruhanilərinə tapşırdı. Kilsə ruhaniləri Məryəmin üstündə bir-biriylə mübahisəyə qalxdılar. Bu vaxt ruhanilərin rəisi Zəkəriyya irəli gəlib dedi: -"Mən onun öz himayəmə götürməyə daha ləyaqətliyəm. Çünki Məryəmin xalası mənim həyat yoldaşımdır." Lakin ruhanilər onun sözünə qane olmayıb dedilər: -"Əgər ləyaqətli olub-olmamaq dəlil olsaydı, anası onu saxlamağa hamıdan üstündür. İndi isə püşk atırıq. Kimin adı çıxsa, uşağı onun öhdəsinə qoyacağıq."

Onlar on doqquz nəfər idilər. Püşk atmaq üçün su arxının yanında xüsusi yer var idi. Həmin yerə gəldilər. Həmişəki kimi öz əlamətli oxlarını suya atdılar. Zəkəriyyanın oxu suyun üstünə qalxaraq püşk onun adına çıxdı və Məryəmi saxlamağı öz öhdəsinə götürdü. Zəkəriyya Məryəmi evə, xalasının yanına gətirdi. Məryəm süd və uşaqlıq dövrünü Zəkəriyyanın evində xalasının himayəsi altında keçirtdi. Böyük qız olandan sonra Zəkəriyya onun üçün məsciddə ibadət otağı düzəltdi. Otağın qapısından içəri daxil olmaq üçün nərdivandan istifadə olunurdu. Zəkəriyyadan başqa heç kəs Məryəmin yanına getmirdi. Onun yemək-içməyini Zəkəriyya özü aparırdı.

Hər vaxt Zəkəriyya Məryəmin otağına daxil olurdu, onun yanında cürbəcür meyvə görürdü. Qışda yay meyvəsi və yayda qış meyvəsini Məryəmin otağında müşahidə edirdi. Zəkəriyya soruşanda bu meyvələr haradan gəlir, o cavab verirdi:

-"Allah tərəfindən. Allah hər kəsə istəsə zəhmətsiz ruzi yetirər!"

Zəkəriyyanın o vaxta qədər uşağı yox idi. Həyat yoldaşı İşanın uşağı olmadığı üçün övladı olmağa ümidi yox idi. Ola bilsin ki, buna görə də narahat idi. O, bu mənzərəni görəndən sonra yenidən övlad

fikrinə düşdü. Xüsusiylə, Zəkəriyya özündən sonra hikmət və dini qoruyub saxlayan bir şəxsin arzusunda idi. Lakin onun və İşanın ömrünün çoxu keçdiyi, cavanlıq dövrünün arxada qaldığı üçün, həmçinin İşanın sonsuz olduğuna görə, tədricən naümid olurdu. Amma Zəkəriyya gördü ki, heç bir adi vasitə və səbəblər olmadan Allah taala Məryəm üçün cürbəcür meyvələr, yeməklər göndərir. Ümid çırağı qəlbinə işıq saldı və öz keçmiş arzusu fikrinə düşdü. Zəkəriyya öz-özünə dedi: -"Qış meyvəsini yayda və yay meyvəsini qışda Məryəm üçün göndərməyə qadir olan Allah, bizim qoca vaxtımızda da bizə uşaq verməyə qadirdir."

Elə burada da ehtiyac əllərini Allah dərgahına qaldırıb ondan pak və ləyaqətli övlad istədi. Çox keçmədi ki, onun duası qəbul oldu və mələklər həyat yoldaşı İşadan Yəhyanın dünyaya gəlməsini ona müjdə verdilər.

Zəkəriyya bu xəbəri eşitməklə hədsiz sevindi. Lakin onun yüz iyirmi və həyat yoldaşının doxsan səkkiz yaşı olduğuna görə xatircəm olmaq üçün soruşdu: -"Mənim bu yaşımda övlad sahibi olmağım necə mümkündür?"

Ya da o, bu sualla bilmək istəyirdi ki, onun uşağı İşadan olacaq, ya başqa bir qadından. Mələklər Allahın qüdrətini onun yadına salandan sonra xatircəm oldu. Həyat yoldaşına və başqalarına bu xəbəri vermək istədiyinə görə, uşaq olmamışdan qabaq Allahdan bir əlamət istədi.

Əvvəldəki ayələrin tərcümə və təfsirindən məlum olduğu kimi, Allah taala bu işin əlamətini ona dedi. O, gərək üç gün rəmz və işarələrlə camaatla söhbət edərdi. Diliylə danışmağa haqqı yox idi.

Allahın ona verdiyi vədə həyata keçdi. Yəhya dünyaya gəldi. Bir hədisə görə müjdədən beş il keçəndən sonra Yəhya anadan oldu. Yəhya elə həmin ilk uşaqlıq çağlarından mehriban Allahın lütfündən bəhrələnərək peyğəmbərlik məqamına yetişdi və ən böyük zahidlərdən oldu. O, Allaha ibadət etməkdə fəal və ciddi idi.

## ZƏKƏRİYYANIN ŞƏHİD OLMASI

Həzrət Zəkəriyya çox vaxtını Allaha ibadət, camaata moizə və öyüd-nəsihət etməkdə keçirdirdi. O, bu işini dövrün zalım padşahının hökmü ilə oğlu Yəhyanın qətlinə qədər davam etdirdi. Zəkəriyya padşahın qorxusundan şəhərdən çıxdı. Beytül-Müqəddəs şəhərinin ətrafındakı bağlardan birində gizləndi. Şahın məmurları onu axtarmaq üçün bağa daxil oldular. Orada bir ağac var idi. Zəkəriyya həmin ağacın arasında gizlənmişdi. İnsan surətinə düşmüş şeytan şahın məmurlarına bələdçilik edərək həmin ağacın yanına gətirdi. Mişarla ağacı iki yerə böldülər. Zəkəriyya peyğəmbər də ağacın arasında iki yerə bölündü.

Bəzi tarix kitablarında Zəkəriyyanın Beytül-Müqəddəsdən çıxmağının səbəbini, yəhudilərin o həzrətə böhtan atmasını bilirlər. Yəhudilər ona böhtan atdılar ki, Məryəmlə zina edibdir. Çünki ondan başqa heç kəs Məryəmin yanına getmirdi. Məryəm də əri olmadan hamilə olmuşdu. Yəhudilər dedilər: -"Bu uşaq Zəkəriyyadandır." Şeytan da bu şayiəni yaymaqda kömək edərək yəhudiləri Zəkəriyyanın əleyhinə qaldırdı. Zəkəriyya şəhərdən çıxmağa məcbur oldu və həmin bağa pənah apardı. Lakin yəhudilər həzrətin dalınca gəlib ağacın arasında onu şəhid etdilər.

Həmin ağac yəhudilərin yanında müqəddəs idi. Buna görə də onlar ağacı kəsmək istəmirdilər.

Lakin şeytan onları təhrik edib ağacı kəsdirdi.

Sonra Allah taala Yəhya və Zəkəriyyanın qanının intiqamını almaq üçün insanların ən xəbisini onların canına saldı. Onların çoxunu o iki peyğəmbərin qanını almaq intiqamı bəhanəsiylə cəhənnəmə vasil edərək Beytül-Müqəddəsi viran etdi. Həzrət Zəkəriyya və Yəhya Beytül-Müqəddəsdə dəfn olundu.

*XXII FƏSİL*

# Yəhya (ə)

Yəhyanın anadan olması və onun bəzi əhvalatları haqqında Zəkəriyyaya aid olan fəsildə qısa da olsa söhbət açdıq. O həzrətin adı da Qur‘anda daha çox atası Zəkəriyyanın əhvalatlarında zikr olunubdur. O cümlədən “Ali-İmran”, “Ənam”, “Məryəm” və “Ənbiya” surələrində. Yalnız “Məryəm” surəsində ayrıca olaraq onun fəzilətlərindən söz açılıbdır. Orada Yəhyaya bəxş olunan ilahi nemətlərdən ad aparılıbdır. “Ali-İmran” surəsində də Zəkəriyyaya oğlu Yəhyanın müjdəsini verərkən onun fəzilətlərindən bir neçəsi zikr olunubdur. Və bunlar: (Zəkəriyyanın əhvalatında dediyi kimi) O həzrətin İsaya (ə) imanı və onu təsdiq etməsi, Yəhyanın ağalıq və alicənablığı, onun evlənməkdən pərhiz etməsi və peyğəmbərlik məqamıdır.

“Ali-İmran” surəsində Allah taala buyurur:

“Allah sənə özü tərəfindən gələn kəlməni (İsanı) təsdiq edən, (tayfasına) ağa, nəfsinə hakim və əməli salehlər cərgəsindən bir peyğəmbər olacaq Yəhyanın (dünyaya gələcəyi) xəbərini müjdə verir.”

“Məryəm” surəsindəki ayələr bundan ibarətdir:

“Ey Yəhya, bu kitabı (Tövratı) möhkəm tut. Hikmət və elmi uşaqlıqdan ona verdik. Mehr-məhəbbəti və paklığı öz tərəfimizdən ona əta etdik. O, pəhrizkar və ata-anasına xeyir verən idi. O, tərs və nadinc deyildi. Bizim salamımız (yəni salamatçılıq və əmin-amanlığımız) onun dünyaya gəldiyi gündən ölümünə və yenidən dirildiyinə qədər onunladır.” (“Məryəm” surəsi, ayə14-16).

İbn Abbas “Və ətəynahul hukmə səbiyya” cümləsinin təfsirində deyir: -”Yəhya üç yaşında peyğəmbərlik məqamına çatdı.”

Əhli-Beyt (ə) rəvayətlərində Yəhyanın böyüklüyü və hikmətli şəxs olduğu barədə yazılır ki, onun yaşında olanlar dedilər: -”Gəl gedək oynamağa!” Yəhya onlara cavab verdi: -”Biz oynamaq yox, böyük işlər görmək üçün yaranmışıq.”

Əbu Həmzə Sumali “Və hənanən min ləlunna” cümləsinin təfsirində yazır ki, İmam Sadiq (ə) buyurdu: -”Bu cümlədən məqsəd Allahın Yəhyaya lütf və mərhəmətinin nə qədər olmasıdır. Əbu Həmzə deyir ki, mən imamdan Allahın ona nə qədər məhəbbət bəsləməsi barədə soruşanda o, belə buyurdu: -”Allahın ona o qədər mərhəməti var idi ki, Yəhya “ya Rəbb” deyəndə, Allah onun cavabında “Ləbbeyk ya Yəhya” (hazıram ey Yəhya) buyurardı.

“Vələm yəkun cəbbarən əsiyya” cümləsinin təfsirində şiə və sünni mühəddisləri Məhəmməd (s) Peyğəmbərdən bu rəvayəti nəql edirlər: “Yəhya heç vaxt ömründə günah etmədi.”

Şeyx Səduq “Uyun” və “Xisal” kitablarında yazır ki, İmam Rza (ə) “Və səlamun ələyhi yəvmə vulidə və yəvmə yəmutu və yəvmə yub`əsu həyya” ayəsinin təfsirində belə buyurub: -”İnsanların ən vəhşətli və qorxulu vaxtları üç yerdədir. Birincisi, anadan olub bu dünyaya qədəm qoyan gün, ikincisi, ölüm günü və üçüncüsü Qiyamət gününün çətinlikləri. Allah taala bu şərif ayədə həmin üç vaxtda Yəhyanın salamat və rahatçılıqda olacağını xəbər verir. Necə ki, həzrət İsanı (ə) da həmin vəhşətlərdə rahat olacağını xatircəm edir. “Məryəm” surəsində buyurur:

“Doğulduğum gün, öldüyüm gün və Qiyamət günü mənə salamatçılıq ver.” (“Məryəm” surəsi, ayə 33).

## MARAQLI BİR HƏDİS

“Mən la yəhzurul-fəqih” kitabında İmam Sadiqdən (ə)n rəvayət olunur:

Bir kişi İsa ibni Məryəmin yanına gəldi və dedi: -”Ey Allahın peyğəmbəri! Mən zina etmişəm. Məni paklaşdır!” İsa (ə) hökm verdi ki, bu kişini paklaşdırmaq üçün camaatı bir yerə toplasınlar. Camaat bir yerə toplaşdılar. Həmin kişi öz cəzasına çatmaqdan ötəri onun üçün qazılıb hazırlanmış yerdə durdu. O, uca səslə dedi: -”Hər kəsin boynunda mənim kimi Allahın təyin etdiyi hədd (cəza) vardırsa, mənə hədd vurmasın (məni cəzalandırmasın.)”

Camaat onun sözünü eşidib hamısı getdi. Yalnız Yəhya ilə İsa orada qaldı. Bu zaman Yəhya ona yaxınlaşıb dedi: -”Ey günahkar kişi! Mənə moizə et!” Həmin kişi dedi: -”Heç vaxt nəfsinlə onun istəyi arasında azadlıq qoyma, yoxsa səni həlak edər!”

Yəhya ona dedi ki, başqa bir nəsihətli söz de. Dedi: -"Heç vaxt xətakar adamı etdiyi xətasına görə danlama!"

Yəhya yenə də ondan nəsihətli söz istədi. O dedi: -"Heç vaxt əsəbləşmə!"

Yəhya buyurdu: -"Bu sözlər mənim üçün kifayətdir!"

## YƏHYANIN İBADƏTİ VƏ ZÖHDÜ

Deyləmi "İrşadül-qulub" kitabında yazır: Yəhyanın paltarı lifdən (xurma ağacının qabığından) və yeməyi çox sadə idi.

İbni Əsir "Kamilüt-təvarix" kitabında yazır: Yəhya öz yeməyini səhrada bitən bitkilər və ağac yarpaqlarından hazırlayırdı. Bəzi tarixçilərin sözünə əsasən Yəhya arpa çörəyi yeyir və kürk geyinirdi. Onun dirhəmi və dinarı yox idi. Özü üçün yaşamağa ev də tikməmişdi. Hər yerdə gecə olurdusa orada da gecəni başa çatdırırdı. Kuleyni yazır ki, İmam Musa Kazim (ə) bir hədisdə buyurur: -"Yəhya həmişə ağlayır və gülmürdü."

Yəhyanın ağlamağı və ibadəti haqqında çoxlu rəvayətlər yazılıb. Bir hədisdə İmam Sadiq (ə) buyurur: -"Yəhya o qədər ağladı ki, yanaqlarının əti əridi. Atası Zəkəriyya ona dedi:

-"Oğlum! Mən Allah taaladan övlad istədim. Allah taala da səninlə mənim gözümü işıqlandırdı." Yəhya dedi:

-"Ata can! Odlu cəhənnəmlərin üstündə olan uçurumlardan Allah qorxusundan ağlayanlardan başqa heç kəs keçə bilmir. Mən də qorxuram ki, oradan keçə bilməyim." Bu vaxt Zəkəriyya huşdan gedənə qədər ağladı.

## YƏHYANIN ŞEYTANLA DANIŞIĞI

Şeyx Tusinin "Əmali"kitabında İmam Rza (ə) öz ata-babasından Yəhya ilə şeytanın danışığı barədə nəql etdiyi hədis yazılıbdır. Hədisin xülasəsi bundan ibarətdir:

Şeytan Adəm peyğəmbərin dövründən İsa (ə) dövrünə qədər peyğəmbərlərin yanına gəlir və onlarla söhbət edirdi. Hamıdan çox Yəhya ilə danışırdı. Bir gün Yəhya onda soruşdu:

-"Səndən bir şey istəyirəm." Şeytan dedi:

-"Sənin hörmət və məqamın mənim yanımda o qədərdir ki, hər nə istəsən yerinə yetirərəm. Yəhya dedi:

-"Adəm övladlarını saldıqların tələləri mənə göstər!" Şeytan onun təklifini qəbul etdi. Başqa bir gün xüsusi formada, çoxlu vasitələrlə və cürbəcür rənglərlə Yəhyanın yanına gəldi. Həmin vasitələlər və rənglərin mahiyyətlərini Yəhya üçün izah etdi. Yəhya ona buyurdu:

-"İndiyə qədər mənə güc gəlib qələbə çalmısanmı? "Şeytan cavab verdi:

-"Xeyr. Lakin səndə olan bir xasiyyəti mən çox sevirəm." Yəhya soruşdu:

-"Hansı xasiyyəti?" Şeytan dedi:

-"Doyunca yemək yeyirsən və bu da sənin bəzi namazlarına, gecə ibadətlərinə mane olur." (Bu da mənim sevinməyimə səbəb olur.) Yəhya bu sözü eşidəndən sonra dedi:

-"Mən bu saatdan Allahla əhd bağlayıram ki, onunla görüşənə qədər doyunca yemək yeməyim." Şeytan da dedi:

-"Mən də Allahla əhd bağlayıram onunla görüşənədək heç bir müsəlmana nəsihət etməyəcəyəm." Şeytan bunu deyib getdi və ondan sonra daha Yəhyanın yanına gəlmədi.

## YƏHYANIN ŞƏHİD OLMASI

Yəhya ibni Zəkəriyyanın öz dövründəki padşahların əliylə şəhid olması haqda Qur'ani-Kərimdə ayə nazil olmamışdır. Rəvayətlərdə də onun səbəbi haqda fərqli fikirlər söylənilmişdir. Bir hədisdə yazılıb:

Yəhya ibni Zəkəriyyanın dövründə şəhvətpərəst bir padşah var idi. Padşah öz arvadları ilə kifayətlənmirdi. Bir gün o, zinakar bir qadınla tanış oldu. Həmin qadın qocalana kimi padşahın yanına get-gəl edirdi. Qocalandan sonra öz qızını padşahın yanına göndərməyi qərara aldı. O, qızına dedi: -"Padşah səninlə cinsi əlaqədə olandan sonra səndən soruşsa, nə istəyirsən, ona de ki, Yəhya ibni Zəkəriyyanı öldür.

Həmin qız anasının göstərişinə əməl etdi. Padşah onunla yaxınlıq edəndən sonra, qız Yəhyanı öldürməyi ona təklif etdi. Padşah onunla üç dəfə zina edəndən sonra Yəhyanı öz yanına çağırıb başını bədənindən ayırdı. Onun başını qızıl teştə qoydu.

Başqa bir tarixə görə o zinakar qadın həmin padşahdan qabaqkı padşahın yanında da olubmuş. Qabaqkı padşahdan bir qızı dünyaya gəlibmiş.

Yəhyanın dövründəki padşah da həmin qadınla evlənir. O, qocalandan sonra öz qızını padşahla evləndirmək istəyirdi. Padşah (Yəhyanı çox istədiyi üçün) ona dedi: -"Mən bu hökmü Yəhya ibni Zəkəriyyadan soruşmalıyam. Bilməliyəm ki, belə evlənməyə icazə vardır, yoxsa yox?"

Padşah Yəhyadan bu məsələni soruşdu. Yəhya buyurdu: -"Belə nikaha icazə yoxdur." Yəhyanın padşaha verdiyi cavab, zinakar qadının ona bağladığı kin-küdürətə səbəb oldu. Bir gün padşah məst idi. O, qızını bəzəyib padşahın yanına göndərdi… Elə bu da Yəhyanın ölümünə səbəb oldu.

Başqa bir tarixdə yazılır: Padşahın bacısının gözəl bir qızı var idi. O, öz bacısı qızına vuruldu. Onunla evlənmək istədi. Yəhya buna e'tiraz etdi. Padşahın bacısı Yəhyanın bu işə e'tirazını eşidəndən sonra qızını bəzəyib padşahın yanına göndərdi. Padşah qızı görüb özünü itirdi. O, qıza dedi:

-"Nə istəyirsən:" Qız dedi:

-"İstəyirəm ki, Yəhya ibni Zəkəriyyanı öldürəsən." Padşah dedi:

-"Bundan başqa bir şey istə!" Qız dedi:

-"Bundan başqa səndən heç nə istəmirəm." Padşah Yəhyanı çağırıb başını kəsdi.

Cadul-movlanın "Qisəse-Qur`an" və Nəccarın "Qisəsül-ənbiya" kitabında padşahın adı Hirudis və qızın adı Hirudiya yazılıbdır. Hər iki kitab Hirudiyanı padşahın qardaşı qızı bilirlər.

Markusun İncilinin səkkizinci bölməsində yazılıbdır ki, Hirudiya Hirudisin qardaşı arvadı idi. Hirudis onunla evləndi. Orada baş vermiş hadisəni belə nəql edirlər:

"...Hirudis Yəhyanın göndərdiyi nümayəndəni tutub zindana saldı. Hirudiya onun qardaşı Filipsin arvadı olduğu üçün Yəhya demişdi: -"Sən öz qardaşın arvadı ilə evlənə bilməzsən." Buna görə də Hirudiya Yəhyanın kinini ürəyində saxlamışdı. O, Yəhyanı öldürmək istəyir, lakin bacarmırdı. Çünki, Hirudis Yəhyadan qorxurdu. Həmçinin Hirudis Yəhyanı ədalətli və müqəddəs olduğunu bilirdi. Onun dediyinə əməl edirdi. O, diqqətlə Yəhyanın sözünə qulaq asırdı.

Bir gün Hirudis özü üçün ad günü keçirdirdi. O, böyük məclis qurub qoşun başçılarını və məmləkətin ən hörmətli şəxslərini dəvət etdi. Hirudiyanın qızı məclisə gəlib rəqs etdi. O, öz rəqsi ilə Hirudis və məclis əhlini şad etdi. Padşah qıza dedi: -"Ürəyin nə istəyir mənə de!" Padşah and içdi ki, hər nə istəsən, hətta mal-dövlətimin yarısını da istəsən, sənə verəcəyəm. Qız anasının yanına gedib dedi ki, padşahdan nə istəyim? Anası dedi: -"Yəhyanın başını istə." Qız məclisə qayıdıb padşahdan xahiş edərək dedi: -"İndi bu saat istəyirəm ki, Yəhyanın başını tabağa qoyub mənə verəsən."

Padşah çox narahat oldu. Lakin and içdiyi üçün onun sözündən keçə bilmədi. Tez bir cəllad göndərib Yəhyanın başını gətirtdi. Yəhyanın başını tabağa qoyub qıza verdi. Qız da onu anasına verdi.

Yəhyanın şagirdləri bunu eşidən kimi gəlib onun bədənini aparıb dəfn etdilər.

İmam Sadiq (ə) və İmam Baqir (ə) buyurublar: -"Yəhya ibni Zəkəriyyanın qatili zinadan əmələ gələn idi. Necə ki, Əli ibni Əbi Talibin (ə) və Hüseyn ibni Əlinin (ə) qatili zinazadə olubdur.

Başqa hədislərdə vardır ki, göy iki nəfərə ağladı. Onlardan biri Yəhya ibni Zəkəriyya (ə), o birisi isə İmam Hüseyn (ə) idi.

Göyün necə ağlaması haqda deyiblər: -"Göyün ağlamağının əlaməti Günəş çıxıb batanda səmada yaranan qızartıdır.

Bəzi alimlər isə deyirlər:

-"Səma əhli, yəni mələklər ağladılar." Məclisi isə deyir ki, ola bilsin bu cümlə müsibətin çox böyük olduğuna bir kinayədir.

Rəvayətlərdə yazılıbdır ki, Yəhyanı öldürəndə onun bir damcı qanı yerə töküldü. Həmin qan damcısı qaynayıb yuxarı qalxdı. Camaat onun üstünə torpaq tökdülər. Lakin qan qaynaya-qaynaya yuxarı qalxırdı. Nə qədər torpaq tökürdülərsə də yenə də yuxarı qalxırdı. Nəhayət, böyük bir torpaq təpə düzəldi. Amma qan yenə də qaynayırdı. Həmin əsr keçəndən sonra Allah taala Buxtunnəsri onlara hakim etdi. O, yetmiş min adam qırandan sonra qan daha qaynamadı.

Mənim nəzərimcə bu rəvayətlərdə adı çəkilmiş Buxtunnəsr, miladdan altı əsr qabaq yaşayıb və iki dəfə Beytül-Müqəddəsə hücum çəkən Buxtunnəsr deyil. Necə ki, Məs'udi "İsbatul-vəsiyyə" kitabında yazır: Yəhyanın intiqamını almaq məqsədiylə Beytül-Müqəddəs şəhərinin sakinlərini qıran Buxtunnəsrin

nəslindən olubdur. Bəziləri isə ehtimal verirlər ki, Buxtunnəsr uzun müddət yaşayıbdır. Onun beş yüz əlli ildən çox ömrü olubdur.

Bəzi tarixçilər isə deyirlər: -"Beytül-Müqəddəsə hucum çəkən və Yəhya ibni Zəkəriyyanın qanının dayanması üçün orada yaşayanları öldürən şəxs Babil padşahlarından biri olmuşdur. Onun adı Kərdus idi. O, öz qoşun başçısına dedi: -"Mən bu şəhər camaatının Allahına and içmişəm, əgər qələbə çalsam onları o qədər qıracağam ki, qanları qoşunumun arasında su kimi axsın." Sonra həmin qan dayanana qədər çoxlu insanları öldürdü.

Kuleyni (r) rəvayət edir ki, İmam Sadiq (ə) buyurdu: -"İsa ibni Məryəm (ə) Yəhyanın qəbri üstünə gəldi. Allahdan onun dirilməsini istədi. Allah onun duasını qəbul etdi. Yəhya dirildi və qəbirdən çıxandan sonra İsaya dedi: -"Məndən istəyin nədir?" İsa dedi: -"İstəyirəm keçmişdə olduğu kimi indi də mənimlə bir yerdə qalasan!" Yəhya dedi: -"Ey İsa! Hələ də ölümün acılığı yadımdadır. İkinci dəfə məni dünyaya qaytarıb ölümün acılığını yenidən mənim üçün təzələmək istəyirsən?"

Bunu deyib yenidən qəbrinə daxil oldu.

XXIII FƏSİL

# İsa(ə)

İsa (ə) böyük ilahi peyğəmbərlərdən biridir. Onun adı Qur‘anda çox çəkilmişdir. Onun adı ayələrin çoxunda fəzilət, əzəmət, Allahın bəndəsi, Allah kəlməsi, Allah ruhu, Ruhul-qudusla təyid olunmuş və başqa ləqəblərlə birlikdə zikr olunmuşdur.

Qur‘anda qırx beş yerdə İsanın (ə) adı vardır. On bir dəfə “Məsih” ləqəbilə Qur‘anda zikr olunmuşdur. Ümumiyyətlə, on üç surədə onun adı gəlmişdir.

İsanın anası Məryəmdir. Məryəm İmranın qızıdır. O, dünyanın ən bəyənilmiş və pak qadınlarından biridir. Allah taalanın ən yaxın və sevimli bəndəsidir. Allah yanında ibadət və etdiyi xidmətlər qəbul olmuşdur. Ona hesabsız və heç bir vasitə olmadan ruzi yetişirdi. İlahi mələklər və onların başçısı Cəbrayıl Məryəmin yanına nazil olub oğlu Məsihi ona müjdə verdi. Qur‘an qeyd etdiyimiz xüsusiyyətlərlə Məryəmi tanıtdırır. Rəvayətlərdə də Məhəmməd peyğəmbər (s) və İmamlar Məryəmi dörd müqəddəs qadınlardan biri kimi tanıyır. Onun üçün çoxlu fəzilətlər bəyan etmişdir. Onun malik olduğu böyük məqamı bilmək üçün, həzrət İsanın (ə) tarixindən qabaq anası Məryəmin əhvalat və fəzilətlərini az da olsa açıqlamaq lazımdır. Sonra isə görkəmli oğlu İsa (ə) haqda məlumat verəcəyik.

## MƏRYƏM (Ə)

Qabaqkı fəsillərdə həzrət Zəkəriyyanın əhvalatında qeyd etdik ki, İmran (Məryəmin atası) Süleyman ibni Davudun övladlarından və Bəni-İsrailin ən böyük şəxsiyyətlərindən idi. Hətta bir hədisdə onun peyğəmbər olduğunu da görürük.

İmranın atası haqda bir neçə söz vardır. Bəzi alimlər onun atasının adını Masan, bəziləri Əşhum və ya Yaşhumu onun atası bilirlər.

İmranın həyat yoldaşı Hənnə idi. O, illər boyu övlad arzusunda idi. Tədricən övladı olmaqdan məyus olmuşdu. Bir gün bir ağacın altında oturmuşdu. Gördü ki, bir quş öz balasına dimdiyi ilə yemək verir. Bu mənzərə yenidən Hənnənin yadına övlad dərdini saldı. Həsrətlə Allahdan övlad istədi. Dua edəndən sonra nəzir etdi ki, əgər övladım olsa onu Beytül-Müqəddəsdə xidmətçi qoyaram.

Allah taala Hənnənin duasını qəbul etdi və İmrana vəhy etdi ki, biz sənə mübarək bir övlad əta edəcəyik. Sənin övladın xora, dəri xəstəliyinə düşənlərə şəfa verəcək və Allahın izni ilə ölüləri dirildəcək. Biz onu Bəni-İsrailə peyğəmbər edəcəyik.

İmran həyat yoldaşı Hənnəyə bu müjdəni verdi. Bir müddət keçəndən sonra Hənnə hamilə olduğunu hiss etdi. Övlad arzusu onun gözlərini daha da işıqlandırdı. Qəlbi sevinclə doldu.

Hənnə İmranın ona verdiyi müjdədən sonra fikirləşdi ki, onun oğlu olacaq. Sevinirdi ki, nəziri də bununla uyğundur.

Uşaq olandan sonra Beytül-Müqəddəsdə xidmətçi qoyacaq. Bu ümid ilə gecə-gündüzünü keçirirdi. Uşaq dünyaya gəlməmiş İmran vəfat etdi. Hənnənin şad günləri qəm-qüssə ilə doldu. O, artıq həyat yoldaşını əldən vermişdi. Daha Hənnənin çöhrəsindəki sevinci heç kəs görmürdü.

Hamiləlik dövrü sona çatdı. Uşaq dünyaya gəldi. Hənnənin fikrinin əksinə olaraq qız uşağı dünyaya gəldi. Bu da dağ görmüş qəlbini qüssələndirdi. Çünki, o, nəzir etmişdi ki, uşağı xidmətçi etsin. Qız uşağının da bu işə ləyaqəti yox idi. Başqa bir tərəfdən də Allah taala İmrana vədə vermişdi ki, ona bir övlad verəcək və onu peyğəmbərlik məqamına yetişdirəcək. Həmin övladdan möcüzələr baş verəcək. Buna görə də Hənnə həsrətlə Allah dərgahına ərz etdi: -”İlahi, mən onu qız doğdum…” Lakin yenə də o, naümid olmadı. Qərara aldı ki, onu Beytül-Müqəddəsin ibadətgahında ruhanilərə versin. Bu münasibətlə də uşağın adını “Məryəm” qoydu. Məryəmin mə`nası, ibadətkar və xidmətçi qadın deməkdir.

Başqa bir tərəfdən isə Allahın İmrana verdiyi vədəyə görə naümid olmadı. Öz-özünə fikirləşdi ki, əgər Allahın bizə verdiyi müjdə, yəni peyğəmbər məndən dünyaya gəlməsə də, sonralar qızım Məryəmdən dünyaya gələcəkdir. Buna görə də Məryəmi və onun nəslindən dünyaya gələn uşaqları belə dua etdi: “İlahi! Mən Məryəm və onun övladlarını dərgahından qovulmuş şeytanın şərrindən sənə pənah gətirirəm.”

Allah taala Hənnənin duasını qəbul etdi və Məryəmi öz pənahı altında qoruyub saxladı. Allah taala "Ali-İmran" surəsində Məryəmin anasının duasından sonra buyurur:

-"Allah onu çox ali surətdə qəbul etdi. Onun paklıq və yaxşılığını inkişaf etdirdi. Zəkəriyyanı onun himayəsinə verdi. Zəkəriyya mehraba onun yanına gəldiyi zaman onun yanında ruzilər görürdü. Ona dedi:

-"Ey Məryəm, bu ruzi haradandır?" Dedi:

-"Allah tərəfindəndir. Allah istədiyi hər kəsə saysız-hesabsız ruzi verir." ("Ali-İmran"i, ayə 37).

Hənnə Məryəmin adını qoyandan sonra ona dua edib Allahın vədəsinə və onun Məryəmi öz pənahında saxlayacağına ürək bağlayaraq uşağı ağ bir parçaya bükdü. Onu Beytül-Müqəddəsə gətirib ruhanilərə verdi. Zəkəriyya Məryəmi öz öhdəsinə götürdü. Bunu da biz Zəkəriyyanın əhvalatında yazdıq. İndi isə Məryəmin fəziləti haqda bir neçə cümlə yazırıq.

## MƏRYƏMİN BƏZİ FƏZİLƏTLƏRİ

"Ali-İmran" surəsindəki iki ayədə xəbər verilir ki, mələklər Məryəmlə söhbət edirdi. Onlar Həzrət Məsihin (İsanın) dünyaya gələcəyini Məryəmə müjdə verirdilər.

"Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, (eyblərdən) təmizləmiş, (cəmi) aləmlərin (bütün dünyanın) qadınlarından üstün tutmuşdur." («Ali-İmran» surəsi, ayə 42).

"Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfinən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa Məsihdir ki, dünyada və axirətdə şanı uca (şərəfli) və (Allaha) yaxın olanlardandır." («Ali-İmran» surəsi, ayə 44).

Bu iki ayəyə görə Cəbrayıl insan surətində Məryəmin yanına nazil olub özünü ona tanıtdırdı. Sonra ona pak bir oğlan uşağı bağışladı.

Allah taala başqa bir ayədə buyurur:

"Kitabda (Qur'anda) Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb (evinin, yaxud Beytül-Müqəddəsin) şərq tərəfində (ibadət məqsədilə xəlvət) bir yerə çəkilmişdi. Və ailə üzvlərindən gizlənmək (paltarını dəyişmək, yaxud yuyunub təmizlənmək) üçün pərdə tutmuşdu. Biz Öz ruhumuzu (Cəbraili Məryəmin) yanına göndərdik. Ona (Məryəmə) kamil bir insan qiyafəsində göründü. (Məryəm) dedi: -"Mən səndən Rəhmana (Allaha) pənah aparıram. Əgər müttəqi isənsə (mənə toxunma)!" (Cəbrail:)"Mən sənə ancaq təmiz (mə'sum) bir oğlan bağışlamaq üçün Rəbbinin (göndərdiyi) elçisiyəm!" -dedi. («Məryəm» surəsi, ayə 16).

Allah taala "Maidə" surəsində 74-cü ayədə Məryəmlə "Siddiqə" (çox-çox düz danışan) ləqəbini veribdir. "Mu`minun" surəsində də onu Allahın nişanəsi kimi tanıtdırıb… Nəhayət "Ənbiya" surəsində 16 nəfər böyük ilahi peyğəmbərlərin, o cümlədən Musa, Harun, İbrahim, Lut, İshaq, Yəqub və başqalarının adlarını çəkəndən sonra Məryəmin iffətli və pak qadın olduğunu deyib, İsanı anasının vasitəsilə tanıtdırıb.

Onu anası Məryəmlə birlikdə ilahi ayələrdən bir nişanə olduqlarını belə bəyan edibdir:

"İsmətini (bəkarətini) qoruyanı da (Məryəmi də yad et) ! Biz Öz ruhumuzdan (Özümüzün yaratdığımız ruhdan Cəbrail vasitəsilə) ona üfürdük, onu və oğlunu (atasız doğulmuş İsanı) aləmlərə (mələklərə, bütün insanlara və cinlərə) bir mö'cüzə etdik." («Ənbiya» surəsi, ayə 91).

Bu ayəyə diqqət yetirməklə Məryəmin əzəmət, fəzilət və kamilliyi çox yaxşı aydın olur.

Şeyx Tusi "Məcməül-bəyan"da yazır ki, Məhəmməd (s) peyğəmbər buyurub: -"Çox kişilər kamilliyə yetişdilər. Lakin, qadınlardan yalnız dörd nəfər bu məqama çatdı. Onlar bunlardan ibarətdir: 1) Müzahimin qızı Asiya, Fir`onun həyat yoldaşı; 2) İmranın qızı Məryəm; 3) Xuveylidin qızı Xədicə; 4) Məhəmmədin (s) qızı Fatimə (s.ə).

Şeyx Səduq bir neçə sənədlə Məhəmməd (s) Peyğəmbərdən rəvayət edir. O həzrət buyurub: -"Cənnət qadınlarının ən yaxşısı dörd nəfərdir: İmranın qızı Məryəm, Xuvəylidin qızı Xədicə, Məhəmmədin qızı Fatimə (s) və Müzahimin qızı və Fir'onun arvadı Asiya.

Başqa bir hədisdə buyurur: "Əzəmətli və Cəlil Allah dünya qadınları arasında dörd qadını seçdi: Məryəmi, Asiyanı, Xədicəni və Fatiməni (s).

Kuleyni "Rövzətül-kafi" kitabında İmam Sadiqdən (ə) belə rəvayət edir: "Məryəm paklıq və iffətdə elə bir məqama malikdir ki, Allah taala Qiyamət günündə onu başqa qadınlar üçün nümunə və höccət qərar verir. Allah taala Məryəmi başqaları üçün dəlil gətirir."

## İSANIN ANADAN OLMASI

Məryəm Həzrət Zəkəriyyanın sərpərəstliyi ilə uşaqlıq dövrünü keçirirdi. O, həddi-buluq yaşlarına qədəm qoydu. Müfəssirlər deyirlər: -"Məryəm öz ehtiyaclarını ödəmək üçün bəzi vaxt Zəkəriyyanın evinə, xalasının yanına gedirdi. Bir gün o, Zəkəriyyanın evinin bir güncündə, yəni evin şərq hissəsində pərdə asıb bədənini yuyurdu. O, pərdənin dalında ikən birdən çox gözəl bir cavanı gördü. Cavan ona tərəf gəlirdi. Bu, ilahi böyük mələk Cəbrayıl idi. Cəbrayıl insan surətində Məryəmin yanına gəlib İsanın ruhunu ona üfürdü. Məryəm o günə qədər paklıqda və iffətdə yaşayır, gecə-gündüz ibadət edir və təqva toplayırdı. Öz xəlvət ürəyini həqiqi mə'şuquna (Allaha) tapşırmışdı. Məryəm gözəl cavanın kim olduğunu bilmək istəmədən, onun adını və xüsusiyyətlərini soruşmadan Rəhman Allaha pənah apardı. Qısa və nəsihətli bir cümlə ilə cavana dedi ki, tez ondan uzaqlaşsın. Çox yaxşı olardı ki, bu hadisəni Allah taala və onun Qur'anından eşidək. "Məryəm" surəsində buyurur:

-"Bu kitabda Məryəmi xatırla. Öz kimsələrinin Şərq tərəfindən kənara çəkildi, onların qarşısında pərdə çəkdi. Bu zaman biz öz ruhumuzu ona sarı göndərdik və onu tam insan yaranışı şəklində onun üçün zahir oldu. Məryəm dedi: "Əgər Pərvərdigarsansa Sənin əlindən Rəhman Allaha pənah aparıram." O dedi: "Mən sənin Pərvərdigarının göndərişi ilə gəlmişəm ki, sənə pak bir oğlan əta edim..." («Məryəm» surəsi, ayə19-20).

Məryəm bu sözləri eşidərək xatircəm oldu ki, bu cavan bəşər deyil və pis məqsədi yoxdur. O, fikrə getdi ki, bir nəfər kişi ilə cinsi əlaqədə olmaya-olmaya necə övlad sahibi ola bilər. Buna görə də Məryəm təəccüblə soruşdu:

"(Məryəm) dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!" («Məryəm» surəsi, ayə 21).

İlahi mələk Allahın qüdrətini Məryəmin yadına salıb bu cümlə ilə cavab verdi:

"Bəşər övladının mənim yanımda olmadığı və zinakar olmadığım bir halda mənim oğlumun olması necə mümkündür?"

İlahi mələk Allahın qüdrətini xatırladaraq cavabında bu cümləni dedi: -"Bəli, pərvərdigarın deyib ki, bu iş mənim üçün asandır. (Biz istəyirik) ki, onu öz tərəfimizdən əlamət və rəhmət göndərmişik və (bu) iş keçmişdə olub." («Məryəm» surəsi, ayə 22).

Məryəm başa düşdü ki, Allahın qüdrəti öz işini görübdür. Uşağın atası olmadığı halda ona böyük və pakizə bir övlad verəcək. Bu da Allahın rəhmət və nişanəsidir. Ondan sonra Məryəmin vücudunda hamiləlik əlamətləri yarandı. Bir müddətdən sonra doğum vaxtı çatdı. Doğum əlamətlərini müşahidə edən Məryəm kənar və uzaq bir yerə getdi. O, özünü xurma ağacının yanına çatdırdı.

## DOĞUM VƏ ONUN MÜDDƏTİ

İsanın necə dünyaya gəlməsi və ondan sonra baş vermiş hadisələr haqqında təfsirçilər arasında müxtəlif fikirlər vardır.

Məryəmin necə hamilə olmağı barədə bir dəstə müfəssirlər deyirlər: -"Cəbrayıl Məryəmin paltarının qolunu tutub ona üflədi. O an Məryəm hamilə oldu. Hamiləlik əlamətləri onda aşkar oldu."

Başqa müfəssirlər isə deyirlər ki, Cəbrayıl Məryəmin paltarının boynunu tutub üflədi.

Bir hədisdə İmam Musa ibni Cəfər (ə) buyurur: -"Cəbrayıl Cənnətdən bir növ xurma gətirdi. Onu Məryəmə verdi. Məryəm həmin xurmadan yeddi dənə yedi və hamilə oldu.

Hamiləlik dövrünün müddəti haqqında da müxtəlif nəzəriyyələr söylənilibdir. İbn Abbas deyir: -"Hamiləlik dövrü bir saat çəkdi. Bir saat ərzində İsa doqquz aylıq uşaq kimi böyüdü." Məqatil yazır: "Hamiləlik müddəti üç saat oldu."

Başqa alimlər isə hamiləlik müddətini doqquz saat olduğunu deyirlər. İsanın (ə) ona bətnində hər bir saatı başqalarının bir ayına bərabər idi.

Bir neçə hədisdə İmam Sadiq (ə) və başqa imamlarımız (ə) buyurubdur: "Hamiləlik dövrü altı ay idi. İsa və Hüseyn ibni Əlidən (ə) başqa heç bir uşaq altı ayında dünyaya gəlməyibdir. Başqa hədisdə gəlibdir ki, diri qalmayıblar. Yəni əgər altı aylıq dünyaya gəlsə də yaşamayıb dünyalarını dəyişiblər."

Bir tarixə əsasən İsa yeddi və ya səkkiz ayında anadan olubdur.

Hər bir halda, onun anadan olması ana bətnində olduğu kimi adi olmayıbdır. Həmçinin İsanın harada doğulması, Məryəmin xurma ağacının yanına getməsi və təzə xurmadan yeməsi barədə də fərqli fikirlər irəli sürülübdür.

Mötəbər tarixə görə İsa (ə) Beytül-Ləhmdə (Beytül-Müqəddəsin yaxınlığında) dünyaya gəldi. İndi də həmin şəhərdə bu adda əzəmətli və gözəl bina vardır. Dünya xristianları oraya ziyarətə gəlirlər.

Bəzi tarixçilərin nəzərinə görə, Məryəm Misirə, ya da Dəməşqə getdi. Bir neçə hədisdə də rəvayət olubdur ki, Məryəm "teyyül-ərzlə" İraqa - Neynəva şəhərinə, Fərat çayının kənarında və ya Bağdad şəhərinin yaxınlığında Burasa adlı yerdə İsanı dünyaya gətiribdir. Sonra həmin yolla İsa ilə Beytül-Müqəddəsə qayıdıb.

Bu işlərin hamısı xariqüladə, qeyri-adi yolla və möcüzə ilə olubdur. Bu heç də təfəkkürdən uzaq bir məsələ deyil. Xüsusilə, Allahın hədsiz qüdrəti, peyğəmbərlərin və ilahi övliyaların möcüzələri, Məryəmlə İsanın Allah yanındakı məqamına etiqadla yanaşı bunların hamısı mümkündür. Burada heç bir şəkk-şübhə ola bilməz. Həmçinin sonradan baş verən hadisələr, o cümlədən xurma ağacının yaşıllaşması, təzə xurmaların Məryəm üçün yetişməsi və yerə düşməsi Allahın möcüzəsidir.

Bəli, Məryəm gördü ki, əri olmaya-olmaya hamilə olubdur. Camaatın töhmətindən qorxduğu üçün hətta öz yaxın adamlarından belə uzaqlaşdı. Onun yanında heç kəs yox idi. Doğum vaxtı çatanda çarəsiz qalıb özünü xurma ağacının yanına çəkdi və orada öz mübarək övladını dünyaya gətirdi. Həmin halda ağır narahatçılıq keçirən Məryəm dedi: -"Ey kaş öləydim və bu çətinliyi görməyəydim."

Allah taala buyurur:

"Doğuş ağrısı onu xurma ağacının gövdəsinə tərəf çəkdi və dedi: -"Ey kaş, bundan əvvəl öləydim və hamının unudulacağı alçaq bir şey olardım." («Məryəm» surəsi, ayə 24).

Məryəmin dil yarası və camaatın töhmətindən nə qədər qorxduğunu həmin cümlədən başa düşmək olur. Doğrudan da, Məryəm kimi pak və iffətli bir qadına zina töhməti vurmaq onun üçün çox acı və çətin hadisə idi. Xüsusilə, qadınlarda məhəbbət və hissiyyat güclü olduğu üçün çətin hadisələr onları daha tez sarsıdır. Buna görə də həmin saatların nə qədər Məryəm üçün çətin keçdiyini hər bir insan başa düşə bilər. Amma Allah taala hər yerdə onu öz pənahı altında saxladığı kimi, bu dəfə də belə bir vəziyyətdə Məryəmi tək qoymadı. Ona ürək-dirək verdi.

Qur'an buyurur:

"Bu zaman ayağının altından səs eşidildi: -"Qüssələnmə, Pərvərdigarın sənin üçün ayağının altından bulaq coşdurdu. Və xurma ağacının gövdəsini sən silkələ (ya öz tərəfinə sarı çək) sənin üçün təzə xurma tökülər. Ye-iç və gözün işıqlansın (yəni şad ol və sevin). Əgər adamlardan kimsəni görsən de ki, mən Allaha nəzir etmişəm və bu gün heç kimsə ilə söhbət etməyəcəyəm." («Məryəm» surəsi, ayə25-28).

Bir neçə müfəssirlərin dediyinə görə, bu ürəkoxşayan səda Məryəmin oğlu İsadan eşidildi. Körpə uşaq dil açdı və bu sözləri anasına dedi. Məryəmin qəlbi təskinlik tapdı və qəm-qüssəsi aradan getdi. Çünki, o, yemək və içməyə olan ehtiyacını ödədi. Camaatla necə üzbəüz olduğunu da öyrəndi. Məryəm xurma ağacını tutub silkələdi. Ağac yaşıllaşdı və təzə xurma onun üçün yerə töküldü. İsa (ə) ayağını yerə vurdu və şəffaf sulu bulaq yarandı.

Məryəm öz əziz uşağını qucağına götürdü və qövmünün yanına qayıtdı. Məryəm fikirləşdiyi kimi onlar töhmət vuraraq dedilər:

-"Ey Məryəm təəccüblü bir şey gətirmisən?" («Məryəm» surəsi, ayə 29). Sonra danlaq sözlərlə dedilər: -"Ey Harunun bacısı! Atan pis kişi deyildi. Həmçinin anan zinakar olmayıb. Belə bir nəsil-nəcabətin ola-ola bu uşağı haradan gətirmisən? Ərsiz necə bu uşağa hamilə oldun?"

Məryəm əvvəlcə Allah taalanın verdiyi göstərişə əsasən belə bir hadisə və suala özünü hazırlamışdır. O, uşağa tərəf işarə etdi. Onları İsanın beləkdən dilə gəlib söhbət etməsilə hidayət etdi. Həmçinin uşağın söhbəti ilə özünün pak və iffətli olduğunu hamıya açıqladı.

Camaat təəccüblə dedilər:

-"Beşikdə olan uşaqla necə söhbət edək? Bu beşik körpəsi bizim sualımıza necə cavab verib, sənin iffətli olduğunu deyəcək?" Nagahan körpənin dil açıb belə söylədiyini gördülər: -"(Al-lah-dan bir mö'cüzə olaraq körpə dilə gəlib) dedi: "Mən, həqiqətən, Allahın quluyam. O, mənə kitab (İncil) veri, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi töviyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar (və nəvazişkar) eti, (heç kəsə qarşı) zülmkar, asi (dikbaş) eləmədi! Doğulduğum gün də, öləçəyim gün də, diriləcəyim (qəbirdən diri olaraq qaldırılacağım) gün (qiyamət günü) də (Allahdan) mənə salam olsun!" («Məryəm» surəsi, ayə32-35).

## İSANIN (Ə) UŞAQLIQ DÖVRÜ VƏ PEYĞƏMBƏRLİYİ

Həzrət İsanın (ə) həyatı barəsində tarix kitablarında çoxlu ixtilaflar vardır. İslam tarixçilərinin sözləri dəyişdirilmiş İncillərin mətni ilə və onları bir-birindən ayırmaq da çətin işdir. Təəssüflər olsun ki, Əhli-beytdən (ə) də bizə məzmunca fərqli rəvayətlər çatmışdır. Əlbətdə bu rəvayətlərin sayı da azdır.

Ümümiyyətlə, götürsək tarixçilər yazırlar: İsa (ə) otuz yaşında öz peyğəmbərliyini aşkar etdi. Bu söz İncillərin bəziləri ilə uyğun gəlir. Bəzi tarixçilər də deyirlər: -"Otuz yaşında ona vəhy nazil oldu və peyğəmbərlik dövrü başlandı." Lakin Əhli-beytin (ə) buyurduqları bəzi rəvayətlərdə o həzrətin yeddi, ya səkkiz yaşında peyğəmbərliyə çatdığı qeyd olunur. Kuleyni yazır ki, İmam Baqir (ə) belə buyurur: -"İsa yeddi yaşa çatanda Allah taala ona vəhy etdi və o öz risalət və nübuvvətini aşkar etdi. İmamın (ə) bu bəyanı ilə o həzrətin risalət və nübuvvət arasındakı dövrün fərqli olduğunu irəli sürən alimlərin fikirlərinə heç bir yer qalmır. Çünki, imam bu hədislə onun risalətinin ilk uşaq çağlarından başlandığını aşkar edir. Hətta imamlar İsa (ə) və Yəhyanın (ə) uşaqlıqda nübuvvətə çatmasını dahi imamlarımızın, o cümlədən İmam Cavadın (ə) uşaqlıqda imamətə çatması üçün dəlil gətirirlər. Necə ki, Kuleyni "Usulu-kafi" kitabında Xeyranidən, o da atasından bu hədisi nəql edir: "Mən Xorasanda səkkizinci imamın (ə) yanında durmuşdum. Bir nəfər imama (ə) dedi: -"Ağacan! Əgər bir hadisə baş versə (yəni əgər siz dünyadan getsəniz), biz kimə müraciət edək?"

Həzrət buyurdu: -"Oğlum Cavada." İmam Cavadın (ə) yaşı az olduğu üçün təəccüb etdi. İmam Rza (ə) buyurdu: -"Allah taala İsa ibni Məryəmi risalət və peyğəmbərliyə seçdi. O, təzə şəriət gətirdi. Halbuki, İsanın yaşı Əbu Cəfərin yaşından da az idi."

Qur'ani-Kərim İsanın (ə) uşaqlıqda dediyi sözü hekayət edir:

"Mən, həqiqətən, Allahın quluyam. O, mənə kitab (İncil) verdi, özümü də peyğəmbər etdi." («Məryəm» surəsi, ayə 32).

Bu da İsanın (ə) uşaq çağı peyğəmbərlik məqamına çatmasına dəlildir. Həzrət İsanın (ə) otuz yaşında peyğəmbərliyə çatmasını iddia edən tarixçilərin Qur'an və hədisdən heç bir dəlili yoxdur. Əksinə, Qur'an və hədis onun peyğəmbərlik dövrünün uşaq vaxtında başlamasını təsdiqləyirlər. Bu haqda geniş məlumat almaq üçün təfsir kitablarına müraciə etmək olar. Həmçinin, tarixçilər yazırlar ki, həzrət İsa uşaq çağında da böyük istedada və dərrakəyə malik olubdur. O, fövqəladə istedada malik idi. Çox vaxt Bəni-İsrail alimlərinin məclislərində iştirak edirdi və onlarla məzhəbi məsələlər haqqında söhbət edirdi.

Əhli-beyt (ə) rəvayətlərində də İsanın (ə) uşaqlıq dövrü haqqında maraqlı hadisələrə rastlaşmaq olar. O cümlədən, Şeyx Səduq "Məniul-əxbar" kitabında bu rəvayəti nəql edir: Bir gün Məryəm (ə) o həzrəti bir boyaqçının (parça və paltar rəngləyən bir şəxsin) yanına aparıb ona tapşırdı ki, boyaqçılıq sənətini öyrənsin. Boyaqçı İsaya dedi: -"Bu qab qırmızı rəngi tökmək, bu sarı rəngi və o birisi qara rəngi tökmək üçündür." İsa paltarların hamısını bir qaba tökdü. Boyaqçı onun üstünə qışqırdı. Lakin İsa buyurdu: -"Bunun heç bir eybi yoxdur. Sənin istədiyin kimi bu paltarları rəngləyəcəyəm. Hər birini öz rəngi ilə rəngləyəcəyəm." Boyaqçı bu hadisəni görərək təəccüblə dedi: "Mənim ləyaqətim yoxdur sənin ustadın olam və sən mənim şagirdim olasan."

İbni Əsir öz tarixində bu hadisəni geniş izah edərək deyir ki, həmin boyaqçı ondan sonra İsanın Həvariyyun dəstəsinə daxil oldu. Həmçinin nəql olub ki, Məryəm Hirudis adında padşahın qorxusundan İsanı Misirə apardı. On iki il orada qaldılar. Hirudis dünyadan getdi. Sonra onlar Şama qayıtdılar. Misirdə olarkən belə bir hadisə baş verdi:

"Məryəm bir kəndlinin evinə getdi. Bu evə fəqirlər gəlirdilər. Bir gün həmin kəndlinin evindən mal oğurlandı. Kəndli fəqirləri ittihamlandırdı. Məryəm çox narahat oldu. İsa gördü ki, anası qəmlidir. Anasına dedi: -"İstəyirsən oğrunu sənə göstərim?" Məryəm dedi : -"Bəli." İsa dedi: -"O kor kişiylə şil kişi bir-birinə kömək edib malı oğurlayıblar. Kor kişi şili boynuna mindirib malı oğurlayıblar." İsa bu sözü deyəndən sonra həmin korun yanına gəlib dedilər:

-"Bu şil kişini öz boynuna mindir! O dedi:

-"Mən bu işi bacarmıram." İsa (ə) buyurdu:

-"Bəs dünən malı oğurlayanda onu necə boynuna mindirdin? Kor bu sözü eşidib öz işinə etiraf etdi və malı qaytardı."

Bəli, on iki il Misirdə qalandan sonra Hirudisin ölüm xəbərini eşidib Şama qayıtdılar. "Narisə" adında kənddə qaldılar. İsanın otuz yaşı oldu. Həzrətə əmr olundu ki, öz peyğəmbərliyini aşkar etsin.

İbni Əsir deyir: -"İsa həmin "Narisa" kəndində peyğəmbərliyini aşkar etdiyi üçün onun tərəfdarlarına "Nəsara" adı verilibdir."
Sələbi və başqaları da bu məsələni öz kitablarında qeyd ediblər.

## İSANIN MÖCÜZƏLƏRİ

Böyük ilahi peyğəmbərlərdən biri olan İsa ibni Məryəmin vücudu və yaranışı Allahın nişanə və möcüzəsi idi. Hətta onun xilqətinin ilk başlanğıcı möcüzə olubdur. Həmçinin həyatının sonu da möcüzə ilə bitdi. O, atası olmadan Məryəmdən dünyaya gəlibdir. Həyata ilk qədəm qoyduğu saatdan onun möcüzələri baş verirdi. Məsələn, onun beşikdə anasıyla danışması, anasına ürək-dirək verməsi, bələkdə başqalarıyla danışması, qeybi xəbərləri gələcəkdən verdiyi xəbərlər və başqa möcüzələrini misal çəkmək olar. Onların bəziləri "Maidə" surəsində belə zikr olubdur ki, Allah İsaya buyurdu: -"Ey İsa ibni Məryəm, Mənim sənə və anana verdiyim ismətləri, səni Ruhul-Qudusla qüdrətli etdiyimiz zaman beşikdə və böyüklükdə camaatla söhbət etdin, kitab, hikmət, Tövrat və İncili sənə öyrətdiyimiz zaman, Mənim iznimlə gildən quş düzəldib üzünə üfürəndən sonra iznimizlə quş olduğu zaman, anadangəlmə koru və dəri xəstəliyini bizim iznimizlə ölümü xaricə çıxardığı (diriltdiyi) zamanı xatırla!" («Maidə» surəsi, ayə 109).

"Ali-İmran" surəsində Allah taala onun haqqında buyurur:

-"Allah ona kitab, hikmət, Tövrat və İncil öyrədir, O, Bəni-İsrail üçün peyğəmbər olsun və onlara desin: -"Mən sizin Pərvərdigarın möcüzəsi ilə sizin yanınıza gəlmişəm. Sizin üçün gildən quş düzəldib Allahın izni ilə üzünə üfürüb quş etmişəm. Anadangəlmə koru və dəri xəstəliyinə şəfa verib Onun izni ilə ölünü dirildirəm. Sizin nə yeyib evinizdə nələr saxladığınızdan xəbər verirəm..." («Ali-İmran» surəsi, ayə43-44).

İsanın (ə) həyatının sonu da möcüzə ilə qurtardı. Allah taala onu düşmənlərin əlindən xilas edib möcüzə ilə asimana apardı.

İsanın (ə) ən mühüm möcüzələrindən onun ölüləri diriltməsi və əlacsız xəstələrə şəfa verməsi idi. Bunun səbəbini İmam Rza (ə) belə buyurubdur: -"Allah taala İsanı (ə) peyğəmbərlik məqamına çatdıran dövrdə xəstəliklər çox idi. İsa (ə) da bu münasibətlərlə elə möcüzələr gətirdi ki, dövrün təbibləri mat-məəttəl qaldılar. O, Allahın izni ilə ölüləri dirildir, anadan gəlmə kor və dəri xəstəliyinə düçar olmuş uşaqlara şəfa verirdi. Beləliklə öz höccətini camaata tamam etdi."

İbni Əsir "Kamilut-təvarix" kitabında yazır: "Tibb elmi İsanın (ə) dövründə ən məşhur və inkişaf etmiş elm idi. İsa (ə) möcüzə ilə anadangəlmə kor və dəri xəstəliyinə düçar olmuş uşaqlara şəfa verirdi. O, ölüləri dirildirdi. Beləliklə, bütün məşhur təbiblər İsanın (ə) qarşısında diz çökdülər."

Sonra İbni Əsir İsanın (ə) duası ilə dirilmiş bir neçə nəfərin, o cümlədən, Sam ibni Nuhun, Yəhyanın və başqalarının adını sadalayaraq qısa məlumat verir. Biz isə burada sizin üçün rəvayətlərlə onun geniş şərhini yazırıq.

Əyyaşi öz təfsirində bu hədisi nəql edir: "İsanın səhabələri ondan xahiş etdilər ki, bir ölünü diriltsin. İsa (ə) onları Sam ibni Nuhun qəbri üstə gətirdi. Sonra dedi: -"Ey Sam! Allahın izni ilə qalx ayağa!"

Bu vaxt qəbir açıldı. İsa (ə) ikinci dəfə həmin cümləni təkrar etdi. Sam hərəkət etdi. İsa (ə) üçüncü dəfə təkrar etdi. Sam yerindən durub qəbirdən çıxdı. İsa (ə) ona buyurdu: -"Dünyada qalıb yaşamaq istəyirsən, yoxsa yenidən öz yerinə qayıtmaq istəyirsən?" Sam dedi: -"Xeyr, ey Ruhullah! Qayıtmaq istəyirəm. Hələ də ölümün çətinlik və ağrısı məndən uzaqlaşmayıb və onun acılığını indi də hiss edirəm."

İbni Əsir bu hadisəni belə nəql edir: "Həzrət İsa (ə) bir gün həvarilərlə idi. Onlar üçün Nuhun gəmisinin tarixini danışırdı. Həvarilər dedilər: -"Nə yaxşı olardı ki, həmin hadisədə olan bir şəxsi bizə göstərəydin."

İsa (ə) bir təpənin yanına gəlib buyurdu: -"Bu Sam ibni Nuhun qəbridir." Sonra dua etdi. Sam ibni Nuh da dirildi. Ayağa qalxıb fəryad çəkdi: -"Qiyamət bərpa olubmu?" İsa (ə) buyurdu: -"Xeyr, amma mən dua etdim və Allah səni diriltdi."

Daha sonra həvarilər Nuhun dövründəki camaat və gəminin tarixini ondan soruşdular. Sam ibni Nuh onlar üçün həmin hadisəni izah edəndən sonra yenidən dünyadan getdi.

Kuleyni "Rövzətul-Kafi" kitabında yazır ki, İmam Sadiqdən (ə) soruşdular: -"İsa (ə) elə bir adamı diriltdi ki, yemək yesin, yaşasın və övlad sahibi olsun?"

İmam buyurdu: -"Bəli, İsanın bir dostu var idi. O, İsanın din qardaşı hesab olurdu. İsa (ə) onun yanına gəl-get edirdi. Bir müddət ondan uzaq yaşadı. Bir gün dostunun hal-əhvalını bilmək üçün onun evinə gəldi. Dostunun anası İsaya (ə) dedi:

-"Ey Allahın rəsulu! O, dünyadan getdi." İsa buyurdu:

-"Onu görmək istəyirsən?" Ana dedi:

-"Bəli." İsa (ə) buyurdu:

-"Sabah sənin yanına gəlib oğlunu Allahın izni ilə dirildəcəyəm." Bir gün keçəndən sonra İsa (ə) həmin qadının yanına gəlib buyurdu:

-"Məni oğlunun qəbri üstə apar." Qadın İsa ilə oğlunun qəbri üstə gəldi. İsa (ə) Allahın dərgahına dua etdi. Qəbir açıldı. Onun oğlu dirilib qəbirdən çıxdı. Ana-bala bir-birini görən kimi ağladılar. İsanın (ə) onlara ürəyi yandı. Üzünü dostuna tutub buyurdu: -"Ananla bu dunyada yaşamaq istəyirsənmi" O dedi: -"Ey Allahın peyğəmbəri! Bu dəfə yaşasam ruzim və müəyyən müddət yaşayacağam, yoxsa bunlarsız?" İsa (ə) buyurdu: -"Ruzi və təyin olunmuş müddətdə yaşayacaqsan. İyirmi il yaşayacaqsan. Evlənib övlad sahibi olacaqsan." Dostu dedi: -"Belə olsa istəyirəm." İsa (ə) onu anasına tapşırdı və getdi. O, yenidən iyirmi il yaşadı və arvad-uşaq sahibi oldu.

Təbərsinin "Məcməul-bəyan" və İbni Əsirin "Kamilut-təvarix" kitabında, İsanın (ə) diriltdiyi həmin kişinin adı "Azir" yazılıbdır.

Həmçinin, İsa (ə) Yəhya ibni Zəkəriyyanı da diriltdi. Biz bunu Yəhyanın əhvalatında yazdıq.

Bir gün Bəni-İsrail həzrət İsaya dedi:

-"Əzizi bizim üçün dirilt, yoxsa səni diri-diri yandırarıq! İsa (ə) Allah dərgahına dua edib Əzizi diriltdi. Bəni-İsrail Əzizə dedi:

-"Nə sözün vardır?" Əziz dedi: -"Şəhadət verirəm ki, İsa Allahın bəndəsi və peyğəmbəridir."

Həzrətin möcüzələrindən biri su üstə yol getməsidir. Kuleyni "Usulu-Kafi"də bu haqda yazır ki, Davud Rəqi imam Sadiqdən (ə) özü eşitdiyi bu hədisi nəql edir: "Allahdan qorxun! Bir-birinizə paxıllıq etməyin! Həqiqətən, İsa (ə) şəhərləri gəzir və təbliğ edirdi. Bir dəfə səfərlərindən birində o həzrətin dostlarından biri olan qısa boy kişi də onunla idi. Həmən kişi İsa (ə) ilə bir yerdə çox olardı. İsa ibni Məryəm (ə) dəryaya çatdı. Yəqinliklə "Bismillah" deyib suyun üstündə yola düşdü. Qısa boy kişi İsanın suyun üstündə yol getdiyinin görüb o da yəqinliklə "Bismillah" deyib suyun üstündə yola düşdü. O, tez-tez gedib İsaya çatdı. Lakin o qururlandı. Öz-özünə dedi: -"Bu, suyun üstündə gedən İsa Ruhullahdır. Mən də suyun üstündə onunla yol gedirəm. Bəs, onun məndən nəyi üstündür?"

İmam Sadiq (ə) buyurur: -"O, bu fikri edən kimi suya batdı. İsaya yalvarıb ondan kömək istədi. İsa (ə) onu sudan çıxardıb buyurdu: -"Ey qısa boy kişi, sən nə dedin?" Cavab verdi: -"Mən öz-özümə dedim ki, su üstündə gedən Ruhullahdırsa mən də bu işi bacarıram. Beləliklə, mən qururlandım." İsa (ə) buyurdu: -"Allahdan qorxun və bir-birinizə paxıllıq etməyin!"

## SÜFRƏNİN NAZİL OLMASI

Həzrət İsanın (ə) möcüzələrindən biri onun üçün Maidənin (süfrənin) nazil olmasıdır. Allah taala bunu Qur'ani-Kərimin beşinci surəsində bəyan etmişdir. Elə həmin münasibətə görə, surənin adı "Maidə" (süfrə) adlanıbdır. Allah taala buyurur:

Həvarilər dedilər: -"Ey İsa ibni Məryəm! Sənin Pərvərdigarın bizim üçün göydən süfrə göndərə bilərmi? İsa dedi:

-"Həqiqətən də imanınız varsa, Allahdan qorxun". Onlar dedilər:

-"Biz ondan yeməklə qəlb yəqinliyinə çatmaq, biz düzgün deyib-deməməyini bilmək istəyirik. İsa dedi:

-"Pərvərdigara bizim üçün göydən süfrə göndər ki, buradakılar və gələcəkdəkilərimiz üçün bayramlıq və Sənin tərəfindən bir əlamət olsun. Bizə ruzi ver, Sən ən yaxşı ruzi verənsən." Allah taala buyurdu:

-"Mən o süfrəni sizin üçün nazil edirəm. Lakin ondan sonra (ona) kafir olan hər kimə əzab verəcəyəm. Elə bir əzab ki, heç bir nəslə elə əzab verməmişəm." («Maidə» surəsi, ayə113-114).

Əlbəttə, bu ayədə və həvarilərin istəyi haqda çoxlu sual-cavab vardır. Müfəssirlər bu barədə geniş söhbət açıblar. Məsələn, bu sual qarşıya çıxır ki, həvarilər İsadan necə belə bir şey istədilər? "Sənin Allahın bizim üçün maidə nazil edə bilərmi?" cümləsini İsanın həvariləri deyə bilərmi? Onlar Allaha olan böyük imanları ilə belə bir sual edə bilərdilərmi? Allahın qüdrətinə onların şəkk-şübhəsi

var idimi? Yoxsa İsanın peyğəmbərliyinə şübhələri var idi? Halbuki, İsanın çoxlu möcüzələrini görmüşdülər. Ümumiyyətlə, həvarilərin İsadan möcüzə istəməsi mə`nasız idi. Çünki, peyğəmbərə imanı olmayan şəxs ondan möcüzə istəyə bilər. Çünki, belə bir şəxs möcüzə yolu ilə onun peyğəmbər olub-olmadığını bilmək istəyir.

Onların İsaya verdikləri sualın cavabı nə ola bilərdi? İstəyirdilər bilsinlər ki, İsa belə bir şeyi Allahdan istəyə bilərmi? Ya bu sualı verəndə hələ həvarilərin imanları və mərifətləri möhkəm deyildimi? Yoxsa bilmək istəyirdilər ki, İsa belə bir şeyi Allahdan xahiş etsə, onun duasını qəbul edəcəkmi? Yaxud belə bir sual qarşıya çıxır ki, Allah taala təhdid edərək buyurdu: -"Hər kəs ona kafir olsa, ona elə əzab verəcəyəm ki, heç kəsə elə əzab verməmişəm." Bunun səbəbi nə idi? Halbuki, İsa ümmətindən qabaqkı ümmətlər də öz peyğəmbərlərinə buna oxşar suallar verirdilər. Lakin, belə təhdid olunmurdular. Bunun səbəbi onların sual tərzində ədəbə riayət etməməsi idimi? Ya həvarilər heç bir ehtiyac olmadan yalnız nəfs üzündən belə möcüzə istədilər? Çünki həqiqət hər bir nöqteyi-nəzərdən onlar üçün aşkar olmuş və höccət onlara tamamlanmışdı. Artıq belə istək ilahi ayələri oyuna tutmaq və əylənməkdən başqa bir şey ola bilməz. Belə işlər ilahi insanlar üçün sox böyük günah sayıldığına görə ilahinin belə təhdidi ilə üzləşdilər.

Bu və buna oxşar sual-cavabları təfsir alimləri həmin ayənin izahında açıqlayıblar. Bu haqda məlumat toplamaq istəyənlər təfsir kitablarına müraciə edə bilərlər. Hər halda ayənin məzmunundan başa düşmək olur ki, həvarilər belə bir istəklə İsanın nübüvvət və məqamına, ilahi nişanələrə olan imanlarının dərəcəsini artırmaq istəyirdilər. Məqsədləri daha da öz yollarında sabit qədəm olmaqları idi. Bu sual, şəkk və inad üzündən deyildi. Ola bilsin ki, onlar sual tərzinə düzgün riayət etməyiblər. Təbərsi İbni Abbasdan nəql edir ki, ondan qabaq da İsaya belə istəklə müraciə etmişdilər. İsa (ə) Bəni-İsrailə buyurdu: -"Otuz gün oruc tutun. Sonra hər nə istəyirsiz Allahdan alınca istəyin." Onlar otuz gün oruc tutdular. Sonra İsaya dedilər: -"Ey İsa! əgər biz bir nəfər üçün iş görsəydik, o bizə yemək verərdi. Biz oruc tutub ac qalmışıq. İndi Allahdan istə ki, bizim üçün göydən süfrə nazil etsin."

Həzrət İsa (ə) gördü ki, onlar belə bir möcüzəni görmək üçün çox təkid edirlər. Ona görə də başqa bir ünvanla onların istəyini Allahın dərgahına təqdim edərək dedi:

-"...Pərvərdigara, bizim üçün göydən süfrə (maidə) göndər ki, buradakılar və gələcəkdəkilərimiz üçün bayramlıq olsun..." («Maidə» surəsi, ayə 115).

Bəzi müfəssirlərin nəzərinə görə maidə bazar günü nazil oldu. Elə buna görə də Nəsara (xristianlar) həmin günü bayram etdilər.

## MAİDƏ NƏ İDİ

Maidənin nə olduğu barədə çox söz deyilibdir. İmam Baqir (ə) bir hədisdə buyurur: -"Onda yeddi balıq və yeddi çörək var idi."

Bəzi təfsirçilərin nəzərincə süfrədə ət və çörək olubdur. Başqaları isə deyir ki, çörək və ətdən başqa hər şey var idi. Əta deyir ki, ət və balıqdan başqa süfrədə hər şey var idi. Ətiyyə Ufi isə deyir ki, süfrədə balıq var idi. Həmin balıqda bütün yeməklərin dadı toplanmışdı. Qutadə isə onun Cənnət meyvəsi olduğunu iddia edir.

Salman Farsidən rəvayət olunur ki, həvarilər İsadan maidənin nazil olmasını istədilər. Həzrət yun paltar geyinib ağlayaraq Allahın dərgahına dua etdi. İki buludun arasında qırmızı rəngli süfrə nazil oldu. Süfrə aşağı enərək onların qarşısında yerə sərildi. İsa (ə) ağlayıb dedi: -"Ey Əziz Allah! Məni öz dərgahına şükür edənlərdən et. Bu süfrəni bərəkətli et və axırını cəza ilə qurtarma!"

Yəhudilər də süfrəyə tamaşa edirdilər. Hələ süfrədə olan şeydən yaxşı iy hiss etməmişdilər. İsa (ə) ayağa qalxıb dəstəmaz aldı. Sonra dedi: "Bismillihi xəyrir-raziqin."

Onlar gördülər ki, balıq bişib və qızardılıbdır. Balıqdan yağ damır, baş hissəsində bir az duz və quyruğunda üzüm sirkəsi, ətrafında isə sarımsaqdan başqa hər cür göyərti düzülmüşdür. Həmçinin süfrədə çörək qoyulmuşdu. Onlardan birinin üstündə zeytun, o birisində bal, üçüncüsündə yağ, dördüncüsündə pendir və beşincisinin üstündə bişmiş ət var idi.

Şəmun maidəni görən kimi dedi: -"Ya Ruhullah! Bu dünya yeməklərindəndir, ya axirət yeməyidir? İsa (ə) buyurdu: -"Gördüyünüz bu yemək nə dünya, nə də axirət yeməyidir. Bu yeməyi Allah taala öz Qahir qüdrətiylə düzəldibdir. İstədiyiniz bu yeməyi yeyin, təki Allah öz ruzisini sizin üçün artırsın." Ondan sonra həvarilər İsaya dedilər: -"Ya Ruhullah! Əvvəl siz yeyin, sonra biz də yeyək." İsa buyurdu: -"Bu xörəyi istəyən birinci ondan yeməlidir."

Həvarilər yeməyə əl vurmayıb ondan yeməyə qorxdular. Bu vaxt İsa (ə) fəqirləri, mübtəlaları, xəstə və şil adamları dəvət edib dedi: -”Bu xörəkdən yeyin. Sizin üçün nuş və başqaları üçün bəladır.”

Min yüz nəfər fəqir, mübtəla, xəstə kişi və qadın o süfrədə yemək yedilər. Hamısı doydu. Sonra süfrə göyə qalxdı. Həmin süfrədə xörək yeyən hər bir şil və xəstə şəfa tapdı. Onda yemək yeyən hər bir fəqir varlandı. Həvarilər və süfrədə yemək yeməyən başqa insanlar peşman oldular.

Maidə sonralar da nazil olur və varlılar, fəqirlər, kiçik-böyüklər onun başına toplaşırdılar. Bunu görən İsa (ə) onlar üçün növbə qoydu.

Maidə bir gündə günortadan nazil olur və əsrə qədər qalırdı. Sonra göyə qalxırdı. Nəhayət İsaya vəhy oldu ki, maidə yalnız fəqirlər üçün nazil olur. Bu da varlılara ağır başa gəldi. Şəkk-şübhəyə bais oldu. Onlar başqalarını da şəkkə saldılar. Allah taala İsaya vəhy etdi: “Mən əvvəldə şərt kəsmişdim ki, hər kəs maidəni təkzib etsə əzaba düçar edəcəyəm. İndiyə qədər dünya əhlindən heç kəs belə bir əzaba düçar olmayıbdır.”

Ondan sonra onların arasında 313 nəfər kişi donuz sifətinə düşdülər. Üç gündən sonra da həlak oldular.

Əta ibni Əbi Rubahın Salman Farsidən nəql etdiyi hədisin xülasəsi bura qədərdir.

Burada qeyd etmək lazımdır ki, onların donuz surətinə düşüb əzab olunması ixtilaflı məsələdir. Bəzi tarixçilər deyirlər ki, Bəni-İsrail və həvarilərdən heç kəs maidəyə kafir olmadı. Lakin, qeyd olunduğu kimi Əhli-beytin rəvayətləri də bir dəstənin maidəyə kafir olmasına dəlalət edir. Kafir olandan sonra onlar donuz surətinə düşdülər.

Maidənin nazil olub-olmamasında da ixtilaf vardır. Həsən və Mücahid deyirlər ki, maidə nazil olmadı. Çünki, İsanın (ə) qövmü onun kəsdiyi şərti eşitdilər. İsa (ə) dedi ki, əgər hər kəs maidəyə kafir olsa, ən çətin əzablara düçar olacaq. Onlar qorxub öz xahişlərini geri götürdülər. İsaya dedilər: -”Bizim o maidəyə ehtiyacımız yoxdur.” Buna görə də maidə nazil olmadı.

Lakin, mərhum Təbərsi və başqa alimlərin dediyinə görə onların bu nəzəriyyəsi düzgün deyil. Çünki, Allah taala maidənin nazil olmasına vədə verdi.

“Biz maidəni sizə nazil edəcəyik.”

Allah taala da öz vədəsindən boyun qaçırmaz. Bundan əlavə peyğəmbərimizdən, imamlardan və onların səhabələrindən nəql olunmuş çoxlu rəvayətlər də maidənin nazil olduğunu təsdiqləyir.

## İSANIN (Ə) ƏNTAKİYYƏDƏKİ NÜMAYƏNDƏLƏRİ

Müfəssirlər “Yasin” surəsinin 13-cü ayədən 27-ci ayəyə qədər təfsirində İsanın Əntakiyyədəki nümayəndələrinin başlarına gələn hadisələri müxtəlif formada nəql ediblər. Biz həmin hadisəni Əli ibni İbrahimin təfsirindən İmam Baqirin (ə) dilindən nəql edirik. Hədisin ravisi Əbu Həmzə Sumalidir. O, deyir: -”Bu ayələrin təfsirini İmam Baqirdən (ə) sual etdim.” Həzrət buyurdu: -”Allah taala iki nəfəri Əntakiyyə camaatının hidayəti üçün göndərdi.” O iki nəfər təbliğə başladılar. Lakin, onların sözləri camaata acıq gəldi. Buna görə də camaat onlarla kobud rəftar etdilər və onları tutub bütxanada həbs etdilər. Allah taala o iki nəfərdən sonra üçüncü şəxsi təbliğ üçün oraya göndərdi.

Elə ki, şəhərə daxil oldu padşahın evini soruşdular. Onu padşahın evinə gətirdilər. Evin qapısı ağzında durub dedi: -”Mən səhralarda ibadətlə məşğul idim. İndi Allah taalaya ibadət etmək istəyirəm.” Bu sözləri padşaha çatdırdılar. Padşah hökm verdi ki, onu bütxanaya salsınlar. O, bir il iki dostu ilə bütxanada qaldı. Sonra dostlarına dedi: -”Nə üçün camaatla yola getmədiniz və onlarla ağır rəftar etdiniz?” Daha sonra padşahın yanına gəldi. Padşah onu görüb dedi: -”Eşitdim ki, sən mənim Allahıma (bütə) ibadət edirsən. İndi mənim qardaşımsan, hər nə hacətin var istə!” O, dedi: -”Mənim heç nəyə ehtiyacım yoxdur. Lakin bilmək istəyirəm ki, bütxanada gördüyüm iki nəfər kimdir və nə üçün həbs olunublar?” Padşah dedi: -”Bu iki nəfər məni din və ayinimdən ayırmaq istəyirlər. Onlar məni başqa bir Allaha ibadət etməyə dəvət edirdilər!”

O, dedi: -”Ey padşah! Bu çox maraqlı bir mübahisədir. İndi isə o iki nəfəri bura çağırtdır və biz onlarla mübahisə edək. Əgər haqq onlarla olsa biz tabe olarıq, əgər biz haqlı olsaq onlar bizim dinimizi qəbul edərlər.”

Padşah o iki nəfəri çağıtdırıb məclis qurdu. Həmin kişi onlara üzünü tutub dedi: -”Siz nə üçün gəlmisiniz?” Dedilər: -”Camaatı tək olan Allaha ibadət etməyə çağırırıq. Bir olan Allah yerin-göyün yaradanıdır. Uşağı ana bətnində necə istəsə yaradır. Ağacları bitirir, meyvələri yetişdirir və yağış yağdırır.”

Soruşdu: -"Camaatı pərəstişinə dəvət etdiyiniz Allah anadan gəlmə kora şəfa verə bilərmi?" Dedilər: -"Bəli."

Üzünü padşaha tutub dedi: -"Anadan gəlmə bir kor gətizdir." Koru gətirəndən sonra onlara dedi: -"Allahınızdan bu kora şəfa istəyin." Onlar namaz qılıb dua etdilər. Kor şəfa tapdı.

O, dedi: -"Ey padşah! Başqa bir kor gətir." Başqa bir koru gətirdilər, o özü səcdəyə getdi. Başını səcdədən qaldıranda kor da şəfa tapdı. Bu vaxt padşaha dedi: -"Dəlil qabağında dəlil." Yəni bu iki nəfər öz iddialarını sübut etmək üçün dəlil gətirdilər. Mən də dəlil gətirdim. İndi isə hökm ver ki, şil adam gətirsinlər. Şil gətirəndən sonra yenidən o iki nəfər namaz qılıb dua etdilər. Şil şəfa tapdı və yol getməyə başladı. Üçüncü kişi dedi: -"Başqa bir şili gətirin." Elə ki, şili gətirdilər, o, səcdəyə getdi. Səcdədən başını qaldıranda, o da sağaldı və yola düşdü. Sonra padşaha dedi: -"Bunlar iki dəlil gətirdilər, biz də iki dəlil gətirdik. İndi isə bir iş qalıbdır. Əgər bacarsalar mən onların dinini qəbul edəcəyəm. Eşitmişəm padşahın bir oğlu var idi. O da dünyadan gedibdir. Əgər bunların Allahı sənin oğlunu dirildərsə, mən onların dinini qəbul edəcəyəm." Padşah dedi: -"Mən də onların dinini qəbul edəcəyəm."

Sonra onlar dedilər: -"Yalnız bu iş qalıbdır. Padşahın oğlu dünyadan gedib. Siz Allahınızdan istəyin onu diriltsin." O iki nəfər səcdəyə getdilər. Səcdədə çox qaldılar. Sonra səcdədən baş qaldırıb dedilər: -"İndi isə bir nəfəri oğlunun qəbri üstünə göndər. Sən görəcəksən ki, o dirilib və qəbirdən çıxıbdır."

Camaat padşahın oğlunun qəbri üstə getdilər. Gördülər ki, o dirilib və başının torpağını təmizləyir.

Onu atasının yanına gətirdilər. Padşah soruşdu: -"Ey oğul! Sənin halın necə idi?" Oğlu dedi: -"Mən ölmüşdüm. Birdən iki nəfəri gördüm ki, mənim Allahımın dərgahında səcdə edirlər. Onlar Allahdan istəyirdilər ki, məni diriltsin. Allah da məni diriltdi." Padşah soruşdu: -"Oğul can! Əgər iki nəfəri görsən tanıyarsanmı?" Dedi: -"Bəli." Camaatı səhraya apardılar. Hamı tək-tək padşahın oğlunun yanından keçirdi. Padşah dedi: -"Bunlara bax, gör o iki nəfər hansıdır?" Camaatın çoxu onun yanından keçib getdi. Sonra o iki nəfərdən biri gəlib keçəndə dedi: -"Bu o iki nəfərdən biridir." Yenə də bir dəstə camaat onun qarşısından keçdi. Nəhayət ikinci nəfər də gəldi. Padşahın oğlu dedi: -"Bu da ikinci nəfərdir."

Üçüncü şəxs dedi: -"Mən bu iki nəfərə iman gətirdim. Onların dedikləri haqdır." Padşah dedi: -"Mən də o iki nəfərə iman gətirdim." Camaat da dedi: -"Biz də onların Allahına iman gətirdik."

## HƏVARİYYUN

Qabaqkı söhbətlərimizdə İsanın həvariləri haqqında danışdıq. İndi də bu barədə geniş mə'lumat vermək istəyirəm. Birinci məsələ onların nə üçün "Həvari" adlanmasıdır. Bu haqda bir neçə nəzəriyyə vardır. Bə'zi alimlər deyir ki, Həvarilər kəlməsinin kökü "Hur da" -xalis ağ deməkdir. Onların işi paltar təmizləmək olduğu üçün bu adı alıblar. Həvarilər ona görə, bu işi seçdilər ki, hər vaxt acırdılar İsaya deyirdilər. İsa (ə) da onlar üçün yerdən, dağdan və daşdan çörək çıxardıb verirdi. Hər vaxt susayırdılar, İsa (ə) əlini yerə vururdu və su çıxırdı. Onlar da su içirdilər. Nəhayət, bir gün İsaya dedilər: -"Ey Ruhullah! Kim bizdən üstün ola bilər? Hər vaxt yemək istəyirik doyuzdurursan, hər vaxt susayırıq sirab edirsən. Sənə iman və mə'rifətimiz də vardır." İsa buyurdu: -"Öz zəhmətiylə çörək qazanıb yeyən şəxs sizdən üstündür. "

Onlar bu sözü eşidəndən sonra camaatın paltarlarını yuyur və pul qazanıb yemək yeyirdilər.

Başqa alimlər isə bu kəlmənin onların qəlbinin pak və saf olmasına kinayə olduğunu bildiriblər.

Şeyx Səduq rəvayət edir ki, Həsən ibni Fəzzal deyir: -"İmam Rzadan (ə) soruşdum ki, nə üçün Həvarilərə "Həvariyyun"(həvarilər) deyirlər? Həzrət buyurdu: -"Camaatın yanında səbəbi bu idi ki, onlar paltarları yuyurdular. Bizim yanımızda isə səbəbi budur ki, onlar özləri pak insanlar idilər. Camaatı da moizə və öyüd-nəsihətlə günaha mürtəkib olmaqdan qoruyurdular.

"Həvari" kəlməsinin lüğətdə başqa bir mə`nası da vardır. O, da yavər və köməkçi deməkdir. Onlar İsanın də`vətini qəbul etdikləri və ona kömək etdiklərinə görə, həvarilər adlanıblar.

### Həvarilərin sayı və onların adları

Onlar on iki nəfər olublar. İslam rəvayətlərində onların adı yoxdur. Yalnız imam Rza (ə) Casəliqlə mübahisədə buyurub: -"Həvariyyun on iki nəfər idi. Onların ən savadlısı Luqa olubdur. "

Məta İncilində (onuncu fəsildə) onların adlarını belə zikr ediblər: 1) (Petrus adıyla şöhrət tapmış) Şəm'un; 2) (Şəm'unun qardaşı) Anderyas; 3) Yə'qub ibni Zubdi; 4)( Qardaşı) Yuhənna; 5) Filipis; 6)

Bertulma; 7) Tuma; 8) Məta; 9) Yə'qub ibni Həlfi; 10) Qibi; 11) Şəm'un Qanuy; 12) Yəhuday İsxeryuti. O, İsanı yəhudilərə satmışdı.

Bernaba İncilində İsanın həvarilərinin adı belə gəlmişdir; 1. Anderus. 2. (Qardaşı) Petrus (balıqçı) 3. Bernaba. 4. Məta (vergi yığan). 5. Yuhənna. 6. Yəqub (hər ikisi Zebdinin oğlanları idilər). 7. Tedavus. 8. Yəhuda. 9. Bertolomas. 10. Filips. 11. Yəqub. 12. Yəhuda İsxeryuti (xain).

Gördüyünüz kimi Luqanın adı heç birində gəlməyib. Bu islami rəvayətlərin İncillərlə olan ixtilaflı yerlərindən biridir. Əgər qeyd etdiyimiz hədisin sənədi mötəbər olsa əlbəttə ki, biz onu təhrifə uğramış İncillərdən üstün tutacayıq. Öncə qeyd etdiyimiz kimi tarixdə və islami rəvayətlərdə həvarilər haqqında kifayət qədər məlumat yoxdur. Təkcə rəvayətlərdə İsanın həvarilərlə müəyyən söhbətləri, onlarla etdiyi səfərlər və onlara etdiyi öyüd-nəsihətlər bizlərə irs çatmışdır. Bunlardan ad çəkdiyimiz üçün və daha faydalı olduğundan onların bir neçəsini burada gətiririk.

1. Kuleyni mərfu sənədli hədisində İsanın həvarilərinə belə buyurduğunu yazır: -"Mənim sizdən bir istəyim var. Mən onu mənim üçün yerinə yetirmənizi istəyirəm". Dedilər: -" İstəyini yerinə yetmiş bil". İsa ayağa qalxıb onların ayaqlarını yudu. Həvarilər dedilər: -"Ey Allahın ruhu, biz buna layiq idimik?". İsa dedi: -"Allahın ən layiqli bəndəsi alim insanın xidmətində duran şəxsdir. Mən sizə qarşı təvazö etdim, siz də mənim kimi camaata təvazö edəsiniz." Sonra belə buyurdu: -"Hikmət, təvazö və nəfsi sındırmaqla ələ gələr, nəinki, təkəbbürlə. Necə ki taxıl düz yerdə yetişər, nəinki dağ-daşda."

2. Şeyx Səduq "Xisal" kitabında imam Sadiqdən(ə) belə nəql edir ki, bir gün həvarilər İsaya belə dedilər: -"Ey xeyir və yaxşılıq öyrədən, bizə öyrət görək ən çətin şey dünyada nədir?" İsa buyurdu: -"Ən çətin şey Allahın qəzəbidir. "Soruşdular: -"Necə Allahın qəzəbindən sapınmaq olar?" Buyurdu: -"Qəzəblənməməklə." Dedilər: -"Qəzəbin əvvəli və sonu nədəndir?" Həzrət buyurdu: -" Təkəbbür, nəfsin tuğyan etməsi və camaatı kiçik saymaqdandır".

3. "Əmali" kitabında imam Rzanın(ə) belə buyurduğu nəql olunur: -"İsa ibni Məryəm öz həvarilərinə buyurdu ki, ey Bəni-İsrail, dininiz sağlam olan zaman əldən çıxmış dünya üçün təəssüflənməyin. Çünki dünyapərəst insanlar dünyaları sağlam və yaxşı olan halda əldən çıxmış dinləri üçün təəssüflənmirlər. "

4. Şeyx Səduq "Xisal"da imam Zeynulabidindən(ə) belə nəql edir ki, bir gün İsa həvarilərə belə buyurdu: -"Dünya körpüdən başqa bir şey deyil. Sadəcə olaraq ondan keçin, onu düzəltməyə başınızı qatmayın. "

5. "Əmali"də Tusi imam Sadiqdən(ə) belə nəql edir ki, bir gün İsa öz həvarilərinə belə buyurdu: -"Dünya üçün işləyirsiz, halbuki dünyada işsiz və zəhmətsizdə sizə ruzi yetişir. Axirət üçün çalışmırsınız, halbuki orada zəhmətsiz heç kitə heç nə vermirlər. Ey pis alimlər(nalayiq işlərlə məşğul olan alimlər), əlmuzdu alırsız, amma heç bir iş görmürsünüz. Az qalıb iş tapşıran öz işini istəsin! Hələ sizin qaranlıq qəbrə getməyiniz tezdir. Necə elm əhlisiniz ki, dünya axirətə doğru gedir, siz isə dünyaya üz döndərmisiniz. Ziyanı olan şeyə xeyri olan şeydən daha maraqlısınız. "

6. Vərram ibni Əbu Faris "Tənbihul-xəvatir"də nəql edir ki, İsa öz həvarilərinə belə buyurdu: -"Ey həvarilər, mən dünyanı sizin üçün üzü üstə yerə yıxdım. Elə olmasın ki, məndən sonra onu yenidən qaldırasınız. Dünyada Allahı itaətsizlik etmək onun alçaqlığındadır. Onun alçaqlığındandır ki, axirət onu tərk etməməklə ələ gəlmir. Dünyanı özünüzə keçid sayın, onu abad etməyə çalışmayın. Bilin ki, hər bir səhvin əsası dünyaya məhəbbətdəndir. Çox şəhvətlər və istəklər insana uzunmüddət qəm-qüssə gətirmişdir. "

7. Başqa yerdə buyurur: -"Mən sizin üçün dünyanı əldən saldım, siz isə ona mindiniz. Sizinlə onun uğrunda mülk sahibləri və qadınlardan başqa heç kim mübarizəyə qalxmaz. Mülk sahibləri və şahlar, dünyanı onlara versəniz sizinlə işləri olmayacaq, amma qadınlarla oruc tutub namaz qılmaqla onlardan (onların şərrindən) uzaq ola bilərsiniz. "

8. Həmişə həvarilərə buyurardı: -"Ey həvarilər, günahkarların və itaətsizlərin vasitəsi ilə ilahi dərgahın məhəbbətini qazanın. Onlardan uzaqlaşmaqla Allahın dərgahına yaxınlaşın. İlahi sevinci və razılığı onların qəzəbində axtarın!".

9. Kuleyni "Kafi"də imam Sadiqdən(ə) nəql edir ki, həvarilər İsanın ətrafına toplaşıb dedilər: -"Ey bütün yaxşılıqları öyrədən, bizi hidayət elə!". İsa onlara dedi: -"Musa sizə yalandan Allaha and içməməyi öyrətdi, mən isə sizə nə yalandan, nə də doğurdan and içməməyi əmr edirəm. " Həvarilər dedilər: -"Ey Ruhullah, yenə də söylə. " İsa dedi: -"Musa sizə zina etməməyi əmr etmişdi. Mən isə sizə zinanın fikrini belə ağlınıza gətirməməyi əmr edirəm. Çünki zina fikrinə düşən şəxs, elə bil, gözəl, yenicə rənglənmiş sarayda əyləşib tonqal qalayır. Ev yanmasa belə onun tüstüsü rəngləri xarab edir. "

10. Peyğəmbərdən rəvayət olunur ki, həvarilər İsaya dedilər: -"Ey Ruhullah, biz kimlərlə oturubduraq?". Buyurdu: -"Allahı sizin yadınıza salan, elminizi artıran və əməli, rəftarı ilə sizi axirətə rəğbətləndirən şəxslərlə. "

11. Əllamə Məclisi "Biharul-ənvar"da yazır: -"Bəzi kitablarda görmüşəm ki, İsa həvariləri ilə səfərə çıxardı. Bir gün yolları bir şəhərdən düşdü. Şəhərə yaxınlaşdıqda yolun kənarında xəzinə gördülər. Həvarilər İsaya dedilər: -"Ey Ruhullah, icazə ver biz burada qalıb bu xəzinəni qoruyaq. İsa buyurdu: -"Onda siz burada qalın, mən isə şəhərdə axtardığım xəzinənin ardınca gedim". Onlar orada qaldılar. İsa isə şəhərə daxil oldu.

Bir az yol getdikdən sonra uçulmuş bir evə yetişdi. Bir qoca qadını orada gördü. Ona buyurdu: -"Mən bu gecə sənin qonağınam. Səninlə başqa adam da burada qalırmı?" Qoca dedi: -"Bəli, oğlum mənimlə qalır. Atası dünyasını dəyişib. Gündüzlər səhraya gedir və çırpı yığıb şəhərə satmağa gətirir. Əldə etdiyi pulu mənə verir. Mən də yaşayışımızı dolandırıram. Qarı ayağa qalxıb həzrət İsa üçün bir otaq hazırladı. Bu anda oğlu yoldan yetişdi. Anası oğlunu görcək ona dedi: -"Allah taala bu gecə bizə çox layiqli və saleh qonaq göndərmişdir. Üzündə zahidlik nuru, alnında paklıq işığı parıldayır. Gəlişini əziz tut və ondan faydalan!" Oğul İsanın yanına getdi və ona qulluq etməyə başladı.

Gecədən bir az keçmiş İsa bu cavanın yaşayış vəziyyətini öyrəndi və onda ağıl-zəka, istedad, inkişaf və kamal kimi xüsusiyyətləri duydu. Amma onun ürəyinin böyük bir şeyə bağlı olduğunu başa düşdü və bu onun fikrini bərk özünə məşğul eləmişdi. Ona buyurdu: -"Görürəm ürəyin nəyəsə bərk məşğuldu. Qəlbində qəm-kədər yaşadırsan. O, həmişə səninlədir. Səni buraxmaq istəmir. Yaxşı olar ki, mənimlə dərdi-dil edəsən. Bəlkə məndə sənin dərdinə dəva var." İsa həddən artıq israr edərək cavanı ürəyini açmağa məcbur etdi. Cavan izhar edərək dedi: -"Bəli, mənim qəlbimdə böyük qəm-kədər özünə yer almışdır. Allahdan başqa onu heç kim həll edə bilməz". İsa buyurdu: -"Dərdini mənə aç! Bəlkə Allah taala onun yolunu mənə öyrətdi". Cavan dedi: -"Bir gün mən şəhərə odun gətirirdim. Yolum padşahın qızının sarayından düşdü. Saraya baxanda gözüm padşahın qızına sataşdı və onun eşqi qəlbimdə canlandı. Elə ki, bu eşq günbəgün artmaqdadır. Bu dərdə dəvanı ölümdən başqa şeydə görmürəm". İsa buyurdu: -"Əgər onunla vüsal arzusundasansa mən sənə onunla evlənmək yolunu deyim". Cavan anasının yanına gəlib qonağın sözlərini anasına dedi. Anası ona dedi: -"Oğul, mən güman etmirəm ki, bu kişi yalandan, əlindən gəlmədiyi şeyə və'də versin. Onunla razılaş. Necə desə, elə də elə.

Səhər açılcaq İsa cavana dedi: -"İndi isə ayağa qalx və padşahın sarayına get. Dərbarilər və padşahın vəzirləri padşahın yanına gedəndə onlara de ki, mən padşahın qızından elçiliyə gəlmişəm, padşaha çatdırın. Gözlə görək sənə nə deyəcəklər. Sonra şahla sənin aranda olan söhbəti mənə danışarsan. Cavan saraya gəlib dərbarilərə elçiliyə gəldiyini bildirəndə güldülər və çox təəccüb etdilər. Onu məsxərəyə tutmaq üçün elçiliyi padşaha çatdırdılar. Padşah cavanı yanına çağırtdırdı. Onun sözlərinə qulaq asdı. Zarafata ona dedi: -"Ey cavan, əgər filan qədər ləl-cəvahirat gətirməsən qızı sənə verməyəcəyəm". Padşahın qızı üçün istədiyi cəvahirat zamanənin heç bir padşahının xəzinəsində yox idi. Padşah ancaq zarafata bu sözləri dilinə gətirdi. Cavan ayağa qalxıb dedi: -"Mən indi gedib cavabını sənə gətirərəm". Cavan həzrət İsanın yanına gəlib macaranı ona danışdı. İsa onun əlindən tutub daşla dolu xarabalığa apardı. Allahın dərgahına dua etdi və daş-dağalı padşahın istədiyi (bəlkə də ondan üstün) ləl-cəvahirata çevirdi. Sonra cavana dedi: -"Hər nə qədər istəsən götür və padşahın yanına apar". Cavan onların bir hissəsini götürüb padşahın yanına getdi. Padşah və orada olanlar cəvahiratı görcək mat qaldılar və dedilər: -"Bu azdır və bizə kifayət eləməz". Cavan yenidən İsanın yanına gəlib padşahın dediklərini ona dedi. İsa buyurdu: -"O xarabalığa get nə qədər istəsən götür". Cavan ikinci dəfə daha çox cəvahiratla padşahın yanına gedəndə onlar lap çox heyrətləndilər. Padşah dedi: -"Bu cavanın işi çox qəribədir. Bu işdə nə isə sirr var. Cavanı xəlvətə çəkib həqiqəti ondan öyrənmək istədi. Cavan da hadisəni əvvəldən axıra qədər ona danışdı. Padşah başa düşdü ki, onun qonağı həzrət İsadır. Ona dedi: -"Dur ayağa get qonağını çağır gəlib qızımla sənin kəbinini kəssin". İsa gəldi və padşahın qızı ilə onun kəbini kəsdi. Padşah çox qiymətli paltarlar cavan üçün göndərdi. Cavan paltarları geyinib toya hazırlaşdı. Elə o gecə də padşahın qızı ilə evləndi. Səhər açılanda padşah oğlanı yanına çağırıb onunla söhbət etdi. Onun çox ağıllı, zəkalı və bacaraqlı olduğunu başa düşdü. Padşahın qızından savayı övladı olmadığından oğlanı özünə vəliəhd seçdi və bütün saray əhlini ondan itaət etməyə əmr etdi.

İkinci gecə olduqda şah birdən dünyasını dəyişdi. Məmləkətin böyükləri toplaşıb cavanı taxta oturtdular və ona təzim edərək dövlətin xəzinəsini ona tapırdılar.

Üçüncü gün yetişdikdə İsa onunla sağollaşmaq üçün onun yanına gəldi. Cavan dedi: -"Ey hikmət sahibi, müdrik insan, sənin mənim boynunda çox haqqın var. Mən nə qədər ömür sürsəm, onun birinin belə öhdəsindən gələ bilmərəm. Amma ötən gecə bir şey ağlıma gəlib. Əgər onun cavabını mənə deməsən əlimdə olan bu qədər imkandan faydalana bilməyəciyəm və mənim üçün heç bir ləzzəti olmayacaq". İsa buyurdu: -"O nədir?" Cavan dedi: -"Mən başa düşə bilmirəm, səndə ki, belə qüdrət var, üç günün ərzində məni o acınacaqlı vəziyyətdən çıxardıb şahın taxt-tacına oturtdun, niyə bəs özün üçün bir gün ağlamırsan?".

İsa cavab vermədi. Cavan israr etdikdən sonra ona buyurdu: -"Həqiqətən, hər kəs alim Allahın varlığına agah ola, axirət mənzilini, savab dünyasını dərk edə və bu dünyanın fani, alçaq, qiymətsiz, kor olduğunu başa düşsə, o insan heç vaxt fani, əsası büdrəyən şeyə bel bağlamaz. Bizim üçün Allaha yaxınlıq, Onun mərifəti və məhəbbətində ruhani ləzzətlər mövcuddur ki, bu maddi ləzzətlər onların qaşısında heç nəyə bərabərdirlər".

Cavan düyanın eyblərindən, onun zərərlərindən, axirətin nemətlərindən və onun mərtəbələrindən azca da olsa agah olduqda dedi: -"Bəs niyə yaxşısını özün üçün götürmüsən, məni isə bu böyük bəlaya giriftar etmisən?"

İsa buyurdu: -"Mən sənin ağıl və dərrakəni yoxlamaq üçün belə etdim. Görək, sənin üçün bu qədər şeyi qoyub getmək mümkündür?! Onda sənin üçün savabı daha çox olar və sən başqalarına ülgü olarsan".

Cavan bu sözləri eşitcək padşahlıqdan əl çəkdi və o köhnə paltarlarını geyinib İsanın ardınca düşdü. İsa həvarilərin yanına qayıtdıqda onlara buyurdu: -"Mənim şəhərdə axtardığım xəzinə bu idi. Mən onu tapdım".

Həvarilərin aqibəti

Həvarilər İsanın(ə) qeybə çəkildiyindən sonra camaatın içərisinə daxil oldular və onları həzrətin şəriətinə dəvət etdilər. Müxtəlif yerlərə dəvətnamələr yolladılar və çoxlu sayda insanı İsanın dininə gətirdilər. Axırda deyilənə görə hər biri imperatorların, soltanların, Bəni-İsrail əzazillərinin əli ilə qətlə yetirildi. Bəzisini qaynar yağa atdılar, bəzisini daşqalaq etdilər və bəzilərini isə hündür saraylardan yerə ataraq ayaq və əllərini sındırdılar. Beləliklə, hər birini bir növlə şəhadətə yetirdilər. Onların arasında sağ qalan təkcə İsaya xəyanət edən və dəyərsiz pulun müqabilində onu yəhudilərə satan Yəhuda idi.

## Həzrət İsanın(ə) ömrünün sonu

Həzrət İsa böyük əzm və iradə ilə dinin təbliğatına məşğul idi. Hər bir şəhərə, kəndə, qəsəbəyə daxil olurdu və oradakı xəstələri, yerə düşüb qalmışları, korları və karları şəfa verir, öz peyğəmbərlik möcüzələrini xalqa çatdırırdı. Bu səbəbdən də yəhudilər tərəfindən saysız müxalifətlərə baxmayaraq, günbəgün o həzrətin tərəfdarları artırdı. Xalq daha çox onun dininə üz gətirirdilər.

İlahi dinin geniş surətdə artması yəhudi başçılarını onun haqqında daha ciddi qərara gəlməyə vadar etdi. Onu öldürmək planını çəkdilər. Onu həyata keçirmək üçün Rum imperatorunu da işə qatdılar və məsələni ona belə cilvələndirdilər ki, guya o, onun apardığı təbliğat imperatorluğun təməlinin silkələnməsinə səbəb ola bilər.

İsa da onların bu işindən agah idi. Bu səbəbdən də gizlənməyə üstünlük verdi və daha çox uzaq yerlərdə, insanlar getməyən yerlərdə vaxtını keçirirdi. Amma yəhudilər onu tutmağa çox cəhd göstərirdilər, hətta onu tapana pul hədiyyəsi də təyin eləmişdilər.

Burada idi ki, tamah öz işini gördü və Yəhuda həvarilərdən olmasına baxmayaraq, öz dinini dünyaya satdı. O, İsanın gizləndiyi yeri məmurlara göstərdi. Beləliklə, həvarilərdən olan Yəhuda öz müəlliminin yerini çox az miqdar pula (deyilənə görə 30 dirhəm qara pul idi) həzrətin düşmənlərinə satdı. Məmurlar həzrəti tutmaq üçün ora yola düşdülər.

Bizim nəzəriyyəyə görə, yəhudilər həzrət İsanı (ə) tuta bilmədilər. Onlar o yerə yetişdikdə Allah taala onu səmaya apardı. Başqa bir ona oxşar şəxsi tutub aparıb çarmıxa çəkdilər. O şəxs nə qədər qışqırdı ki, mən İsa deyiləm, ona qulaq asan olmadı və çarmıxa çəkdilər.

Qur'anın "Nisa" surəsində bu haqda açıq-aşkar danışılır:

" . . . Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqlı ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur, Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişlər. Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır. Şübhəsiz, Allah qüvvət, hikmət sahibdir!" ("Nisa" surəsi, ayə 157-158)

Amma o şəxsin kimliyi barədə ixtilaf mövcuddur. Çoxları yazırlar ki, o elə Yəhuda İsxeryuti olub, məmurlar İsanın gizləndiyi məkana çatanda Allah taala onu İsanın simasına saldı və onu tutub çarmıxa çəkdilər. Bəziləri isə yazırlar ki, o içəri İsanı dalınca, onu axtarmağa girən məmur idi. O, içəri girdi, amma İsanı tapmayıb bayıra çıxanda İsanın şəklinə düşür. Kənarda gözləyən məmurlar da onu tutub aparıb çarmıxa çəkdilər.

Əli ibni İbrahimin İmam Baqirdən(ə) nəql etdiyi hədisdə belə deyilir: -"Həzrət İsa bu hadisədən bir az əvvəl həvariləri başına toplayıb onlara belə buyurdu: -"Allah taaladan mənə vəhy gəldi ki, mən bu saat onun dərgahına getməliyəm. İndi sizlərdən hansınız canınızı mənim yolumda verməyə hazırdı və o şəxs cənnətdə mənimlə olacaq?". Onların arasından bir cavanı ayağa qalxıb öz hazırlığını bildirdi. Allah taala onu İsaya oxşatdı və yəhudilər onu tutub İsanın əvəzinə çarmıxa çəkdilər".

Bəzi tarixlərdə belə gəlmişdir ki, Yəhuda İsanın yerini az miqdarda pula satdığı üçün bərk peşman olur. Aldığı pulları yəhudilərə qaytarır və özünü asır.

Bir çox (həm sünni, həm də şiə təriqi ilə gələn) rəvayətlərdə həzrət İsanın axirəzzəmanda yerə nazil olması deyilir. O, Dəccalı öldürəcək və İmam Zamanı (ə.c) özündən irəli tutacaq, onun arxasında namaz qılacaq. O həzrətin tərəfdarları İslamı qəbul edəcək və İslam bütün dinlərə qalib gələcək.

## İncillər

Pis olmazdı burada xristianların əlində olan incillər haqqında söhbət açaq. Qısa da olsa oxuculara aydın olsun.

İncil sözünün lüğətdə mə'nası bəşarət, müjdə və yaxşı xəbərdir. Amma xristianlar İsadan sonra onun həvariləri tərəfindən yazılmış kitablara ad qoymuşlar və İsanın kəlamları, möcüzələri, təlim-tərbiyəsi və bəzi hökmlərə şamildir. Necə ki, Qur'an ayəsindən də istifadə olunur. Allah taala İsaya İncil adında kitab yolladı. Bu kitabın adı Qur'anda on yerdə zikr olunmuşdur. Maidə surəsində olan ayəyə əsasən Allahın İsaya verdiyi İncildə hidayət, nur, Tövratı təsdiq edən və möminlərə öyüd-nəsihət olmuşdur. Ə'raf surəsinin ayəsinə əsasən isə orada İslam peyğəmbərinin adı da gəlmişdir. "Səff" surəsində isə İsa xristianlara özündən sonra gələn peyğəmbəri müjdə verir.

Tarixyazarların nəzərində qəti və əldə olan sübutlara əsasən belə məlum olur ki, həqiqi Allah tərəfindən nazil olan İncil bizə gəlib çatmamışdır. Həzrət İsadan sonra İncillər onun şagirdləri tərəfindən yazılmışdır və onların arasında böyük ixtilaflar var. Onlarda olan hökmlərdəki ixtilafın özü onların əsli olmamalarına sübutdur. Təkcə həzrət İsanın bəzi sözlərini onların arasından tapmaq olar. Bu kitabda məqsədimiz peyğəmbərlərin əhvalatını yazmaq olduğundan başqa məsələlərə çox varmağımıza bir əsas görmürük.

Beləliklə, İsadan sonra onun davamçıları ara sında çoxlu İncillər və risalələr yazıldı. Miladi tarixi ilə 4-cü əsrdə artıq 160-dan çox İncil yazılmışdı. Rum imperatoru birinci Konstantin xristianlığı qəbul etdikdən sonra keşişlərdən ibarət icma düzəlməsi əmrini verdi. Bütün İncil və risalələri toplayıb onların arasından hər hansı özlərinin siyasəti və hədəfləri ilə uyğun gələnini düzgün, mötəbər, yerdə qalanını isə qeyri-qanuni sayırdılar.

Kilsənin mötəbər bildiyi dörd İncil var idi-Məta, Markus, Luqa və İohan və Polesdən 14 risalə də ona əlavə edib adını "Yeni əhd" qoyaraq nəşr etdilər.

Kilsənin qanuni saymadığı İncillərdən biri də Bernaba İncili idi. Halbuki o, İsanın böyük həvarilərindən və nicat mübəşşirlərindən idi. Onun dinin yayılmasında böyük zəhmətləri olmuşdur. Bu səbəbdən də həvarilər ona "Nitqin oğlu" ləqəbini vermişdilər.

Bernabanın şan-şöhrəti bütün xristianlara aydın idi. Elə ki, müasir xristianlığın banisi sayılan Polesi onun şagirdi bilirlər. Poles özü də bir neçə yerdə bunu etiraf edib. Xristianlar öz kitablarında onu hörmətlə xatırlayırlar. "Elçilərin əməlləri" adlı kitabda onu yupiterə oxşadırlar.

Bununla belə məlum olmadı ki, niyə görə kilsə onun İncilini qəbul etmədi. Sonralar onun bir nüsxəsi ələ gəldi və ərəb-fars dillərinə tərcümə oldu və kilsənin onunla müxalif olmasının səbəbi məlum oldu. Çünki orada kilsə və papanın məqamına sərf etməyən mövzulara toxunulmuşdu və onların yaydığı xürafatları tənqid edirdi.

Bernabanın İncilində cənnət satıcılarını, günah alıcılarını, kulli miqdarda kilsə üçün gəlir mənbəyi olan keşişlərin günah bağışlamalarını inkar edirdi. Başlıca məsələ İsanın çarmıxa çəkilmə məsələsini xürafat sayaraq inkar edirdi.

Bernaba çarmıxa çəkiləni həmən Yəhuda İsxeryuti bilir. Təsrih edir ki, İsa öldürülməmişdir və çarmıxa çəkilməmişdir. Bəlkə elə onu satan Yəhuda idi ki, ona oxşar oldu və çarmıxa çəkildi.

## Bernaba İsanı Allahın bəndəsi bilir, nəinki Allah, ya onun oğlu.

Bernaba İncilində islam peyğəmbərinin gəlişinə neçə yerdə dəfələrlə təsrih olunmuşdur və camaata onun gəlişi müjdə verilmişdir. Belə olan halda kilsə onu inkar etməyi və onu oxumağı qadağan etməyi özünə borc bildi.

Başqa səbəbi isə xristanların arasında tanınmış şəxsiyətə çevrilən Polesin həqiqi əqidəsini camaata tanıtdırmaq idi. O, İsanın həvariləri sırasında olmasına baxmayaraq axırda əqidəsi dəyişir və yunan bütpərəst əqidələrindən mənşələnir. Ona görə də Bernaba onunla müxalifətçilik edir və onun İsanın dininin əksinə olduğunu açıqlayır. Polesin sözünün qabağında söz deyən yox idi. Buna görə də onun düşməninin İncilini qəbul edə bilməzdilər. Amma ondan başqa Poleslə müxalif olmayan İncillərin hamını qəbul etdilər.

Beləliklə, siyasi məqsədlər, maddi mənfəətlər, sevgi və nifrət öz işini gördü. İman, əqidə cəhətdən İsaya hamıdan yaxın olan və ilahi dinin təbliği üçün daha çox ürəyi yanan, ciddilik göstərən şəxsin İncilini inkar edib, sahibi məlum olmayan şəxslərin İncillərini qanuna uyğun saydılar. Hətta xristianlıqdan üz döndərmiş və dinin düşmənlərinə çevrilmiş şəxslərin İncillərini mötəbər və qanuna uyğun saydılar.

Müasir yazıçılardan biri Bernaba İncilinin ələ gəlmə səbəbini belə yazır:

-Bernaba İncili əsrlər boyu gözlərdən gizlin qaldı. Kilsənin qorxusundan heç kim onu aşkar edib yaymağa cürət etmirdi. Nəhayət, XVI əsrdə Framo Yenovik adlı bir keşiş onun italyan dilində olan nüsxəsini beşinci Skotis papasının kitabxanasından tapdı, onu öz köynəyinin qolunda gizlətdi. Münasib vaxtlarda onu diqqətlə oxuyurdu, onun nəticəsində islam dininə hidayət oldu. XVII əsrin əvvəllərində də onun ispan dilində olan bir nüsxəsi ələ gəldi. Daha sonralar professor Monkvis onu ingilis dilinə tərcümə etdi. 1908-ci ildə professor Xəlil Səadət isə onu ərəb dilinə tərcümə etdi.

Həzrət İsa məsihdən(ə) öyüd və nəsihətlər

Mötəbər və qeyri mötəbər incillərdə gələn nəsihətlərdən başqa bizim islami rəvayətlərdə və hədislərdə də belə nəsihətlərdən gəlmişdir. Demək olar ki, bütün islami hədislər, incillərdə olan nəsihətlərin hamısı olmasa da bir çox hissəsini təsdiq edir. Bu rəvayətləri onların düz olmasına təyid gətirmək olar.

Biz burada onların bir neçəsini seçib nəql edirik;

1. Şeyx Mufid "Əmali"də imam Baqirdən (ə) rəvayət edir ki, həzrət İsa (ə) özünün bir sıra işləri üçün üç nəfər öz səhabəsi ilə şəhərdən kənara çıxır. Yolda yolun kənarına düşmüş üç külçə qızıl ilə üzləşirlər. İsa (ə) öz səhabələrinə buyurdu:

-"Bunlar camaatı öldürəndirlər!" Bu sözü deyib oradan ötüb keçir. Səhabələrdən biri deyir:

-"Mənim ehtiyacım var". İsa (ə) ilə sağollaşıb geri qayıtdı. İkincisi və üçüncüsü o sözü deyib geri qayıtdılar. Hər üçü qızıl külçələrinin yanına gəldilər. Bir az orada yubandıqda onlardan ikisi üçüncü dosta üzlərini tutub dedilər:

- "Dur ayağa, get bizim üçün yeməyə bir şey al gətir!" O, yeməyin dalınca getdi. Yeməyi aldıqdan sonra bütün qızılları əlinə keçirmək üçün onun içərisinə bir az zəhər tökdü. Çünki insan dünya malına hərisdir, onda özünə şərik qoşmaq istəmir. O, iki nəfər də dostları yemək almağa gedəndə onu gələn kimi öldürmək qərarına gəldilər. Çünki onlar da insan idilər, özlərinə şərik istəmirdilər. O, yetişcək onu tutub öldürdülər, özləri də yeməyi yecək öldülər.

Bu zaman İsa (ə) qayıtdı və onları qızıl külçələrinin yanında ölmüş gördü. Onları Allahın izni ilə diriltdi və onlara dedi:

-"Mən sizə demədim ki, bunlar camaatı öl-dü-rən-dir-lər!".

2. "Əmali" kitabında həzrət imam Baqirdən (ə) nəql olunur ki, həzrət İsa (ə) Bəni-İsrailin arasında idi, ayağa qalxıb buyurdu:

-"Ey Bəni-İsrail, hikməti nadan insanlara öyrətməyin, siz onlara zülm edirsiniz. Əksinə, onu əhlindən (əhlinə öyrətməyi) əsingəməyin ki, onlara zülm etmiş olacaqsınız. Zalimə zülmündə kömək etməyin, bununla siz öz qiymətinizi aşağı salarsınız!"

3. "Əmali" kitabında həzrət İsa ibni Məryəm (ə) səhabələrindən birinə buyurur:

-"Camaatın səninlə etməyini istəmədiyin şeyləri başqaları ilə eləmə! Əgər biri sənin sağ üzünə sillə vursa, sol üzünü də ona çevir."

4. Yenə həmən kitabda imam Sadiqdən(ə) nəql olunur ki, İsa (ə) öz səhabələrinə buyurdu:

-"Ey Adəm övladları, dünyadan Allaha tərəf tələsin, ürəklərinizi ondan qırın, çünki sizlər ona layiq deyilsiniz, o, da sizə layiq deyil. Siz onda əbədi qalmayacaqsınız, o, da sizin üçün əbədi deyil. Bu dünya, aldadıcı və macəralarla dolu dünyadır. Orada aldanmış şəxs onunla qürurlanan və ona bel bağlayan şəxsdir. Onu sevənlər həlak olanlardır. Allah dərgahına tövbə edin, Ondan qorxun. Atanın

oğulun yerinə, övladın atanın yerinə cəzalanmayan günündən qorxun. Atalarınız harada olacaqlar, analarınız harada olacaqlar? Qardaşlarınız bacılarınız harada olacaqlar? Övladlarınız harada olacaqlar? Onları çağırdılar, onlar da qəbul etdilər, dünya ilə vidalaşıb ölülərlə qonşu oldular. Həlak olanların sırasına qatıldılar, dünyadan köçdülər, dostlarından ayrıldılar. Öncə yolladıqları şeylərə ehtiyac duydular. Burada yığdıqları şeylərdən ehtiyacsız oldular. İndi kiminlə öyüd-nəsihət oluna bilərsiniz, nə qədər bir işdən çəkinə bilərsiniz? Heç çəkinməyin, başınızı oralarda qatın və daima xəbərsiz qalın! Sizin əhvalatınız heyvanlara bənzəyir ki, daima öz qarınlarının və şəhvətələrinin fikrindədirlər. Niyə sizi yaradan varlıqdan həya etmirsiniz? Halbuki O, Onun əmrindən çıxanları cəhənnəm atəşi ilə qorxutmuşdur. Bilirəm ki, sizin ona dözümünüz olmayacaq. Bunun əksinə olaraq itaətcilləri cənnətə aparacaq və Ali Firdovsda yerləşdirəcək. İndi isə siz cənnətə düşmək üçün bir-birinizlə rəqabətə girin, cənnət əhlindən olun, özünüzə yazığınız gəlsin. Gücsüzlər və ehtiyaclılarla mehriban olun. İlahi dərgaha xalis qəlblə tövbə edin. Xeyrxah bəndələrdən olun, nə zalım padşahlardan, nə də tüğyanetmiş fir‘onlardan olun. Onların Allahın ölümünə məhkum olmalarına baxmyaraq, yenə də ona qarşı üsyan edirlər. Cəbbarların cəbbarı, Yer və göylərin yaradanı, keçmişlərin və gələcəklərin məbudu, böyük cəza gününün Allahı, bərk cəza və dərdli əzab sahibidir. Zalımlıq ondan uzaqdır. Heç əlindən çıxmaz və heç nə ondan gizlin deyil. Heç nə ondan gizlənə bilməz. Onun elmi hər şeyi hesablamış və istər cənnət olsun, istər cəhənnəm öz yerində yerləşdirmişdir. Ey zəif Adəm övladı, səni gecənin zülmətində, günün gündüzündə axtaran varlıqdan hara qaçırsan. O, səni bütün anlarda istəyir. Hər kəs yaxşı nəsihət verdisə yaxşı təbliğ etdi və hər kəs yaxşı nəsihət qəbul etdisə səadətə yetişdi.”

5. Yenə o kitabda imam Sadiqdən (ə) belə buyurduğu nəqlə olunur:

-”İsa məsih buyurmuşdur ki, hər kimin qəm-qüssəsi çox olsa, bədəni xəstə olar. Kimin əxlaqı pis olsa, özünə əzab vermişdir. Hər kəs çox danışsa, səhvi çox olar. Hər kəs yalan danışsa, qiymət və gözəlliyini itirər. Hər kəs camaatla tərs düşsə (onlarla dava-dalaş salsa), öz mürüvvət və kişiliyini itirər.”

6. “Xisal” kitabında Əmirəl-möminin Əlidən(ə) İsanın(ə) belə buyurduğu nəql olunur:

-”Dinar və pul dinin dərdi və xəstəliyidir. Alim və savadlı insan isə dinin həkimidir. Hər zaman gördünüz ki, həkim dərdi özünə sarı çəkir (pul yığmaq ilə məşğuldur), onu ittiham edin və bilin ki, o, başqalarını nəsihət edə bilməz.”

7. “Məanil-əxbar” kitabında imam Sadiqdən (ə) rəvayət olunur ki, İsa (ə) xütbələrinin birində Bəni-İsrailə belə buyurdu:

- “ Mən sizin aranızda gecəmi gündüz elədim, bir halda ki, duz-çörəyim aclıq, yeməyim səhranın otu, işığım Ay, döşəməm Yer, balışım isə daş olub. Evim yoxdur ki, uçulsun, mal-dövlətim yoxdur ki, aradan getsin, övladım yoxdur ki, ölsün, arvadım da yoxdur ki, qəm-qüssə içində olsun. Səhər açılır heç nəyim yoxdur, gecə olur yenə heç nəyim yoxdur. Bununla belə Adəm övladlarının içində ən ehtiyacsız bəndəyəm.”

8. Şeyx Mufid “İxtisas” kitabında imam Sadiqdən (ə) İsanın (ə) belə buyururduğunu nəql edir:

-”Mən xəstələri müalicə elədim, Allahın izni ilə onlara şəfa verdim. Anadangəlmə koru, bərəs xəstəliyinə (bədəndə olan ağ-ağ ləkələr) tutulmuşu Allahın izni ilə sağaltdım. Ölüləri Allahın izni ilə diriltdim, amma axmaq insanı sağaldıb müalicə edə bilmədim.” Həzrətdən soruşdular:

- “Ey Allahın ruhu, axmaq insan kimdir ki?” Buyurdu:

- “Özünü sevən və özbaşına hərəkət edən insan. Kim ki, bütün yaxşılıqları və üstünlüyü başqalarında deyil, hamını özündə bilir, hər yerdə haqqı özündə bilir. Budur müalicəsi və dərmanı olmayan axmaq insan!”

9. Vərram ibni Faris “Tənbihul-xəvatir” kitabında rəvayət edir ki, İsaya (ə) belə vəhy olundu:

-”Ey İsa, insanlarla helm və səbirlə onların ayaqları altındakı yer kimi ol! Mehriban və rəhimli olmaqda Günəş və Ay kimi ol ki, nurun həm pislərə, həm də yaxşılara saçsın!”

10. Yenə həzrətin belə buyurduğu nəql olunub:

- “Kim dənizin dalğaları üstündə ev tikə bilər!? Sizin bu dünyanız da belədir, onu özünüzə əbədi məskən etməyin!”

11. Həzrətdən soruşdular: -”Kim səni ədəbləndirdi?” Buyurdu: -”Məni heç kim ədəbləndirmədi, nadanların pisliyini gördüm və onlardan uzaqlaşdım.”

12. Şeyx Kuleyni “Rəvzətul-kafi” kitabında imam Sadiqdən(ə) İsanın(ə) belə buyurduğunu rəvayət edir:

-”Dünya və axirətin hər ikisinin işi çətindir. Dünyanın işi ona görə çətindir ki, sən əlini bir şeyə uzatmaq istədikdə səndən qabaq fasiq və pis bir insan ona əlini uzadır və səni qabaqlayır. Amma axirətin işi ona görə çətindir ki, orada sənə kömək edə biləcək bir köməkçi tapa bilmirsən.”